

*“Azərbaycanın Sovetlər İttifaqı tərkibində olduğu 70 illik dövr onun inkişaf dövrüdür. Bu dövrə qara yaxmaq olmaz, bu dövrü qiymətləndirmək lazımdır... Müstəqil Azərbaycanın təməli, özəyi, əsası həmin dövrdə yaranmış iqtisadiyyat, o dövrdə yaranmış elmi potensial, o dövrdə yaranmış mədəni potensialdır. Bunu biz qiymətləndirməliyik”.*

**HEYDƏR ƏLİYEV**
*Ümimmilli lider*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**RÖFƏT QULİYEV**

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ GÖMRÜK İŞİ

## AZƏRBAYCAN SSR SOVET GÖMRÜK SİSTEMİ ŞƏRAİTİNDƏ (1920-1991)

**BAKI – 2015**

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına*
*Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

**Elmi redaktor**: **İsmayıl Hacıyev**
Azərbaycan Respublikası Milli Məclisinin üzvü, AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor

**Rəyçilər:** **Adil Məmmədov**
tarix üzrə elmlər doktoru, professor

**Cəbi Bəhramov**
tarix üzrə fəlsəfə doktoru

**Quliyev R.Ə. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi (Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991)).**
Bakı, Turxan NPB, 2015. - 308 səh.

Kitabda Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra xarici ticarət əlaqələri üzərində dövlət inhisarının bərqərar olması və gömrük işi sahəsində sovet rejiminin özünəməxsus qaydalarının tətbiq edilməsi prosesi sistemli şəkildə araşdırılır. 1920-1991-ci illər ərzində Azərbaycan SSR ərazisindəki gömrükxanaların fəaliyyəti, sovet gömrük sistemində rolu və əhəmiyyəti təhlil olunur. Tədqiq olunan problemlə bu və ya digər şəkildə əlaqəli olan bir sıra əhəmiyyətli tarixi sənədlər elmi dövriyyəyə ilk dəfə daxil edilmişdir.

Kitab milli iqtisadiyyatın və gömrük tarixinin tədqiqi və tədrisi ilə məşğul olan elmi işçilər, müəllimlər, həmçinin "İqtisadiyyat" və "Gömrük işi" ixtisası üzrə təhsil alan tələbələr və milli gömrük tariximizi öyrənən oxucular üçün faydalı ola bilər.

ISBN 978-9952-8212-9-1

© Röfət Quliyev, 2015

## Mündəricat


**GİRİŞ** .......................................................................................... 7

**I FƏSİL. Azərbaycan SSR-də sovet gömrük sisteminin qurulması** ..........................10

1.1. Sovet gömrük quruculuğu sahəsində ilk tədbirlər ..........................10

1.2. Azərbaycan SSR XKS-nin gömrük siyasətində müstəqillik meylləri ..........................42

1.3. Sovet gömrük rejimi Azərbaycanın iqtisadi-ticarət maraqlarına qarşı ..........................51

1.4. Bakı gömrükxanası 20-ci illərin sonu - 30-cu illərdə..........................85

**II FƏSİL. SSRİ-nin xarici ticarət və gömrük münasibətlərində Azərbaycanın rolu (1922-1960-cı illər)** ..........................99

2.1. Bakıda keçirilən xarici ticarət yarmarkaları gömrük sənədlərində ..........................99

2.2. Azərbaycan sovet-İran və digər ölkələrlə ticarət-gömrük münasibətlərində. Xarici ticarət əlaqələri 1930-cu illərdə..........................110

2.3. Gömrükxanalar II dünya müharibəsi illərində..........................128

2.4. Müharibədən sonrakı illərdə gömrük əməliyyatlarının zəifləməsi..........................140

**III FƏSİL. Azərbaycan SSR-in xarici iqtisadi-ticarət əlaqələri gömrük işi müstəvisində (1969-1985-ci illər)**..........................148

3.1. Respublikanın xarici iqtisadi-ticarət əlaqələrində irəliləyişlər..........................148

3.2. Gömrük əməliyyatlarının həcminin artması. Bakı gömrükxanası ..........................174

**IV FƏSİL. Sovet dövlətinin gömrük siyasətində "yumşalma" meylləri və Azərbaycanın iqtisadi-ticarət əlaqələri (1985-1991-cı illər)** ........ 191

4.1. SSRİ-nin süqutuna qədər olan dövrdə Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələri ........ 191

4.2. Sovet gömrük sistemində islahatlar və Respublika Gömrük İdarəsinin yaradılması ........ 204

**NƏTİCƏ.** ........ 219

**İstifadə edilmiş mənbələr və ədəbiyyat** ........ 223

**Azərbaycan SSR-də gömrük işi tarixinin xronologiyası** ........ 232

**Gömrük işi və xarici iqtisadi əlaqələrə aid sənədlər** ........ 240

# GİRİŞ

1920-ci il aprelin 28-də baş vermiş bolşevik çevrilişi nəticəsində cəmi 23 ay yaşayan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Cümhuriyyəti süqut etdi. Milli dövlət idarəçiliyinin bir çox sahələrdə olduğu kimi gömrük işi sahəsində də nəzərdə tutulan tədbirlərin axıradək başa çatdırılmasına imkan verilmədi və bu vaxta qədər görülən işlər tarixin bir küncünə atıldı. Məlum olduğu kimi, elmi ədəbiyyatda Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci il aprelin 27-də süqutundan sonra yaradılmış Azərbaycan Sovet Sosialist Respublikası XX yüzillikdə dövlətçilik tariximizə İkinci Respublika dövrü kimi daxil olmuşdur (bax: C.Quliyev. İkinci Respublikanın yaranma tarixindən (rus dilində): Bakı, 1997).

Sovet dövrü tarixşünaslığının təhlili təsdiq edir ki, Azərbaycan SSR-in iqtisadiyyatı həmin müddət ərzində milli iqtisadiyyat kimi deyil, Sovetlər İttifaqının vahid təsərrüfat kompleksinin tərkib hissəsi kimi idarə edilirdi. Əlbəttə, mərkəzin iqtisadi siyasəti Azərbaycan da daxil olmaqla hər hansı bir milli respublikanın müstəqil iqtisadiyyata malik olmasına qarşı, o cümlədən xarici iqtisadi-ticarət əlaqələri qurmaq imkanlarından məhrum edilməsinə yönəldilirdi. Əslində Azərbaycanın digər müttəfiq respublikalar arasında iqtisadi əlaqələri elə qurulmuşdu ki, milli sərvətlərimiz digər respublikaların, başlıca olaraq Azərbaycanın tarixi torpaqlarında süni surətdə yaradılmış Ermənistan SSR-in ehtiyaclarının ödənilməsinə xidmət etsin.

Azərbaycan da daxil olmaqla ayrı-ayrı milli respublikaların Sovetlər İttifaqının xarici iqtisadi-ticarət əlaqələrində iştirak etməsinə qismən də olsa icazə verilməsi, gəlirlərin bölüşdürülməsinin forma və metodları yuxarıdan təyin edilmiş "reseptlər" əsasında həyata keçirilirdi.

Sovet gömrük xidmətinin Azərbaycan SSR-in sosial-iqtisadi inkişaf tarixində rolunun təhlil edilməsinə əhəmiyyət verilməmiş, bu mövzu ümumiyyətlə diqqətdən kənarda qalmışdır. Həm sovet dövründə, həm də SSRİ-nin süqutundan sonra, aparılan ən yeni tədqiqatlarda belə sovet dövrü gömrük tariximiz, demək olar ki, araşdırılmamışdır. Bir sıra elmi-tədqiqat əsərlərində problemə müxtəlif aspektlərdən, eyni zamanda səthi toxunulmuşdur.

Şübhəsiz ki, sovet dövründə Azərbaycanın müstəqil gömrük siyasəti aparmasından söhbət gedə bilməzdi. Çünki respublikanın xarici ticarət və

gömrük nəzarəti ittifaq orqanlarının fəaliyyət sahəsinə aid olduğuna görə, bu işin icrası və idarə edilməsi birbaşa Moskvadan həyata keçirilirdi. Bununla bərabər, 1920-1921-ci illərdə, yəni qısa bir müddət ərzində sovet Azərbaycanı rəhbərlərinin xarici ticarət və gömrük işi sahəsində müstəqil siyasət yürütməyə çalışması inkar edilməz fakt olaraq qalır və bu məsələni bir çox fakt və sənədlərə əsaslanaraq təhlil etməyə çalışmışıq.

1922-ci il avqustun 1-dən Zaqafqaziya Fövqəladə Komissarlığı Azərbaycan, Ermənistan və Gürcüstan arasındakı gömrük və sərhəd-keçid məntəqələrinin 24 saat ərzində ləğv edilməsinə qərar verdi. Cənubi Qafqazda sovet gömrük idarəçiliyi mərkəzləşdirildi və Tiflisdə Zaqafqaziya Gömrük İdarəsi yaradıldı. Azərbaycan SSR-in xarici ölkələrlə ticarət əlaqələri və gömrük işinin inkişafında ənənəvi Bakı yarmarkalarının mühüm əhəmiyyəti oldu. Beynəlxalq yarmarkanın məhz Bakıda təşkil edilməsi onun təkcə onun qərb və şərq ölkələrini birləşdirən ticarət yollarının üzərində yerləşməsi, xüsusilə mənfəətli dəniz yoluna malik olması deyil, həm də sovet Rusiyasının mənafeyi ilə bağlı idi. Bakı yarmarkası həmin dövrdə SSRİ-nin İran, Türkiyə, Əfqanıstan, Monqolustan və Qərbi Çinlə xarici iqtisadi əlaqələrinin yaradılmasında ilkin mərhələ rolunu oynayırdı.

SSRİ-nin xarici ticarət üzərində dövlət inhisarının qorunub saxlanılmasına yönəldilmiş siyasəti Azərbaycan ərazisindəki gömrük orqanlarının fəaliyyətini də ümumittifaq maraqlarına tabe etdirdi. Sovet gömrük xidməti əsasən məhdudiyyətlər və qadağanedici prinsiplər əsasında qurulur və dünya təcrübəsindən faydalanmaq imkanından kənarlaşdırılırdı. Bir qədər təkmilləşdirilmiş sovet Gömrük Məcəlləsində (1928-ci il) göstərilirdi ki, gömrük müəssisələri xarici ticarətin inhisarı sahəsində dövlət qərarlarının yerinə yetirilməsi üzərində faktiki nəzarət edir, gömrük rüsumları toplayır, bütün digər gömrük əməliyyatlarını həyata keçirir.

Azərbaycan KP(b) MK və Azərbaycan SSR XKS-nin "İrandan daxil olan ixrac düyüsünün Bakıda yerləşdirilməsi haqqında" 1936-cı il 4 noyabr tarixli qərarı xarici ticarət fəaliyyətini genişləndirməyə imkan yaratdı. Bu məqsədlə, Bakı ticarət limanı və gömrükxana ərazisində yenidənqurma işlərinin aparılması yeni anbarların tikilməsi həyata keçirildi. Mülkiyyət növünə görə dövlətə və fiziki şəxslərə məxsus çəltik emal edən dəyirmanlar işə salındı. Gömrük ərazisində emal rejimi altında gömrük əməliyyatlarının rəsmiləşdirilməsinə başlanıldı. Gömrük gəlirləri tamamilə sovet dövlətinin xəzinəsinə axıb gedirdi. Digər hüquq-mühafizə orqanlarında olduğu kimi gömrük xidmətində də rəhbər vəzifələrə qeyri-azərbaycanlılar təyin edilirdi. Bununla yanaşı, kitabda vurğulanır ki, xarici ticarət əməliyyatlarının həyata keçirilməsində ittifaq əhəmiyyətli Bakı və Culfa gömrükxanaları mühüm rol oynamışdır. Xüsusilə, ikinci dünya müharibəsi illərində adları qeyd edilən gömrükxanalarda ölkə üçün həyati əhəmiyyət daşıyan yüklər, o cümlədən müttəfiq dövlətlərdən daxil olan hərbi və humanitar yardımların əsas hissəsi

yoxlanılır və rəsmiləşdirilirdi. Müharibənin ilk illərində sərhəddən buraxılan yük və nəqliyyat vasitələri haqqında məlumatlar Bakı və Culfa gömrükxanalarının sovet gömrük sistemində mühüm əhəmiyyət daşıdığını sübut edir. Hərbi rejimə keçidlə əlaqədar olaraq gömrük tənzimlənməsi qaydalarında da ciddi dəyişikliklər aparıldı. SSRİ XXTK-nın 18 mart 1941-ci il tarixli 47 saylı əmri ilə ölkə ərazisindən malların tranziti haqqında yeni qaydalar müəyyən edildi. Malların tranziti yalnız SSRİ ilə ticarət müqaviləsi olan və malların göndərildiyi ölkələrlə tranziti haqqında sazişi olan dövlətlərin yüklərinə şamil edilirdi.

Azərbaycanın 70 il ərzində tərkibində olduğu SSRİ-də xarici iqtisadi əlaqələrin bütün formalarının həyata keçirilməsi istisnasız olaraq dövlətin səlahiyyətində idi. İqtisadi stimulları inkar edən qeyri-bazar təsərrüfatı və sərt inhisarçılıq şəraitində milli respublikaların real tələbatları nəzərə alınmırdı. Əslində Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin maddi əsasını təşkil edən amillər: əlverişli coğrafi mövqe, zəngin strateji xammal ehtiyatları, əmək ehtiyatları, iqtisadi və elmi-texniki potensialı fəal xarici iqtisadi əlaqələr qurmağa imkan versə də, respublikamız bu imkanlardan real surətdə istifadə edə bilmirdi.

Azərbaycan Sovet Sosialist Respublikası uzun illər SSRİ adlanan imperiyanın tərkibində qalsa da, xalqımız dövlətçilik ənənələrinin, iqtisadi və mədəni inkişaf yolunu davam etdirdi. Ulu öndər Heydər Əliyevin ötən yüzilliyin 70-80-ci illərində Respublikaya rəhbərlik etdiyi dövrdə bu inkişaf geniş miqyas almış, ictimai, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə etmişdi. Heydər Əliyev sovet imperiyasının ən güclü dövründə belə, doğma Azərbaycanın xarici ticarət potensialının genişlənməsinə milli maraqlarımız çərçivəsində yanaşırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində böyük imkanların mövcud olduğunu yaxşı bilir, buna görə də ixrac potensialından daha səmərəli və məqsədyönlü şəkildə istifadəsinə çalışırdı. 1970-1980-ci illərdə Azərbaycan SSR-in xarici ölkələrlə iqtisadi əlaqələri yeni forma və məzmun kəsb etməyə başladı. Beynəlxalq əməkdaşlığın əsas formalarını xarici ticarət, xarici ölkələrin ərazisində tikinti işlərinin aparılması sahəsində fəaliyyət, beynəlxalq yük daşımaları, beynəlxalq yarmarka və sərgilərdə iştirak, mütəxəssis mübadiləsi və beynəlxalq turizm və birbaşa iqtisadi əlaqələr təşkil edirdi. Həmsərhəd kapitalist ölkəsi olan İranla iqtisadi-ticarət əlaqələri get-gedə möhkəmlənirdi. Respublikada gömrük xidməti və dövlət sərhədinin mühafizəsi məsələlərinə böyük qayğı ilə yanaşan Heydər Əliyev Bakı Gömrükxanasının 175 illiyinin qeyd edilməsi haqqında 1981-ci ilin noyabrında xüsusi sərəncam imzalamışdı.

Bir sözlə, Azərbaycan SSR-in xarici iqtisadi-ticarət əlaqələri və ixrac potensialı sovet gömrük siyasətinin özünəməxsus xüsusiyyətlərinin təsiri ilə formalaşırdı.

# I FƏSİL. AZƏRBAYCAN SSR-də SOVET GÖMRÜK SİSTEMİNİN QURULMASI

## 1.1. Sovet gömrük quruculuğu sahəsində ilk tədbirlər

Sovet dövrü tarixşünaslığında Azərbaycan SSR-nin xarici iqtisadi-ticarət əlaqələri haqqında elmi araşdırmalar çox səthi aparılmış, gömrük işi və gömrük nəzarətinin təşkili problemləri isə tamamilə diqqətdən kənarda qalmışdır. Bunun əksinə olaraq, rus-sovet tarixçiləri 1920-1980-ci illərdə və sonrakı illərdə belə Rusiya imperiyasının və sovet dövlətinin gömrük siyasəti, ayrı-ayrı gömrükxanaların gömrük tarixi haqqında ətraflı tədqiqatlar aparmış və bir sıra elmi-tədqiqat əsərləri nəşr edilmişdir. Azərbaycan SSR-in iqtisadi tarixinə çoxlu sayda monoqrafiya və dissertasiyalar həsr edilməsinə baxmayaraq, gömrük işinin tarixi ayrıca tədqiqat obyekti olmamışdır [1].

Bir sıra elmi əsərlər məcmuəsində Azərbaycanda sovet dövlət quruculuğu, dövlətin siyasi əsasları, xarici siyasəti və mədəni quruculuq sahəsində fəaliyyəti kimi məsələlər nəzərdən keçirilsə də, iqtisadi məsələlərlə məşğul olan və milli dövlət quruculuğunun mühüm qanadını təşkil edən orqanların, o cümlədən maliyyə, xarici ticarət və gömrük orqanlarının fəaliyyəti araşdırıcıların diqqətindən kənarda qalmışdır. “Sovet dövründə bu qurum Azərbaycan xalqının maraqlarına xidmət etmirdi və ya birbaşa Moskvaya tabe edilmişdi” - deyərək gömrük tarixinin öyrənilməsi diqqətdən kənarda qalmışdı. Halbuki sovet dövlət quruculuğunun bütün mərhələlərində Azərbaycan sərhədlərində aparılan gömrükxana fəaliyyəti sosial-iqtisadi tariximizin mühüm bir səhifəsini təşkil edir.

Azərbaycan SSR-in mövcud olduğu 70 ilə yaxın bir dövrdə xarici ticarət əlaqələri və gömrük idarəçilik tarixini təxmini olaraq dörd mərhələyə ayırmaq olar: birinci mərhələ - 1920-1922-ci illər; ikinci mərhələ - 1923-1940-cı illər; üçüncü mərhələ - 1941-1945-ci illər; dördüncü mərhələ - 1946-1991-ci illər.

Ötən yüzilliyin 30-cu illərinin əvvəllərində gömrük orqanlarının funksiyaları azaldıldı, gömrük məmurlarının sayı isə xeyli ixtisar edildi. Beləliklə, xarici ticarətin dövlət tərəfindən inhisara alınması haqqında leninizm ideyaları gömrük nəzarətinin xarici ticarətin tənzimlənməsində

formal alətə çevirdi. Bu vəziyyət, demək olar ki, 1990-cı ilə qədər, keçmiş SSRİ-də gömrük xidmətinin fəaliyyətinə də təsir edən demokratik dəyişikliklər qədər davam etdi. 1930-1990-cı illərdə ölkənin xarici iqtisadi fəaliyyəti əsasən gömrük metodları ilə deyil, siyasi və ideoloji faktorlarla tənzimlənirdi.

SSRİ-də gömrük işinin təşəkkülü və inkişafı mürəkkəb və ziddiyyətli xarakter daşıyan mərhələlərdən keçmişdir. 70 illik tarixi bir dövr ərzində Azərbaycan SSR-in xarici iqtisadi-ticarət əlaqələri və ixrac potensialı sovet gömrük siyasətinin özünəməxsus xüsusiyyətlərinin təsiri ilə formalaşmışdır. Sovet gömrüyü daim iqtisadi və siyasi tələblərə uyğun olaraq təşkilati baxımdan daim dəyişikliklərə məruz qalmışdır. 1930-cu illərin ortalarında formalaşan sovet gömrük orqanlarının strukturu 1964-cü il Gömrük Məcəlləsində hüquqi cəhətdən təsbit edildi və 80-ci illərin sonuna qədər cüzi dəyişikliklərlə saxlanıldı.

SSRİ ərazisində gömrük işinin idarə edilməsi Xarici ticarət nazirliyi və onun tərkibinə daxil olan Baş gömrük idarəsi vasitəsilə həyata keçirilirdi. Həmin dövrdə sovet gömrük müəssisələrinin əsas funksiyası xarici ticarət üzərində dövlət inhisarının həyata keçirilməsinə nəzarət edilməsi, gömrük əməliyyatları və qaçaqmalçılıqla mübarizənin təşkili olmuşdur. Bu istiqamətlər üzrə sonrakı illərdə gömrük müəssisələrinin fəaliyyətinin hüquqi-normativ bazası inkişaf etdirildi. Məsələn, valyuta və valyuta sərvətlərinin qaçaqmalçılığına görə inzibati məsuliyyət gücləndirildi (1971-ci il), ölkədən mədəni sərvətlərin qanunsuz daşınmasına qarşı tədbirlər görüldü (1976-cı il), SSRİ-nin dövlət sərhədini keçən şəxslərin yüklərinə gömrük nəzarətinin yeni qaydaları tətbiq edildi (1977-ci il). 20-ci illərdə SSRİ-nin fəal gömrük siyasətinin əsas elementləri olan 1922, 1924 və 1927-ci il gömrük tarifləri sovet sənayesini xarici malların rəqabətindən qorumaqla yanaşı, ixrac mallarının əsas hissəsinin gömrük rüsumunu azaltmaq və ya ləğv etməklə sovet ixracının inkişafını stimullaşdırırdı. 1930, 1961 və 1981-ci illərin gömrük tarifləri idarəetmənin inzibati-amirlik dövrünün "məhsulları" kimi xarici iqtisadi fəaliyyətin iqtisadi tənzimləmə metodlarına üstünlük verən hüquqi aktlar ola bilməzdi.

Məlum olduğu kimi, Aprel çevrilişindən dərhal sonra Azərbaycan KP(b) MK-nın qərarı ilə Azərbaycan İnqilab Komitəsi yaradıldı. Həmin orqanın qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin iclasında N.Nərimanov başda olmaqla, Ç.İldırım, Ə.Qarayev, H.Sultanov, Q.Musabəyov, M.D.Hüseynov, D. Bünyadzadə, C.Vəzirov və Ə.Əlimovdan ibarət Azərbaycan SSR Xalq Komissarları Soveti – Azərbaycan hökumətinin tərkibi təsdiq olundu [1, 71].

1920-ci il mayından 1921-ci ilin aprelinə qədər dövrdə sovet Azərbaycanın gömrük xidməti qərarlar qəbul etməkdə sərbəst idi və

respublika rəhbərliyi xarici iqtisadi-ticarət siyasətində müstəqillik meylləri güclü idi. 1921-ci ilin aprelin 26-da gömrük idarəsinə rəhbərlik edən Azərbaycan SSR XXTK-nin bilavasitə Zaqafqaziya XXTK-nin tərkibinə daxil edilməsi respublika rəhbərliyinin xarici ticarət əlaqələri və gömrük münasibətlərinə təsir dairəsini tamamilə məhdudlaşdırdı.

Cümhuriyyətin hakimiyyət strukturlarını dağıtmaq məqsədi ilə ölkənin hər yerində yaradılan İnqilab Komitələrinə fövqəladə səlahiyyətlər verildi. Sovet Azərbaycanının iqtisadiyyatının idarə edilməsi sahəsində növbəti addımlardan biri 1920-ci il mayın 2-də Azərbaycan SSR Xalq Sənaye və Ticarət Komissarlığının kollegiyasında respublika Xalq təsərrüfatı Şurasının (XTŞ, 1922-ci ildən Ali Xalq Təsərrüfat Şurası) yaradılması oldu.


Dadaş Bünyadzadə (1888-1938)


Həmid Sultanov (1889-1938)


Qəzənfər Musabəyov (1888-1938)


Əliheydər Qarayev (1896-1938)

Bundan beş gün sonra, Azərbaycan İnqilab Komitəsi RSFSR-in nümunəsi əsasında, yerli şəraiti nəzərə almaqla XTŞ-nin strukturunu və tərkibini təsdiq etdi. AXTŞ-nin Əsasnaməsində göstərilirdi: "Xalq Təsərrüfatı Şurasının həyata keçirdiyi iqtisadi siyasət Azərbaycan MİK, Xalq Komissarları Soveti və Xalq Təsərrüfatı Şurasının qurultayı tərəfindən müəyyən olunur. Onlar iqtisadi siyasətin başlıca istiqamətlərini müəyyənləşdirirlər" [161, 1920, 16 may, №13].

Xarici ticarət məsələlərinin həlli ilk vaxtlar Xalq Təsərrüfatı Şurasına tapşırıldı. XTŞ-nin nəzdində xarici ticarət şöbəsi yaradıldı. Avropanın bir çox qabaqcıl dövlətləri, o cümlədən İngiltərə, Fransa, Almaniya, İtaliya, Avstriya, Çexoslovakiya, Hollandiya və bir neçə başqa dövlətlərlə ticarət əlaqələri yarada bildi. Gömrük idarəsi XTŞ-nin tabeçiliyinə verildi. XTŞ-nin gömrük işinin müxtəlif sahələrinə aid bir sıra qərarlar respublikanın xarici ticarət və gömrük-tarif siyasətinin formalaşmasına təsir etdi. Məsələn, 26 may 1920-ci ildə XTŞ-nin Azərbaycan İnqilab Komitəsinə və İranla sərhəddə yerləşən gömrükxanalarına göndərdiyi 633 saylı təcili məktubda İran tacirlərinə məxsus malların saxta sənədlərlə gömrük anbarlarından

çıxarılmasının qarşısının alınması və gömrükdə malların buraxılışına nəzarətin gücləndirilməsi tələb olunurdu. İnqilab Komitəsi 30 may tarixli teleqramla bu məsələyə dərhal münasibətini bildirdi: 1) Maliyyə Komissarlığın xüsusi göstəriş olmadan İrana mal ixracına icazə verilməsini dayandırmalı; 2) Ərzaq Komissarlığı tərəfindən verilən icazələr baxılmaq üçün İnqilab Komitəsinə göndərilməli; 3) XTŞ-nin icazəsi ilə ixrac edilən balıq məhsulları gömrükdən maneəsiz buraxılmalıdır [8,12, 17].

Azərbaycan SSR-in təşkilindən sonra, ilk əvvəl Bakı gömrükxanası Xalq Maliyyə Komissarlığı Gömrük hissəsinin (28 aprel 1920-13 avqust 1920-ci il), daha sonra Azərbaycan SSR XMK Gömrük idarəsinin (14 avqust 1920-ci il - 20 dekabr 1920-ci il) və həmin komissarlığın “Gömrük nəzarəti şöbəsi”nin tərkibinə daxil edildi (21 dekabr 1920-23 sentyabr 1922-ci il). 1921-ci il 1 yanvar vəziyyətinə görə Bakı gömrükxanası aşağıdakı struktura malik idi: 1) Dəftərxana; 2) Müsadirə şöbəsi; 3) Mühasibatlıq; 4) Gəmi kontoru.

Cənubi Qafqaz respublikalarının xarici ticarət və gömrük siyasəti birbaşa mərkəzə tabeçiliyinə verilən Bakı gömrükxanası ZSFSR XXTK Gömrük idarəsinə (24 sentyabr 1922 - 21 dekabr 1922-ci il), bir az sonra SSRİ XXTK Baş gömrük idarəsi Cənubi Qafqaz şöbəsinin (22 dekabr 1924-17 noyabr 1925-ci il), SSRİ Xalq Xarici və Daxili Ticarət Komissarlığının (18 noyabr 1925-21 noyabr 1930-cu il), yenidən SSRİ XXTK Baş gömrük idarəsi Cənubi Qafqaz şöbəsinin (22 noyabr 1930-1936-cı il) tabeliyində fəaliyyət göstərirdi.

1920-ci il aprelin 28-nə olan vəziyyətə görə Azərbaycan SSR ərazisində 337 nəfər əməkdaşı əhatə edən 16 gömrük müəssisəsi mövcud idi, o cümlədən 1-ci dərəcəli Bakı, 2-ci dərəcəli Ağstafa, Astara, Balakən, Lənkəran və Yalama, 3-cü dərəcəli Biləsuvar və Muğanlı gömrükxanaları, Cəfərli, Qovaqçöl, Poylu, Salahlı, Şıxlı, Qızıl-Ağac, Yuxarı Kür və Mazımçay gömrük postları. Maliyyə Komissarlığının Gömrük hissəsi Cümhuriyyət dövründə olduğu kimi gömrük və sərhəd mühafizəsi şöbələrindən ibarət idi. Gömrük şöbəsinin tərkibinə təftiş-təlimat, təsərrüfat, təhqiqat, müsadirə və statistika-informasiya bölmələri daxil idi [118, 16].

Azərbaycan XTŞ 22 may 1920-ci il tarixli qərarı ilə xüsusi icazə olmadan bütün gömrükxana, dəmiryolu stansiyalarına, nəqliyyat kontorlarına məxsus anbarlardan, o cümlədən ictimai və şəxsi müəssisələrdən müxtəlif növdə xam dəri, sulfat turşusu, anilin boyaq və s. malların buraxılması qadağan edilir, bu qərarın müddəalarını pozan şəxslərə inqilab dövrünün sərt qanunları ilə cəza veriləcəyi haqqında xəbərdarlıq edilirdi [8, 3].

Azərbaycan SSR Xalq Ərzaq Komissarlığının “Ərzaq məhsullarının və ilkin tələbat mallarının sərbəst daşınması normaları haqqında” 1920-ci il 27 may tarixli qərarını Azərbaycanın sovet dövrü gömrük qaydalarını tənzimləyən ilk sənəd hesab etmək olar. Ərzaq komissarı Q.Musabəyovun

imzaladığı bu sənəddə sərhəddən təyin edilən miqdarda daşınmasına icazə verilən ərzaq məhsullarının siyahısı verilir və siyahıdan kənar ərzağın keçirilməsi tamamilə qadağan edilirdi. Bu daşınma normaları dərc edildikdən sonra yerlərdə qəbul edilmiş eyni xarakterli bütün sərəncamlar ləğv edilirdi [8, 10].

Yuxarıda qeyd edilən sənədin əsli Milli Dövlət Arxivinin 85 nömrəli fondunda saxlanılır:

***Ərzaq məhsulları və ilkin tələbat mallarının sərbəst daşınması normaları haqqında***

*Azərbaycan SSR Xalq Ərzaq Komissarlığının Qərarı*

*27 may 1920-ci il*

*1) Azərbaycan daxilində və hüdudlarından kənara maneəsiz daşımalara aşağıda göstərilən miqdarda icazə verilir:*

*- normalaşdırılmış ərzaq məhsullarından un 5 funtdan çox olmayaraq, çörək – funt, ət və ət məhsulları 5 funt, balıq (təzə və qurudulmuş halda) - 1 pud, balıq kürüsü – 5 funt, bitki yağı – 2 funt, Holland və ya İsveçrə pendiri – 1 funt, duz – 5, şəkər - 2, quru meyvə və kişmiş cəmi - 10 funt, düyü – 10 funt, çay - 0,5 funt, kofe, kakao və surroqatlar – 2 funt, yumurta – 20 ədəd, kartof – 2 pud. Kartof və balığın çəkisi nəzərə alınmadan digər ərzaqların ümumi çəkisi 1 puddan çox olmamalıdır.*

*- mallar, o cümlədən 1 cüt hazır şəkildə uzunboğaz çəkmə və çəkmə və ya hazırlanması üçün dəri, 1 cüt qaloş, 4,5 arşın parça, 2 arşın yun parça, 12 arşın pambıq parça, 12 arşın astar materialı, 3 ədəd 1/2 ölçüdə finit tikiş sapı makarası, şpaqat, 1 funt iplik, 3 qəlib tualet və 1 funt adi sabun, 1 funt tütün və ya 1000 ədəd papiros və 1 qutu kibrit.*

*- digər normalaşdırılmış ərzaq və ilkin tələbat mallarının daşınması tamamilə qadağan edilir.*

*2) normalaşdırmaya aid olmayan məhsulların, o cümlədən kəsmik, xama, süd və yerli mənşəli təzə və konservləşdirilmiş meyvə, qurudulmuş və ya duza qoyulmuş göbələk, ev quşları (diri və kəsilmiş şəkildə), bal və ondan hazırlanmış məhsulların istənilən miqdarda daşınmasına məhdudiyyət qoyulmur;*

*3) bu daşınma normalarının dərindən sonra yerlərdə qəbul edilmiş eyni xarakterli bütün sərəncamlar ləğv edilir.*

*İmza: Xalq Ərzaq komissarı Q. Musabəyov* [8,10].

Azərbaycan Hərbi İnqilab Komitəsinin 1920-ci il 3 iyun tarixli *"Respublikanın gömrükxana, dəmiryolu və gəmi anbarlarından yüklərin təhvil alınması qaydaları haqqında"* dekretində göstərilirdi ki, Azərbaycan

Respublikasının gömrükxanalarında, dəmiryolu və gəmi anbarlarında saxlanılan yüklər yalnız XTŞ-nin əmri əsasında daşına bilər. Bu məsələyə aid digər hakimiyyət qurumunun göstərişi icrası dayandırılır, bundan öncə dərc edilən bütün sərəncam və qaydalar ləğv olunur [27,16, 28].

Digər tərəfdən, kəsmik, yerli istehsala məxsus pendir, təzə və konservləşdirilmiş meyvə, qurudulmuş, duza qoyulmuş göbələk, kələm, ev quşları(diri və kəsilmiş halda), bal və bal məhsulları və at ətinin qeyri-məhdud miqdarda daşınmasına icazə verilirdi [8, 226-227].

Azərbaycan Neft Komitəsi istisna olmaqla, XTŞ-nin tərkibinə 15 təşkilat daxil edilmişdi. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 1 iyun tarixli dekretinə əsasən AXTŞ xarici ticarət üzərində dövlət inhisarını həyata keçirən ilk icra orqanı oldu.

Azərbaycan Hərbi İnqilab Komitəsinin "Tikinti materiallarının ixracının qadağan edilməsi haqqında" 1920-ci il 11 iyun tarixli Dekretində göstərilirdi ki, sənaye və nəqliyyata lazım olan tikinti materiallarına olan kəskin ehtiyacı nəzərə alaraq, tikinti materialları Azərbaycan ərazisindən yalnız Azərbaycan İnqilab Komitəsinin xüsusi icazəsi ilə çıxarıla bilərdi. Bu dekretin pozulmasına görə məsuliyyət daşıyanlara *"inqilab dövrünün qanunları qarşısında bütün ciddiliyi ilə cavab verəcəkləri"* haqqında xəbərdarlıq edilirdi [8, 28].

1920-ci il iyunun 29-da "Kommunist" qəzetində XTŞ-nin Əsasnaməsi dərc olundu. Bu sənədə görə respublikanın ali dövlət təşkilatı olan XTŞ-nin əsas funksiyaları aşağıdakılar idi: a) ərzaq sahəsindən başqa, bütün istehsal və bölgü işinin təşkili və nizamlanması; b) öz orqanları vasitəsilə dövlət müəssisələri, birliklər və müəssisələrin bilavasitə idarə edilməsi; c) dövlət xammal və yanacaq ehtiyatlarının yaradılması; d) müəssisələrin və tədarükün maliyyələşdirilməsi və hesabatı. AXTŞ-nin ilk sədri Moskvanın emissarı A.P.Serebrovski oldu. XTŞ-nin 1920-ci ildə yeniləşmiş və ümumi sayı 24-ə çatdırılan strukturuna Rəyasət heyəti, işlər idarəsi, neft və balıqçılıq komitələri, "Xalq təsərrüfatı" jurnalının redaksiyası ilə yanaşı 19 şöbə, o cümlədən gömrük şöbəsi də daxil edildi. Sonrakı illər ərzində bu orqanın strukturu dəfələrlə dəyişdirildi. 1921-ci ildə isə XTŞ-nin tərkibindən Azərbaycan Neft Komitəsi, Su nəqliyyatı və ticarət şöbələri kimi müstəqil təşkilatlara ayrıldı. Yeni iqtisadi siyasətə keçidlə əlaqədar olaraq Şuranın tərkibində islahatlar aparıldı, müxtəlif istehsal sahələrini əhatə edən 12 idarə yaradıldı. Lakin yeni strukturda gömrük şöbəsi saxlanılmadı.

Azərbaycan Hərbi İnqilab Komitəsinin 1920-ci il 6 iyul tarixli dekreti ilə Bakı gömrükxanasının müstəsna əhəmiyyəti nəzərə alınaraq, müvəqqəti də olsa, inzibati cəhətdən Hərbi-dəniz işləri Komissarlığına tabe edirdi.

1920-ci ilin iyulun 29-da Xalq Xarici Ticarət Komissarlığı (XXTK) yaradıldı. Komissarlığa Teymur Əliyev rəhbərlik edirdi. 1921-ci ilin apreli 14-də Respublika Ali İqtisad Şurası və Dövlət Plan Komissiyası, oktyabrın

16-da Azərbaycan Dövlət Bankı təşkil olundu. Aprelin 26-da Tiflisdə Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları nümayəndələrinin iştirakı ilə keçirilən iclasda, RSFSR-in diktəsi ilə, xarici ticarət əməliyyatlarının bir mərkəzdən idarə olunması məqsədi ilə Zaqafqaziya Xarici Ticarət İdarəsi yaradıldı. Sentyabr ayından isə, Cənubi Qafqaz respublikalarında RSFSR-in Gömrük tarifinin tətbiqinə başlanıldı.

1920-1921-ci illərdə Rusiyadan İrana Bakıdan keçməklə 3,5 mln. manatlıq mallar göndərilsə də, Rusiya ilə İran arasında birbaşa heç bir ticarət əməliyyatları aparılmamışdı. İran malları isə qonşu ölkəyə az miqdarda olsa da, Azərbaycan üzərindən göndərilirdi. Həmin dövrdə Azərbaycan SSR-in Gürcüstan və İranla ticarət müqavilələrinin olmaması və hakimiyyət çevrilişi ilə bağlı siyasi hadisələr gömrükxanaların işinə mənfi təsir etmişdi. Xəzər dənizinin cənub sahillərində aparılan hərbi əməliyyatların nəticəsində İranla ticarət mübadiləsinin dayandırılması Astara və Lənkəran gömrükxanalarının fəaliyyətini xeyli zəiflətmişdi. Gürcüstanla Ermənistan arasında davam edən hərbi konflikt və sərhəddəki silahlı qarşıdurmalar Ağstafa, Balakən və Muğanlı gömrüklərində durğunluq yaratmışdı [146, 102].

Azərbaycan Xalq Təsərrüfatı Şurasının 1920-ci il iyunun 3-də keçirilən yığıncağında fiziki şəxslərin və hərbi qulluqçuların dəmiryolunda və gəmi heyəti tərəfindən normadan artıq ərzaq məhsulları və ilkin tələbat mallarının daşınmasına qarşı nəzarətin gücləndirilməsi məsələsinə baxıldı. Dəniz yolu ilə hərəkət edən sərnişinlərin yüklərinə baxışın həyata keçirilməsi Su nəqliyyatı idarəsinə, quru yollarda və dəmir yolun sərhəd məntəqələrində isə Maliyyə komissarlığının tabeçiliyində olan gömrük mühafizəsinə tapşırıldı. Sərnişin, gəmi heyəti və hərbi qulluqçuların özləri ilə aparmalarına icazə verilən ərzaq və digər tələbat mallarının normalarını Ərzaq Komissarlığı müəyyən etməli idi [215, 27].

Gömrük rüsumları şöbəsindən bütün gömrükxanalara göndərilən məktubda bildirilirdi ki, Azərbaycan Xalq Təsərrüfat Şurasının 1920-ci il 19 iyul tarixli əmrinə əsasən pambıq mahlıcı, yun (yerli və ispan növlü), barama, ipək və frizonun ixracı qadağan edilmişdi [4,11, 36].

Azərbaycan SSR-nin maliyyə sistemində bir sıra struktur dəyişiklikləri aparıldı. Maliyyə Komissarlığı üzrə verilmiş və komissarın müavini H.Tağıyevin imzaladığı 1920-ci il 28 iyun tarixli 149 saylı əmrlə komissarlığın tərkibində: 1) komissarlığın mərkəzi Dəftərxanası; 2)Vergilər idarəsi - tərkibində a) Birbaşa vergilər və rüsumlar; b) Dolayı vergilər şöbələri; 3) Büdcə-hesablama idarəsi – tərkibində: a) Büdcə şöbəsi və b) Kredit şöbəsi olmaqla yeni idarələr yaradıldı. Əmrin 3-cü bəndində bildirilirdi ki, Gömrük hissəsi və Sərhəd mühafizəsinin, gömrük və sərhəd mühafizə şöbələri daxil olmaqla yenidən təşkil edilənə qədər əvvəlki əsaslarla fəaliyyət göstərməyə davam edəcəklər. Digər tərəfdən, Maliyyə

Komissarlığının yerli təşkilatlarına, o cümlədən bütün gömrükxana və sərhəd mühafizəsi dəstələrinə xüsusi göstəriş alana qədər fəaliyyətlərini davam etdirmələrinə göstəriş verilirdi [8, 12, 182-183].

Azərbaycan Hərbi İnqilab Komitəsinin 19 iyul 1920-ci il tarixli dekreti ilə xarici ticarətə aid bütün məsələlərin həlli xüsusi müvəkkil təyin edilən Mdivaninin səlahiyyətinə verildi. Gömrük rüsumları şöbəsi bütün gömrük məntəqələrini xəbərdar edirdi ki, sərhəd zolağından 7 verst aralı məsafədə malların daşınmasına icazə sənədini yalnız Azərbaycan İnqilab Komitəsinin xarici ticarət üzrə Xüsusi müvəkkili və ya onun təyin etdiyi digər şəxslər imzalaya bilər [9, 13, 74, 76].

Maliyyə Komissarlığının Gömrük şöbəsindən Bakı quberniyası ərazisində yerləşən gömrük məntəqələrinə göndərilən 1920-ci il 8 avqust tarixli təlimata əsasən Lənkəran və Cavad qəzaları dövlət tədarükü rayonları elan edildiyinə görə bu yerlərdən taxıl məhsullarının çıxarılması qadağan edilir, taxıl və taxıl məhsulları Ərzaq Komissarlığı və onun agentlərinin sərəncamına keçirdi [10, 14, 79].

Sovet hakimiyyətinin ilk aylarında Azərbaycan siyasi səbəblər üzündən xarici ticarət tərəfdaşlarını itirdiyinə görə idxal-ixrac əməliyyatları demək olar ki, aparılmırdı. Bakı gömrükxanasında işlər tamamilə dayanmışdı. Bunu nəzərə alan gömrük şöbəsinin rəisinin Maliyyə komissarına yazdığı 1920-ci il 12 iyul tarixli məktubunda Bakı gömrükxanasının şəxsi heyətinin ümumi sayının 11 ştat vahidi qədər ixtisar edilməsi təklif olunmuşdu [18, 118].

Əmək haqlarının gecikdirilməsinə görə və gömrükxana əməkdaşlarının digər dövlət idarələrinə könüllü dəyişilməsi ilə əlaqədar işdən imtina etməsi geniş hal almışdı. Gömrük məntəqələrində "kadr axıcılığı"nı nəzərə alaraq, Azərbaycan SSR Maliyyə komissarı vəzifəsini icra edən H.Tağıyevin imzaladığı 22 iyul 1920-ci il 222 saylı əmrlə qulluqçuların öz təşəbbüsləri ilə iş yerlərini tərk edərək digər müəssisələrə keçməsi qadağan edildi. Əks təqdirdə, həmin əməkdaşlara hərbi-inqilabi tribunalı qarşısında cavab verəcəkləri haqqında xəbərdarlıq edilirdi [8, 77].

Arxiv sənədlərindən aydın olur ki, 1920-ci il aprelin 29-dan iyunun 1-dək gömrük işçilərinin ödənilməyən əmək haqqı barəsində sovet hakimiyyətinin yenicə yaradılmış qurumları arasında yazışmalar aparılmışdı. Maliyyə komissarının 17 iyun tarixli telefonoqramı ilə gömrükxanaların azərbaycanlı qulluqçularına iyun ayının birinci yarısı üçün 80 faiz əlavələr daxil edilməklə ödənilməsi, ayın ikinci yarısında isə 1500 manat avans verilməsi haqqında göstəriş verilmişdi [5, 31].

Azərbaycan SSR Maliyyə Komissarlığı Gömrük şöbəsinin rəisi A.Qolovanın imzaladığı və 1920-ci ilin may ayında respublikanın bütün gömrük müəssisələrinə ünvanlanan 1887 saylı məktubda göstərilirdi: *"İnqilab Komitəsinin mayın 17-də keçirilən yığıncağının fəhlə və*

*qulluqçuların əmək haqlarının həcmi və normaları haqqında qərarına əsasən aprelin 28-nə qədər və haliyədə gömrükxanalarda çalışan əməkdaşlara Əmək Komissarlığında hazırlanmış stavka hesabı ilə hər bir işçiyə 3000 manat avans verilsin. 28 apreldən sonra sovet müəssisəsinə işə qəbul edilən və indiyə qədər əmək haqqı almayan qulluqçulara əmək haqqının əvəzinə 6000 manat avans ödənilsin"* [6, 55].

Sovet hakimiyyətinin ilk günlərində Bakı və digər gömrükxanalar yenidən təşkil olundu və Azərbaycan SSR Maliyyə Komissarlığının Gömrük hissəsi idarəsinin tərkibinə daxil edildi. Gömrük hissəsi gömrük və sərhəd mühafizəsi şöbələrindən ibarət idi. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il tarixli dekreti ilə Bakı gömrükxanasının xüsusi əhəmiyyət daşıması nəzərə alınaraq müvəqqəti olaraq Hərbi-Dəniz işləri üzrə Xalq komissarlığına tabe edilmişdi [215, 1920, № 196].

Siyasi rejimin təbiətindən irəli gələn bəzi istisnalara baxmayaraq (başlıca olaraq XX yüzilliyin 20-30-cu illərində) gömrük məmurları öz peşə vəzifələrini yüksək səviyyədə yetirirdi. Sovet hakimiyyəti illərində Bakı gömrükxanasının rəhbər vəzifəli şəxsləri aşağıdakılar olmuşdur: L.İ.Budzınski (1918-ci il 19 oktyabr) - AXC dövrü; Ə.T.Məmmədzadə (gömrük komissarı, 1920-ci il, 28 aprel), Məcid Əfəndiyev (1923-cü il), Əhməd Düdənginski (rəis müavini, 1920-1924-cü il), Anton Semyonoviç Hasilava (1924-cü il), Məcidov (1925-1926-cı il), D.V.Veselyov (1926-cı il), A.N.Solovyov (rəis müavini, 1926-1927-ci illər), Freynman (1927-ci il), Sumbatov-Topuridze (1927-1928-ci illər), N.F.Rudolin (1929-1930-cu illər), Əhməd Rzayev (rəis müavini, az sonra Azərbaycan gömrük rayonu inspektoru), A.S.Şafirov (1934-cü il), M.K.Mixasko (1935-ci il), P.İ.Samonin (rəis müavini, 1935-1937-ci illər), P.N.Pervuşin (1938-1939-cu illər), A.İ.Petrosyan (rəis əvəzi, 1939-1941-ci il), Kuzmin Kazimir (1944-cü il), Əli Bala Məlik oğlu Əliyev (rəis müavini, 1945-1949-cu illər), İ.N.Poleşşuk (1946-1949-cu illər), L.N.Bobrov (1950-1952-ci illər), K.D.Zaloznı (1952-54-ciü illər), V.T.Kovalçuk (1955-1957-ci illər), E.M.Zülfüqarzadə (1958-1987-ci illər), R.M.Əsədzadə (1987-1988-ci illər) və N.Ə.Məmmədov (1988-ci ildən).

1920-ci il may ayının məlumatına əsasən, Bakı gömrükxanasında 170 nəfər çalışırdı. Gömrükxana rəisi Leonard Budzinski, müavini Sarux bəy Qurbanbəyov, müfəttiş vəzifəsində 1908-ci ildən gömrük orqanlarında çalışan Əhməd bəy Düdənginski (1883-cü ildə doğulub) idi. Lakin Hərbi-dəniz xalq komissarı Əliheydər Qarayevin 1920-ci il avqustun 3-də imzaladığı əmrlə Bakı gömrükxanasının şəxsi heyətinin tərkibində dəyişikliklər aparıldı. Qeyd edilən əmrlə Bakı gömrükxanasında müfəttiş, xəzinədar köməkçisi və tərcüməçi vəzifələri ləğv olundu, bundan əvvəl müfəttiş vəzifəsində olan Əhməd Düdənginski Sarux bəy Qurbanbəyovun yerinə gömrükxananın rəis müavini təyin edildi [7, 291].

Azərbaycan Hərbi İnqilab Komitəsinin *"Respublikanın gömrükxana, dəmiryolu və gəmi anbarlarından yüklərin təhvil alınması qaydaları haqqında"* 1920-ci il 3 iyun tarixli dekretində göstərilirdi ki, Azərbaycan Respublikası gömrükxanalarında, dəmir yolu və dəniz limanı anbarlarında saxlanılan yüklər yalnız XTŞ-nin sərəncamı ilə çıxarılır, bundan öncə dərc edilən bütün sərəncam və dekretlər ləğv edilirdi [191, 1920, 5 июня; 42, 16].

Aşağıdakı cədvəldə Bakı gömrükxanası əməkdaşlarının sayı və əmək haqlarının miqdarı göstərilir:

Cədvəl 1.1

**Bakı gömrükxanası üzrə şəxsi heyətin ştat cədvəli (may, 1920-ci il)**

| s/s | Vəzifəsi | Ştat vahidi | Aylıq əmək haqqı (manat) | İllik məsrəf (manat) |
|---|---|---|---|---|
| **1.** | Rəis | 1 | 6300 | 75600 |
| **2.** | Rəis müavini | 1 | 5220 | 62640 |
| **3.** | Müfəttiş | 1 | 5220 | 62640 |
| **4.** | 3-cü dərəcəli nəzarətçi | 3 | 4500 | 54000 |
| **5.** | 4-cü dərəcəli nəzarətçi | 2 | 4140 | 49680 |
| **6.** | 5-ci dərəcəli nəzarətçi | 3 | 3960 | 47520 |
| **7.** | Katib | 1 | 3960 | 47520 |
| **8.** | Katib köməkçisi | 1 | 3600 | 43200 |
| **9.** | Mühasib | 1 | 3960 | 47520 |
| **10.** | Mühasib köməkçisi | 1 | 3600 | 43200 |
| **11.** | Xəzinədar | 1 | 3960 | 47520 |
| **12.** | Xəzinədar köməkçisi | 1 | 3600 | 43200 |
| **13.** | Tərcüməçi | 1 | 3600 | 43200 |
| **14.** | Pakhauz nəzarətçisi | 1 | 3960 | 47520 |
| **15.** | Gəmi nəzarətçisi | 1 | 4140 | 49680 |
| **16.** | Gəmi və Pakhauz nəzarətçisi köməkçiləri | 15 | 3600 | 43200 |
| | 1-ci dərəcəli dəftərxana qulluqçuları | 6 | 2880 | 34560 |
| **17.** | 2-ci dərəcəli dəftərxana qulluqçuları | 19 | 2700 | 32400 |
| **18.** | Yoxlayıcılar | 105 | 2700 | 32400 |
| **19.** | Yoxlayıcı qadın | 1 | 2340 | 28080 |
| **20.** | Gözətçilər | 2 | 2340 | 28080 |
| **21.** | Həyətə baxanlar | 2 | 2340 | 28080 |
| **22.** | **Cəmi** | **170** | **93780** | **991440** |

Mənbə: ARDA, f. 85, siy. 3, iş 158, v. 34

Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı *"Tikinti materiallarının ixracının qadağan edilməsi haqqında"* 1920-ci il 11 iyun tarixli dekretdə göstərilirdi: *"Azərbaycan Sovet Sosialist Respublikasının sənayesi və nəqliyyatına lazım olan tikinti materiallarına olan kəskin ehtiyacı nəzərə alaraq, Azərbaycan ərazisindən tikinti materialları hər bir ayrıca halda Azərbaycan İnqilab Komitəsinin xüsusi icazəsi ilə çıxarıla bilər.*

*Bu dekretin pozulmasına görə məsuliyyət daşıyanlar inqilab dövrünün qanunları qarşısında bütün ciddiliyi ilə cavab verəcəklər"* [8, 28].

Azərbaycan SSR XXTK-nin 1920-ci il 2 avqust tarixli kollegiya yığıncağında İranla sərhəddə yerləşən Bəhramtəpə və Maralyanda əvvəllər mövcud olmuş gömrük məntəqələrinin bərpa edilməsi qərara alınmış və bu məqsədlə Zaqafqaziya XXTK qarşısında təşəbbüs qaldırılmışdı [8, 113].

1920-ci il avqustun 14-də Azərbaycan SSR Maliyyə Komissarlığı haqqında Əsasnamə qəbul edildi. Əsasnaməyə görə, Maliyyə Komissarlığının tabeliyində olan Gömrük İdarəsi (keçmiş Gömrük hissəsi) Gömrük rüsumları və Sərhəd mühafizəsi şöbəsindən ibarət idi [191, 206].

Azərbaycan İnqilab Komitəsinin xarici ticarətin milliləşdirilməsi və mal mübadiləsi üzərində müstəsna səlahiyyətin Xalq Xarici Ticarət Komissarlığına verilməsi haqqında "Kommunist" qəzetinin 108-ci nömrəsində dekreti verildi. Bundan sonra xarici dövlətlərlə ticarət münasibətlərinin həyata keçirilməsi, ictimai təşkilat və fiziki şəxslərlə ticarət sövdələşmələri yalnız bu komissarlıqda aparılmalı idi. Bu dekretlə əlaqədar olaraq, 1920-ci il sentyabrın 13-də Maliyyə Komissarlığının Gömrük şöbəsində aşağıdakı məzmunda təlimat hazırlanaraq yerli gömrükxanalara göndərilmişdi: 1) XXTK-nin icazəsi olmadan fiziki şəxslər və ya müəssisələr tərəfindən xaricdən gətirilən mallar müsadirə olunur. Saxlanılan yüklər haqqında XXTK-yə dərhal məlumat verilir və icazə verilmədən mallar yük sahiblərinə qaytarılmır; 2) yerlərdə "Kommunist" qəzetinin 108-ci nömrəsi və ya bu təlimatın nüsxəsi alınan gündən həmin dekret Azərbaycan SSR ərazisindən çıxarılan və ya aparılan bütün mallara şamil edilir; 3) Heç bir müəssisə, təşkilat və ya fiziki şəxsin XXTK və onun xaricdəki orqanlarının qərarı ilə müəyyən edilmiş qaydalar əsasında idxal-ixrac sövdələşməsi aparmağa hüququ yoxdur, bundan sonra idxal və ixracla bağlı sövdələşmələr yalnız mərkəzdə, yəni Bakıda həyata keçirilməlidir [8, 86].

Azərbaycan SSR Maliyyə Komissarlığı Gömrük İdarəsindən bütün gömrükxanalara tapşırıq verilmişdi ki, 1919 - aprel 1920-ci illər ərzində ölkəyə gətirilən və aparılan malların miqdarı, dəyəri və daxil olan gömrük rüsumları haqqında hesabatlar tərtib edilsin. Hesabatlardan istifadə edilməsini asanlaşdırmaq üçün malların gömrük tarifində yerləşdiyi qaydada qruplaşdırılması təklif olunurdu. Çox güman ki, bu məlumatlar məhz RSFSR-in xarici ticarət və gömrük idarəsinin rəhbərlərini yaxından maraq-

landırırdı. Lakin arxiv sənədlərində bu hesabatların yığılması haqqında sənədlər yoxdur. Məsələn, Azərbaycan SSR XXTK Gömrük şöbəsindən Bakı gömrükxanasına ünvanlanan 1921-ci il 20 yanvar tarixli 153 saylı məktubda yuxarıda qeyd edilən məlumatların göndərilməsi yenidən tələb olunmuşdu [8, 88, 95].

1920-ci ildə Azərbaycan SSR Xalq Maliyyə Komissarlığı Gömrük rüsumları şöbəsinin tərkibinə aşağıdakı gömrükxana və gömrük məntəqələri daxil idi: Bakı, Ağstafa, Balakən, Astara, Lənkəran, Muğanlı, Biləsuvar gömrükxanaları və Qovaqçöl, Marınçay, Yuxarı Kür (Bankə), Qızıl-Ağac (Pereval), Salahlı, Şıxlı, Ağstafa gömrükxanasının ön məntəqəsinin (Çaxmaqlı-Cəfərli kəndi), Poylu (Poylu stansiyası) məntəqələri daxil idi [173, 13, 18].

Azərbaycan dəmir yolunun Yalama stansiyasında yerləşən gömrükxananın şəxsi heyətinin sayının azlığı və bir sıra texniki səbəblər yük və sərnişin qatarlarının gömrük baxışının gecikdirilməsinə səbəb olurdu. Rusiyaya daşınan təbii sərvətlərlə dolu yüklərin fasiləsiz hərəkətinə mane olurdu. Dəmir yolunda yaranmış "tıxac"ların aradan qaldırılması, qatarların normal hərəkətinin təmin edilməsi tələb olunurdu. Bakı gömrükxanasının göndərdiyi bildirişdə Azərbaycan Dəmir yolları idarəsinin nümayəndələrinin bu məqsədlə yaradılmış komissiyanın 1920-ci il sentyabrın 20-də gömrükxana binasında *(keçmiş Naberejnaya küçəsi, 17)* keçiriləcək növbəti yığıncağa dəvət edilməsi göstərilir. Komissiya bu vəziyyətin qaydaya salınması üçün sərnişinlərin əl yüklərinə gömrük baxışının sərnişin qatarlarının Bakıdan Yalamaya hərəkəti zamanı keçirilməsini səmərəli hesab etmişdi. Lakin növbəti aylar ərzində iki respublika arasında gömrük sərhədi tədricən aradan qaldırıldı və Yalama gömrükxanası da ləğv edildi [10, 203[arx.], 215].

Azərbaycan SSR XXTK Gömrük nəzarəti şöbəsinin Əsasnaməsinə görə gömrük müəssisələri aşağıdakı funksiyalara malik idi: a) sərhəddən sərnişin və yüklərin buraxılması: b) bütün leqal surətdə gətirilən və aparılan malların qəbulu, qeydiyyatı mühafizəsi və yola salınması; c) tutulan qeyri-leqal daşınan malların qəbulu, qeydiyyatı, mühafizə və müsadirəsi ilə bağlı işlərə baxılması. İşlərin həcminə görə gömrük müəssisələri 1-ci, 2-ci və 3-cü dərəcəli gömrükxanalara və gömrük postların bölünürdü. Postlardan yalnız sərnişin və əl yüklərinin buraxılmasına icazə verilirdi. Malların idxal və ixracı gömrükxanalar vasitəsi ilə həyata keçirilirdi. Hərbi və mülki hakimiyyət orqanlarının gömrük müəssisələrinin işinə müdaxilə etməsinə yol verilmirdi [8, 1920, статья 712].

Azərbaycanın sovet dövrü tarixində gömrük işinə aid ilk hüquqi-normativ sənədlərdən biri də Maliyyə Komissarlığı gömrük rüsumları şöbəsindən respublikanın bütün gömrük müəssisələrinə göndərilən 1920-ci il 11 may tarixli təlimat xarakterli məktub olmuşdur. Respublikanın bütün gömrükxanalarına göndərilən məktubda xatırladılırdı ki, qaçaqmalların

müsadirədən azad edilməsi və sahiblərinə qaytarılması Azərbaycan SSR Maliyyə Komissarlığının səlahiyyətinə daxildir. Gömrük rüsumları şöbəsinin rəisi A.P.Qolovanın imzaladığı və surəti Lənkəran İnqilab Komitəsi sədrinə ünvanlanan 1920-ci il 23 may tarixli 2865 saylı digər bir sənəddə göstərilirdi ki, inqilab komitələrinin yerli şöbələrinin məhkəmə və inzibati hakimiyyətin (gömrükxananın) qərarı ilə müsadirə edilən qaçaqmalları (mal, əşya və əsginaslar) vətəndaşlara qaytarmağa səlahiyyəti yoxdur. Qüvvədə olan Gömrük Məcəlləsinə əsasən, qaçaqmal olması şübhəli hesab edilən mallar gömrükxanaya təhvil verilir (VI cild, maddə 1113), gömrükxanalar məsələyə müstəqil surətdə baxır (GM, VI cild, maddə 1115, 1149, 1150) və ya məhkəməyə göndərir. Gömrükxanada cinayət işinə baxılandan sonra qərarın surəti mal sahibinə, məsuliyyətə cəlb edilən şəxslərə göndərilir ki, onların 3 gün müddətində Maliyyə Komissarlığına şikayət etmək hüququ vardır (maddə 1141). Sonuncunun qərarından həmin müddət ərzində ali hakimiyyət orqanına şikayət edilə bilər (maddə 1143).Gömrükxananın qərarı qanuni qüvvəyə mindikdə məcburi cərimələrin tətbiqi, müsadirə edilən mallara və əşyalara sərəncam vermək hüququnu gömrük hakimiyyəti həyata keçirir (maddə 1144). Maliyyə Komissarlığı yalnız əsaslı səbəb olduqda gömrükxananın qərarının icrasını dayandıra bilər (maddə 1166) [8, 1, 6].

Azərbaycan SSR XKŞ-nin təsdiq etdiyi *"Azərbaycan SSR-in gömrük müəssisələrinin sərhəd mühafizəsi ilə qarşılıqlı münasibətləri haqqında Təlimat"*da ölkə ərazisini tərk edən şəxslərin 1920-ci il avqustun 1-dən özləri ilə aparmalarına icazə verilən pul, qızıl və gümüşün, o cümlədən geyim əşyalarının miqdarı müəyyən edilmişdi. Respublikanı tərk edən hər bir şəxs özü ilə yalnız 50 min Azərbaycan manatı (bonu) və ya sovet rublu apara bilərdi. Bir ailənin 200 min manatdan artıq aparmasına yol verilmirdi. Hər hansı bir xarici valyutanın istər kağız, istərsə də metal sikkə formasında aparılması qadağan idi. İstisna olaraq, yaşayış yerlərinə qayıdan İranlı fəhlələrin 5 gümüş tümən və 10 min Azərbaycan bonu və ya sovet rublu apara bilərdilər. Hər bir şəxs üzərində cəmi 1 ədəd üzük və ümumi çəkisi 5 zolotnikdən çox olmayan qızıl saat (bilərziklə birlikdə) aparmasına icazə verilirdi. Gümüş bəzək əşyaların çəkisi 1 funtu ötməməli idi. Qiymətli metaldan hazırlanmış digər əşyaların sərhəddən keçirilməsi qadağan edilirdi. Sərnişinlərin özləri ilə aparılmasına icazə verilən paltarların siyahısı və sayı (kişi və qadın paltarları ayrıca olaraq) dərc edilmişdi. Təlimatda qəti şəkildə vurğulanırdı ki, sərnişinlərdən gömrük baxışı zamanı aşkar edilən normadan artıq əşya və pullar müsadirə edilməkdən əlavə, dəyərinin üçqat misli qədər cərimə təyin edilməlidir [27, 260-261].

Lakin 1920-ci ilin may-avqust aylarında Azərbaycanın Maliyyə Komissarlığının Gömrük şöbəsinə yerlərdəki inqilab komitələri və fövqəladə komissiyaların şöbələrinin, xüsusilə cənub və qərb sərhədlərində yerləşən gömrük məntəqələrinin işinə yersiz müdaxilə etməsi, XXTK-nin

icazəsi olmadan bu orqanların himayəsi ilə müxtəlif yüklərin sərhəddən keçirilməsi haqqında məlumatlar daxil olurdu. Gömrük idarəsinə aid olmayan orqanlar tərəfindən müsadirə edilən mallar çox vaxt gömrükxanaya təhvil verilmir və ya sadəcə olaraq, mənimsənilirdi. Bakı Gömrük komissarının Maliyyə komissarlığı gömrük şöbəsinə 1920-ci il 23 avqust tarixli 3894 saylı məktub bunu bir daha təsdiq edir: *"Gömrükxanaya bəlli olan məlumatlara görə, Bakı limanından daxil olan hərbi gəmilərdə respublika ərazisindən hərbi təyinatlı yüklər adı ilə hakimiyyətdən icazə almadan və təbii ki, müəyyən edilmiş heç bir gömrük vergisi ödənmədən xeyli miqdarda müxtəlif mallar və ərzaq məhsulları daşınaraq aparılır. Eləcə də, İrandan qayıdan həmin gəmilərdə gətirilən müxtəlif mallar, gömrükdən yayınaraq qaçaqmalçılıq yolu ilə şəhərə daxil olur. XI Ordu əməkdaşları və qırmızı qvardiyaçılar tərəfindən Petrovska, Krasnovodska və ya Həştərxana getməsindən asılı olmayaraq, kütləvi surətdə hər bir gəmidə gömrük baxışına təqdim edilmədən aztapılan mallarla doldurulmuş xeyli bağlamalar göndərilir".* Gömrükxana rəhbərliyi, məktubda, limana daxil olan və yola düşən hərbi gəmilərə də müvafiq gömrük baxışının həyata keçirilməsini, ölkədən daşınmasına icazə verilməyən malların gəmilərə yüklənməsinin qarşısını almaq məqsədi ilə gömrükxanaya mümkün qədər əlavə səlahiyyətlər verilməsi və bəzi malların poçt bağlamaları ilə göndərilməsinə məhdudiyyət qoyulmasını təklif edirdi [10, 159-159[arx.]].

Digər tərəfdən, yerli hakimiyyət orqanları gömrük məntəqələrinin normal fəaliyyəti üçün şəraitin yoxluğu, sosial-məişət şəraitinin get-gedə çətinləşməsi ucbatından gömrük əməkdaşları iş yerlərini tərk edirdilər.

Gömrük şöbəsinin rəhbərliyi 25 avqust 1920-ci ildə və təkrar olaraq sentyabrın 15-də Azərbaycan İnqilab Komitəsinə məlumat verirdi ki, "Kommunist" qəzetində dərc edilmiş (21 avqust, № 95) dekretin mətnində *"malların daşınmasına məsuliyyət daşıyan bütün müəssisələr"* ifadəsinin səhv təsəvvür yaratması hesabına gömrük işindən kənar bəzi müəssisə və təşkilatlar xarici ticarət əməliyyatlarının nizamlanması işinə yersiz müdaxilə edir, mövcud təlimat və qaydaları kobudcasına pozurlar.

Gömrük şöbəsinin rəisi Azərbaycan İnqilab Komitəsinin sədr müavini M.D.Hüseynovun yük və sərnişin buraxılmasına gömrük nəzarətinin gücləndirilməsi tələbinə cavab olaraq yaranan vəziyyəti ətraflı şərh etmişdi. Onun Maliyyə komissarına ünvanlandığı 1920-ci il 25 avqust tarixli 4507 nömrəli məktubunda deyilirdi: *"Ağstafa gömrükxanası yerləşdiyi binadan çıxarılmış və şəxsi evin balkonunda yerləşir. Qulluqçular evlərdən qovulub və balkonlarda, yararsız vaqonlarda məskunlaşıblar. Yalama gömrükxanası iki otaqda yerləşir və buranın boşaldılması haqqında göstəriş verilib. Mənzil komissiyasında müraciət etmələri məsləhət görülür. Stansiya rəisi ya gömrük baxışı bitmədən qatarların yola düşməsinə göstəriş verir, ya da qatarlar elə kənarda saxlanılır ki, gömrük baxışının aparılması mümkün*

*olmur. Lənkəran gömrükxanasının yerləşdiyi binanın boşaldılmasına göstəriş verilib. Qızıl-Ağac gömrük postundan yoldaş Bukrayev mənə yazır ki, bu ərazidə gömrük nəzarəti lazım deyil və buna görə postu ləğv edib. Yerli inqilab komitələri gömrüyün göstərişlərini qəbul etmirlər. Bakı gömrükxanası XI ordu əməkdaşları və qırmızı qvardiyaçıların hərbi yük adı ilə və bağlamalar vasitəsilə malları kütləvi daşımaları haqqında məlumat verib. Əgər işlərin gedişi bu vəziyyətdə davam edərsə, respublika get-gedə mal və ərzaq təminatı cəhətdən zəifləyəcək, çünki kənardan axın müşahidə olunmur. Qəti tədbirlərin görülməsi vacibdir: 1) Xalq Xarici Ticarət Komissarlığının icazəsi olmayan malların ixracı qadağan edilsin; 2) gömrük müəssisələrində əməkdaşların əmək və məişət şəraiti yaxşılaşdırılsın; 3) digər dövlət təşkilatları gömrük müəssisələrinin fəaliyyətinə qarışmasın"* [10, 61-62].

Qaçaqmal adı ilə saxlanılan yüklər gömrükxanaya təhvil verilmir və faktlar barəsində məlumatlar demək olar ki, XXTK və XTŞ-yə çatdırılmır. Məktublarda xəbərdarlıq edilirdi ki, *"xarici ticarət fəaliyyətinə nəzarətin bölüşdürülməsi, bu sahədə yaranmış nizamsızlıq dövlətin iqtisadi siyasətinin nəticələrinə mənfi təsir göstərə və sovet hakimiyyətinin nüfuzuna xələl gətirə bilər".* Gömrük komissarı Ə.Məmmədzadənin imzası ilə Maliyyə komissarına göndərilən 1920-ci il 7 oktyabr tarixli hesabatda Bakı limanında gömrük nəzarətinin vəziyyəti təhlil edilir. Hesabatda göstərilirdi ki, Bakı gömrükxanası cəmi 105 nəfər gömrük yoxlayıcısı ilə liman ərazisindəki 35 ədəd gəmi körpüsünə yanaşan gəmilərə, Qara şəhərdə və Köhnə gömrükxanadakı iri gömrük anbarlarına və dəmir yolu stansiyasından xaricə gedən sərnişinlərin yüklərinə gömrük baxışı keçirir. Bundan əlavə, həmin qüvvə ilə qaçaqmalçılıq hərəkətlərinin qarşısının almaq üçün Bakı limanı ərazisi 24 saat ərzində mühafizə edilirdi. Gömrükxana rəhbərliyi təklif edirdi ki, heyətə əlavə olaraq 45 nəfər yoxlayıcının daxil edilməsə və "Bakı" barkasının xidmətə çıxması üçün 5 nəfərlik heyət (kapitan, 2 nəfər matros, mexanik və köməkçisi) təşkil edilməsə gömrük nəzarətində tələb olunan səmərəni almaq mümkün olmayacaq [10, 163-163$^{arx}$, 210-210$^{arx}$, 272-272$^{arx}$].



*Mirzə Davud Hüseynov (1894-1938)*

Azərbaycan Hərbi İnqilab Komitəsinin "Kommunist" qəzetinin 194-cü nömrəsində dərc edilmiş 1920-ci il 17 dekabr tarixli qərarı ilə Gömrük rüsumları şöbəsi və bütün gömrükxanalar Maliyyə Komissarlığının tabeçiliyindən alınaraq XXTK-na birləşdirildi.

Həmin qərarla Gömrük rüsumları şöbəsi Gömrük nəzarəti şöbəsi adlandırıldı [191,91].

Sərhəd mühafizəsi sərhəd zolağının 7 verstlik hüdudunda öz təşəbbüsü ilə malların gizli daşınmasının qarşısının alınması və qaçaqmalların saxlanılması tədbirlərini müstəqil həyata keçirirdi. Bu tədbirlərin 7 verstlik zolaq hüdudundan kənarda aparılmasına ehtiyac olduqda yardım üçün yerli hakimiyyət orqanına müraciət edə bilərdi. Gömrük müəssisələri və sərhəd mühafizəsi əməkdaşlarını və onlarla birlikdə gedən şəxslərin qaçaqmal keçirilməsi şübhəsinə görə yoxlanılması hər iki tərəfə qarşılıqlı olaraq qadağan edilirdi. Bu göstərilənlər sərhəd xəttini keçdikləri zaman sərhəd mühafizəsi əməkdaşlarının qanunla təyin edilən gömrük baxışından keçməsinə şamil edilmirdi. Həm gömrük təşkilatı, həm də sərhəd mühafizəsi zəruri hal yarandıqda, birgə razılıq əsasında qaçaqmalçılıq hallarının qarşısının alınması istiqamətində görülən tədbirlər və qaçaqmalçılıq işləri haqqında bir-birinə məlumat verməli idi. Gömrük, qaçaqmalların saxlanılması haqqında sərhəd mühafizə hissəsinə məlumat göndərməli idi.

Yuxarıda qeyd edilən gömrük nəzarəti rejimi Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 23 dekabr tarixli təsdiq etdiyi *"Azərbaycan SSR-nin gömrük müəssisələrinin sərhəd mühafizəsi ilə qarşılıqlı münasibətləri haqqında Təlimat"* ilə hüquqi cəhətdən əsaslandırıldı:

***Azərbaycan SSR-nin gömrük müəssisələrinin sərhəd mühafizəsi ilə qarşılıqlı münasibətləri haqqında Təlimat***

*Maddə 1. Qaçaqmalçılıq hallarının qarşısının alınması üçün gömrük xidməti əməkdaşları ilə sərhəd mühafizəçilərinin fəaliyyəti əlaqələndirilməli, xidməti vəzifələr yerinə yetirilərkən bu əməkdaşlar ən kiçiyindən böyüyünə qədər qarşılıqlı surətdə bir-birinə kömək etməlidir.*

*Maddə 2. Malların gizli aparılmasının qarşısını almaq üçün tədbirlərin görülməsi və qaçaq malların ələ keçirilməsi tamamilə sərhəd mühafizəsinin səlahiyyətlərinə daxildir, lakin bu tədbirlər xidməti vəzifələrinin məqsədləri çərçivəsində və hər bir xüsusi halda sərhəd mühafizəsinin rəhbər şəxsləri ilə razılaşdırıldıqdan sonra gömrük müəssisəsi tərəfindən də həyata keçirilə bilər.*

*Maddə 3. Sərhəd mühafizəsi sərhəd zolağının 7 verstlik hüdudunda öz təşəbbüsü ilə malların gizli daşınmasının qarşısını alınması və qaçaqmalların saxlanılması tədbirlərini müstəqil həyata keçirir. Bu tədbirlərin 7 verstlik zolaq hüdudundan kənarda aparmağa ehtiyac yaranarsa, sərhəd mühafizəsi yardım üçün yerli hakimiyyətə müraciət edir.*

*Maddə 4. Gömrük müəssisələri və sərhəd mühafizəsi əməkdaşlarını və onları müşayiət edən şəxslərin, qaçaq mal keçirilməsi şübhəsinə görə yoxlanılması hər iki tərəfə qarşılıqlı olaraq qadağan edilir. Bu göstərilənlər*

*sərhəd mühafizəsi əməkdaşları sərhəd xəttini keçərkən qanunla təyin edilən gömrük baxışının tətbiq edilməsinə şamil edilmir.*

*Maddə 5. Həm gömrük təşkilatı, həm də sərhəd mühafizəsi zəruri hal yarandıqda, birgə razılıq əsasında qaçaqmalçılıq hallarının qarşısının alınması istiqamətində görülən tədbirlər və qaçaqmalçılıq işləri haqqında bir-birinə məlumat verməlidir.*

*Maddə 6. Gömrük, qaçaq malların saxlanılması haqqında bütün məlumatları, o cümlədən sahibləri haqqında və ya sahibi müəyyən edilmədiyi halda belə, qaçaqmalın digər təşkilatlar tərəfindən ələ keçirilməsi haqqında ən yaxınlıqda yerləşən sərhəd mühafizə hissəsinə bildirməyə cavabdehdir. Bildiriş qısa olmalı və yalnız malların növü, ələ keçirildiyi vaxt, qaçaq malın "məlumat" əsasında və ya "isti izlərlə" aşkar edilməsi, daşıyıcıların saxlanılıb-saxlanılmaması, onların şəxsiyyəti və sərhədi hansı məntəqədə keçmələrinə cəhd etmələri haqqında məlumatlar göstərilməlidir.*

*Maddə 7. Gömrük müəssisələri sərhəd mühafizəsi rayonunda bütün hallar üzrə malların müsadirədən azad edilməsi haqqında ən yaxın sərhəd mühafizə hissəsinə qısa məlumatlar verir.*

*Maddə 8. Sərhəd mühafizə hissələrinin komandirləri gömrük müəssisəsi müsadirə edilən odlu silahların və döyüş sursatlarının istifadəyə yararlığının yoxlanılması haqqında müraciət etdikdə müvafiq yardımı göstərirlər.*

| | |
|---|---|
| *Azərbaycan İnqilab Komitəsinin sədr müavini:* | *D.Bünyatzadə* |
| *Xalq Xarici Ticarət komissarı:* | *Teymur Əliyev* |
| *Azərbaycan HİK-nin katibi:* | *Qabriçidze* |

"Təlimat" dövlət və gömrük sərhədinin etibarlı mühafizəsi sahəsində hər iki qurumun birgə fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədi daşıyırdı. Sənədə əsasən, qaçaq malın ələ keçirilməsi tamamilə sərhəd mühafizəsinin səlahiyyətlərinə daxil edilsə də, bu tədbirlər xidməti vəzifələrinin məqsədləri çərçivəsində və hər bir xüsusi halda sərhəd mühafizəsinin rəhbər şəxsləri ilə razılaşdırıldıqdan sonra gömrük müəssisəsi tərəfindən də həyata keçirilə bilərdi. Gömrük və sərhəd mühafizəsi arasında malların gizli daşınması və qaçaqmalçılığın qarşısının alınması sahəsində funksiyalar bölüşdürüldü [214, 1920, статья 713].

Azərbaycandan RSFSR-ə daşınan malların dəyərinin 10 faizi həcmində gömrük rüsumu tutulması, ixrac şərtləri və qaydaları haqqında Gömrük idarəsi rəisinin 1921-ci il 1 yanvar tarixli əmri heç bir dəyişiklik aparılmadan 1922-ci il ərzində də qüvvədə saxlanılmışdı [202, 1920, 23 декабря, №196].

1921-ci il iyunun 22-də N.Nərimanovun Ehsanulla xana radio ilə ünvanlandığı müraciətində Azərbaycanda ərzaq və valyuta ehtiyatının çatışmazlığı nəzərə alınaraq Ənzəlidəki xarici ticarət nümayəndəmizə çəltiyin və digər taxıl məhsullarını sərbəst tədarük etməsi üçün şərait yaradılması və bu məhsulların gömrük vergisi alınmaması xahiş edilirdi. Radioteleqramda "ümumi işin mənafeyi xatirinə" Rəşt limanına bir gün öncə 10 min pud kerosin göndərildiyi bildirilirdi [3, 39 ].

N.Nərimanovun xarici ticarət əməliyyatları və gömrük nəzarətinin aparılmasına hər hansı bir müdaxiləni qadağan edən 1921-ci il 15 mart tarixli əmrində göstərilirdi: *"nəzərə alsaq ki, 1) İranla ticarətdə başlıca məqsədin işçilərin ilkin tələbat malları ilə təchiz edilməsi olması; 2) Xarici ticarət xalq komissarı bu vəzifəni İrandan Bakıya düyü, kişmiş, manufaktura və s. idxalını gücləndirməklə yerinə yetirə bilər"*. Əmrdə qeyd olunurdu ki, bu işin həyata keçirilməsinə maneçilik törədənlər ən sərt şəkildə cəzalandırılacaqlar [212, 1921, 18 марта] .

Xarici ticarət komissarı Teymur Əliyevin 1921-ci ilin martında Ənzəlidəki nümayəndəliyin sədr müavini Axundova göndərdiyi məktubda neftin İran valyutası ilə və komissarlığın təyin etdiyi qiymətə satılması haqqında göstəriş verilmişdi [46, 61].

RSFSR hökumətinin Azərbaycanın İranla ticarət əlaqələrini öz maraqlarına tabe etdirmək niyyəti açıq-aşkar hiss edilirdi. RSFSR XXTK-nın Gilan-Mazandaran şöbəsinin rəisi M.Kryannikov 1921-ci il 10 aprel tarixli məktubunda Azərbaycan, Dağıstan və İrandakı Müvəkkili Bibikova yazırdı: *"Sizə məlumat vermək istəyirəm ki, bizim Azərbaycanın Xarici Ticarət Komissarlığı ilə əməkdaşlıq aparmaq haqqında dəfələrlə etdiyimiz müraciətə baxmayaraq, sonuncu bizim təklifimizi cavabsız qoymuşdur"*. Sonuncu müraciətində Rusiya xarici ticarət idarəsinin nümayəndəsi İran bazarında hər iki respublikanın maraqlarının üst-üstə düşdüyünü əsas gətirərək, təklif etdirdi ki, birgə keçiriləcək müşavirədə aşağıdakı məsələlərin müzakirə mövzusu ola bilər: 1) RSFSR və ASSR ticarət idarələrinin qarşılıqlı münasibətləri; 2) ticarət siyasəti; 3) ixrac mallarının reallaşdırılması; və 4) İranın şəhər və vilayətlərindən düyünün tədarük edilməsi [3, 18-19].

Azərbaycanın şimal və qərb sərhədlərində fəaliyyət göstərən gömrükxanalardan əhəmiyyətli miqdarda gömrük gəlirləri daxil olurdu. 1922-ci ilin təkcə avqust ayı ərzində müxtəlif rüsum və vergi yığımları hesabına Qazax xəzinədarlığına 4 mlrd. rubl köçürülmüşdü. Bundan əlavə, Ağstafa gömrük məntəqəsində yoxlama aparan maliyyə müfəttişi N.Vasilyevin məlumatında göstərilirdi ki, məntəqənin anbarında Azərbaycandan çıxarılan valyuta tutumlu mallardan natura şəklində alınan 10 faizlik rüsum hesabına 12 mlrd. Rubl dəyərində ipək və qara kürü yığılıb qalmışdı.

Azərbaycan SSR-in müstəqil gömrük siyasəti yeritmək cəhdləri və burada yığılan gömrük gəlirlərinin artması sovet rəhbərliyinin etirazına

səbəb olurdu. 1921-ci il avqustun 21-də "Zaqvneştorq"dan Azərbaycan SSR XKS-nin sədri Q.Musabəyova ünvanlanan teleqramda göstərilirdi: *"Bakı gömrükxanasında "Zaqvneştorq"un mallarından gömrük rüsumu tutulur ki, bu da onun əsas vəzifələri ilə ziddiyyət təşkil edir. Xahiş edirik belə bir rüsumun ləğv edilməsi haqqında qəti göstəriş verəsiniz. Kollegiya üzvü Virap"* [3, 42, 190, 195, 304].

1920-1921-ci illərdə gömrük rüsumları şöbəsinin əməkdaşları əsasən Azərbaycan Xalq Cümhuriyyətinin gömrük təşkilatlarında çalışan "köhnə" mütəxəssislərdən ibarət idi. Şöbənin rəisi əvvəllər olduğu kimi A.T.Qolovan, dəftərxana müdiri N.Q.Flyaçinski, onun müavini B.B.Qadzyatski təyin edilmişdi. Milli tərkibi ruslardan təşkil edilən 9 nəfər əməkdaşın aylıq əmək haqqının ödənilməsinə 44 min manat vəsait ayrılmışdı. Yalama gömrükxanasının rəisi

İ.C.Kuç, nəzarətçi Kolasson təyin edilmişdi. Əksinə, respublikanın 2-ci ən böyük gömrük müəssisəsi olan Ağstafa gömrükxanasının şəxsi heyətinin milli tərkibi 1920-ci il iyun ayından başlayaraq, ləğv edilənə kimi (dekabr, 1922-ci il) tamamilə azərbaycanlı əməkdaşlar (cəmi 8 nəfər) olmuşdur. Gömrükxananın rəisi Məmməd bəy Pepinov, nəzarətçilər Qasım bəy Xanlarov və Seyid ağa Xəlilov idi. Yuxarı Kür gömrük postunun rəisi Qulam Rza Babaşov, nəzarətçilər Əbdül Hair Şifiyev, Rüstəm Qurbanov və Məhərrəm Qənbərov idi. Hələ AXC-nin Maliyyə naziri R.Qaplanov tərəfindən 1920-ci il martın 20-də Lənkəran gömrükxanasının rəisi vəzifəsindən azad edilən Mir İsmayıl Talışxanov mayın 10-da vəzifəsinə bərpa edilmiş və Bakı İnqilab Komitəsinin 17 may tarixli yığıncağının qərarı ilə aylıq əmək haqqı 4500 manat müəyyən edilmişdi. Məmməd bəy Pepinovun ailə vəziyyət nəzərə alınaraq, Ağstafa gömrükxanasının rəisi vəzifəsindən çıxarılaraq Balakən gömrükxanasına rəis təyin edilmişdi. Sərhəddə hərbi vəziyyətin gərginliyi nəzərə alınaraq fəaliyyəti müvəqqəti dayandırılan Mazımçay postunun rəisi Lositski də iyunun 15-də Balakən gömrükxanasına göndərilmişdi [9, 23, 65, 154].



*Mir Cəfər Bağırov (1896-1956)*

Bununla yanaşı, Bakı gömrükxanasının rəhbər heyətinin "ruslaşdırılması" faktını qeyd etmək lazımdır. Bakı gömrükxanasına 1920-ci ilin may ayından başlayaraq peşə-

kar gömrük məmuru L.Budzınski başçılıq edirdi. Maliyyə komissarının müvafiq əmrləri ilə iyun ayında Q.Xersonski, İ.Ananyev və S.Şerbak 3-cü dərəcəli nəzarətçi vəzifələrinə təyin edilmişdilər. 1920-ci il iyunun 5-də "ailə vəziyyətinin nəzərə alınaraq işdən çıxarılması" haqqında müraciət edən R.Zeynalbəyovun əvəzinə bir vaxtlar Bakı Xalq Komissarları Sovetinin hakimiyyət olduğu dövrdə Bakı gömrükxanasında gəmi və pakhauz nəzarətçisi vəzifəsində çalışan, Sentrokaspi diktaturası dövründə isə xidmətdən qovulan A.Ryabçikov təyin edilmişdi [7, 83].

Siyasi mövqelərinə görə əməkdaşların təqiblərə məruz qalması gömrük xidmətindən də yan keçmirdi. Müəyyən bəhanələrlə gömrük nəzarətçiləri həbs edilir, ya da fiziki təzyiqlərlə üzləşirdilər. Məsələn, Azərbaycan SSR Fövqəladə Komissiyası kollegiyasının sədri M.C.Bağırov Nəriman Nərimanovun siyasi baxışlarını müdafiə etdiyinə görə 1921-1922-ci illərdə Bakı gömrükxanasının rəisi olmuş Əbdül Baqi Məmmədzadə ilə açıq surətdə ədavət saxlayırdı. Bağırovun göstərişi ilə "çekistlər" mütəmadi olaraq Bakı gömrükxanası nəzarətçilərinin normal fəaliyyətinə kobud müdaxilələr edirdilər. Bu hadisələrin şahidi, Nəriman Nərimanovun siyasi həmfikiri olan Əhməd Əhmədovun Dövlət Siyasi İdarəsinin zindanlarında saxlanarkən verdiyi ifadələr və xatirələri əsasında tərtib olunmuş "1918-1925-ci illərdə Azərbaycanda milli hərəkat və ictimai xadimlər şahid gözü ilə" adlı kitabda M.C.Bağırovla Bakı Gömrükxanasının rəisi arasında yaranan münaqişədən bəhs edilir. Aydın olur ki, Əliheydər Qarayevin birbaşa razılığı əsasında gömrükxana rəisi ixrac edilən mallardan natura şəklində alınan və Bakı gömrükxanasının anbarlarında saxlanılan ərzaq məhsullarının bir hissəsi (Azərbaycan sovet hökumətinin qərarı ilə buğda, düyü, qənd, çay və s. mallardan gömrük vergisi natura ilə alınırdı) hərbi məktəbin ərzaqla təchizatına ayrılırdı. Bunu qanun pozuntusu hesab edən M.C.Bağırovun göstərişi ilə Əbdül Baqi Məmmədzadə Maliyyə komissarının 1 aprel 1922-ci il tarixli 951 nömrəli əmrlə gömrük xidmətindən uzaqlaşdırıldı [156, 95-98].

Azərbaycan SSR-in şimal sərhədlərində gömrük məntəqələrinin fəaliyyətinin dayandırılması gündəmə gəldi. Ali İqtisad Şurasının sovet respublikalarının sərhədindəki gömrük müəssisələrinin ləğv edilməsi haqqında 11 iyul 1921-ci il tarixli qərarından sonra Azərbaycan Gömrük idarəsinin əmri ilə fəaliyyəti dayandırılan Ağstafa gömrükxanası üzrə 26 nəfər, Yalama gömrükxanası üzrə 15 nəfər, Salahlı, Şıxlı, Poylu və Cəfərli gömrük məntəqələri üzrə müvafiq olaraq 3, 6, 2, və 3 nəfər xidmətdən azad edildi. Bakı gömrükxanasının yeni ştat cədvəlində əməkdaşların sayı 107 nəfər nəzərdə tutulduğundan Gömrük idarəsinin 15 sentyabr 1921-ci il tarixli 109 nömrəli əmri ilə 41 nəfər işdən çıxarıldı. Ştat cədvəlində cəmi 70 nəfər gömrük yoxlayıcısı saxlanıldı. Vəzifədən azad edilən gömrükxana rəisi L.Budzinskinin əvəzinə Əhməd Düdənginski təyin edildi.

Həmin dövrdə İranla geniş sərhəd xəttinə malik Naxçıvanda gömrük xidmətinin fəaliyyəti diqqət mərkəzində saxlanılırdı. Naxçıvan SSR vilayət xarici ticarət idarəsi 1922-ci il 28 yanvar tarixli kollegiya yığıncağında qaçaqmalçılıq hallarının çoxalmasını nəzərə alaraq İranla sərhəddə yerləşən gömrük məntəqələrinin gücləndirilməsi məsələsini müzakirə etmişdi. Culfa və Naxçıvandakı gömrükxanalara ümumi nəzarət edilməsi xarici ticarət idarəsinin Təbriz kontoruna tapşırılmışdı. Gömrük məntəqələrinə bir neçə nəfər dövlət qulluqçusu ezam edilmişdi. Naxçıvan SSR Xalq Komissarları Sovetinin 1922-ci il 8 aprel tarixli yığıncağında Naxçıvanın Cənubi Qafqaz Xarici Ticarət İdarəsi ilə münasibətlərini nizamlamaq və digər başqa məsələlərdə maraqlarını müdafiə etmək məqsədilə xüsusi nümayəndənin Tiflisə ezam edilməsi üçün 60 mln. manat vəsait ayrılması qərara alınmışdı. 1922-ci il 26 may tarixli yığıncaqda Qafqaz Ordusu Hərbi İnqilab Komitəsinin xüsusi şöbəsinin sərhəd gömrük məntəqələrində əhali tərəfindən mal keçirilməsinin qarşısının alınması haqqında müraciətinə baxılmışdı. Məsələ geniş tərkibdə müzakirə edilmiş və əlavə rüsumların tətbiqi hesabına gömrük gəlirlərinin artırılması üçün təxirəsalınmaz tədbirlərin görülməsi qərara alınmışdı.İran ərazisindən qayıdan köçkün Naxçıvan sakinlərindən tutulan və Naxçıvan SSR Xalq Komissarları Sovetinin həmin ilin aprel ayının 24-dən tətbiq olunan gömrük rüsumu Xalq Komissarları Sovetinin sədri A.Qədimovun təklifi ilə 1922-ci il 6 may tarixli 27 saylı qərarına əsasən müvəqqəti olaraq dayandırılmışdı. Lakin mərkəzin təlimatı ilə bir müddət İrandan Naxçıvana qayıtmaq istəyən yerli sakinlərin gömrükxanadan buraxılmasına müvəqqəti qadağa tətbiq edilmişdi.

Naxçıvan SSR Xalq Komissarları Şurasının 3 may 1923-cü ildə Zülfüqar Seyidbəylinin sədrliyi ilə keçirilən iclasında Naxçıvan ərazisindəki gömrükxanalardan daxil olan rüsumların yerli xəzinədarlığa köçürülməsi haqqında məsələyə baxılmışdı. Həmin dövlət orqanının 10 avqust 1923-cü ildə tarixli iclasında isə Xalq Maarif komissarlığı kollegiyasının Naxçıvan gömrükxanasına daxil olan gömrük yığımlarının bir hissəsinin yerli təhsil ocaqlarının ehtiyacına ayrılması haqqında müraciətinə baxılmışdı. Lakin məlum səbəblərə görə bu məsələ müsbət həllini tapmamışdı [85, 112, 127-133; 165,40].

Naxçıvan MSSR Xalq Komissarları Şurasının 1925-ci il 22 iyul tarixli iclasında Alışar və Bulqan gömrük məntəqələrinin fəaliyyət zonasında Araz çayı üzərində bərə və qayıqlardan istifadə edilməsi məsələsinə baxılmış, 12 dekabr tarixli yığıncaqda Naxçıvan gömrükxanasının rəisi Lətifovun hesabatı dinlənilmişdi. Gömrük işi ilə bağlı qəbul edilən qərarda göstərilirdi: 1) müsadirə olunmuş zəruri istehlak mallarının Naxçıvan gömrükxanası işçilərinə ayda bir dəfə ucuz qiymətə satılması Zaqafqaziya Gömrük İdarəsindən xahiş edilsin; 2) Naxçıvan kommunal təsərrüfatı idarəsinə Bulqan gömrük məntəqəsi ərazisində Araz çayı üzərində bərə keçidinin

tikilməsi təklif olunsun; 3) Naxçıvan gömrükxanası kənd sovetləri və yerli milis orqanlarını qaçaqmalçılıq cinayətinə görə məsuliyyəti müəyyənləşdirən təlimatlarla təmin etsin [166, 32; 167, 65].

Dövlət idarələrində yazışmaların milli dildə aparılması barədə Azərbaycan sovet hökumətinin tədbirləri gömrük müəssisələrini də əhatə edirdi. Respublikanın bütün gömrük müəssisələrinə göndərilən 13 fevral 1922-ci il tarixli 271 nömrəli məktubda göstərilirdi ki, Azərbaycan SSR XKS-nin dekretinə əsasən idarə və müəssisələrdən rus dilində daxil olan bütün rəsmi məktub və hesabatların türk (Azərbaycan) dilində yazılmış mətnidə əlavə edilməlidir. Məktub Gömrük idarəsinin rəisi, müəssisələrin milliləşdirilməsi üzrə fövqəladə beşliyin üzvlərindən olan Ə.Məmmədzadə tərəfindən imzalanmışdı [11, 7].

Xalq təsərrüfatının bərpa edilməsi ilə daxili istehsalın genişlənməsi və xarici ticarətdə müşahidə olunan inkişaf meylləri gömrük nəzarətinin hüquqi-normativ bazasının təkmilləşdirilməsini tələb edirdi. Bunsuz gömrük siyasətinin mövcudluğundan söhbət gedə bilməzdi. Azərbaycan SSR hökuməti gömrük işinin təşkilində 1922-ci ilin fevralına qədər RSFSR-in, bir çox hallarda Rusiya imperiyasının 1903-cü il gömrük tarifi və 1917-ci ilə qədər dərc edilən digər sənədlərdən istifadə edirdi.

1922-ci ilin aprelində Azərbaycan SSR XKŞ və Xalq Maliyyə Komissarlığı "Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsasnamə"ni təsdiq etdi. Gömrük hissəsi Gömrük İdarəsi adlandırıldı və Maliyyə Komissarlığının tərkibinə verildi. Əsasnamədə göstərilirdi ki, *"xalq komissarlıqlarının xarici ticarət, ərzaq malları, valyuta və valyutaya satılan malların və digər predmetlərin idxal və ixracının tənzimlənməsi məqsədi ilə yürütdüyü iqtisadi siyasətin həyata keçirilməsi sahəsində tədbirlərin görülməsi"* Gömrük İdarəsinə tapşırılır [32, 1].

***Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsasnamə***
*1922-ci il aprelin 23-də təsdiq edilmişdir*

***Ümumi əsaslar***

*1. Azərbaycan SSR-in Gömrük xidməti Gömrük idarəsi adı altında Xalq Maliyyə Komissarlığının tərkibindədir.*

*2. Heç bir mülki və hərbi hakimiyyət gömrük müəssisələrinin səlahiyyət dairəsinə daxil olan fəaliyyətinə və qəbul etdikləri qərarlara müdaxilə etməyə səlahiyyəti yoxdur. Əksinə, bütün hakimiyyət bu müəssisələrin fəaliyyəti ilə bağlı olan qanuni tələblərinə tam köməklik göstərməyə borcludur.*

***Fəaliyyətin predmetləri***

*3. Gömrük idarəsi Xalq komissarlığı tərəfindən həyata keçirilən bütün iqtisadi siyasətin, xalq komissarlıqlarının xüsusi təlimatlarında göstərilən qaydada xarici ticarət, ərzaq, xarici valyuta, valyuta tutumlu mallar və digər əşyaların idxal və ixracının nizamlanmasına yönəldilmiş tədbirləri həyata keçirir.*

*4. Maliyyə Komissarlığının gömrük nəzarəti ilə bağlı bütün qərar və sərəncamlarının həyata keçirilməsi, Azərbaycanın gömrük xidmətinin idarə edilməsi, həmçinin Azərbaycanın bütün gömrük müəssisələri üzərində birbaşa nəzarət Gömrük idarəsi rəisinin vəzifəsinə daxildir.*

***İdarənin tərkibi***

*Gömrük idarəsi rəis, tabeliyindəki köməkçilər və zəruri ştat sayında dəftərxanadan ibarətdir.*

*5. İdarə rəisinin köməkçiləri (onlardan biri müavin) respublika gömrük xidmətinin idarə edilməsində onun bilavasitə əməkdaşları olub, eyni zamanda rəisin göstərişi ilə gömrük müəssisələrinin təftişini həyata keçirirlər.*

*6. Gömrükxanaların əsas funksiyası aşağıdakılardır: a) müəyyən edilmiş xüsusi qaydalar əsasında sərhəddən keçən sərnişinləri və onların əl yüklərinin yoxlanılması; b) Maliyyə Komissarlığının sərəncamları əsasında leqal surətdə daşınan idxal və ixrac mallarının qəbulu, qeydiyyatının aparılması, mühafizəsi və sonrakı ünvanına göndərilməsi, həmçinin müvafiq gömrük ödənişlərinin yığılması; c) qeyri-leqal idxal-ixrac əməliyyatlarında müsadirə edilən malların qeydiyyatının dəqiq və səlis aparılması və mühafizəsi, müsadirə faktları barəsində işlərin açılması və bu mallar haqqında müvafiq sərəncam və göstərişlərin verilməsi.*

*7. Gömrük müəssisələri fəaliyyət dairəsinin həcminə görə 1-ci, 2-ci və 3-cü dərəcəli gömrükxanalara və gömrük-buraxılış postlarına ayrılır.*

*Qeyd 1: Xalq Maliyyə Komissarlığına gömrükxanaları aşağı dərəcədən yuxarı dərəcəyə və ya əksinə keçirmək səlahiyyəti verilir.*

*Qeyd 2: Buraxılış postlarından yalnız sərnişinlər və onların əl yüklərinin keçirilməsinə icazə verilir. Malların idxal və ixracı yalnız gömrükxanalarda həyat keçirilir.*

*8. Gömrük müəssisələrinin şəxsi heyəti rəisdən (gömrükxanalarda) və ya müdirdən (buraxılış postlarında) və zəruri ştat sayında qulluqçulardan ibarətdir.*

*Qeyd: Hər bir müəssisədə qulluqçuların say tərkibi Gömrük idarəsinin təqdimatı ilə Maliyyə komissarı tərəfindən dəyişdirilə bilər.*

*9. Müəssisənin qanunauyğun və düzgün fəaliyyətinə rəis (müdir) məsuliyyət daşıyır.*

*10. Gömrük idarəsinin rəisinin, onun köməkçilərinin, 1-ci dərəcəli gömrükxana rəisinin, onların köməkçilərinin və müfəttişlərin işə qəbulu və azad edilməsi Xalq Maliyyə Komissarlığı tərəfindən həyata keçirir.*

*11. Məzuniyyətə göndərmək hüququ Gömrük idarəsinin rəisinin səlahiyyətidir.*

***Qaçaqmalçılıq haqqında***

*12. Qeyri-leqal idxal və ixrac əməliyyatlarında saxlanılan mal və əşyaların məsələsinə gömrükxanada baxılır, qəbul edilən qərar barəsində iki həftə ərzində Gömrük idarəsinin rəisinə, sonuncunun qərarı barəsində şikayət Xalq Maliyyə Komissarlığına verilə bilər.*

*13. Açıq surətdə və ya gizli yolla keçirilməsinə cəhd edilən qaçaqmallar, harada aşkar edilməsindən asılı olmayaraq dərhal gömrükxanaya gətirilməlidir.*

*14. Gömrükxanaya gətirilən mallar, qaçaqmal hesab edilərək, cərimə tətbiq olunmadan müsadirə edilir və haqqında qəbul edilən qərar hüquqi qüvvəyə mindikdən sonra gömrükxana nəzdində aşıq ticarətdə satılır.*

*15. Satışdan əldə edilən pulların 50 faizi xəzinənin nəfinə yönəldilir, 30 faizi mükafat şəklində qaçaqmalı aşkar edən və ələ keçirən şəxslərə, 20 faizi isə gömrükxana əməkdaşlarına verilir.*

*16. Xalq Maliyyə komissarına əsasnaməni təkmilləşdirmək, icra üçün təlimat və qaydalar dərc etmək səlahiyyəti verilir.*

| | |
|---|---|
| *XKS-nin sədr müavini* | *Qədirli* |
| *Xalq Maliyyə komissarı* | *H.Tağıyev* |
| *XKS-nin katibi* | *Qasımov* [29, 51-52]. |

Sənədə əsasən, Azərbaycan SSR-in gömrük xidməti Gömrük idarəsi adı altında Xalq Maliyyə Komissarlığının tərkibinə daxil edildi. Heç bir mülki və hərbi hakimiyyət subyektinə gömrük müəssisələrinin səlahiyyət dairəsinə daxil olan məsələlərə və qəbul etdikləri qərarlara müdaxilə etməyə icazə verilmirdi. Əksinə, bütün hakimiyyət qurumları gömrük işi ilə bağlı olan qanuni tələblərə tam köməklik göstərməyə borclu idi. Gömrük idarəsi Xalq Maliyyə Komissarlığının xüsusi təlimatlarında göstərilən qaydalar əsasında ərzaq, xarici valyuta, valyuta tutumlu mallar və digər əşyaların idxal və ixracının nizamlanmasına yönəldilmiş tədbirləri həyata keçirirdi. Gömrük İdarəsinin tərkibi rəisdən, onun tabeliyində olan köməkçilərdən və zəruri ştat sayında dəftərxanadan ibarətdir. İdarə rəisinin köməkçiləri (onlardan biri müavin) respublika gömrük xidmətinin idarə edilməsində onun bilavasitə əməkdaşları olub, eyni zamanda rəisin göstərişi ilə gömrük müəssisələrinin təftişini həyata keçirirdi. Komissarlığının gömrük nəzarəti ilə bağlı bütün qərar və sərəncamlarının həyata keçirilməsi, Azərbaycanın

gömrük xidmətinin idarə edilməsi, gömrük müəssisələri üzərində birbaşa nəzarət Gömrük idarəsi rəisinin vəzifəsinə daxil idi.

Gömrükxanaların əsas funksiyasına daxil idi: a) müəyyən edilmiş xüsusi qaydalar əsasında sərhəddən keçən sərnişinlərin və onların əl yüklərinin yoxlanılması; b) Maliyyə Komissarlığının sərəncamları əsasında leqal surətdə daşınan idxal və ixrac mallarının qəbulu, qeydiyyatının aparılması, mühafizəsi və sonrakı ünvanına göndərilməsi, həmçinin müvafiq gömrük ödənişlərinin yığılması; c) qeyri-leqal idxal-ixrac əməliyyatlarında müsadirə edilən malların qeydiyyatının dəqiq və səlis aparılması və mühafizəsi, müsadirə faktları barəsində işlərin açılması və bu mallar haqqında müvafiq sərəncam və göstərişlərin verilməsi. Gömrük müəssisələri fəaliyyət dairəsinin həcminə görə 1-ci, 2-ci və 3-cü dərəcəli gömrükxanalara və gömrük-buraxılış postlarına ayrılırdı. Xalq Maliyyə Komissarlığına gömrükxanaların statusunu aşağı dərəcədən yuxarı dərəcəyə və ya əksinə keçirmək səlahiyyəti verilirdi. Buraxılış postlarından yalnız sərnişinlər və onların əl yüklərinin keçirilə bilərdi. Malların idxal və ixracının rəsmiləşdirilməsi və sərhəddən buraxılışı yalnız gömrükxanalarda həyata keçirilirdi. Əsasnaməyə görə, qeyri-leqal idxal və ixrac əməliyyatlarında saxlanılan mal və əşyaların məsələsinə gömrükxanada baxılır, qəbul edilən qərar barəsində iki həftə ərzində Gömrük idarəsinin rəisinə, sonuncunun qərarı barəsində şikayət Xalq Maliyyə Komissarlığına verilirdi. Açıq surətdə və ya gizli yolla keçirilməsinə cəhd edilən mallar, harada aşkar edilməsindən asılı olmayaraq, dərhal gömrükxanaya gətirilirdi. Gömrükxanaya gətirilən mallar, qaçaqmal hesab edildikdə, cərimə tətbiq olunmadan müsadirə edilir və haqqında qəbul edilən qərar hüquqi qüvvəyə mindikdən sonra gömrükxana nəzdində açıq hərracda satılırdı. Satışdan əldə edilən pulların 50 faizi xəzinəyə yönəldilir, 30 faizi mükafat şəklində qaçaqmalı aşkar edən və ya ələ keçirən şəxslərə, 20 faizi isə gömrükxana əməkdaşlarına verilirdi [29, 51-52].

Hər bir gömrük müəssisəsində qulluqçuların say tərkibi Gömrük idarəsinin təqdimatı ilə Maliyyə komissarı tərəfindən dəyişdirilə bilərdi. Gömrük idarəsinin rəisinin, onun köməkçilərinin, 1-ci dərəcəli gömrükxana rəisinin, onların köməkçilərinin və müfəttişlərin işə qəbulu və azad edilməsi Xalq Maliyyə Komissarlığının müvafiq əmri ilə həyata keçirilirdi.

Azərbaycan SSR XKS-nin 1922-ci il 23 aprel tarixli qərarla "Azərbaycan SSR gömrükxanalarından malların ixrac və idxal Qaydaları haqqında" təlimat təsdiq edildi. Gömrük tənzimlənməsi qaydaları bu sənəddə sovet respublikalarından daxil olan mallara loyallığı ilə fərqlənirdi:

**Azərbaycan SSR-in gömrük müəssisələrindən malların ixrac və idxal qaydaları**

***I. İdxal***

***Sovet respublikalarından ixrac***

*1.1. Azərbaycan SSR ərazisinə sovet respublikalarından ixrac edilən mallar gömrük rüsumuna və baxışına cəlb olunmur.*

*Qeyd: 1) Əgər xarici ölkədən daxil olan poçt bağlamasına görə qonşu sovet respublikasının gömrükxanasında rüsum tutulubsa, onda Azərbaycan SSR-də gömrük baxışına və rüsumuna cəlb edilmir.*

*2) Ərzaqla yüklənmiş türkmən qayıqları gömrük rüsumundan azad edilmir.*

***İrandan idxal***

*1.2. İrandan bütün malların idxalı gətirilən malların miqdarına görə pulla və ya natura ilə 10 faizlik gömrük rüsumu ödənilməklə sərbəstdir.*

***II. İxrac***

***Sovet respublikalarına malların ixracı***

*2.1. Azərbaycan SSR-dən sovet respublikalarına Xalq Ərzaq Komissarlığının siyahısında göstərilən ərzaq məhsulları, müvafiq komissarlıqlarının ixracına icazə verdiyi valyuta tutumlu mallar, şərab və spirtli içkilər, texniki materiallar istisna olmaqla, bütün malların daşınması sərbəst həyata keçirilir və rüsum ödənilməsindən azad edilir.*

*2.2. Ərzaq Komissarlığının siyahısında olan ərzaq məhsullarının daşınmasına həmin komissarlıq icazə verdiyi halda gömrük rüsumuna cəlb edilir. "Çentrsoyuz", "Azərittifaq", Hərbi kooperativ və "Vneştorq"a daşınan ərzaq məhsullarına görə heç bir güzəşt tətbiq edilmir. Texniki materiallar Azərbaycan XTŞ-nin razılığı ilə rüsum tutulmadan buraxılır.*

*2.3. Şərab və spirtli içkilər gömrük rüsumu alınmadan, ancaq aksiz tutularaq buraxılır.*

*2.4. Valyuta tutumlu mallar Gömrük idarəsinin razılığı ilə, 8-23.04.1922-ci ildə təsdiq edilmiş cədvəllər üzrə daşınır.*

*2.5. Gömrük rüsumu tutulmadan ixrac edilən bütün malların nəqli haqqında gömrükxanaya ərizə verilir.*

*2.6. Hər bir sərnişinin özü ilə müəyyən edilmiş norma üzrə ərzaq məhsullarının daşınmasına gömrük rüsumu tutulmadan icazə verilir.*

***İrana malların ixracı***

*2.7. İrana bütün malların ixracı, müvafiq xalq komissarlıqlarının icazəsi tələb olunan mal-qara, taxıl və neft məhsulları, texniki materiallar istisna olaraq, pulla və ya natura ilə 10 faiz həcmində rüsum ödənməklə aparılır.*

*Qeyd: Bu adda malların ixracı üçün ixracatçı tərəfindən gömrükxanaya ərizə təqdim edilir.*

*2.8. İrana gedən hər bir sərnişinə sərbəst surətdə və gömrük rüsumu ödəmədən özü ilə 10 funt ağırlığında çörək, 2 funt qənd və ya konfet, ¼ funt çay, 1 funt yağ və pendir, 100 ədəd papiros aparmasına icazə verilir.*

*2.9. Hər bir ailəyə mebeldən, böyük güzgüdən, musiqi alətləri və tikiş maşınlarından başqa, 1 ədəd xalça daxil olmaqla ev əşyalarının maneəsiz və rüsumsuz buraxılmasına icazə verilir .*

*Qeyd 1: Mebel və digər avadanlıqlarının daşınmasına Gömrük idarəsi tərəfindən icazə verilir.*

*Qeyd 2: Musiqi alətlərinin buraxılmasına Xalq Maarif Komissarlığı razılıq verir.*

*Qeyd 3: Müvafiq sənət sahiblərinə məxsus nəfəsli və simli kiçik musiqi alətləri xüsusi icazə olmadan və rüsumsuz buraxılır.*

*2.10. Hər bir sərnişinin özü ilə sərbəst və rüsum ödəmədən 18 zolotnik qızıldan və 1 funta qədər gümüşdən olan zinət əşyaları aparmasına icazə verilir, eyni zamanda hərəsindən bir ədəd olmaqla, saat, üzük, siqaret qutusu, qadın bəzəkləri bu normaya daxil deyil və maneəsiz buraxılır.*

***I və II bölmələrə aid ümumi qeydlər***

*Qeyd 1: Xüsusi hərbi yüklər gömrük baxışı və rüsumuna cəlb edilmir.*

*Qeyd 2: Dövlət, kooperativ, hərbi təşkilat və müəssisələrin İrana idxal etdiyi və Azərbaycan SSR hüdudlarından bu ölkəyə ixrac etdiyi mallar gömrük rüsumundan azad edilmir. Bu qayda Cənubi Qafqaz respublikalarının ticarət idarələrinin, RSFSR xarici ticarət idarəsinin, "Kaspmortrans"ın, "Sentrsouz"un, ümumiyyətlə Rusiyanın bütün vilayət kooperativlərinin mallarına tətbiq edilmir.*

*Qeyd 3: Bütün idxal və ixrac mallarından rüsumlar natura ilə tutulur, lakin aşağıda göstərilən mallardan rüsumun pulla alınmasına icazə verilir: hər cür təzə meyvə, qoz-fındıq, püstə, bal, Mazandaran qəndi, qənnadı məhsulları, sirkə, meyvə şirəsi, duz, ət və balıq (müxtəlif növdə), pendir, yağ, mal-qara və quş, yumurta, taxtadan tara və qutular, lampa şüşəsi, maşın yağı, xına, kağız makulatura.*

*Qeyd 4:10 puddan az miqdarda idxal edilən mallardan rüsum pulla ödənilə bilər.*

***III. Gömrük rəsmiləşdirməsi və yığımları***

*3.1. Malların gömrük baxışından keçirilməsi və nəticələrinin xüsusi tərtib edilmiş kitablara qeyd edilməsinin mövcud qaydaları dəyişdirilmir.*

*3.2. Gəmilərə baxış keçirilməsi qaydalarında dəyişiklik edilmir, sovet respublikalarının limanlarından daxil olan və bu limanlara gedən gəmilər kabotaj hesab edilir.*

*3.3. İdxal mallarına daxil olan tütün, çay, kibrit, papiros və dəftərxana kağızı bağlamalarına gömrükxanada icbari qaydada möhür (damğa) vurulur.*

*3.4. Boşaldılıb gömrük anbarlarına, pakhauzlara, körpülərə və gömrükxana ərazisinə yığılan mallar yeddi gün ərzində anbar rüsumundan azad olunur, bu müddət ötdükdən sonra anbar rüsumuna cəlb edilir.*

*3.5. Azərbaycan SSR-in gömrükxanalarında idxal malları aşağıdakı yığımlara cəlb olunur:*

*a) gömrük anbarlarında saxlanılan hər pud yükə görə:*

*- 1 gün saxlamağa görə - 1000 manat*

*- 2 gün saxlamağa görə - 2000 manat*

*- 3 gün saxlamağa görə - 3000 manat*

*Anbar rüsumu malların saxlanma müddətinə müvafiq olaraq artır.*

*b) gömrük baxışı sənədlərinin tərtib edilməsinə görə malın dəyərinin 10 faizi həcmində rüsum tutulur.*

*c) möhürlənməyə görə yığımın həcmi dəyişdirilmir*

*d) yüklərə möhür vurulmasına görə yığım bir ədəd bağlamaya görə - 5 manat*

*e) hər baxışdan keçirilməyə görə məzuniyyət haqqı - 25 manat*

*ç) bağlamalara damğa vurulmasına görə - 100 manat*

*Qeyd: gömrükxanalarda mallara görə pud hesabı rüsumunun ödənilməsini nəzərdə tutan 1919-cu il 16 iyun tarixli qanun ləğv edilir.*

*Xalq Komissarları Sovetinin sədri* — *Qədirli*
*Xalq Maliyyə komissarı* — *H.Tağıyev*
*Katib* — *Qasımov* [29, 53-54].

*"Qaydalar"*a əsasən, AXC-nin hələ də qüvvədə saxlanılan (!) və gömrükxanalarda mallara görə pud hesabı rüsumunun ödənilməsini nəzərdə tutan 1919-cu il 16 iyun tarixli qanunu ləğv edilirdi. Göründüyü kimi, idxal malları iki qrupa bölünürdü: sovet respublikalarından idxal və İrandan idxal. Bundan əlavə, Azərbaycan SSR ərazisinə sovet respublikalarından ixrac edilən mallar gömrük rüsumuna və baxışına cəlb olunmurdu. Əgər xarici ölkədən daxil olan poçt bağlamasına görə qonşu sovet respublikasının gömrükxanasında rüsum tutulmuşdusa, onda həmin mallar Azərbaycan SSR-də gömrük baxışına və rüsumun tutulmasına cəlb edilmirdi. Yalnız ərzaqla yüklənilmiş türkmən qayıqları gömrük rüsumundan azad edilmirdi. İrandan bütün malların idxalı malların miqdarından asılı olaraq pulla və ya natura ilə 10 faizlik gömrük rüsumu ödənilməklə sərbəst həyata keçirilirdi.

Yeni qaydalara əsasən, Azərbaycan SSR-dən sovet respublikalarına Xalq Ərzaq Komissarlığının siyahısında göstərilən ərzaq məhsulları, müvafiq komissarlıqlarının ixracına icazə verdiyi valyuta tutumlu mallar,

şərab və spirtli içkilər, texniki materiallar istisna olmaqla, bütün malların daşınması sərbəst həyata keçirilir və rüsum ödənilməsindən azad olunurdu. Ərzaq Komissarlığının siyahısında olan ərzaq məhsullarının daşınmasına həmin komissarlıq icazə verdiyi halda gömrük rüsumuna cəlb edilirdi. "Çentrsoyuz", "Azərittifaq", "Hərbi kooperativ" və "Vneştorq" təşkilatları tərəfindən daşınan ərzaq məhsullarına görə heç bir güzəşt tətbiq edilmirdi. Bununla yanaşı, Azərbaycan XTŞ-nin razılığı ilə texniki təchizat materialları rüsum tutulmadan buraxılırdı. Şərab və spirtli içkilər gömrük rüsumu alınmadan, ancaq aksiz tutularaq buraxılırdı. Valyuta tutumlu mallar Gömrük idarəsinin razılığı ilə və təsdiq edilmiş cədvəllər üzrə daşınırdı. Sərnişinlərin özləri ilə müəyyən edilmiş normaya uyğun apardıqları ərzaq məhsullarına görə gömrük rüsumu tutulmurdu.

İrana bütün malların ixracı, müvafiq xalq komissarlıqlarının icazəsi tələb olunan mal-qara, taxıl və neft məhsulları, texniki materiallar istisna olmaqla, pulla və ya natura ilə 10 faiz həcmində rüsum ödənilməklə aparırdı. Bu malların ixracı üçün ixracatçı tərəfindən gömrükxanaya ərizə təqdim edirdi. İrana gedən hər bir sərnişinə sərbəst surətdə və gömrük rüsumu ödəmədən özü ilə 10 funt ağırlığında çörək, 2 funt qənd və ya konfet, ¼ funt çay, 1 funt yağ və pendir, 100 ədəd papiros aparmasına icazə verilirdi. Hər bir ailə mebeldən, böyük güzgüdən, musiqi alətləri və tikiş maşınlarından başqa, 1 ədəd xalça daxil olmaqla ev əşyalarını maneəsiz və rüsumsuz apara bilərdi. Mebel və digər avadanlıqlarının daşınmasına Gömrük idarəsi, musiqi alətlərinin buraxılmasına Xalq Maarif Komissarlığı razılığı tələb olunurdu. Müvafiq sənət sahiblərinə məxsus nəfəsli və simli kiçik musiqi alətləri xüsusi icazə olmadan və rüsumsuz buraxılırdı. Hər bir sərnişinin özü ilə sərbəst və rüsum ödəmədən 18 zolotnik qızıldan və 1 funta qədər gümüşdən olan zinət əşyaları aparmasına icazə verilir, eyni zamanda hərəsindən bir ədəd olmaqla, saat, üzük, siqaret qutusu, qadın bəzəkləri bu normaya daxil edilmir və gömrükdən maneəsiz buraxılırdı.

Azərbaycan SSR-in İranla ticarət əlaqələri Xarici Ticarət Komissarlığının bu ölkədəki nümayəndəliyi vasitəsi ilə tənzimlənirdi. 1920-1922-ci illərdə nümayəndəliyin rəhbəri (müvəkkil) vəzifəsinə Əhməd Məmmədov, daha sonra Əsədulla Axundov təyin olunmuşdu. Dövlət, kooperativ, hərbi təşkilat və müəssisələrin İrana idxal etdikləri və Azərbaycan SSR hüdudlarından bu ölkəyə ixrac etdikləri mallar gömrük rüsumundan azad edilmirdi. Gömrükxanada yalnız xüsusi hərbi yüklər gömrük baxışından keçirilmir və rüsuma cəlb olunmurdu. Bu qayda Cənubi Qafqaz respublikalarının ticarət idarələrinə, RSFSR xarici ticarət idarəsinə, "Kaspmortrans" və "Sentrsoyuz"a, ümumiyyətlə Rusiyanın bütün vilayət kooperativ idarələrinin ixrac mallarına tətbiq edilmirdi. Bütün idxal və ixrac mallarından rüsumlar natura ilə tutulurdu. Lakin bəzi mallardan, xüsusilə təzə meyvə, qoz-fındıq, püstə, bal, Mazandaran qəndi, qənnadı məhsulları,

sirkə, meyvə şirəsi, duz, ət və balıq (müxtəlif növdə), pendir, yağ, mal-qara və quş, yumurta, taxtadan hazırlanmış tara və yeşiklər, lampa şüşəsi, maşın yağı, xına, kağız makulaturadan gömrük rüsumunun pulla alınmasına icazə verilirdi.

Malların gömrük baxışından keçirilməsi və nəticələrinin xüsusi tərtib edilmiş kitablara qeyd edilməsi və gəmilərə baxış keçirilməsinin qüvvədə olan qaydaları olduğu kimi saxlanılırdı. Sovet respublikalarının limanlarından daxil olan və bu limanlara gedən gəmilər kabotaj hesab edilirdi. Gömrük sənədlərində yüklərin əsasən "Evelina", "Kaspi", "Karol Radek", "Tehran", "Tula", "Parizen", "Qorçakov", "Kekkum" adlı gəmilərlə daşınması haqqında məlumatlar vardır. Respublikanın ərzaq ehtiyatı ilə təchizatını qaydaya salmaq üçün Rəşt və Ənzəli limanlarından daşınan düyü, quru meyvə, xırda buynuzlu heyvanlar və digər ərzaq məhsulları əsasən "Cəngəl" Şurasından və Ehsanulla xan hökuməti ilə aparılan sövdələşmələrlə qızıl pul və neft məhsullarının mübadiləsi yolu ilə alınırdı.

Sözsüz ki, sovet gömrük siyasəti SSRİ-ni daxili və xarici siyasətinin təsiri ilə formalaşırdı. Bu siyasət sovet dövlətinin həm qanunverici, həm də normativ hüquqi aktlarında əks olunurdu. 1922-ci ildən sovet gömrük müəssisələri yeni tariflə işləməyə başladılar və 1924-cü ilə qədər davam etdi. Bu tarifə görə ölkəyə gömrük rüsumu tutulmadan kənd təsərrüfatı maşın və mexanizmlərinin, toxum və mineral gübrələrin gətirilməsinə, ölkədə istehsal olunmayan gübrə və zərərvericilərə qarşı vasitələrin gətirilməsinə yol verilirdi.

İdxal mallarına daxil olan tütün, çay, kibrit, papiros və dəftərxana kağızı bağlamalarına gömrükxanada icbari qaydada möhür (damğa) vurulurdu. Gömrük anbarları, pakhauzlar, körpülər və gömrükxana ərazisinə yığılan mallar yeddi gün ərzində anbar rüsumundan azad olunur, bu müddət ötdükdən sonra anbar rüsumuna cəlb edilirdi.

Azərbaycan SSR-nin gömrükxanalarında idxal malları aşağıdakı yığımlara cəlb olunurdu:

a) gömrük anbarlarında saxlanılan hər pud yükün saxlanılmasına görə:

- 1 gün saxlamağa - 1000 manat
- 2 gün saxlamağa - 2000 manat
- 3 gün saxlamağa - 3000 manat

Anbar rüsumu malların saxlanılma müddətinə müvafiq olaraq artırdı.

b) gömrük baxışı sənədlərinin tərtib edilməsinə görə malın dəyərinin 10 faizi həcmində rüsum tutulurdu.

c) möhürlənməyə görə yığımın həcmi dəyişdirilmir;

d) yüklərə möhür vurulmasına görə yığım bir ədəd bağlamaya görə - 5 manat;

e) hər baxışdan keçirilməyə görə məzuniyyət haqqı - 25 manat;

ç) bağlamalara damğa vurulmasına görə - 100 manat [29, 53-54].

Tədqiq olunan dövrdə gömrük xidmətində çalışan azərbaycanlıların sayının az və ya çox olması, bu sahədə rəhbər vəzifələrə irəli çəkilməsi haqqında məsələyə birmənalı yanaşmaq olmaz. Birincisi, bu sahənin spesifik xüsusiyyətləri əməkdaşlardan xüsusi təhsilə və bacarığa malik olmasını; ikincisi hərbi mükəlləfiyyət daşımasını, rus dilini, eləcə də digər xarici dili bilməsini və s. keyfiyyətləri tələb edirdi. Rusiya imperiyası dövründən başlayaraq, Cümhuriyyət dövründə və sovet rejimi zamanı ölkənin gömrük orqanlarında peşəkarcasına xidmət etmiş mütəxəssislərin vicdanlı fəaliyyətini inkar etmək olmaz. Əlbəttə, qeyd edilən şərtlərə uyğun olan azərbaycanlıların həm AXC dövründə, həm də sovet rejiminin müəyyən dövrlərində dövlət idarəetmə aparatında, o cümlədən maliyyə və gömrük sistemində işə qəbul edilirdilər. 1920-ci il mayın 29-da tərtib edilən ştat cədvəli Azərbaycandakı gömrükxanaların (Bakı gömrükxanası istisna olmaqla) statusu, şəxsi heyətin sayı və milli tərkibi haqqında məlumat əldə etməyə imkan verir:

1. 2-ci dərəcəli Ağstafa gömrükxanası, əməkdaşların sayı – 33 nəfər (7 vakant yer), onlardan 7 nəfər azərbaycanlı;
2. 2-ci dərəcəli Astara gömrükxanası, əməkdaşların sayı – 36 nəfər, onlardan 16 nəfəri azərbaycanlı;
3. 2-ci dərəcəli Balakən gömrükxanası, əməkdaşların sayı – 16 nəfər (3 vakant yer), onlardan 8 nəfəri azərbaycanlı;
4. 2-ci dərəcəli Lənkəran gömrükxanası, əməkdaşların sayı – 17 nəfər (1 vakant yer), onlardan 9 nəfəri azərbaycanlı;
5. 3-cü dərəcəli Biləsuvar gömrükxanası, əməkdaşların sayı – 7 nəfər (3 vakant yer), onlardan 3 nəfəri azərbaycanlı;
6. 3-cü dərəcəli Muğanlı gömrükxanası, əməkdaşların sayı – 4 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;
7. 2-ci dərəcəli Yalama gömrükxanası, əməkdaşların sayı – 17 nəfər (6 vakant yer), onlardan 5 nəfəri azərbaycanlı;
8. Qızıl-Ağac gömrük postu, əməkdaşların sayı – 4 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;
9. Qabaqçöl gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;
10. Mazımçay gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;
11. Poylu gömrük postu, əməkdaşların sayı – 4 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;
12. Salahlı gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan hamısı azərbaycanlı;
13. Yuxarı Kür gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan 2 nəfəri azərbaycanlı;

14. Çaxmaqlı gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan hamısı azərbaycanlı;

15. Şıxlı gömrük postu, əməkdaşların sayı – 3 nəfər, onlardan 2 nəfəri azərbaycanlı [10, 4-7].

Digər gömrükxanalar, bir qayda olaraq rəis, dəftərxana işlərini aparan kargüzar və yoxlayıcılardan ibarət azsaylı şəxsi heyətə malik idi. Məsələn, 1921-ci ildə Biləsuvar gömrükxanasının tərkibi rəis, 2 dəftərxana işçisi və cəmi 5 nəfər yoxlayıcıdan ibarət idi. Poylu, Şıxlı və Salahlı gömrük postlarının heyəti 1-2 nəfərdən ibarət idi.

Gömrük nəzarətçilərinin ixtisaslarının artırılması, xüsusilə Azərbaycan (türk) dilini və xarici dilləri mənimsəməsi üçün tədbirlər görülürdü. Bakı gömrükxanası rəisinin 29 aprel 1924-cü il tarixli əmri ilə əməkdaşlara türk dilinin nəzəri və praktik cəhətdən öyrədilməsi üçün kurslar təşkil edilmişdi [37, 64].

Xalq Maliyyə Komissarlığının 1922-ci il 2 aprel tarixli 574 saylı sərəncamı ilə Gömrük idarəsinin rəisi Əbdül Baqi Məmmədzadə cari ilin aprelin 1-dən tutduğu vəzifədən azad edilmiş və onun yerinə Əhməd Rzayev təyin edilmişdi. Onun təqdimatı ilə bundan öncə Moskva XTŞ-nin əməkdaşı olmuş, iqtisad elmləri namizədi Musa Səlimov Gömrük idarəsinin rəis müavini vəzifəsinə təyin edilmişdi [21, 10].

Yük dövriyyəsinin artması Xəzər Dəniz Gəmiçiliyik idarəsi ilə Bakı gömrükxanasının fəaliyyətinin əlaqələndirilməsini tələb edirdi. Bu məqsədlə hər iki qurum arasında 1924-cü il mayın 29-da müqavilə imzalanmışdı. Sənəddə göstərilirdi:

***Bakı gömrükxanası və Xəzər gəmiçiliyi Səhmdar cəmiyyətinin idarə heyəti arasında müqavilə***

*Biz aşağıda imza edənlər, Bakı gömrükxanası tərəfindən gömrük-xananın rəisi A.D.Hasilava və Xəzər gəmiçiliyi səhmdar cəmiyyətinin (“Kaspar”) idarə heyətinin sədr müavini Q.N.İllarionov arasında aşağıdakı şərtlərlə müqavilə imzalanır:*

*1. Xəzər gəmiçiliyi idarəsi (“Kaspar”) Qara şəhər, Fəhlə prospek-tindəki 4 nömrəli körpü ərazisində (keçmiş “Komvo”) yerləşən anbarlarını tələb olunan miqdarda Bakı gömrükxanasının sərəncamına verir.*

*2. Bakı gömrükxanası Xəzər gəmiçiliyinin xaricdən gələn gəmilərinin 4 nömrəli körpüdə yüklərin, eyni zamanda quru sərhədindən keçərək vaqonlarda dəmiryolu keçidi vasitəsilə körpüyə daxil olan xarici malların bilavasitə gömrük nəzarəti altında boşaldılaraq qeyd edilən anbarlara yığılmasına icazə verir.*

*3. Xəzər gəmiçiliyi idarəsi gömrük nəzarətinin iştirakı ilə gəmi və vaqonlardan gömrük baxışından keçiriləcək malların çəkisini təkrar yoxlamaqla düzgünlüyünə zəmanət verir.*

*4. Xəzər gəmiçiliyi öz vəsaiti hesabına gömrük baxışı, malların növlərə ayrılması, yenidən çəkilməsi və s. əməliyyatlarda yükboşaltma işləri həmin mal növünə tətbiq edilən gömrük qaydalarına riayət etməklə həyata keçirir. Faktın düzgünlüyünə şübhə yarandıqda, malların 1/10 hissəsi yenidən çəkilir.*

*5. Xəzər gəmiçiliyi idarəsi gömrük nəzarəti altında olan bütün malların mühafizəsini, təyin edilən rüsumlar və digər yığımlar ödənilməyənə qədər malların daşınmamasını öhdəsinə götürür. İtən mallara görə də gömrük baxışı əsasında təyin edilən rüsum və digər yığımların gömrükxanaya ödənilməsini təmin edir.*

*6. Anbarlarda mallara gömrük baxışı keçirilməsi təyin edilən qaydalarla aparır.*

*7. Xəzər gəmiçiliyi idarəsi gömrükxananın zəruri sayda şəxsi heyətinin saxlanılmasını (nəzarətçi – 1 nəfər, anbar müdiri – 1 nəfər, anbar baxıcısı – 1 nəfər, və gəmi yoxlayıcısı – 1 nəfər) öz öhdəsinə götürür, bu işçilərin əmək haqları gömrükxananın tarif cədvəlinə əsasən ödənilir.*

*8. Xəzər gəmiçiliyi idarəsi gömrükxana əməkdaşlarının istifadəsinə avadanlıqlarla təchiz edilmiş idarə binası verir.*

*9. Xəzər gəmiçiliyi normadan artıq işlərə görə gömrükxananın kassasına kompensasiya ödəyir.*

*10. Xəzər gəmiçiliyi idarəsi xarici malların mühafizəsinə görə öz nəfinə mal sahiblərindən tarifdə müəyyən edilmiş normalar həcmində rüsum toplayır.*

*11. Bu müqavilə tərəflər əsasında bir il müddətinə bağlanır, lakin Xəzər gəmiçiliyi idarəsi gömrükxananı bir ay öncədən xəbərdar etməklə müqavilədən birtərəfli qaydada imtina edə bilər.*

12. *Müqavilə iki nüsxədə hazırlanmışdır, bir nüsxə gömrükxanada, ikincisi isə Xəzər gəmiçiliyində saxlanılır* [34, 111-113].

Azərbaycan HİK və XKŞ-nin sovet dövlət quruculuğunun ilk günlərindən başlayaraq strateji malların ixracı sahəsində müstəqil siyasət yürütməyə çalışması, milli maraqlara az da olsa uyğun gömrük-tarif tədbirlərini həyat keçirməsinə Kreml hakimiyyəti imkan vermədi.

### *1.2. Azərbaycan SSR XKS-nin 1920-1922-ci illərdə gömrük siyasəti*

Azərbaycan İnqilab Komitəsinin 21 dekabr 1920-ci il tarixli dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasının Gömrük Nəzarəti haqqında Əsasnamə təsdiq edildi. Əsasnamədə göstərilirdi ki, Azərbaycan SSR Maliyyə Komissarlığının Gömrük hissəsi gömrük işinə aid bütün tədbirlərin

Xalq Xarici Ticarət Komissarlığı tərəfindən həyata keçirilməsi məqsədilə Gömrük nəzarəti şöbəsi adı altında komissarlığın tabeçiliyinə keçirilir [223, 102-103].

Bu əsasnaməni Azərbaycan SSR-in gömrük siyasətinin hüquqi əsaslarının işlənilib hazırlandığı ilk sənəd hesab etmək olar:

***Azərbaycan Sovet Sosialist Respublikasının Gömrük Nəzarəti haqqında Əsasnamə***

*Azərbaycan İnqilab Komitəsinin 21 dekabr 1920-ci il tarixli dekreti ilə təsdiq edilmişdir*

*1) Azərbaycan SSR-in Gömrük hissəsi bütün tədbirlərin Xalq Xarici Ticarət Komissarlığı tərəfindən həyata keçirilməsi məqsədilə Gömrük nəzarəti şöbəsi adı altında komissarlığın tabeçiliyinə keçirilir.*

*2) Xalq Xarici Ticarət Komissarlığının gömrük işi ilə bağlı bütün qərar və sərəncamlarının Azərbaycanın gömrük hissəsi tərəfindən həyata keçirilməsinə birbaşa rəhbərlik və Azərbaycanın gömrük müəssisələrinin fəaliyyətinin nəzarət və təftiş edilməsi Gömrük nəzarəti şöbəsinin rəisinin səlahiyyətinə daxildir.*

*3) Rəisin köməkçiləri (onlardan biri müavin təyin edilir) gömrük nəzarəti şöbəsinin gömrük hissəsinin idarə edilməsi üzrə onun birbaşa əməkdaşlarıdır, eyni zamanda rəisin göstərişi ilə gömrük müəssisələrini təftiş edirlər.*

***Gömrük müəssisələri***

*4) Gömrük müəssisələrinin vəzifəsinə daxildir: a) xüsusi qaydalara uyğun olaraq fiziki şəxslərin və onların baqajlarının xüsusi qaydalara müvafiq yoxlayaraq sərhəddən xaricə və ya əksinə buraxılması; b) Xalq Xarici Ticarət Komissarlığının sərəncamlarına uyğun olaraq idxal və ixracına icazə verilmiş malların qəbulu, qeydə alınması, mühafizəsi və yola salınması, eyni zamanda bu hallarda nəzərdə tutulan gömrük rüsumlarının tutulması; c) Gizli daşınmasına cəhd edilən malların qəbulu, qeydiyyatı və mühafizəsi, belə hallarda aid cinayət işlərinin açılması və Xalq Xarici Ticarət Komissarlığının sərəncamlarına uyğun olaraq müsadirəsi nəzərdə tutulan mallara aid işlərin istiqamətləndirilməsi.*

*5) Gömrük müəssisələri gördükləri işin həcmindən asılı olaraq birinci, ikinci, üçüncü dərəcəli gömrükxanalara və gömrük postlarına bölünür.*

*Qeyd 1: Xalq Xarici Ticarət Komissarlığına gömrükxanaların aşağı dərəcədən yuxarı dərəcəyə və ya əksinə, gömrük postlarını gömrükxanaya və ya gömrükxananı gömrük postuna dəyişdirmək hüququ verilir.*

*Qeyd 2: Gömrük postlarından yalnız sərnişinlərin və əl yüklərinin keçirilməsinə icazə verilir. Malların idxalı və ixrac əməliyyatları qəti olaraq gömrükxanalarda həyata keçirilir.*

*6) Gömrükxanaların və buraxılış postlarının şəxsi heyəti rəisdən (gömrükxana), həmçinin müdirdən (gömrük postu) və zəruri sayda məmurlardan təşkil edilir.*

*Qeyd: hər bir müəssisədə məmurların sayı Gömrük nəzarəti şöbəsinin təqdimatı əsasında Xalq Xarici Ticarət Komissarlığı tərəfindən dəyişdirilə bilər.*

*7) Gömrük müəssisələrinin qanunauyğun fəaliyyətinə rəis cavabdehdir. Heç bir mülki və ya hərbi icra hakimiyyətinin və idarələrin gömrük işinə aid sərəncamların yerinə yetirilməsinə müdaxilə edə bilməz. Əksinə, bütün icra hakimiyyətləri bu müəssisələrin qanuni tələblərinə kömək etməli, gömrük işi ilə bağlı məsələlər istisna edilməklə, digər məsələlər barəsində Xalq Xarici Ticarət Komissarlığına müraciət etməlidirlər.*

***Məmurlar haqqında***

*8) Gömrük nəzarəti şöbəsinin bütün tərkibi, gömrükxana rəisləri və köməkçiləri, post müdirləri, gömrükxana müfəttişləri və nəzarətçiləri, birinci dərəcəli gömrükxanalarda pakhauz və gəmi nəzarətçilərinin təyini və vəzifədən azad edilməsini Xalq Xarici Ticarət Komissarlığı həyata keçirir.*

*Digər qulluqçuların işə təyini və azad edilməsi gözətçi və kuryer vəzifələri istisna edilməklə Gömrük nəzarəti şöbəsi tərəfindən həyata keçirir.*

*Gömrük nəzarəti şöbəsinə bildirməklə, gözətçi və kuryer vəzifələrinə işə təyin və azad edilmə haqqında qərarları müəssisələr müstəqil olaraq qəbul edir.*

*9)Məzuniyyətə buraxılma Əmək Komissarlığının dekreti ilə müəyyən edilən ümumi əsaslarla müəyyən edilir, qulluqçunun məzuniyyətə buraxılması haqqında sərəncamı işə təyin və azad edən icra hakimiyyəti verir.*

*10) Xüsusilə çətin həyat şəraiti olan ərazilərdə yerləşən gömrük müəssisələrinin ştat cədvəlində müəssisənin dərəcəsindən asılı olmayaraq qulluqçuların əmək haqlarının artırılması üçün əlavə mükafat verilməsi tətbiq edilir.*

*Azərbaycan İnqilab Komitəsinin*
*sədr müavini:* *D.Bünyatzadə*
*Xalq Xarici Ticarət komissarı:* *Teymur Əliyev*
*Azərbaycan HİK-nin katibi:* *Qabriçidze* [202, 1920, 23 декабря, №196].

Xalq Xarici Ticarət Komissarlığının gömrük işi ilə bağlı bütün qərar və sərəncamlarının icrası Azərbaycanın gömrük hissəsi tərəfindən həyata

keçirilirdi. Bir işə birbaşa rəhbərlik və gömrük müəssisələrinin fəaliyyətinin nəzarət və təftiş edilməsi Gömrük nəzarəti şöbəsinin rəisinin səlahiyyətinə daxil edilirdi. Rəisin köməkçiləri (onlardan biri müavin statusunda idi) gömrük nəzarəti şöbəsinin gömrük hissəsinin idarə edilməsi üzrə onun birbaşa əməkdaşı hesab edilirdi.

Gömrük müəssisələrinin vəzifələri aşağıdakılar idi: a) xüsusi qaydalara uyğun olaraq, fiziki şəxslərin əl yüklərinin və baqajlarının xüsusi qaydalara müvafiq sərhəddən xaricə və ya əksinə yoxlanılaraq buraxılması; b) Xalq Xarici Ticarət Komissarlığının sərəncamlarına uyğun olaraq idxal və ixracına icazə verilmiş malların qəbulu, qeydə alınması, mühafizəsi və yola salınması, eyni zamanda bu hallarda nəzərdə tutulan gömrük rüsumlarının tutulması; c) gizli daşınmasına cəhd edilən malların qəbulu, qeydiyyatı və mühafizəsi, belə hallarda aid cinayət işlərinin açılması və Xalq Xarici Ticarət Komissarlığının sərəncamlarına uyğun olaraq müsadirəsi nəzərdə tutulan mallara aid işlərin istiqamətləndirilməsi. Gömrük müəssisələri gördükləri işin həcmindən asılı olaraq birinci, ikinci, üçüncü dərəcəli gömrükxanalara və gömrük postlarına bölünürdü.

Bundan əlavə, Xalq Xarici Ticarət Komissarlığına gömrükxanaların aşağı dərəcədən yuxarı dərəcəyə və ya əksinə, gömrük postlarını gömrükxanaya və ya gömrükxananı gömrük postuna dəyişdirmək hüququ verildi. Gömrük postlarından yalnız sərnişinlər və əl yükləri keçirilə bilərdi. Malların idxalı və ixrac əməliyyatları mütləq gömrükxanalarda keçirilməli idi. Gömrükxanaların və buraxılış postlarının şəxsi heyəti rəisdən (gömrükxana), həmçinin müdirdən (gömrük postu) və zəruri sayda məmurlardan təşkil edilirdi.

Əsasnaməyə görə hər bir müəssisədə məmurların sayı Gömrük nəzarəti şöbəsinin təqdimatı əsasında Xalq Xarici Ticarət Komissarlığı tərəfindən dəyişdirilə bilərdi. Gömrük müəssisəsinin qanunauyğun fəaliyyətinə rəis cavabdehlik daşıyırdı, heç bir mülki və ya hərbi icra hakimiyyətinin və idarələrin gömrük işinə aid sərəncamların yerinə yetirilməsinə müdaxilə edə bilməzdi. Əksinə, bütün icra hakimiyyətləri bu müəssisələrin qanuni tələblərinə əməl etməli, gömrük işi ilə bağlı məsələlər istisna edilməklə, digər məsələlər barəsində Xalq Xarici Ticarət Komissarlığına müraciət etməli idi.

Əsasnamədə gömrük məmurları haqqında göstərilirdi ki, gömrük xidmətinin bütün şəxsi heyətinin, o cümlədən gömrükxana rəisləri və köməkçiləri, post müdirləri, gömrükxana müfəttişləri və nəzarətçiləri, birinci dərəcəli gömrükxanalarda pakhauz və gəmi nəzarətçilərinin təyinatı və vəzifədən azad edilməsi Xalq Xarici Ticarət Komissarlığı tərəfindən həyata keçirilir. Digər qulluqçuların işə təyini və azad edilməsi Gömrük nəzarəti şöbəsinin səlahiyyətinə daxildir. Xüsusilə çətin həyat şəraiti olan ərazilərdə yerləşən gömrük müəssisələrinin ştat cədvəlində müəssisənin

dərəcəsindən asılı olmayaraq qulluqçuların əmək haqlarının artırılması üçün əlavə mükafat tətbiq edilirdi [118, 426-428].

Maraqlıdır ki, həmin dövrdə nəşr olunan bəzi jurnallarda Azərbaycan SSR-in 1920-1922-ci illərdə yürütdüyü iqtisadi siyasətinin nəticələri, o cümlədən gömrük siyasətinin əsas xüsusiyyətlərinin təhlil olunduğu yazılar verilirdi. Məsələn, Azərbaycan SSR Ali İqtisad Şurasının orqanı olan "Ekonomiçeskiy vestnik" (İqtisadi xəbərlər) aylıq jurnalının həmin illərə aid bir neçə nömrəsində Azərbaycanın ticarət və sənaye sahələrində vergi siyasəti, xarici ticarət və maliyyə məsələləri ilə yanaşı gömrük siyasətinin vəziyyəti haqqında müxtəlif müəlliflərin yazıları dərc olunurdu. Məcmuənin 1922-ci l 15 avqust tarixli nömrəsində dərc edilmiş *"Gömrük siyasəti məsələlərinə dair"* adlı məqalədə Azərbaycan SSR-in yeritdiyi gömrük siyasətinin bəzi xüsusiyyətləri araşdırılmışdır. *"M.D"* imzası ilə çıxış edən müəllif mövcud gömrük siyasətinin azad ticarət prinsipləri üzərində qurulduğunu, lakin qəbul edilmiş sistemdə bəzi təxirəsalınmaz dəyişikliklərin həyata keçirilməsinin tələb olunduğunu qeyd edirdi. gömrük siyasətində aşağıdakı meyllər müşahidə olunurdu:

1) "inhisara alınan mallar" məsələsi azad ticarəti məhdudlaşdırmaqda davam edirdi;

2) xarici ticarətlə məşğul olan əhali hansı malların idxal-ixracının qadağan edildiyi və ya hansı mallara kimin icazə verməsi haqqında dolğun məlumatı yoxdur və bu vəziyyət müvafiq qaydaların ümumiləşdirilib dərc edilməsi ilə həll edilə bilərdi;

3) sovet respublikalarından Azərbaycan SSR-ə malların idxalı tamamilə sərbəstdir və heç bir gömrük yığımına cəlb edilmirdi;

4) qonşu sovet respublikalarına ərzaq malları və texniki materiallar istisna olmaqla ixrac əməliyyatları sərbəst surətdə həyata keçirilə bilərdi; Lakin burada təşkilatı cəhətdən uyğunsuzluq yaranmışdır. Qeyd edilən malların ixracına icazə verilməsi iki orqandan – bir tərəfdən Sənaye və Ticarət Komissarlığı, digər tərəfdən isə Ərzaq Komissarlığı məşğul olurdu;

5) ərzaq mallarının ixracından gömrük rüsumu tutulur. Bu səmərəli üsuldur, ona görə ki, indiki vaxtda bizim respublikadan ərzaq məhsulları ilə bərabər, texniki materialların, maşın və avadanlıqların ölkədən daşınmasının məhdudlaşdırmalıdır. Lakin xüsusi icazələrin ayrı-ayrı təşkilatlar tərəfindən verilməsi tamamilə qeyri-rasional üsuldur. Ərzaq Komissarlığı ərzaq mallarının mübadiləsini qurmaqda maraqlı olsa da, öz siyasətini gömrük orqanı vasitəsi ilə həyata keçirməlidir;

6) gömrük siyasətini vahid ticarət aparatı vasitəsilə həyata keçirmək lazımdır. Belə ki, indi bir çox müəssisə və təşkilatlar lisenziyalar verilməsi və ya qadağan etmə işinə girişmişlər. Hətta Maarif Komissarlığı belə, iri həcmli musiqi alətlərinin İrana daşınmasına lisenziya verirdi;

7) Zaqafqaziya Xarici Ticarət İdarəsi inhisar mallarına icazələr verilməsi ilə məşğuldur və gömrükxananın başının üstündən Su nəqliyyatına sərəncamlar verir. Bütün bunlar dolaşıqlıqlar yaradır və lazımdır ki, biz bu orta əsr adətlərindən xilas olaq. Bütün əməliyyatların bir təşkilatda birləşdirilməsi iqtisadi məsələlərlə məşğul olan bütün komissarlıqların fəaliyyətini əlaqələndirə bilərdi;

8) respublika bütün valyuta tutumlu ixrac mallarına gömrük vergisi, şərab, spirt və neft məhsullarına aksiz təyin etməklə öz maraqlarını qorumalıdır;

9) bütün bu məsələlər ittifaq respublikaları ilə aparılan ticarət münasibətlərinə də şamil edilməlidir;

10) Azərbaycan üçün İranla və Gürcüstanla düzgün ticarət əlaqələrinin qurulmasının böyük əhəmiyyəti vardır. İranla gömrük münasibətlərində heç də hər bir şey qaydasında deyil. Azərbaycan hakimiyyəti həm xüsusi şəxslərə, həm də dövlət ticarət müəssisələrinə bu sahədə sərbəstlik vermişdir. Təbii olaraq, mal-qaranın, taxıl məhsullarının, elektrik mallarının, avtomobil və mətbəə şriftlərinin İrana ixracının qadağan edilir, düyü və taxıl məhsullarından başqa, İrandan idxal edilən bütün mallara isə gömrük rüsumu tətbiq edilməklə icazə verilir. Bu işin səmərəli olması isə dəqiq tarifin təyin edilməsindən asılı idi;

11) ən vacib və narahatlıq doğuran məsələ inhisara alınmış malların məsələsi idi. Bu iş "Zaqvneştorq"a həvalə edilməli və bu malların ixracına icazə alınmalıdır. Lakin biz bəzi malların ixracının inhisara alınmasının səbəbləri haqqında rəsmi mövqe bildirilməli, həmçinin bu şəraitdə hansısa bir malın inhisara alınmasının hüquqi izahı verilməlidir;

12) bir şey aydındır ki, "Zaqvneştorq" şəkərin, kerosinin, təbəqə dəmirin, bidonların və manufakturanın ixracına xüsusi icazələr verir. İxracına icazə verilən mallar gömrük yığımına cəlb olunur. Əgər icazə varsa, deməli qadağan da vardır. İcazə və qadağanların da hər hansı bir iqtisadi əhəmiyyəti olmalıdır. Bu hal XVI-XVII əsrlərdə də baş veribsə, iqtisadi tarixçi öyrənən müasir iqtisadi şəraitdə bu və ya başqa bir inhisarın səbəblərinə izah tapa bilər. Lakin bu halda tam və məqsədli inhisara alınmanın səbəbləri yoxdur. Elə malların ixracına icazə verilib və ya ixracı qadağan edilib ki, onların bu ölkənin iqtisadiyyatına heç bir aidiyyatı yoxdur. Tara kimi qəbul edilən bidonları da istənilən emalatxanada hazırlamaq olar;

13) ölkə idxal edilən təbəqə dəmirə və meşə materialına ehtiyac hiss edirsə, bu haqda ilk növbədə və qəti olaraq yerli təsərrüfat orqanları düşünməlidir. Bu düşüncələrdən onları "Zaqvneştorq" kənarlaşdırmışdır. Bu çox ciddi məsələdir və yerli orqanlar təbəqə dəmirin onsuz da az qalan qalıqlarının ixracını planauyğun surətdə azaltmaq haqqında fikirləşməlidir. Onu şimaldan daşıyıb gətirməyi xəyal etmək – ümidsiz bir işdir; bu gün də

olmasa, sabah bunlar üçün qızıl ödənməlidir. Beləliklə, Azərbaycanın xalq təsərrüfatı baxımından yanaşdıqda bu malların "Zaqvneştorq" tərəfindən tənzimlənməsinin heç bir əsası yoxdur, ziyanı isə göz qabağındadır. "Zaqvneştorq" bu malların buraxılmasına yalnız ticarət maraqları mövqeyindən baxır, başqa cür də ola bilməz. Əlbəttə ki, tacir marağı ilə işləyən inhisarçı Azərbaycanda çardaqları nə ilə örtəcəklər haqqında düşünə bilməz. Onun üçün İranda dəmirin qiymətinin qalxması maraqlıdır ki, sağlam rəqabətdən qaçılsın və gəlirlər yüksəlsin;

13) manufaktura və qəndin də inhisara alınmış ixrac malları siyahısına daxil edilməsi də başa düşülmür və "Zaqvneştorq" bundan da fayda götürür. Halbuki bu mallar cənubi Qafqazda istehsal olunmur və tranzit mallara aiddir. Hər iki adda mal buraya Qərbdən gətirilir və bunlardan nə qədər istəsən gətirmək olar. Bakı gömrükxanası bu mallardan nə qədər çox buraxsa, yerli büdcəyə və ticarətin genişlənməsinə bir o qədər çox faydası olar. Təsərrüfat nöqteyi-nəzərindən bir sıra malların inhisara alınması ticarətin inkişafını buxovlayır. Səmərəli və sağlam maliyyə-iqtisadi siyasətin həyata keçirilməsinə çox böyük maneçilik yaradan bu eybəcər hallardan tezliklə qurtarmaq lazımdır;

14) Azərbaycan qonşu sovet respublikalarının İrana birbaşa çıxışı üçün mühüm əhəmiyyət daşıyır. Tranzit yüklər maneəsiz olaraq, yalnız gömrük rüsumu tutulmaqla buraxılmalıdır;

15) dövlətə aid tranzit yüklərdən gömrük rüsumunun alınmaması və mərkəzi kooperativ təşkilatların tranzit mallarının 50 faizlik rüsuma cəlb edilməsi mənfi hallardır. Kooperativlər dövlətdən böyük dəstək alırlar, onların "orta bazar qiymətləri" siyasəti isə sadə istehlakçının cibinə bir o qədər təsir etmir, dövlət isə çox ağır vəziyyətdədir və hər bir qəpiyin qədrini bilməlidir;

16) gömrük ödənişləri Azərbaycan manatı ilə tutulmalıdır.

Azərbaycan SSR-in gömrük siyasətinin ümumi məsələləri haqqında məqalə müəllifi yazırdı: *"Əsas məsələ idxal-ixrac mallarına tətbiq edilən gömrük rüsumlarının həcmi və gömrük rüsumuna cəlb edilmə üsullarıdır. Bütün mallardan 10 faizlik gömrük rüsumu alınması qaydası keçmişin qalığı kimi saxlanılır. Xaricdə qızıl pula satılan valyutatutumlu mallardan ölkəyə gətirilən ümumi tələbat mallarına bərabər həcmdə rüsum tutulması ədalətsizlikdir və dövlət büdcəsinə ziyan vurur. Buna görə də qısa bir müddətdə hər bir mala ayrıca olaraq tarif müəyyən edilməlidir. Ən vacib məsələ rüsuma cəlb etməyin üsullarının müəyyən edilməsidir. Mallardan natura ilə ayırmalar hesabına rüsum tutulması təcrübəsi fiaskoya uğramışdır. Natura yolu ilə rüsum tutulması iri həcmli anbarların saxlanılmasını tələb edir ki, bu da son nəticədə mallara çəkilən xərcləri artırır. Tezliklə valyutatutumlu mallardan gömrük vergi və rüsumları pulla ödənilməsi üçün islahat aparılmalıdır. Dövlət gömrük aparatının sadələş-*

*dirilməsinə və gömrük ödənişlərinin artırılmasında uda bilər. Buna nail olmaq lazımdır ki, "tox" gömrük nəzarətçisi korrupsiyaya meylli olmasın. Gömrük işinin ən vacib məsələlərindən biri məhz budur".*

Xüsusilə bu məsələ məqalə müəllifinin etirazına səbəb olurdu ki, RSFSR hökumətinin XXTK-nın ünvanına göndərilən tranzit yüklər rüsumdan azad edilib və bu güzəşt Azərbaycan hökumətinin özünün də tranzit yüklərinə aid edilir. Yazıda qeyd olunurdu ki, *gömrük rüsumları ad valorem qaydasında hesablandığına və konyuktura tez-tez dəyişdiyindən gömrükxana hər dəfə bazar qiymətlərini müəyyənləşdirməyə məcburdur. Bu çox mürəkkəb iş olmaqla bərabər, bir çox hallarda iradlara səbəb olurdu. Təbii ki, hökumət gömrük rüsumu alınmasının ad valorem qaydasından tamamilə imtina edə bilməzdi, bu sistem çox nadir hallarda olsa da, ölkədə saxlanılması zəruri olan mallara qarşı tətbiq edilirdi. Məsələn, o dövrdə mövcud şərait nəzərə alınaraq, ərzaq mallarına tətbiq edilirdi. Tövsiyə edilirdi ki, malların gömrük dəyəri qızıl pulla müəyyən edilməli və valyutatutumlu mallardan, o cümlədən Qərbi Avropa bazarına göndərilən İran mallarından gömrük ödənişləri qızılla alınmalıdır, bu qayda gömrük münasibətlərini daha da sadələşdirmiş olar. Əgər tacir İrandan qızıl pulla ipək alırsa, onda dövlətə də gömrük rüsumunu həmin valyuta ilə ödəməlidir. Bütün bunlar hökumətə qızıl ehtiyatlarını artırmağa imkan verərdi. Yeri gəlmişkən, İrana ixrac edilən kerosinə tətbiq edilən aksizi qızıl pulla almaq olar. Qızılı qeyri-sağlam möhtəkir mübadilədən azad etməklə, hökumət gələcəkdə maliyyə islahatı aparılması üçün müvafiq baza yarada bilər".*

Beynəlxalq gömrük münasibətlərinə toxunan müəllif Gürcüstanın yürütdüyü gömrük siyasətinin Azərbaycan iqtisadiyyatı üçün mühüm əhəmiyyət daşıdığını qeyd edirdi. Beləliklə, məqalədə Azərbaycanın gömrük siyasətinin aşağıdakı əsas istiqamətlər üzrə inkişaf etdirilməsi təklif olunurdu:

*1. Gömrük siyasətinin həyata keçirilməsi faktiki olaraq bir orqanın əlində cəmləşdirilməlidir, indiki şəraitdə bu sənaye və ticarət komissarlığı olmalıdır. Digər komissarlıqlar iqtisadiyyatın bu və ya digər sahəsi ilə məşğul olan komissarlıqlar öz işlərini bu komissarlıq və ya onun ayrı-ayrı orqanları ilə əlaqələndirməlidirlər.*

*2. Gömrük rüsumlarının natura ilə alınması və malların bazar qiymətlərinin müəyyən edilməsindən malın dəyərinin və gömrük ödənişlərinin qızıl pulla ifadə olunduğu normal tarifə keçmək lazımdır. Bəzi az sayda mallar, əsasən də ərzaq mallarına ad valorem rüsumu saxlanıla bilər. İranla sərhəddə tətbiq olunan idxal-ixrac rüsumları və Batumdan keçən tranzit mallara görə rüsumlar hər hansı bir ölkənin qızıl valyutası ilə alınır. Müttəfiq respublikalarla əlaqələrdə isə rüsumlar Azərbaycan valyutası ilə tutulur. Ümumiyyətlə respublikanın daha çox müstəqil iqtisadi siyasət yeritməsinə nail olmaq lazımdır. Elə bir saziş əldə olunmalıdır ki,*

*"Zaqvneştorq"un inhisar mallarının buraxılması sahəsində imtiyazları aradan qalxsın. İnhisar malları üzərində hakimiyyət öz real mənasını itirmişdir. Rusiya XXTK-nın bu sahədə səlahiyyətlərinin hüquqi əsasları artıq yoxdur. Mərkəzi kooperativ təşkilatların səlahiyyətlərinə yenidən baxılmalı və ləğv edilməlidir.*

*3. Müttəfiq respublikalarla sərbəst əmtəə mübadiləsi bu şərtlə saxlanılmalıdır ki, Azərbaycan SSR-dən ərzaq məhsullarının daşınmasına dəyişkən tariflər əsasında gömrük rüsumları və xüsusi icazələrlə tənzimlənsin, texniki materiallar və maşınların ixracına isə qadağanlar və ya icazə sistemi tətbiq edilsin;*

*4. Gürcüstanla münasibətdə tranzit malların daşınmasına güzəştlərin tətbiq olunmasına və tranzit yüklərə görə rüsumun Bakı gömrükxanasında alınması nail olmaq lazımdır;*

*5. Xaricdən zinət əşyaları axınını məsələsinə xüsusi olaraq nəzərdən keçirilməli və Gürcüstanla razılığa gəlməklə bir qismi məhdudlaşdırılmalı, bir qisminin isə qadağan edilməlidir.*

1920-ci ilin noyabrın 14-də Tiflisdə Azərbaycan, Gürcüstan və RSFSR arasında tranzit ticarət haqqında saziş bağlandı. Sazişdə Bakı neftinin Gürcüstanda çıxarılan daş kömürlə, meşə-ağac məmulatları və başqa məhsullarla mübadiləsi nəzərdə tutulurdu. Saziş Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları iqtisadi sahədə "əməkdaşlığı gücləndirmək" məqsədi daşısa da, əslində isə RSFSR rəhbərliyinin strateji məqsədlərinə uyğun idi. 1921-ci il aprelin 14-də isə Cənubi Qafqaz dəmiryolu, iyunun 2-də xarici ticarətdə idarəçiliyin mərkəzləşdirməsi haqqında sazişlər imzalandı. Hər üç respublikanı təmsil edən nümayəndələrin daxil olduğu kollegiyanın rəhbərlik etdiyi birləşmiş Xarici ticarət idarəsi yaradıldı.

1920-1921-ci illərdə sovet xarici ticarətinin əsas istiqamətləri ilə tanışlıq göstərir ki, bu dövrün idxal planında əsas yeri ilk öncə sənaye və nəqliyyatın tələbatının ödənilməsi üçün avadanlıq, maşın və mexanizmlərin alınması əsas yer tuturdusa, 1921-ci ildə başlayan ərzaq çatışmazlığı və aclıqla əlaqədar idxal siyasətində də dəyişikliklər aparıldı. İngiltərə, Mancuriya və Bolqarıstandan taxıl alınması, yeni iqtisadi siyasətə keçid dövrünün tələblərinə uyğun olaraq kəndlə əmtəə mübadiləsini qaydaya salınması üçün kütləvi istehlak mallarının, kənd təsərrüfatı alət və mexanizmlərinin gətirilməsinə üstünlük verildi. Həmin illərdə sovet xarici ticarətində ixrac potensialının əsas hissəsini neft, meşə-ağac materialları, tütün və ipək təşkil edirdi. İdxal-ixrac planları XKŞ tərəfindən təsdiq edilirdi.

1921-ci il avqustun 7-dən (ZXXTK ilə RSFSR XXTK arasında imzalanan müqavilədən sonra) 1922-ci ilin dekabrına qədər olan dövrdə Rusiya siyasi və iqtisadi sahədə maraqlarını təmin etmək məqsədi ilə Azərbaycanın xarici ticarət və gömrük işi sahəsinə təzyiqi daha da artırdı.

Belə ki, Rusiya Azərbaycanın xarici dövlətlərlə iqtisadi əlaqələrinə mane olmaqla ixrac potensialımızdan digər dövlətlərə qarşı təsir vasitəsi kimi istifadə edirdi. Azərbaycan neft sənayesini və balıq vətəgələrini xarici dövlətlərə konsessiyaya verməklə, normal idxal-ixrac tarifi və gömrük vergiləri tətbiq etməklə böyük mənfəət verərdi. Əksinə, xeyli miqdarda Azərbaycan nefti və digər strateji xammallar Rusiyaya və digər sovet respublikalarına daşınırdı [222, 168-174].

1921-ci ilin dekabr ayına qədər fəaliyyət göstərən Azərbaycan XXTK İtaliya, İsveçrə və Fransa şirkətləri ilə imzalanan 6 ticarət sazişi əsasında xalça, ipək parça, barama və xəz satmaqla 166, 8 min funt sterlinq həcmində müxtəlif mallar alınmışdı. Bundan əlavə 1,5 mln. funt sterlinq məbləğində alqı-satqı sövdələşmələri imzalanmış və Təkcə Almaniyadan 60 min ədəd elektrik lampası, elektrik avadanlığı, dəmir yolu vaqonları, kənd təsərrüfatı alətləri və kütləvi tələbat malları gətirilmişdi. 1921-ci ilin fevralından başlayaraq bir neçə ay ərzində Batum vasitəsilə Avropa ölkələrinə 3326 ədəd xalça, 513 pud qara kürü, 1149 pud frizon, 55903 dəst bağırsaq, 2566 ədəd qaragül dəri, 120 pud ipək, 996 pud yun və digər valyuta tutumlu mallar göndərilmişdi [221, № 6, 1921, 21-23, 26 ].

Azərbaycandan ixrac edilən dərman bitkiləri, o cümlədən valerian valyuta tutumlu mallardan idi. Rusiya və Zaqfederasiyanın xarici ticarət qurumları bunun qarşısını almağa çalışırdılar. Tiflisdən "Obvneştorq"dan Azərbaycan hökumətinə ünvanlanan 10 fevral 1922-ci il tarixli 2100 saylı məktubda valerian kökünə həm Rusiyada, həm də Cənubi Qafqaz respublikalarında ehtiyac olduğunu nəzərə alıb sərhəddən buraxılmaması haqqında Azərbaycan gömrüyünə göstəriş verilməsi xahiş edilirdi. Azərbaycan SSR-in XKS-nin İşlər idarəsindən Gömrük komissarı Məmmədzadəyə ünvanlanan 1922-ci il 23 fevral tarixli bildirişdə göstərilirdi: *"tibdə istifadə edilən bitkilərin, o cümlədən valerianın (pişikotu) ixracının qadağan edilməsi haqqında üzərində XKS-nin sədr müavini Bağırovun dərkənarı olan qərarın surəti icra üçün Sizə göndərilir"*[86, 463-464].

1921-ci ilin martında Moskvada sovet Rusiyası ilə Türkiyə arasında imzalanan müqavilə hər şeydən əvvəl iqtisadi, o cümlədən ticarət əlaqələrinin yaradılması və inkişafını nəzərdə tuturdu. Türkiyənin neftə olan tələbatının çox hissəsi Azərbaycan vasitəsilə ödənilirdi. Cənubi Qafqaz gömrük idarəsinin məlumatında göstərilir ki, "Azərneftsindikat" yalnız Batumi limanı vasitəsilə Türkiyəyə 1922-ci ildə 9294 ton yanacaq nefti və 340 ton benzin, 1923-1924-cü illər ərzində 16931 ton yanacaq nefti 509 ton benzin, 2695 ton maşın yağı, 180 ton mazut, toxuculuq dəzgahları üçün işlədilən 48 ton yağ aparılmışdı [209, 1926, № 3, 443-444].

1921-ci il aprelin 26-da Tiflisdə Cənubi Qafqaz respublikalarının yığıncağında Zaqafqaziya Xarici Ticarət İdarəsinin (ZXTİ) yaradılması və avqustun 7-də RSFSR-in analoji qurumu ilə əməkdaşlıq müqaviləsinin

bağlanılması çox mətləblərə aydınlıq gətirdi. Müqavilənin şərtlərinə görə, bundan sonra Cənubi Qafqaz respublikaları xarici iqtisadi əlaqələrini sovet Rusiyasının razılığı və RSFSR XTİ-nin tərtib etdiyi qaydalar əsasında həyata keçirə bilərdi. Rusiya Cənubi Qafqaz respublikalarının xarici ölkələrdə ticarət fəaliyyətinə və idxal-ixrac əməliyyatlarına birbaşa müdaxilə etmək imkanı qazanırdı. Rusiya ZXTİ-nə təyin etdiyi nümayəndəsi vasitəsilə Azərbaycanın xarici ticarət əməliyyatlarına nəzarəti (xarici dövlətlərlə müqavilə bağlanması, xarici firmalara Azərbaycan ərazisində konsessiya verilməsi, valyuta tutumlu malların ixracı, gömrük rüsumlarının həcminin tənzimlənməsi və s.) altına aldı [154, 95].

V.İ.Lenin 1921-ci il iyulun 14-də S.Orconikidzeyə göndərdiyi teleqramda "Bakı üçün və xarici ticarətin inkişafı üçün nə etdiyinizi bildirin" və 21 sentyabr tarixli teleqramla isə N.Nərimanova *"Vilayət Xarici Ticarət idarəsinin və RKP(b) MK-nın icazəsi olmadan nə almanlarla, nə də başqa heç kəslə xarici ticarət müqaviləsi bağlamayın"* kimi göstərişlər verməklə bu məsələnin tamamilə RSFSR-in səlahiyyətinə aid olmasına təkid edirdi [162,12, 252].

Belə bir şəraitdə Azərbaycan İnqilab Komitəsinin 1921-ci il 21 avqust tarixli dekreti ilə Azərbaycan SSR ərazisində idarə və təşkilatlar, həmçinin fiziki şəxslər tərəfindən idxal-ixrac əməliyyatlarının aparılması qadağan edildi. Xarici ticarət fəaliyyəti sovet orqanlarının əlində cəmləşdirildi [60, 55].

Xarici ticarəti genişləndirməkdə sovet dövlətinin başlıca strateji məqsədlərdən biri gömrük gəlirlərinin artırılması idi. Əgər 1922-ci ildə gömrük gəlirləri bütün vergi daxilolmalarının 10 faizini təşkil edirdisə, 1923-cü ildə bu göstərici 35 faizə çatmışdı. Xarici ticarət komissarlığı işçilərinin 1924-cü ilin yanvarında keçirilən 2-ci ümumittifaq müşavirəsində qeyd olunmuşdu ki, xarici ticarət üzərində inhisarın tətbiqi dövlətə yüksək gəliri təmin edəcəkdir. Sovet statistikasının həmin illərə aid məlumatı bunu təsdiq edir: 1923/24-cü təsərrüfat ilinə nisbətən 1925/26-cı təsərrüfat ilində gömrük gəlirləri 2,2 dəfə artmış, başqa sözlə, 67,4 mln. qızıl rubldan 150,1 mln. qızıl rubla qədər yüksəlmişdi [144, 85].

Sovet hökuməti bir sıra çətinliklərə baxmayaraq, qonşu İranla ənənəvi ticarət əlaqələrinin bərpası və daha da genişləndirilməsi üçün böyük səylərini davam etdirirdi. Bu məqsədlə 1921-ci ilin mart ayında Azərbaycan XTK-nin xətti ilə qonşu İrana 3 ticarət ekspedisiyası göndərilmişdi. Azərbaycan sovet hökumətinin və onun bu sahəyə rəhbərlik edən qurumunun gərgin səylərinə baxmayaraq, respublikanın xarici ölkələrlə ticarət balansı passiv idi. Bu vəziyyət ilk növbədə həmin qurumun xarici ticarət əməliyyatlarını səriştəsiz idarə etməsindən irəli gəlirdi. Buna görə də, 1921-ci ilin iyulundan başlayaraq bəzi dövlət müəssisələri İranla müstəqil ticarət aparırdılar.

Azərbaycan SSR Xarici Ticarət Komissarlığının İranla sərhədyanı ticarətin aparılmasına mane olan şəxslərin hərbi tribunala verilməsi haqqında əmri də var idi. Artıq 1922-1923-cü illərdə SSRİ-nin İranla ticarətində Azərbaycanın xüsusi çəkisi artaraq idxal üzrə 81,8, ixrac üzrə 88,0 faizə çatmışdı. Gömrük statistikasına əsasən, 1924-1925-ci illərdə Azərbaycan gömrükxanalarından İrana 23201 min manat ixrac, 27542 min manat həcmində idxal malları keçməkdi ki, bu göstəricilər 1922-1923-cü illərdə olduğundan müvafiq olaraq 7 və 2,7 dəfə çox olmuşdu [151, 87-88].

Azərbaycanın öz neft məhsullarını RSFSR xarici ticarət orqanları ilə razılaşmadan və nisbətən aşağı satış qiymətləri ilə reallaşdırılmaq cəhdləri Moskvada separatçılıq kimi qiymətləndirilirdi. Azərbaycan SSR-in bu təşəbbüsü Londonda olan sovet xarici ticarətinin rəhbəri L.B.Krasin tərəfindən etirazla qarşılamış, Qərbi Avropa bazarında neft satışından əldə edilən gəlirin aşağı düşməsini əsas göstərərək, Moskvadan bu "anarxiyaya" son qoyulmasını xahiş etmişdi. Artıq 1921-ci ilin sentyabrından neft sənayesi və ona tabe olan sahələr Azərbaycan XTŞ-nin tərkibindən çıxarılaraq birbaşa Moskvaya tabe edilmişdi. 1921-ci ilin sentyabrında təşkil edilən "Azərneft" trestinə xarici ticarət, neft və neft məhsullarının ixrac edilərək zəruri texniki avadanlıqlar gətirilməsinə müəyyən sərbəstlik verildi. 1921-ci ilin noyabrından sovet Ermənistanına da əvəzi ödənilməyən minlərlə ton neft məhsullarının göndərilməsinə başlanıldı [217, 180; 211, 307].

1921-ci ilin martın 16-da Moskvada Sovet Rusiyası ilə Türkiyə arasında müqavilə imzalandı. İmzalanan müqavilə iqtisadi əlaqələrin, hər şeydən əvvəl ticarət əlaqələrinin yaranması və inkişafında böyük rol oynadı. 1922-ci ilin yanvarında Ankarada Sovet Ticarət nümayəndəliyi fəaliyyətə başladı. Bu nümayəndəliyin vəzifəsi Türkiyə ilə ticarət münasibətlərini inkişaf etdirməkdən ibarət idi. Türkiyə özünə lazım olan bir sıra zəruri malları, o cümlədən neft və neft məhsullarını, tikinti materiallarını Sovet İttifaqından almağa başladı. ZSFSR Gömrük İdarəsinin verdiyi məlumata görə "Azneftsindikat" şirkəti vasitəsilə 1922-ci ildə Batum limanından Türkiyəyə 92-94 ton neft, 340 ton benzin, 1923-cü ildə 509 ton benzin, 2695 ton maşın yağı, 180 ton mazut və toxuculuq dəzgahları üçün 48 ton motor yağı göndərilmişdi. Hesablamalara görə, təkcə 1923-1924-cü illərdə Azərbaycandan Türkiyəyə 16931 ton neft məhsulları göndərilmişdi [209, 443-444].

Azərbaycanla xarici iqtisadi əlaqələrin bərpa edilməsində maraqlı olan bir sıra ölkələrin diplomatik nümayəndəlikləri fəaliyyətlərini davam etdirməyə səy göstərirdilər. Almaniyanın Bakıdakı konsulu 1921-ci il noyabrın 21-də Xarici ticarət komissarı T.Əliyevə yazırdı: *"Bəzi alman şirkətlərindən daxil olan məlumatlara görə, Azərbaycanda xüsusi ticarət bazarından 1000 puda qədər ozokerit almaq mümkündür. Həmin şirkətlər məndən xahiş edirlər ki, Sizə müraciət edərək Almaniya ilə Azərbaycan*

*arasında mübadilə predmeti ola biləcək fond yaradılması üçün bu miqdarda ozokeritin xaricə daşınmasının mümkünlüyünü aydınlaşdırım. Bu məsələni ən yaxın zamanda keçirilən yığıncağınızda müzakirəyə qoyub nəticəsi haqqında məni məlumatlandırmanızı xahiş edərdim. Alman Konsulu"* [81, 122].

Gömrük idarəsi 1922-ci ilin yanvarından başlayaraq Azərbaycan SSR ərazisindən digər sovet respublikalarına gedən sərnişinlərin özləri ilə ümumi çəkisi 5 puddan artıq ərzaq mallarını aparmasını qadağan etmişdi. Gömrük idarəsinin razılığı olmadan Bakı gömrükxanasının rəhbərliyi respublika ərazisindən hər hansı bir adda yükün çıxarılmasına müstəqil surətdə icazə verə bilməzdi.

1922-ci ilin birinci yarısında Azərbaycandan 934, 6 min pud müxtəlif adda mallar ixrac edilmişdi. İxrac malları xüsusi çəkisində əsas yeri neft və neft məhsulları (483 min pud), sonrakı yerləri müxtəlif xammal növləri (187 min pud), taxıl məhsulları (97 min pud), şəkər (50, 7 min pud) və balıq (37 min pud) tuturdu. Azərbaycan SSR-də xarici ticarət dövriyyəsinin 70 faizi xüsusi kapitalın, 19 faizi kooperasiya ticarətinin, cəmi 11 faizi dövlət ticarət orqanlarının əlində idi [144, 306-307].

### 1.3. Sovet gömrük aparatı Azərbaycanın iqtisadi-ticarət maraqlarına qarşı

Azərbaycan SSR-in xarici ticarətin milliləşdirilməsi hələ RSFSR XKS-nin 1918-ci il 22 aprel tarixli dekreti ilə müəyyən edilən prinsiplər əsasında həyata keçirilməkdə idi. Xarici dövlətlər və ayrı-ayrı ticarət şirkətlərindən alınacaq bütün növ mallar üzrə ticarət sövdələşmələri xüsusi səlahiyyət verilmiş orqanlar aparırdı. Bu orqanlar istisna olmaqla, xariclə ixrac və idxal sahəsində ticarət sövdələşmələri aparılması qadağan edilirdi. Ticarət və Sənaye Komissarlığıdır xarici ticarətin milliləşdirilməsinə məsuliyyət daşıyan orqan idi [215,1918, №38, статья 432].

Dövlət xarici iqtisadi münasibətlər tarixində ilk dəfə olaraq xarici bazara vahid alıcı və satıcı kimi daxil olurdu. İdxal-ixrac əməliyyatlarının qeydiyyatı və bu mallara qiymət qoyulması, yüklərin daşınması, daxil olan valyuta vəsaitlərinin və ixrac mallarının bölüşdürülməsi inhisara alınırdı. Xarici ticarət əməliyyatlarına dövlət müəssisələri ilə yanaşı, bir sıra kooperativ və ictimai təşkilatlar da cəlb edilirdi. Əsas vəzifələrdən biri gömrük müəssisələrinin fəaliyyətinin xarici ticarətin milliləşdirilməsi prinsipləri üzərində yenidən qurulması idi. Sovetlərin və yerli icra orqanlarının gömrükxanaların fəaliyyətini nəzarətdə saxlaya bilər, lakin gömrük nəzarəti və rəsmiləşdirməsinin inzibati və texniki tərəflərinə müdaxilə edə bilməzdilər. Sovetlər tərəfindən gömrükxanaların işinə nəzarət etmək üçün gömrük əməkdaşları içərisində seçilən və ya bu orqanlarda işləməyən şəxslərdən komissar təyin edilir və Fövqəladə Komissiyanın əməkdaşları ezam edilirdi.

Sovet gömrük qaydalarının tətbiqinə V.İ.Leninin 1917-ci il dekabrın 29-da imzaladığı *"Malların idxal və ixracına icazələr haqqında"* dekreti ilə başlanıldı. Sənədə əsasən, xarici ticarətdə icazə-qadağan sistemi tətbiq edilməsi ilə gömrük orqanlarının fəaliyyətində əsas yeri malların keçirilməsinə nəzarət funksiyasını yerinə yetirirdi. İcazəsiz keçirilən mallar qaçaqmal hesab edilir və gömrük əməkdaşları sərhəddən icazəsiz buraxılan mallara görə cinayət məsuliyyəti daşıyırdılar. Sənaye və ticarətin milliləşdirilməsi gömrük siyasətinin də ciddi surətdə mərkəzləşdirilməsini tələb edirdi. Sovet hökumətinin xarici ticarətin milliləşdirilməsi haqqında 1918-ci il 22 aprel tarixli dekreti ilə əslində dövlət xarici bazarda yeganə alıcı və yeganə satıcı kimi çıxış etməyə başladı. Sovet dövlət aparatında gömrüyün yeri V.İ.Leninin imzaladığı 1918-ci il 29 may tarixli "*Vergilərin yığılmasında mərkəzi və yerli Sovet hakimiyyət orqanlarının səlahiyyətlərinin bölüşdürülməsi və yerli gömrük müəssisələrinin fəaliyyətinin tənzimlənməsi haqqında"* adlı dekreti ilə aydınlıq gətirildi. Sovetlərə gömrüyün texniki-inzibati işlərinə müdaxilə etmədən ümumi fəaliyyətinə nəzarət etmək hüququ verilirdi. Gömrük müəssisələri mərkəzi icra hakimiyyəti olmaqla Maliyyə Komissarlığının gömrük Departamenti tərəfindən idarə edilirdi. Heç bir mülki və hərbi hakimiyyət orqanının, eyni zamanda həmkarlar təşkilatının gömrüyün fəaliyyətinə müdaxilə etməyə və gömrük işindən irəli gələn vəzifələrin icrasına mane olmasına icazə verilmirdi. Bu dekreti, əslində sovet gömrük müəssisələrinin yaradılması haqqında akt hesab etmək olardı. 1918-ci il iyunun 29-da RSFSR XKS-nin dekreti ilə Gömrük rüsumları departamenti ticarət və sənaye komissarlığının tabeçiliyində olmaqla Baş Gömrük Nəzarəti İdarəsi adlandırıldı [192, 575-576, 601-602].

İngiltərə, ABŞ, Almaniya, İsveç və b. ölkələrlə ticarət əlaqələrinin fəallaşması ilə əlaqədar olaraq, sərhəddən daşınan xarici ticarət yüklərinin gömrükdə qeydiyyatdan keçirilməsinin reqlamentə salınması bütün ciddiliyi ilə qarşıda dururdu. İdxal-ixrac mallarının gömrükxanalarda qəbul edilməsi, mühafizəsi və buraxılmasının hüquqi cəhətdən nizamlanmasını tənzimləyən yeni qaydalar hazırlanmalı idi. RSFSR hökumətinin 1920-ci il 12 noyabr tarixli "İdxal və ixrac mallarının qəbulu, mühafizəsi və buraxılması qaydaları haqqında" dekreti ilə xarici ticarət yüklərinin sərhəddən daşınmasının reqlamenti müəyyən edildi. Sovetlər İttifaqının ilk gömrük məcəlləsi bu sənədin əsasında formalaşdı [215, 1920, № 94, статья 513].

Azərbaycanın xarici ölkələrdə iqtisadi əlaqələrinin təşkil edilməsi üçün görülən tədbirlərdən biri də 1920-ci il iyunun 1-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı "Xarici ticarətin inhisarı" adlı dekret oldu. Bu dekretə əsasən xarici ticarət dövlət inhisarına alındı, ölkə ərazisindən malların idxal və ixracı yalnız Azərbaycan Hökumətinin icazəsi ilə həyata keçirilməli idi. Lakin bu tədbir sovet Rusiyasına malların idxal və

ixracına aid edilmirdi, bu ölkə ilə əmtəə mübadiləsinə gömrük nəzarəti tətbiq edilmir və heç bir gömrük rüsumu ödənilmirdi.

Bu dövrdə Azərbaycan Respublikasının xarici ölkələrlə ticarət əlaqələri nisbətən sərbəst idi. 1920-ci il iyul ayında Azərbaycan SSR Xarici Ticarət Komissarlığı (AXTK) təşkil olundu. Komissarlığın əsas vəzifəsi bir sıra ölkələrlə ticarət əlaqələrinin bərpa olunması və xarici ticarətin dövlət inhisarına alınmasına nail olmaq idi. Qısa müddət ərzində bir sıra Avropa ölkələri ilə, o cümlədən İtaliya, Almaniya, Fransa və İsveçrənin ticarət firmaları ilə əlaqə yaradıldı. Batum limanı vasitəsilə ölkəyə zəruri texniki avadanlıq, metal məmulatları, elektrik avadanlıqları, kənd təsərrüfatı alətləri və kütləvi istehlak malları (dərman preparatları, paltar, ayaqqabı, qənd, çay və s.) idxal edilirdi. Azərbaycandan isə bu ölkələrə xalça və ipək məmulatı, qaragül dəri, qara kürü, yun və s. mallar göndərilirdi [221,1921, № 6, 20].

Paralel olaraq, eyni müddətdə RSFSR və Azərbaycan SSR arasında beş sahəni əhatə edən razılaşma, o cümlədən xarici ticarət məsələlərini əhatə edən saziş imzalandı. Bu sənəddə Qafqaz respublikaları, İran və Türkiyə ilə ticarət əməliyyatlarının idarə edilməsi səlahiyyətləri Azərbaycan SSR Xarici Ticarət Komissarlığına (Vneştorq) verilirdi. Məhz bu sənədlərlə sovet Rusiyasının Azərbaycanda milli maraqlarının hüquqi təminatının əsası qoyuldu. Azərbaycan Rusiyaya xammal ixracatçısı (əsasən neft) rus mallarının satış bazası və mühüm nəqliyyat qovşağı kimi lazım idi. Türküstanda və Azərbaycan SSR-də pambıqçılıq mədəniyyətinin bərpa edilməsi haqqında RSFSR XKS-nin 1920-ci il 2 noyabr tarixli qərarı bu məqsədə xidmət edirdi [33, 1-2].

1920-ci ilin sentyabrın 30-da Moskvada Azərbaycan Respublikası ilə RSFSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə, hər iki hökumət qısa müddət ərzində hərbi təşkilatları və hərbi komandanlıqları, xalq təsərrüfatı və xarici ticarəti, təchizat, dəmiryolu və su nəqliyyatını, poçt-teleqraf və maliyyə orqanlarını (gömrük xidməti də daxil olmaqla) birləşdirməli idi [194, 222-223].

1920-ci il aprelin 29-da şüşə-farfor istehsalı işçilərinin qurultayında sovet Rusiyasının daxili və beynəlxalq vəziyyətini şərh edən V.İ.Lenin Bakı neftini nəzərdə tutaraq deyirdi ki, *"biz elə bir iqtisadi baza əldə etmişik ki, bizim bütün sənayemizi canlandıra bilər. Bakıda milyon pudlarla neft vardır ki, son vaxtlar satışı mümkün olmamışdır. Beləliklə bizim nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox mühüm kömək ala bilər"*. Xəzər ticarət donanmasının gəmiləri Bakı neftini Həştərxana daşımağa başladı. Təkcə 1920-ci il aprelin 30-dan mayın 2-dək Həştərxana 12 gəmi ilə 1,3 mln. pud neft aparılmışdı. Neftin daşınmasının sürəti RSFSR XKS-ni qane etmədiyindən bu sahədə işlərin gücləndirilməsi 1920-ci ili iyunun 1-də yaradılmış Neft donanması idarəsinin ("Nefteflot") rəhbərliyindən tələb olunurdu. Moskvadan göndərilən V.Dyakonov idarənin rəisi, D.Astafyev,

M.Nalivalko, İ.Qordeyev onun müavinləri təyin edilmişdi. "Nefteflot"un Moskvaya göndərdiyi hesabatdan aydın olur ki, Bakıdan Xəzərdəki bütün sovet limanlarına, (Həştərxan, Petrovsk, Krasnovodsk və b.) iyun ayı ərzində 21139 min pud, iyul ayında isə 28864 min pud neft və neft məhsulları aparılmışdı. Təkcə Bibiheybət mədənlərindən may-iyul ayları ərzində "Maştağa" barkası ilə 5305 min pud neft daşınmışdı. Növbəti 4 ay ərzində 95232 min pud neft və neft məhsullarının daşınması nəzərdə tutulmuşdu. Sənəddə həmçinin qeyd olunurdu ki, neft daşınmasını sürətləndirmək məqsədi ilə qış mövsümündə təqribən 100 neftdaşıyan barj və paroxodların təmir edilməsi üçün gəmi təmirçilərinin sayının 2500 nəfərə çatdırılması nəzərdə tutulurdu. Neft daşıyan gəmilər aksiz və gömrük rüsumlarının tutulması, brand vaxta görə ödənişlər ləğv edilmişdi. Neft kəmərləri İdarəsinin 1920-ci il avqustun 1-nə olan qısa hesabatında göstərilirdi ki, montaj işləri aparılaraq Balaxanı və Suraxanı mədənlərinin neft kəmərləri birləşdirilmiş, bununla da istənilən mədən və zavoddan liman körpülərinə neft vurulması mümkün olmuşdur [34, 264; 139, 6-9].

V.İ.Leninin dekreti ilə 1920-ci il iyunun 9-da yaradılan RSFSR Xalq Xarici Ticarət Komissarlığının qarşısında xarici ticarətin idarə edilməsi vəzifəsi qoyuldu. Bundan əlavə, yeni yaradılan Şura xarici ticarət əməliyyatlarının ümumi planını tərtib etməli, xarici ticarət iştirakçısı olan müəssisələrin maraqlarının təmin edilməsinə yardım göstərməli idi [197, 1920, 11 июня].

1922-ci ilin martında Azərbaycan XTK ləğv edildi və xarici ticarət əməliyyatlarının vahid bir mərkəzdən idarə edilməsi səlahiyyətləri yeni təşkil olunmuş ZSFSR Xarici Ticarət Komissarlığı təşkil olundu. Bu komissarlığın ayrı-ayrı respublikalarda, o cümlədən Azərbaycanda şöbələri yaradıldı. Həmin ilin avqust ayından isə Komissarlığın yerlərdəki şöbələri dövlət idxal-ixrac kontorları ilə əvəz olundu [29, 3].

1922-ci ilin sentyabrında Zaqafqaziya Sovet Respublikası Gömrük İdarəsinin təşkil edilməsi sovet gömrük sisteminin formalaşdırılması sahəsində Moskvanın həyata keçirdiyi strateji planın tərkib hissəsi idi. ZSFSR İttifaq Sovetinin sədri N.Nərimanovun imzası ilə təsdiq olunan *"Zaqafqaziya Sovet Respublikası Gömrük İdarəsinin təşkili haqqında"* Zaqafqaziya Sovet Sosialist Respublikası İttifaq Sovetinin 1922-ci il 24 sentyabr tarixli Dekretdə göstərilirdi:

*1. Zaqafqaziya Sovet Sosialist Respublikası İttifaq Sovetinin Rusiya Sosialist Federativ Respublikası ilə 1922-ci il 5 sentyabr tarixli razılaşması əsasında Zaqafqaziya hüdudlarında bütün gömrük məsələlərinin tənzimlənməsi məqsədilə Zaqafqaziya Sovet Sosialist Respublikası Xalq Xarici Ticarət Komissarlığının tərkibində RSFSR-in ümumgömrük orqanları ilə birləşdirilən vahid Zaqafqaziya Gömrük İdarəsi yaradılır. Ayrı-ayrı respublikaların Zaqafqaziya Xalq Maliyyə Komissarlığı nəzdindəki Nümayən-*

*dəliklərinin gömrük şöbələri ləğv edilir və yerlərdəki bütün gömrük müəssisələri birbaşa Zaqafqaziya Gömrük İdarəsinin tabeçiliyinə verilir.*

*2. Zaqafqaziya Gömrük İdarəsi Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Xalq Xarici Ticarət Komissarlığına tabedir. ZSFSR Xalq Maliyyə Komissarlığı və onun yerli orqanlarının gömrük gəlirlərinin yığılmasına nəzarət etmək hüququ vardır.*

3. *Bu nəzarətin aparılması qaydaları Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Xalq Xarici Ticarət Komissarlığı və Xalq Maliyyə Komissarlığının birgə hazırladıqları və ZSFSR İttifaq Sovetinin təsdiq etdiyi xüsusi təlimatla müəyyən edilir"* [65, 113-114 ].



Nəriman Nərimanov
(1870-1925)

ZSFSR İttifaq Şurasının 23 noyabr 1922-ci il tarixli qərarı ilə idxal rüsumu və aksizlərinin ödənilməsi qaydalarında da müəyyən dəyişikliklər aparıldı. Xaricdən Batum və Poti limanından keçməklə Tiflis və ya Bakıya ünvanlanan Avropa mənşəli mallara görə rüsumlar sahibinin arzusu ilə daxil olduğu gömrükxanada deyil (Batum və ya Poti), malın göndərildiyi gömrükxanada (Tiflis və ya Bakı), Asiya mənşəli mallar isə, eyni qaydada, Bakı, Culfa və Aleksandropoldan Tiflis, Bakı, Batum və Potiyə göndərildikdə ödənilirdi. Qərara əsasən, xarici malların idxalından aksiz vergisi yalnız daxili bazara buraxılan mallardan alınırdı.

ZSFSR Xarici Ticarət Komissarlığının əsas vəzifəsi şərq ölkələri ilə ticarət əlaqələrini bərpa etmək, üç Qafqaz respublikasının idxal-ixrac potensialının idarə edilməsi və dövlətin xarici ticarət üzərində inhisarını möhkəmlətməkdən ibarət idi. ZSFSR İttifaq Sovetinin sədri N.Nərimanovun imzası ilə təsdiq edilən *"İdxal və ixrac vergilərinin tətbiq edilməsi haqqında"* Zaqafqaziya İttifaq Sovetinin 1922-ci il 11 oktyabr tarixli Dekreti xarici iqtisadi-ticarət əlaqələrinin yeni gömrük qaydalarını müəyyən edirdi. Dekretə görə, ZSFSR İttifaq Soveti ilə RSFSR XKŞ arasında gömrük-tarif razılaşması aşağıdakı məsələləri əhatə edirdi:

*1) 1922-ci il sentyabrın 10-dan Zaqafqaziyaya xaricdən gətirilən Avropa mənşəli mallara RSFSR Xalq Komissarları Şurasının 1922-ci fevral 7-də təsdiq etdiyi RSFSR-in vahid Gömrük tarifinin bütün əlavələr və dəyişikliklərlə birlikdə tətbiq edilməsi;*

*2) 1922-ci il oktyabrın 15-dən Zaqafqaziya hüdudlarından çıxarılan mallara RSFSR XKŞ-nin 19122-ci il iyulun 7-də təsdiq etdiyi ixrac ticarətinə aid tarif bütün əlavə və dəyişikliklərlə birlikdə tətbiq edilməsi;*

*3) Zaqafqaziyaya xaricdən idxal edilən və ixraca göndərilmənin qaydaları ayrıca olaraq xüsusi sərəncamlarla müəyyən olunması;*

*4) Zaqafqaziya respublikalarının gömrük müəssisələrində RSFSR-də qəbul edilən əsaslarla və həcmdə dəftərxana, anbar, gerb, damğa və ticarət yığımları tutulması;*

*qeyd: Zaqafqaziya gömrükxanalarında göstərilən yığımlarda edilən hər hansı bir dəyişiklik öncədən razılaşdırıldıqdan sonra tətbiq edilməlidir.*

*5) ZSFSR Xalq Xarici Ticarət komissarlığına bu dekretin tətbiqi qaydaları, habelə onun ayrı-ayrı maddələrinin izahı haqqında təlimatları dərc etmək səlahiyyətinin verilməsi.*

*6) Bu dekret dərc edilməsi ilə Zaqafqaziya respublikaları hüdudlarında tranzit yüklər və gömrük tarifləri haqqında qüvvədə olan bütün dekret və qərarlar ləğv edilsin.*

*7) Dekret teleqrafla qüvvəyə minir* [1922,12 октября, № 97].

Bu dekretin dərc edilməsi ilə Zaqafqaziya respublikaları hüdudlarında tranzit yüklər və gömrük tarifləri haqqında qüvvədə olan bütün dekret və qərarlar ləğv edilirdi. Dekretin qüvvəyə minməsi teleqrafla bildirilmişdi. Beləliklə, xarici ticarətin dövlət inhisarına keçirilməsi üçün ixrac sahəsində əvvəllər tətbiq olunan güzəştlər aradan qaldırıldı. Bundan əlavə, ticarət azadlığını məhdudlaşdıran tədbirlər həyata keçirildi [196, 1922, 12 октября, №97; 41, 23].

1922-ci ilin sonunda gömrükxanalarda qeydə alınan ixrac malları 4 qrupa bölünürdü: 1) ixracı qadağan edilmiş mallar; 2) ixracı dövlət inhisarında olan mallar; 3) ixracına lisenziya verilən mallar; 4) sərbəst ixrac olunan mallar.

1922-ci ilin sentyabrında Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının XKS-yə göndərdiyi məktubda göstərilirdi ki, İranın ölkəmizdəki Diplomatik nümayəndəliyi Azərbaycan Hökumətindən 20 min pud pambıq lifinin maneəsiz və gömrük rüsumuna cəlb edilmədən tranzit olaraq Batuma göndərilməsinə icazə verilməsi xahişinə müsbət cavab verilsin. A.Şirvaninin imzaladığı məktubda göstərilirdi ki, bundan əvvəl Ali İqtisad Şurasının bu malların gömrük rüsumu tutulmaq şərti ilə buraxılması haqqında qərarı İran tərəfində narazılıq yarada bilər. Buna görə, 20 min pud pambığın həqiqətən İran hökumətinə məxsus olmasını və son zamanlar hər iki ölkə arasında münasibətlərin qaydaya düşməsi faktı nəzərə alınmalıdır [68, 414-414[arx.]].

Azneftin rəisi Serebrovskinin 1922-ci il 13 avqust tarixli teleqramında göstərilirdi ki, 1920-ci ilin may ayından 1921-ci ilin dekabrınadək Bakıdan xarici ölkələrə ixrac edilən neftin dəyəri 70 trilyon manat (1922-ci ilin müvafiq qiymətləri ilə) olmuşdu. Teleqramda göstərilirdi ki, 1922-ci ilin

iyun ayına qədər bu vəsaitin cəmi 1,5 trilyonu (?! – R.Q.) Azneftin hesabına köçürülüb [42, 96].

1922-ci il dekabrın 10-da ZSFSR Konstitusiyasının qəbul edilməsi ilə xarici ticarət komissarlıqlarının birləşdirilməsi hüquqi cəhətdən tamamlanmış oldu.

Qeyd etmək lazımdır ki, bu tədbir regionda fəaliyyət göstərən bir sıra xarici şirkətlərin ciddi müqavimətinə rast gəldi. Buna baxmayaraq xarici ticarətin tamamilə dövlət inhisarına alınması üçün tədbirlər davam etdirildi. Xarici şirkətlərin bir çoxuna lisenziya verilməsi dayandırıldı. Bu iş dövlət kontoruna həvalə edildi. 1925-ci ildən isə Baş konsessiya idarəsi tərəfindən verilmiş icazələr ləğv olundu [178, 1922, 3 ноября].

Sovet Azərbaycanda təsərrüfat quruculuğu işləri idarəetmə sahəsində tez-tez aparılan islahatlarla müşayiət olunurdu. Azərbaycan hökumətinin 1922-ci il 12 iyun tarixli dekreti ilə Sənaye və Ticarət Komissarlığı yaradılmışdı. Lakin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və XKŞ-nin 19 aprel 1924-cü il tarixli qərarı ilə Komissarlıq yenidən XTŞ ilə əvəz edilmiş, ticarət məsələlərinin tənzimlənməsi funksiyaları Ali İqtisad Şurası nəzdində fəaliyyət göstərən daxili ticarət Komissiyasına həvalə edilmişdi. 1924-cü il dekabrın 15-də təsdiq edilən Əsasnaməyə görə, AXTŞ respublika ərazisindəki bütün istehsal və ticarət müəssisələrinə rəhbərlik və fəaliyyətlərinin tənzimləyən icra orqanı idi. Şuranın tərkibinə daxil olan Dövlət müəssisələri idarəsinin kommersiya şöbəsi idxal-ixrac məsələləri ilə məşğul olurdu. 1926 və 1928-ci illərdə AXTŞ-nin idarəçilik strukturunda yeni islahatlar aparıldı. Sonuncu dəyişiklikdən sonra Şuranın aşağıdakı tərkibdən ibarət idi: 1) Rəyasət heyəti (sədr və üzvlər); 2) Katiblik və məxfi şöbə; 3) İşlər idarəsi; 4) Moskva və Tiflis şəhərlərində nümayəndəliklər; 5) Maliyyə şöbəsi və mərkəzi mühasibatlıq; 6) Smeta və yeni tikintilərin qeydiyyatı; 7) istehsalat idarəsi; 8)texniki büro; 9) energetika şöbəsi; 10) Statistika şöbəsi; 11) Kəşfiyyat bürosu; 12) Sənayenin iqtisadiyyatı şöbəsi; 13) İdxal və ixrac stolu; 14) İxtiralar işləri üzrə şöbə; 15) Texniki peşə təhsili şöbəsi; 16) Yeli və xüsusi sənaye şöbəsi; 17) Kustar və kooperativ ticarət şöbəsi; 18) Səmərələşdirmə və mühəndis müfəttişliyi şöbəsi və 19) Təsərrüfat şöbəsi.

1927-ci il avqustun 1-dən AXTŞ-nin strukturuna daxil edilən trestlər, o cümlədən Azipək, Azərtütün, Azərbalıq, Azərtekstiltrest, "Sement" səhmdar cəmiyyəti respublikanın xarici ticarət əməliyyatlarında fəal iştirak edirdi. 1930-cu ildə Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasının (AXTŞ) yeni Əsasnaməsi təsdiq edildi. 1932-ci il martın 29-da isə Azərbaycan SSR MİK və XKŞ-nin qərarı ilə AXTŞ-nin bazasında respublika yüngül sənaye Nazirliyi təşkil edildi. Beləliklə, 1920-1932-ci illər ərzində ölkə iqtisadiyyatının idarə edilməsinə, o cümlədən müəyyən mərhələlərdə xarici ticarət fəaliyyətinin tənzimlənməsində iştirak edən orqanın fəaliyyəti başa çatdı [87, 1].

1922-ci ildə SSRİ-nin yaradılması ilə bir dövlət halında birləşdirilən sovet respublikalarının xarici ticarətinin vahid mərkəzdən idarə edilməsində yeni mərhələ başlandı. ZSFSR Xalq Xarici Ticarət Komissarlığının 1923-cü il fevralın 15-də keçirilən kollegiya yığıncağında komissarın müavini Hacınskinin məruzəsində irəli sürülən təkliflər əsasında ixrac şərtlərində dəyişikliklər aparıldı. İxracına icazə verilməyən malların siyahısından konyak spirti, at qılları və qoz ağacından alınan taxtanın çıxarılması təklifi qəbul edildi. Bu siyahıya daxil olan mallar üç qrupa ayrıldı: 1) ixracı müvəqqəti olaraq qadağan edilən mallar, o cümlədən metallurgiya, elektrotexnika, dağ-mədən və kimya sənayesi məhsulları, müxtəlif heyvan bağırsaqları, biyan kökü, rafinad qənd və şəkər tozu, tütün və Qafqazda istehsal olunmayan xalça məmulatları; 2) ixracı dövlət inhisarında olan mallar; 3) ümumi qaydalarla ixracına icazə verilən mallar, o cümlədən aşılanmış və ya xam quzu və keçi dərisi, müxtəlif xəzlər, kürü, balıq yapışqanı, ipək, bal, Qafqazda istehsal edilən xalçalar və dəvə yunu.

Kətan istisna olmaqla digər toxuculuq məmulatlarına lisenziya verilirdi.

ZSFSR Xalq Xarici Ticarət Komissarlığının 1923-cü il fevralın 27-də Hacınskinin sədrliyi ilə keçirilən yığıncağında Federasiyaya daxil olan respublikalara xarici ölkələrdə ticarət əməliyyatlarının sərbəst aparılması səlahiyyətinin verilməsi müzakirə edilmişdi. XXTK Zaqafqaziya XKŞ-nin 1923-cü il 15 fevral tarixli 9 saylı qərarının 2-ci bəndinə əsaslanaraq qərara alınmışdı: 1) Azərbaycan, Ermənistan və Gürcüstanın XKŞ və Torpaq komitələrinə xaricdə ticarət əməliyyatları aparmalarına icazə ZSFSR XXTK tərəfindən yalnız bu ölkələrdəki ticarət nümayəndəliyi vasitəsilə verilir; 2) digər dövlət və təsərrüfat orqanları isə ayrıca olaraq hər bir kommersiya əməliyyatlarında öz nümayəndələrini xarici ölkəyə ezam etməli və həmin nümayəndələr ZSFSR XXTK-nin həmin ölkədəki ticarət nümayəndəliyinin rəhbərliyi və nəzarəti altında işləməlidir [211, 17, 19].

ZSFSR XXTK-nın 1923-cü il dekabrın 14-də keçirilən kollegiya yığıncağında neft ixracının yeni qaydaları müəyyən edildi. Bu münasibətlə Cənubi Qafqaz Gömrük idarəsinin rəis müavini A.Lebedevin imzası ilə Gürcüstan, Azərbaycan, Ermənistan və Naxçıvan ölkəsinin gömrük inspektorlarına, I, II və III dərəcəli gömrükxanalara ünvanlanan təlimatda göstərilirdi: 1) Neftesindikatın Yaxın Şərq kontoru Cənubi Qafqaz ərazisindəki xaricə aparılan neft məhsullarının ümumu həcmi və hər bir gömrükxanadan keçiriləcək miqdarı haqqında oktyabrın 1-dən başlamaqla ixrac planı hazırlayır. Bu lisenziyalar əsasında Yaxın Şərq kontoru kontragentlərə xüsusi vəsiqə verir; 2) neft məhsullarının Culfa və Şahtaxtı gömrükxanalarından şimal-qərbi İrana Cənubi Qafqaz ticarət idarəsinin ("Zaqqostorq") Yaxın Şərq kontoru ilə müqavilə əsasında ixrac edilir və hər əməliyyat üçün ZSFSR XXTK-dən lisenziya alınmalıdır; 3) Türkiyəyə neft məhsullarının

daşınması Aleksandropol gömrükxanasından keçməklə bilavasitə Neftesindikat və ya onun kontragenləri vasitəsi ilə həyata keçirilir; 4) gömrükdən neft məhsulları keçirilməsinə ZSFSR XXTK tərəfindən Neftesindikat və onun kontragentlərindən başqa heç bir təşkilata lisenziya verilmir; 5) əgər yük bilavasitə Neftesindikat tərəfindən aparılırsa, gömrükxanada lisenziya rüsumu tutulmur. Neft məhsullarını sərhəddən kontragentlər tərəfindən daşındığı halda, gömrükxanadan ödənilən lisenziya rüsumunun qəbzi tələb edilir [30, 380].

Beləliklə, Azərbaycan SSR-in xarici ticarət əlaqələrində 1922-ci ildən aşağıdakı hallar müşahidə edilirdi: a) idxal-ixrac əməliyyatları İttifaq hökuməti tərəfindən həyata keçirilirdi; b) xarici ticarət bütünlükdə dövlətin inhisarında idi; c) xarici ticarət ciddi surətdə aparılan makroplanlaşdırmanın əhatə dairəsində idi; ç) Azərbaycan SSR-in idxal-ixrac əməliyyatları ittifaq dövlətinin mənafelərinə xidmət edirdi və d) xarici ticarətlə respublika rəhbərliyi səviyyəsində demək olar ki, məşğul olunmurdu.

1923-cü ildən başlayaraq xarici ölkə bazarlarında Azərbaycanın yerli kənd təsərrüfatı məhsullarına, o cümlədən təzə meyvə və qarın-bağırsaq məhsullarına tələbat artdı. Bunu dərhal nəzərə alan sovet hökuməti bu məhsullarla ticarəti inhisara almaq üçün “Zakutilsıryo” adlı səhmdar şirkəti yaratdı.

Azərbaycan SSR-dən ixrac olunan mallar içərisində neft və neft məhsulları, xam ipək və ipək məhsulları, biyan kökü və heyvandarlıq məhsulları əsas yer tuturdu. İxrac edilən neft məhsullarının daha sürətlə artması sayəsində respublikanın xarici ticarət dövriyyəsi öz həcminə görə 1913-cü ilin səviyyəsini keçmişdi. Lakin xalça, texniki bitkilər və bəzi heyvandarlıq məhsullarının ixracı üzrə göstəricilər hələ də aşağı idi [65, 17, 19].

Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqının (“Azərittifaq”) İşçi Kooperativləri Komitəsinin Azərbaycan KP(b) MK-ya, XKŞ və Maliyyə Komissarlığına göndərilmiş 6 mart 1923-cü il 1082 saylı məktubun məzmunu ilə tanışlıq aydınlıq gətirir. Məktubda yazılır: *“Azərbaycan gömrüyü ASSR-ə gətirilən və aparılan yüklərdən, hətta işçi kooperativlərinin yüklərindən 10 faizi natura ilə vergi tutur. Bir neçə dəfə bu məsələ yuxarı dövlət müəssisələrində, partiya və həmkarlar təşkilatları səviyyəsində müzakirə edilmiş, nəticədə işçi kooperativlərinin xeyrinə həll edilmiş, idxal və ixrac edilən belə yüklər gömrük vergisindən tamamilə azad edilmişdir. Hazırda Bakı fəhlələri üçün Türküstandan taxıl gətirilmişdir. Taxılın boşaldılması körpüdə ləngidilir və oğurlanır. Bakı gömrükxanası 10 faizlik ödənc tələb edir”.*

Məktuba XKS-nin sədri tərəfindən belə bir dərkənar qoyulmuşdur: *“Yol. Tağıyevə. Türküstandan daxil olan ərzaq XKS-nin 9 mart 1922-ci il tarixli qərarı əsasında ödənişdən azad edilir. Musabəyov”* [45, 563].

Cədvəl 1.6

**Azərbaycan SSR-in xarici ticarət əlaqələrinin dinamikası**
(1913-cü ilə nisbətən faizlə)

| İllər | Ticarət dövriyyəsi | Neft məhsulları | Digər mallar | Neft məhsullarının xüsusi çəkisi | Digər malların xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| **1913** | 100 | 100 | 100 | 82,4 | 17,6 |
| **1922-1923** | 31,1 | 29,7 | 37,0 | 78,6 | 21,4 |
| **1924-1925** | 104,8 | 118,0 | 42,1 | 92,0 | 7,1 |

Cədvəldən göründüyü kimi, 1924-1925-ci illərdə respublikanın ümumi xarici ticarət balansı 1913-cü il səviyyəsini ötüb keçmişdi. Lakin neft və neft məhsulları, balıq və xəz məmulatları istisna olmaqla digər ixrac malları müharibədən əvvəlki səviyyədən çox aşağı idi.

1925-1926-cı illərdə Azərbaycanın hesabına ZSFSR-dən ixrac edilən neftin həcmi 1922-1923-cü ilə nisbətən 6,5 dəfə artmışdı. İxrac mallarının dəyərinin 88 faizini sənaye, 22 faizini isə kənd təsərrüfatı məhsulları təşkil edirdi. İdxal olunan malların strukturunda müəyyən dəyişikliklər olmuşdu. Əgər 1923-1924-cü illərdə maşın və avadanlıqlar ümumi idxalın 61,0 faizini təşkil edirdisə, 1925-1926-cı illərdə bu göstərici 77,2 faizə qalxmışdı [65, 3; 221, 1924, № 1, 146-147].

Azərbaycanın xarici ölkələrlə ticarətində qonşu İran dövləti xüsusi yer tuturdu. 1922-1923-cü illərdə SSRİ-nin İranla apardığı ticarət əlaqələrində Azərbaycanın xüsusi çəkisi ixrac üzrə 88,0 faiz, idxal əməliyyatları üzrə isə 81,8 faizə bərabər olmuşdu. 1922-1923-cü illərə nisbətən Azərbaycandan İrana ixracın həcmi 7,0 dəfə, idxal isə 2,7 dəfə artmışdı. İrandan başlıca olaraq kənd təsərrüfatı malları (hazır məhsul və xammal şəklində) gətirilmiş əsasən sənaye malları göndərilmişdi. Bir cəhəti qeyd etmək lazımdır ki, İrandan gətirilən sənaye və kənd təsərrüfatı mallarının az bir hissəsi Azərbaycanda qalır, yerdə qalanı Qafqaz respublikalarının və mərkəzin ehtiyaclarına yönəldilirdi [65, 2, 9, 8].

1923-cü ildə Bakı limanına daxil olan və buradan yola düşən yük gəmilərin sayı da bunu sübut edir. Bir il ərzində limana xarici ölkələrdən gələn 264 gəmi, Bakıdan yük aparan 268 gəmi gömrük baxışından keçirilmişdi, Bundan əlavə, həmin müddətdə daxili limanlardan gələn (kabotaj) 3713 gəmi qəbul edilmiş, 3658 gəmi yola salınmışdı [93, 133].

Beləliklə, 1920-1921-ci illər ərzində Azərbaycan SSR XKS xarici ticarət əməliyyatlarının təşəbbüsçüsü kimi çıxış edir, gömrük nəzarəti və qaydalarının tətbiq edilməsi sahəsində sərbəst qərarlar qəbul edirdi. Lakin 1922-ci ildən başlayaraq, Cənubu Qafqaz respublikaları, o cümlədən Azərbaycanın iqtisadi müstəqilliyinin qarşısına sipər çəkildi: idxal-ixrac

əməliyyatlarının aparılması qəti olaraq mərkəzləşdirildi. Xarici ticarət üzərində sovet Rusiyası və SSRİ-nin tam inhisarının bərqərar edildi, respublika ərazisində yerləşən gömrükxanaların işinə nəzarət tədricən sovet Rusiyasının səlahiyyətinə keçdi. Sovet gömrük tarifi açıq-aşkar proteksionist mahiyyət daşıyırdı. Bu məqsədə çatmaq üçün gömrük-tarif tənzimlənməsi tətbiq olunurdu.

1922-ci ilin martında İttifaq müqaviləsinin təsdiq edilməsi ilə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası təşkil edildi (ZSFSR). Zaqfederasiyanın yaradılması əsas etibarı ilə siyasi və hərbi amillərlə bağlı olsa da, təsərrüfatın bərpası və inkişaf etdirilməsində "Qafqaz xalqlarının səylərinin birləşdirilməsi"nin zəruri olması ictimai şüura təlqin olunurdu. Guya hər bir respublikanın gömrük-tarif sisteminin və ayrı milli pul vahidinin olması normal iqtisadi əlaqələrə və mal mübadiləsinə mane olurmuş. Əslində isə əsas məqsəd zəngin təbii sərvətlərə, o cümlədən karbohidrogen ehtiyatlarına malik olan Azərbaycanın hesabına Rusiya və Ermənistan üçün iqtisadi dividentlər əldə etmək idi.

Sözsüz ki, Azərbaycanın xarici iqtisadi əlaqələrində RSFSR-in inhisarına aldığı malların siyahısında neft, pambıq, xam ipək və dərman bitkilərini əhatə edirdi. Neft məhsullarının ixracı hüququ RSFSR-in xarici ticarət komissarı L.Krasinin imzaladığı 1922-ci il 21 iyul tarixli qərarı yaradılan "Nefteksport" Cəmiyyətinə verildi. İran, Xorasan, Türkiyə (İstanbul vilayətindən başqa), Suriya, Fələstin, Fars körfəzi və Bolqarıstana Bakı, Batum və Poti limanlarından ixracı nəzərdə tutulurdu. Neft məhsullarının ixracı ilə əlaqədar bütün məsələlər, o cümlədən dəniz yolu ilə İrana daşınmasına icazə verilməsi səlahiyyəti Xarici ticarət komissarlığının Bakı nümayəndəsindən alınaraq Azneftin rəisinə verilirdi. Bakı gömrükxanası "Nefteksport"un icazə verdiyi bütün neft məhsulları maneəsiz və gömrük rüsumsuz buraxılmalı idi. Bunu RSFSR xarici ticarət komissarının müavini Frumkinin Azərbaycan hökumətinə və Azneftin rəisi Serebrovskiyə göndərdiyi 1922-ci il 31 iyul tarixli teleqram sübut edir. Teleqramda neft məhsullarına təyin edilən rüsumun təcili olaraq aradan qaldırılması üçün göstəriş verilməsi xahiş olunurdu. Azneftin neft məhsullarının xarici ticarətinə həsr edilmiş 1922-ci il iyulun 11-də keçirilən müşavirəsinə dəvət olunan Cənubi Qafqaz xarici ticarət idarəsinin Azərbaycan üzrə nümayəndəsi Qulubəyov və Bakı gömrükxanasının rəis əvəzi Düdənginski məsələnin Cənubi Qafqaz SSFR-in ittifaq Şurası və Azərbaycan KP MK ilə razılaşdırılmasının vacib olduğunu bildirmişdilər. Lakin Azərbaycanı təmsil edən məsul şəxslərin etirazına məhəl qoyulmamışdı. Bundan bir qədər öncə Azərbaycan SSR XKŞ-nin qərarı ilə İrana göndərilən neft və neft məhsullarına dəyərinin 50 və 70 faizi həcmində gömrük rüsumu təyin edilməsi RSFSR hökumətinin narahatlığına səbəb olmuşdu. [46, 102; 33, 12; 222, 169-170].

Zaqafqaziya Sovet Sosialist Respublikası İttifaq Sovetinin sədri Nəriman Nərimanovun imzası ilə təsdiq olunan 1922-ci il 24 sentyabr tarixli "Zaqafqaziya Sovet Respublikası Gömrük İdarəsinin təşkili haqqında" Dekret sovet respublikalarının gömrük münasibətlərinin uyğunlaşdırılması və birləşdirilməsi sahəsində atılan ilk addımlardan biri oldu. Sənədin 1-ci bəndində göstərilirdi ki, Zaqfqaziya Sovet Sosialist Respublikası İttifaq Sovetinin Rusiya Sosialist Federativ Respublikası ilə 1922-ci il 5 sentyabr tarixli razılaşmasına əsasında, Zaqafqaziya hüdudlarında bütün gömrük məsələlərinin tənzimlənməsi məqsədilə ZSFSR Xalq Xarici Ticarət Komissarlığının tərkibində RSFSR-in gömrük orqanları ilə birləşdirilən vahid Zaqafqaziya Gömrük İdarəsi yaradılır. Respublikaların Zaqafqaziya Maliyyə Komissarlığı nəzdində olan gömrük şöbələri ləğv edilir və yerlərdəki bütün gömrük müəssisələri birbaşa Zaqafqaziya Gömrük İdarəsinə tabeçiliyinə verilirdi.

Zaqafqaziya Gömrük İdarəsi Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Xalq Xarici Ticarət Komissarlığına tabeliyinə verilirdi. Gömrük gəlirlərinin toplanılmasına nəzarət etmək hüququ ZSFSR Xalq Maliyyə Komissarlığının səlahiyyətinə daxil edildi. Gömrük nəzarəti qaydaları Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Xalq Xarici Ticarət Komissarlığı və Xalq Maliyyə Komissarlığının birgə hazırladığı və ZSFSR İttifaq Sovetinin təsdiq etdiyi xüsusi təlimatla müəyyən olunurdu [29, 113-114 ].

1922-ci ilin fevralında RSFSR xarici ticarət komissarlığının Azərbaycandakı səlahiyyətli nümayəndəsi S.Çasovennı Azərbaycan SSR Gömrük İdarəsinin rəisinə ünvanlandığı 1125 saylı məktubda yazırdı: *"Azərbaycan KP MK-nın qərarı ilə neft məhsulları, dəmir, boş dəmir çəlləklər, manufaktura, taxta-şalban və şəkərin xüsusi şəxslər tərəfindən İrana aparılması qadağan edilib. Bu malların ixracı istisnasız olaraq RSFSR XXTK və Cənubi Qafqaz Sosialist Respublikası vilayət xarici ticarət idarəsinə məxsusdur"* [33, 98]. Həmin nümayəndənin Azərbaycan SSR Maliyyə komissarı Tağıyevə ünvanlanan 1922-ci il 15 aprel tarixli digər bir məktubunda yazılırdı: *"...Azərbaycan və Rusiya Respublikaları arasında imzalanan 30 sentyabr 1920-ci il müqaviləsi, ASSR Ali İqtisad Şurası və XKŞ-nin mövcud qərarları ilə RSFSR XXTK-n ASSR ərazisindən daşıdığı mallardan rüsum tutulmadan maneəsiz buraxılmalıdır, belə ki, sovet respublikaları arasında gömrük yoxdur və ola da bilməz. Yuxarıda göstərilənləri nəzərə alaraq "Dağıstan" gəmisi ilə İrandan gətirilən 630 pud düyünün rüsumsuz buraxılması haqqında Azərbaycan gömrüyünə müvafiq sərəncam vermənizi Sizdən xahiş edirik".* Növbəti dəfə RSFSR-in xarici ticarət nümayəndəsi 1922-ci il 21 may tarixli məktubda Azərbaycan Gömrük idarəsinə İrana şəkər, şüşə və dəmir məmulatları, kibrit və digər malların davamlı olaraq buraxılmasına etirazını bildirir və qeyd olunurdu ki,

bu kimi hallar qanunsuz olmaqla, RSFSR XXTİ və Cənubi Qafqaz vilayət xarici ticarət idarəsi üzərinə Mərkəz tərəfindən qoyulan tədarük işini iflic edir [33, 82].

Azərbaycan SSR Mərkəzi Pambıq İdarəsinin Bakı gömrükxanasına ünvanlandığı 1922-ci il 8 iyun tarixli məktubunda XKS-nin "Bakinski raboçi" qəzetinin 7 iyun tarixli 123-cü sayında dərc olunmuş qərarında Qarabağ ətrafından Tiflis istiqamətinə yaxın vaxtlarda göndərilməsi ehtimal olunan pambığın sərhəddən buraxılmaması üçün müvafiq gömrük məntəqələrinin xəbərdar edilməsi və pambığın Azərbaycan respublikası sərhədlərindən buraxılmaması üçün qəti tədbirlər görülməsi xahiş edilirdi [33,99].

Azərbaycan Gömrük İdarəsinin rəisi Əhməd Rzayevin 1922-ci il iyunun 13-də Hökumətə göndərdiyi hesabatda xarici ticarətin mərkəz tərəfindən inhisara alınmasının və bir neçə qrup mal növünün (şəkər, pambıq parça, meşə-ağac materialları, metal məmulatlar, bidonlar və s.) dövlət inhisarına alınması, yəni lisenziyasız buraxılmasının qadağan edilməsi və gömrük rüsumundan azad edilməsinə münasibətini bildirmişdi. Hesabatda göstərilirdi ki, bunun əsas səbəbi xüsusi tacirlərə Cənubi Qafqaz Xarici ticarət idarəsi tərəfindən xüsusi məbləğ müqabilində gömrükdən keçirilən malların dövlətə məxsus olması haqqında vəsiqələrin verilməsi idi. Məsələn, Tiflisdə yerləşən həmin idarə tərəfindən vətəndaş Mir-Həbibova İrana 1000 pud şəkər tozunun ixracına verilən 1 iyun 1922-ci il tarixində verilmiş 24 saylı lisenziya vəsiqəsinə görə 700 mln. manat alınmış, o isə öz növbəsində həmin sənədi vətəndaş Seyfulla Hüseynova satmışdı. Yaradılmış "əlverişli şəraitdən" istifadə edən tacirlər RSFSR XXTK-nin Bakı şöbəsindən qeyri-qanuni yolla əldə etdikləri vəsiqələrlə valyuta tutumlu malları heç bir gömrük rüsumu ödənilmədən sərhəddən keçirirdilər. Statistik rəqəmlərə əsaslanaraq qeyd etmək olar ki, qadağanedici tədbirlərə baxmayaraq, idxalın ümumi həcmində dövlət sektoru xüsusi ticarətdən xeyli geri qalırdı.

Azərbaycan hökumətinin birbaşa nəzarətində olan gömrükxanalarda xarici ticarət əməliyyatlarından gömrük rüsumlarının yığılması RSFSR hökumətini narahat etməyə bilməzdi. ZSFSR İttifaq Soveti sovet respublikaları arasında ticarəti sərbəst elan edərək bütün gömrük məhdudiyyətlərinin ləğv edilməsini nəzərdə tutan qərarı qəbul etdi. N.Lederin imzaladığı 1922-ci il 28 avqust tarixli 3031/325 saylı teleqramda sovet respublikaları arasındakı daxili sərhəd xətlərində gömrük nəzarəti məntəqələrinin fəaliyyətinin təcili olaraq dayandırılması və daşımalarla bağlı məhdudiyyətlərin 48 saat ərzində ləğvi, qərarın dövri mətbuatda dərc edilməsi tələb olunurdu. Qərarın həyata keçirilməsinə maneçilik törədildiyi halda, gömrükxana rəisi ictimai asayişi qoruyan məsul əməkdaşlara müraciət etməli idi. Beləliklə, Moskvanın göstərişi ilə Azərbaycan SSR-nin

müstəqil gömrük-tarif siyasəti yeritmək cəhdlərinə imkan verilmədi. Azərbaycan Gömrük İdarəsinin rəisi Əhməd Rzayevin respublika XKS-nin sədrinə göndərdiyi 20 avqust 1922-ci il tarixli 1890 saylı məktubda Ağstafa gömrük nəzarət məntəqəsinin fəaliyyətinin dayandırılması, əməkdaşların müsadirə edilən mallar və toplanmış gömrük rüsumları ilə birlikdə Bakıya ezam edilməsi haqqında göstəriş verildiyi bildirilirdi.

Bunun əksinə olaraq, cənub sərhədində yeni gömrük məntəqələrinin açılmasına təşəbbüs edilirdi. Bakı gömrükxanası rəisinin 1922-ci ilin oktyabrında Cənubi Qafqaz gömrük idarəsinə Lənkəran qəzasının Kilvəz və Arus sərhəd məntəqələrində gömrük xidmətinin təşkil edilməsi haqqında müraciət etmişdi. Məlumdur ki, qeyd edilən gömrük müəssisələri 1914-cü ilə qədər Lənkəranla İranın Ərdəbil vilayətinin sərhədyanı ticarət əlaqələrinin tənzimlənməsində fəaliyyət göstərirdi. Məktubda 3-cü dərəcəli Kilvəz gömrükxanasının və Arus gömrük postunun yaradılması daxili bazarın təchizatına İrandan gətirilən mal-qara və taxıl məhsulların müsbət təsir edəcəyi vurğulanırdı [33, 200].

RSFSR XKS 1922-ci ilin fevralında ixrac, iyun ayında isə idxal tarifini təsdiq etdi. İlk sovet gömrük tarifləri XXTK-da yaradılmış gömrük-tarif Komitəsində hazırlandı. Bu tariflərin əsas funksiyası xarici ticarətin dövlət inhisarını qoruyub saxlamaq idi. Sərhəddə və ölkə ərazisinin daxilində yerləşən gömrükxanalarda lisenziya qaydasının tətbiq olunmasına ciddi riayət olunurdu. Ölkənin iqtisadi maraqlarının mühafizəsi işi gömrük xidmətinə, hərbi və siyasi cəhətdən qorunması, qaçaqmalçılığa qarşı mübarizə vəzifələri isə Dövlət Siyasi İdarəsinin (DSİ) üzərinə düşürdü.

Gömrük orqanları ilə yanaşı Qızı Ordunun ayrı-ayrı hissələrinin xüsusi şöbələri və fövqəladə komissiyaların bazasında qaçaqmalçılığa qarşı mübarizə məqsədi ilə xüsusi sərhəd nəzarət-buraxılış məntəqələri yaradılmışdı. Müsadirə edilən malların satışından əldə edilən dəyərin hamısı (qaçaq malı birbaşa və ya dolayı surətdə aşkar edən şəxslərə ödənilən mükafatdan başqa) DSİ-nin ərzaq və digər mallarla təchizatının yaxşılaşdırılmasına, qaçaqmalçılıqla mübarizənin gücləndirilməsinə yönəldilməli idi. Lakin gömrük nəzarətçiləri ilə bu qurumun əməkdaşları arasında gömrük baxışı keçirilməsinə ikincilərin tez-tez baş verən müdaxiləsi nəticəsində narazılıq yaranırdı. Azərbaycan gömrük dairəsinin müfəttişi B.Bəhramov 1922-ci il noyabrın 29-da Bakı gömrükxanasına ünvanlandığı məktubda yazırdı: *"Mənə çatan məlumatlara görə, Dövlət Siyasi İdarəsinin əməkdaşları qaçaqmalçılığa qarşı əməliyyatlar zamanı gömrük nəzarətçilərinin işinə kobud müdaxilə edir, müsadirə etdikləri malları Bakı gömrükxanasına təhvil vermirlər. DSİ-nin 1921-ci il 14 avqust tarixli 252 saylı təlimatının 8-ci maddəsinə əsaslanaraq bildirirəm ki, xüsusi şöbənin əməkdaşları gömrük ərazisində onlara verilən səlahiyyət daxilində hərəkət etməli, aşkar edilən qaçaq mallar haqqında akt tərtib etməli və gömrük-*

*xanaya təhvil verməlidirlər. Aktın bir surəti DSİ-nin mahal şöbəsinə, biri isə gömrük idarəsinə çatdırılması üçün mənə verilməlidir"* [86, 139].

Sovet dövlətinin Cənubi Qafqaz regionuna yönəlmiş strateji maraqlarını dörd bloka ayırmaq olar: 1) iqtisadi maraqlar (bura həm də xarici ticarət və gömrük nəzarətinin ələ alınması ilə bağlı tədbirlər də daxildir); 2) sovet Rusiyasının siyasi cəhətdən tanınması ilə bağlı maraqlar; 3) hərbi-strateji vəzifələrin yerinə yetirilməsi ilə bağlı olan maraqlar; 4) ideoloji maraqlar. Qeyd edilməlidir ki, hər dörd blok üzrə Rusiya Azərbaycanda maraqlarının hüquqi təminatının yaradılmasına can atırdı. Azərbaycan Rusiyaya hər şeydən əvvəl yanacaq təchizatçısı, rus mallarının satış bazarı və güclü dəniz nəqliyyatı qovşağı kimi lazım idi. Azərbaycan SSR-nin gömrük xidmətinin idarə edilməsinin Moskvaya tabe edilməsinin də kökündə bu maraqlar dururdu. Azərbaycanda Rusiyanın maraqlarının hüquqi təminatı 1920-ci il sentyabrın 30-da imzalanmış müqavilə və müxtəlif məsələləri əhatə edən sazişlərlə təmin edildi. İrina Borisova *"1917-1929-cu illərdə sovet Rusiyasının və SSRİ-nin Mərkəzi Asiya və Qafqaz regionunda milli dövlət maraqlarının hüquqi təminatı: tarixi-hüquqi araşdırma"* adlı doktorluq dissertasiyasında bu nəticəyə gəlir ki, sovet Rusiyası Azərbaycana qarşı münasibətində *(əslində - iddialarında – R.Q.)*hər şeydən əvvəl iqtisadi maraqlar üstün tutulurdu. Müəllifin sovet Rusiyasının geosiyasi maraqlarının təmin edilməsində digər Qafqaz respublikalarına münasibəti haqqında fikirləri ilə də razılaşmaq olar. Tədqiqatçı düzgün olaraq Sovet Rusiyasının Gürcüstana olan marağının hərbi-strateji məqsədlərindən irəli gədiyini, digər tərəfdən isə Rusiyanın Azərbaycanın neft yataqlarına və limanlarına çatmaqda Gürcüstan ərazisindən tranzit yol kimi istifadə edilməsi imkanını dəyərləndirdiyini göstərir. İ.Borisova qeyd edir ki, digər Qafqaz respublikaları ilə müqayisədə Ermənistan Rusiyanın ticarət-iqtisadi, hərbi-strateji və diplomatik planda marağını daha az cəlb edirdi. Sovet Rusiyası tələm-tələsik imzalanmış ikitərəfli və çoxtərəfli müqavilələrlə iqtisadi-ticarət maraqlarının hüquqi təminatını təsbit etdi və SSRİ-nin ərazisinin genişləndirilməsi faktını reallaşdırmış oldu [179, 92].

RSFSR-in Cənubi Qafqazda, o cümlədən Azərbaycanda iqtisadi maraqlarının əsas hərəkətverici qüvvəsini gömrük aparatı təşkil edirdi. Bu sahədə ilk tədbirlərdən biri ZSFSR İttifaq Soveti ilə RSFSR XKŞ arasında gömrük-tarif razılaşmasına əsasən qəbul edilən Cənubi Qafqaz Sovet Sosialist Respublikası İttifaq Sovetinin *"İdxal və ixrac vergilərinin tətbiq edilməsi haqqında"* 1922-ci il 11 oktyabr tarixli Dekreti oldu. Cənubi Qafqaz ərazisinə xaricdən gətirilən Avropa mənşəli mallara 1922-ci il sentyabrın 10-dan RSFSR XKŞ-nin 7 fevral 1922-ci ildə təsdiq etdiyi RSFSR-in vahid Gömrük tarifi; Cənubi Qafqaz hüdudlarından çıxarılan mallara isə 1922-ci il oktyabrın 15-dən RSFSR XKŞ-nin 1922-ci il iyulun 7-də təsdiq etdiyi ixrac ticarətinə aid Tarifin tətbiqinə başlanıldı. Cənubi

Qafqaz respublikalarının gömrük müəssisələrində RSFSR-də qəbul edilən qaydalar əsasında dəftərxana, anbar, gerb, damğa və ticarət rüsumları tutulmalı, həmçinin həmin rüsumların həcmində ediləcək hər hansı bir dəyişiklik öncədən razılaşdırılmalı idi. ZSFSR Xalq Xarici Ticarət Komissarlığına bu dekretin tətbiqi qaydaları, habelə onun ayrı-ayrı maddələrinin izahı haqqında təlimatları dərc etmək səlahiyyəti verilirdi [196, 1922,12 октября, №97].

Xarici ticarət üzərində dövlət inhisarının təmin edilməsi eyni zamanda qaçaqmalçılıqla mübarizə işinin gücləndirilməsini tələb edirdi. Sovet hökumətinin 1921-ci il 3 yanvar tarixli dekreti gömrük nəzarətindən gizlədilən bütün malları və pulu, həmçinin gizlədilməyən silah, hərbi sursat, hərbi binokl, qiymətli qaş-daş, və Maliyyə komissarlığının icazəsi olmadan aparılan xarici valyuta, daşınmaz əmlak sənədi, siyasi və iqtisadi cəhətdən zərərli hesab edilən sənədlər, həmçinin bədii və antikvar əhəmiyyət daşıyan əşyaların qaçaqmal hesab edilərək müsadirə edilməsini nəzərdə tuturdu.

Sovet dövlətinin gömrük siyasətinin mahiyyəti xarici iqtisadi əlaqələrin necə təşkil olunması ilə müəyyən olunurdu. Sovet hakimiyyətinin ilk illərində dövlətin xarici ticarət əlaqələrinin qurulmasında aşağıdakı operativ bölmələr iştirak edirdi: a) SSRİ ərazisində dövlət idxal-ixrac kontorları; b) xarici bazarlarda ticarət nümayəndəlikləri; c) bəzi təsərrüfat orqanları: ç) müştərək ictimai və kooperativ təşkilatlar; e) bəzi şərtlər daxilində təsərrüfat müəssisələri və ayrı-ayrı şəxslər.

Gömrük siyasətinin tənzimləyici rolu və xarici ticarətin bütün həlqələri planla bağlı idi. Gömrük rəsmiləşdirilməsi zamanı malın nə vaxt və hansı miqdarda idxal və ya ixrac ediləcəyi, keyfiyyəti və gömrük rüsumunun ödənilməsi müddəti müəyyən edilməli idi. Qiymət siyasəti gömrük siyasətinin həyata keçirilməsində dövlətin fəaliyyətinin əsas istiqamətlərindən biri idi. Lakin bir çox hallarda xarici ticarət partnyorları müqavilə şərtlərini pozaraq birtərəfli qaydada qiymətləri qaldırırdılar. Kapitalist ölkələri əhatəsində olan Sovet dövləti proteksionist siyasət yeritsə də, bəzi hallarda ticarət rejimi və digər şərtlərdən asılı olaraq azad ticarət aparmaqdan imtina etmirdi. Dövlət gömrük rüsumlarının və xarici malların qiymətinin tənzimlənməsinə büdcə gəlirlərinin artırılması vasitəsi kimi baxırdı. Xarici iqtisadi əlaqələrdə dövlət inhisarının mövcudluğu sovet dövlətinin xarici kapitalist ölkələrinin əhatəsində olması ilə bağlı idi. Bir qədər sonrakı mərhələdə, yeni iqtisadi siyasət (YİS) dövründə xarici ticarətin inhisara alınması qanunun fəaliyyəti bir qədər "yumşaldılmışdı". YİS-ə keçid, xüsusi kapitala və sərbəst ticarətə meydan verilməsi nəinki iqtisadiyyatı dirçəltdi, eyni zamanda ticarət dövriyyəsini artırdı. Bu, öz növbəsində xarici ticarətin təşkilinin yeni forma və metodlarından istifadə edilməsini tələb edirdi.

RSFSR XKC-nin 13 mart 1922-ci il tarixli dekreti ilə sovet sənaye müəssisələri və istehsal birliklərinin xarici bazarla əlaqələrinin formaları müəyyən edildi. 16 oktyabr tarixli dekretlə isə iri dövlət müəssisələrinə xarici tərəfdaşları ilə ticarət əməliyyatları aparmalarına icazə verildi. 1923-cü ilin mart-aprel aylarında sovet hökumətinin dekretləri ilə xarici ticarət qaydalarını sadələşdirən dəyişikliklər həyata keçirildi. Xarici bazarlarda mərkəzi ticarət orqanı SSRİ-ni ticarət nümayəndəlikləri hesab edilirdi.

20-ci illərin sovet gömrük siyasəti aşağıdakı prinsiplərə əsaslanırdı:

- gömrük tarifinin açıq-aşkar proteksionist mahiyyət daşıması;
- sənaye istehsalına ziyan vurmadan mövcud şəraitdən asılı olaraq kənd təsərrüfatının müdafiəsi;

Bu məqsədə çatmaq üçün gömrük-tarif tənzimlənməsinin aşağıdakı vasitələri tətbiq olunurdu:

- yüksək idxal rüsumlarının tətbiqi (yerli fabrik qiymətləri ilə xaricdə istehsal edilən malların qiymət fərqi);
- sənaye xammalının, yarımfabrikatların, ölkədə istehsal edilməyən və milli sənayenin inkişafına gərəkli olan maşınqayırma avadanlıqlarının rüsumsuz idxalı;
- ölkədə zəruri miqdarda istehsal edilən eyni adda malların idxalına yüksək rüsumların, hətta qadağanedici tədbirlərin tətbiqi;
- pambıq və yuna mütərəqqi rüsumların tətbiq edilməsi;
- qənd, spirt, neft məhsulları və toxuculuq mallarının rüsumsuz idxalı.

Kənd təsərrüfatını inkişaf etdirmək üçün kənd təsərrüfatı maşınları, toxum və gübrələrin, ziyanvericilərə qarşı kimyəvi vasitələrin, azot gübrəsinin idxalı gömrük rüsumuna cəlb edilmirdi. Bir sıra ərzaq mallarının rüsumsuz idxalına o halda icazə verilirdi ki, ölkədə taxıl, yem bitkiləri toxumları və yağ istehsalına mənfi təsir göstərməsin.

Ölkənin maliyyə vəziyyətini yaşıllaşdırmaq üçün əsas idxal mallarına yüksək rüsumlar təyin edilir, xammal və ərzaq mallarının ixracı həvəsləndirilirdi. Yüksək rüsum dərəcələri zinət əşyalarına, platinə və digər mallara təyin edilmişdi. Tələbatdan asılı olaraq dərman vasitələrinin idxalına icazə verilirdi. Asiya ölkələri və İranla ticarətdə xüsusi tariflər tətbiq olunurdu.

ZSFSR XXTK-nin 1922-ci il 17 oktyabr tarixli 103 saylı qərarı ilə Gömrük İdarəsinin Əsasnaməsi təsdiq edildi. Adı çəkilən sənəddə liman və dəmir yollarında, şose və qrunt yollarında, çay və göl kənarlarında yerləşmiş gömrükxana və gömrük postlarının fəaliyyətinə aid bütün məsələlər ətraflı və dəqiq əks olunmuşdu. Sənəddə göstərilirdi ki, Zaqfederasiya ərazisində gömrükxanaların idarəçiliyi Gömrük İdarəsinə verilir. Gömrük İdarəsi mərkəzi icra orqanı olmaqla Xalq Xarici Ticarət Komissarlığının tərkibində olur, idarəyə rəis və onun müavinləri rəhbərlik edir. Gömrük İdarəsinin rəisi

və müavinləri aşağıdakı məsələlər üzrə xalq komissarı qarşısında hesabat verirdi:

*a) vəzifəli şəxslərin işə qəbulu, yeni vəzifəyə təyini və işdən azad edilməsi (Gömrük İdarəsi rəisinin köməkçisi haqqında);*

*b) prinsipial xarakterli, o cümlədən qanuni həllinin digər komissarlıq və təşkilatlarla razılaşdırılması tələb olunan məsələlər;*

*c) digər idarələrin və XXTK-nin qurumlarının səlahiyyətinə aid olan və gömrük idarəsi ilə razılaşdırıl mayan işlər;*

*d) yeni gömrük məntəqələrinin açılması və dərəcələrinin təyin edilməsi;*

*e) mərkəzi aparat və yerli gömrük orqanlarının ştatının müəyyən edilməsi;*

*f) büdcədənkənar kreditlər haqqında;*

*g) yeni tikinti işləri haqqında;*

*Gömrük İdarəsinin rəisi və onun müavinləri müstəqil olaraq aşağıdakı məsələləri həll edir:*

*- gömrük əməkdaşlarının işə qəbulu və azad edilməsi (maddə 4-də göstərilənlər vəzifələrdən başqa), həmçinin bütün əməkdaşların məzuniyyətə buraxılması;*

*- Gömrük rayonu inspektorlarının, gəmi kapitanları və mexaniklərinin işə qəbulu, yerlərinin dəyişdirilməsi və vəzifədən azad edilməsi;*

*- gömrük işinin təşkili üzrə RSFSR XKS-nin təlimat və qaydalarına uyğun əsasnamə və təlimatların nəşr edilməsi;*

*- gömrük nəzarətinə aid təlimat məktubların çoxaldılaraq yerlərə göndərilməsi;*

*- yerli gömrük müəssisələrinin praktik və sənədlər üzrə təftişi və inspeksiyası;*

*- gömrük təşkilatına ayrılan kreditlərə sərəncam vermək və cavabdehlik daşımaq;*

*- RSFSR Gömrük İdarəsinə müntəzəm olaraq hesabat və statistik məlumatlar təqdim etmək;*

*- məhkəmə orqanlarında gömrük işinə aid dövlətin maraqlarını müdafiə etmək;*

*- tikinti-təsərrüfat işləri üçün ayrılan kreditlərə sərəncam vermək;*

*- Əsasnamənin 4-cü maddəsində göstərilənlərdən başqa digər məsələlər.*

Gömrük İdarəsinin tərkibində 7 bölmə: Ümumi hissə; Təşkilat-əməliyyat; Tarif; Yük-texniki; İstintaq-müsadirə; Statistika və Tikinti-təsərrüfat bölməsi təşkil olunurdu. Əsasnamədə qeyd olunurdu ki, gömrük inspektorluğu sahəsi Gömrük idarəsi tərəfindən Maliyyə Komissarlığı ilə razılaşdırılır. Sahə inspektorları Gömrük İdarəsinə tabedir və göstərişləri ondan alır. Gömrük sahə inspektorları gömrük rayonuna daxil olan gömrük

müəssisələrinin əməkdaşlarının fəaliyyətinə, onların gömrük işinə aid dekret, əsasnamə və sərəncamlara düzgün əməl etməsinə, xidməti və əmək intizamına nəzarət edir. Sahə inspektoru gömrük müəssisəsinin vaxtaşırı təftişini keçirməli, əməkdaşları təlimatlandırmalıdır. Sahə inspektoru yoxlamalar zamanı aşkar edilən nöqsan və sui-istifadə halları aşkar edərsə, onların aradan qaldırılmasına çalışmalı, yol verilən nöqsanların təhqiqatını aparmalı, xüsusilə zəruri hallarda gömrük əməkdaşlarını vəzifədən uzaqlaşdırıb bu haqda Gömrük idarəsinə məlumat verməlidir. Gömrük rayonu ərazisindəki gömrük müəssisələri xidməti fəaliyyətlə əlaqədar, tikinti-təsərrüfat məsələləri istisna olmaqla, inspektorlar vasitəsilə əlaqə saxlamalı, bütün yazışmaların surətləri gömrük sahə inspektoruna göndərilməlidir. Gömrük sahə inspektoru mütəmadi olaraq rayon gömrük müəssisələrinin fəaliyyəti haqqında Gömrük idarəsinin rəisinə hesabatlar təqdim etməlidir. Gömrük idarəsinin rəisi tərəfindən gömrük sahə rəisinə məhkəmə orqanlarında gömrük işi üzrə dövlət mənafeyinin müdafiəsi tapşırıla bilər [40, 1-4].

Sovet dövlət aparatının yaradıldığı ilk illərdə gömrük mühafizəsinin tarixən formalaşmış xidməti vəzifələrini həyata keçirən orqan kimi yox, daha çox sərhəddə dövlət maraqlarını qoruyan siyasi orqan kimi baxılırdı. Dövlət sərhədinin gömrük baxımından mühafizəsinin gücləndirilməsi üçün əlavə tədbirlər görülürdü. Cənubi Qafqazın Gömrük İdarəsi və Siyasi İdarələrinin birgə təsdiq etdikləri və yerli gömrükxanalara və siyasi şöbələrə göndərilən 1923-cü il 31 yanvar tarixli 15 maddədən ibarət olan təlimatda bu qurumların fəaliyyətini əlaqələndirmək üçün aşağıdakı göstərişlər verilmişdi.

Xaricdən gələn gəmi, dəmir yolu qatarı və quru yol nəqliyyatının qəbulu və baxışı gömrük və siyasi şöbə əməkdaşları tərəfindən həyata keçirilir (maddə 1).

Xaricdən gələn sərnişinlərin şəxsiyyətinin müəyyən edilməsi və sənədlərin yoxlanılması siyasi şöbə əməkdaşlarının səlahiyyətlərinə daxildir, gömrük nəzarətçilərinin işinə müdaxilə etmədən aparılan yoxlama zamanı sərnişinlərdə aşkar edilən və qanunsuz keçirilməsinə cəhd edilən əşyalar, əksinqilabi xarakter daşıyan sənəd və əşyayi-dəlillər istisna edilməklə, gömrükxanaya təhvil verilməlidir (maddə 2).

Sərnişinlərin yüklərinə gömrük baxışı gömrükxana əməkdaşları tərəfindən, siyasi şöbə əməkdaşlarının müdaxiləsi olmadan həyata keçirilir (maddə 3).

Gömrük baxışında sərnişinə məxsus yükdə qaçaqmal aşkar edilərsə, müvafiq akt tərtib olunur və qaçaqmal siyasi şöbə əməkdaşlarına təhvil verilir (maddə 4).

İdxal və ixrac mallarına gömrük baxışının vaxtı və həyata keçirilməsi gömrüyün səlahiyyətlərinə daxildir. Siyasi şöbə əməkdaşlarının bu əməliyyatlarda iştirakı məcburi deyildir (maddə 5).

Gömrük baxışında yüklərdən qadağan edilmiş mallar, o cümlədən silah və partlayıcı maddələr, əksinqilabi xarakterli əşyalar aşkar edildilərsə, gömrük baxışı dərhal dayandırılır, siyasi şöbə əməkdaşlarının dəvət edilir, gömrük baxışının nəticələri haqqında akt tərtib edilir (maddə 6).

Siyasi şöbə əməkdaşları yük haqqında xüsusi məlumata malik olduqda gömrükxana rəisinə müraciət edib, gömrük əməkdaşları ilə təkrar gömrük baxışının keçirilməsində iştirak edə bilər (maddə 7).

Çap məhsulları, əlyazma, kino-lent, not vərəqləri, işığa həssas kağızlar və s. senzura tətbiq edilən yük və bağlamalar mütləq siyasi şöbə əməkdaşlarının iştirakı ilə gömrük baxışından keçirilməlidir (maddə 8).

Gömrükxanaya böyük miqdarda çap məhsulları yükləri və bağlamalar daxil olduqda siyasi şöbə öncədən xəbərdar edilir (maddə 9).

Siyasi şöbənin nümayəndələri gömrük baxışına təyin edilən vaxtda gəlmədiyi halda, baxışın keçirilməsi 48 saat ərzində dayandırılır. Həmin müddət bitdikdən sonra gömrük baxışı və sənədlərin tərtibi siyasi şöbə əməkdaşlarının iştirakı olmadan həyata keçirilir, nəticəsi haqqında Dövlət Siyasi İdarəsinə bildiriş göndərilir (maddə 10).

Siyasi şöbə tərəfindən gömrük baxışı zamanı sərnişinlərdən və gömrük rayonundan kənarda aşkar edilən qiymətli əşyalar və mallar protokol əsasında gömrükxanaya təhvil verilir (maddə 11).

Qaçaqmalçılıqla mübarizədə fərqlənən əməkdaşlara mükafat verilməsi ilə bağlı məsələlərə gömrükxana rəisinin, müavinlərinin, baş müfəttişin, həmkarlar təşkilatı sədrinin və siyasi şöbə nümayəndələrinin daxil olduğu müşavirədə baxılır (maddə 12).

Siyasi şöbə gömrükxananın işində baş verən mənfi meyllər və nöqsanlar haqqında Cənubi Qafqaz Siyasi İdarəsinə məlumat göndərməlidir (maddə 13).

Siyasi şöbə əməkdaşları gömrükxananın səlahiyyət dairəsinə və ya fəaliyyətinin texniki cəhətlərinə müdaxilə etdikləri halda, müvafiq akt tərtib edilir və nüsxələri Cənubi Qafqaz Siyasi İdarəsi və Gömrük İdarəsinə göndərilir (maddə 14).

Sənədin sonunda sərhəd mühafizəsinin etibarlı və səmərəli olmasında hər iki qurumun əməkdaşlarının birgə fəaliyyətinin mühüm əhəmiyyət daşıdığı göstərilirdi [30, 180-184].

RSFSR XKS-nin 1922-ci il 30 dekabr tarixli (№72) dekretinə əsasən Cənubi Qafqaz ərazisi üç gömrük dairələrinə bölünmüşdü: 1) Gürcüstan və Abxaziya; 2) Azərbaycan; 3) Ermənistan və Naxçıvan ölkəsi. Hər bir gömrük dairəsinə gömrük müfəttişi rəhbərlik edirdi. Azərbaycan gömrük dairəsinin müfəttişi B.Bəhramovun imzası ilə təsdiq edilən təlimatda dövlət, ictimai, kooperativ, ticarət təşkilatlarına və şəxsi mülkiyyətə aid olan ixrac mallarının gömrük nəzarətindən keçərkən möhürlənməsi (damğa) haqqında göstəriş verilirdi.

Gömrükxanaların və gömrük məntəqələrinin olmadığı ərazilərdə isə bu iş müvafiq komissiyalar tərəfindən bilavasitə bazarlarda, malların mühafizə edildiyi anbarlarda və daşındığı dəmir yolu stansiyalarında aparılmalı idi. Azərbaycan gömrük dairəsi üzrə malların möhürlənməsi Qazax, Gəncə, Tərtər, Ağdaş, Ağdam, Quba, Salyan, Şuşa, Temir-Xan-Şura şəhərlərində, Bərdə, Prişib, Astraxanka, Göytəpə, Qalabazar, Vəng, Xilli, Petropavlovka, Karyagin, Zəngilan və Mincivan kənd məntəqələrində, həmçinin Hacıqabul, Kürdəmir, Yevlax, Ləki, Gəncə, Ağstafa, Xaçmaz, Xudat və Yalama dəmir yolu stansiyalarında həyata keçirilirdi. Azərbaycan dilində yazılmış təlimatda malların möhürlənməsinə görə təyin edilən rüsumların həcmi göstərilirdi. Qaydaya görə möhürlənməyən mallar qaçaq mal hesab edilərək müsadirə olunurdu [35, 18-20].

Qaçaqmalçılıqla mübarizə və gömrükxana ərazisinin kənar müdaxilələrdən qorunması üçün Bakı gömrükxanasının nəzdində 60 nəfərdən ibarət gömrük mühafizə dəstəsi fəaliyyət göstərirdi. Dəstənin komandiri Vladimir Vedernikov, müavini isə Məmmədhüseyn Talıbov idi. Mühafizə dəstəsinin şəxsi heyətinin yarıdan çoxunu azərbaycanlılar təşkil edirdi [89, 165].

ZSFSR İttifaq Sovetinin 1922-ci il 24 sentyabr tarixli dekreti ilə Zaqafqaziya Xalq Xarici Ticarət Komissarlığının tabeçiliyində Gömrük İdarəsi yaradıldı. Zaqafqaziya Maliyyə Komissarlığı və onun yerli orqanları isə gömrük vergilərinin yığılmasına nəzarət etməli idi.

Beləliklə, Zaqafqaziya Maliyyə Komissarlığı tərkibindəki nümayəndəliklərin gömrük şöbələri və respublikalardakı müvafiq qurumlar ləğv edilərək bütün gömrük müəssisələri birbaşa Zaqafqaziya Gömrük İdarəsinə tabe edildi. Həmin dekretlə *"Maliyyə komissarlığının gömrük gəlirlərinə nəzarət etmək hüququ haqqında təlimat"* təsdiq edildi. Bundan sonra bütün gömrük ödənişlərindən daxil olan pul vəsaitləri hər üç gündən bir ZSFSR Maliyyə komissarlığının kassasına təhvil verilməli idi [30, 185].

Bakı gömrükxanasının 17 aprel 1923-cü ildə keçirilən Böyük Şurasında gömrükxananın yeni ştat cədvəlinin layihəsinə baxılmışdı. Yeniləşən cədvəldə gömrükxananın şəxsi heyətinin sayının artırılması nəzərdə tuturdu:

Cədvəl 1.2

**Bakı gömrükxanasının 1923-cü ilə aid ştat cədvəli**

| s/s | Vəzifənin adı | sayı | dərəcə | s/s | Vəzifənin adı | Sayı | dərəcə |
|---|---|---|---|---|---|---|---|
| | **Rəhbərlik** | | | | **Xəzinədarlıq** | | |
| 1. | Gömrükxana rəisi | 1 | 17 | 24 | Müdir | 1 | 14 |
| 2. | Rəis müavini | 1 | 16 | 25 | Baş kargüzar | 1 | 12 |
| 3. | Müfəttişlər | 3 | 15 | 26 | 1-ci dərəcəli kargüzar | 1 | 10 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | Nəzarətçilər | 10 | 14 | 27 | Hesabdar | 2 | 10 |
| | **Təsərrüfat şöbəsi** | | | | **Gəmi şöbəsi** | | |
| 5. | Təsərrüfat müdiri | 1 | 12 | 28 | Rəis | 1 | 14 |
| 6. | Böyük kargüzar | 1 | 10 | 29 | Gəmi yoxlayıcısı | 9 | 12 |
| 7. | Tərcüməçi | 1 | 13 | 30 | Nəzarətçinin müavini | 16 | 10 |
| 8. | Kargüzar | 1 | 9 | 31 | 2-ci dərəcəli yoxlayıcı | 12 | 9 |
| 9. | Kuryer | 3 | 5 | 32 | 3-cü dərəcəli yoxlayıcı | 10 | 8 |
| 10. | Gözətçi | 1 | 4 | 33 | Kargüzar | 2 | 10 |
| 11. | Xadimələr | 2 | 4 | | **Pakhauz şöbəsi** | | |
| 12. | Arabaçı | 1 | 4 | 34 | Rəis | 1 | 14 |
| 13. | Texniki işçi | 1 | 10 | 35 | Anbardarlar | 6 | 12 |
| | **Dəftərxana şöbəsi** | | | 36 | Anbardarın köməkçiləri | 12 | 10 |
| 14. | İşlər müdiri | 1 | 14 | 37 | 2-ci dərəcəli baxıcı | 5 | 9 |
| 15. | Baş kargüzar | 1 | 12 | 38 | 3-cü dərəcəli baxıcı | 3 | 8 |
| 16. | 1-ci dərəcəli kargüzarlar | 4 | 10 | 39 | Kargüzar | 1 | 10 |
| 17. | 2-ci dərəcəli kargüzarlar | 2 | 9 | | **"Bakı" barkasının heyəti** | | |
| 18. | Makinaçılar | 3 | 10 | 40 | Gəmi kapitanı | 1 | 13 |
| | **Mühasibatlıq** | | | 41 | Kapitanın köməkçisi | 1 | 12 |
| 19. | Rəis | 1 | 14 | 42 | Mexanik | 1 | 13 |
| 20. | 2-ci dərəcəli mühasib | 2 | 12 | 43 | Mexanik köməkçisi | 1 | 12 |
| 21. | Baş kargüzar | 4 | 12 | 44 | Sükançı | 2 | 9 |
| 22. | 1-ci dərəcəli kargüzar | 4 | 10 | 45 | Ocaqçı | 2 | 8 |
| 23. | 2-ci dərəcəli kargüzar | 4 | 9 | 46 | Matroslar | | 7 |

Mənbə: ARDA Bakı filialı, f.126, siy. 1, iş 21, v. 233-235.

1923-cü il 1 mart vəziyyətinə görə, Azərbaycan ərazisində fəaliyyət göstərən gömrükxana və gömrük postlarının say tərkibində dəyişikliklər baş vermişdi. Dörd gömrükxana: 1-ci dərəcəli Bakı (barkasla birlikdə), 2-ci dərəcəli Lənkəran, 2-ci dərəcəli Astara, 3-cü dərəcəli Biləsuvar və 3-cü dərəcəli Kilvəz gömrükxanası. Gömrük postlarından isə Yuxarı Kür, Qızıl-Ağac, Xudafərin, Maralyan, Arus və Mincivan postları saxlanılmışdı [34, 11-13].

1923-cü il mayın 9-da ZSFSR XKŞ-nin *"Qaçaqmalçılıqla mübarizə tədbirləri haqqında"* qərarına görə, Zaqafqaziya Gömrük İdarəsində ZSFSR Maliyyə Komissarlığı və Zaqafqaziya Fövqəladə Komissiyası nümayəndələrindən ibarət qaçaqmalçılıqla mübarizə Komissiyası yaradıldı. Bu tip komissiyalar yerlərdəki iri gömrükxanalarda, o cümlədən Bakı və Lənkəran gömrükxanalarında təşkil edilirdi. Həmin qərara əsasən, müsadirə edilən qaçaqmalların reallaşdırılmasından əldə edilən gəlirin 30 faizi dövlət büdcəsinə keçirilir, məhkəmə və daşınma xərcləri çıxılır, yerdə qalan 23 faizi qaçaqmalı bilavasitə aşkar edənlərə, 20 faizi Zaqafqaziya Fövqəladə Komissiyasına, 27 faizi isə Gömrük İdarəsinə çatırdı [215, 1923, статья 238].

ZSFSR MİK və XKS-nin *"ZSFSR-in ümumdövlət, dövlət və yerli büdcələrinin xərcləri və gəlirləri haqqında"* 1923-cü il 2 aprel tarixli dekretində adından göründüyü kimi büdcə gəlirlərinin üç növü – ümumdövlət (federativ), dövlət (respublika) və yerli (qəza, şəhər, kənd) büdcələrə daxil edilən gəlirlər müəyyən edilmişdi. Dekretin 2-ci bölməsində birbaşa daxili və xarici ticarətdən gələn gəlirlər və valyutaya verilən lisenziyalar, xarici pasport və vizaların verilməsinə görə rüsumlar, gömrük gəlirləri federasiya büdcəsinə köçürülən gəlirlər siyahısına daxil edilmişdi [180,1923, 20 мая, №19-20].

1923-cü il mayın 10-da Bakı gömrükxanasının rəisi P.Cuqelinin imzası ilə Azərbaycan XKS-nin sədri Q.Musabəyova göndərilən siyahıda əməkdaşların milli tərkibi və tarif dərəcələri göstərilib. Ştat cədvəlinə görə, 11-ci və 6-cı dərəcələrdən başqa 17-ci dərəcə 1, 16-cı dərəcə 1, 15-ci dərəcə 1, 14-cü dərəcə 3, 13-cü dərəcə 3, 12 dərəcə 14, 10-cu dərəcə 23, 9-cu dərəcə 18, 8-ci dərəcə 10, 7-ci dərəcə 23, 4-5 dərəcə 5 nəfərə verilmişdi. Gömrükxana üzrə 106 nəfərin 43 nəfəri azərbaycanlı idi, onların arasında cəmi 6 nəfəri 13-16-cı dərəcəli mütəxəssislər olmuşdur.

Ümumiyyətlə, Azərbaycanın gömrük xidmətinin ali rəis heyətində çalışan 11 nəfər əməkdaş milli tərkibinə görə müxtəlif idi. 1922-ci ilin iyul ayına aid hesabatda onlardan 5 nəfərinin azərbaycanlı, 4 nəfərinin rus, 1 nəfərinin polyak, 1 nəfərin isə milliyyətcə fin olması göstərilir.

Bundan əlavə, Azərbaycanın inzibati ərazisindəki bəzi gömrükxanalar, o cümlədən 1-ci dərəcəli Culfa gömrükxanası (şəxsi heyəti 26 nəfər), 2-ci dərəcəli Şahtaxtı gömrükxanası (16 nəfər), 3-cü dərəcəli Ordubad gömrükxanası (7 nəfər), 3-cü dərəcəli Bulqan gömrükxanası (7 nəfər) və 3-cü dərəcəli Alışar gömrükxanası (7 nəfər) Erməni-Naxçıvan inspektor rayonuna daxil edilmişdi.

Ermənistan SSR ərazisindəki ən iri gömrükxana Türkiyə ilə sərhəddə yerləşən və cəmi 19 nəfər şəxsi heyətə malik Aleksandropol gömrükxanası idi. Həmin dövrdə Azərbaycan rayon gömrük inspektorluğunda fəaliyyət göstərən gömrük müəssisələrinin əməkdaşlarının milli tərkibi maraq doğurur. Məsələn, 1923-cü ilin ştat cədvəlinə əsasən, Bakı gömrükxanasının 84

nəfər əməkdaşından 31 nəfəri azərbaycanlı idi, o cümlədən gömrükxana rəisi Məcid Əfəndiyev və onun müavini Əhməd Düdənginski.

Gömrük nəzarətinə məxsus "Bakı" barkasının 5 nəfərlik heyətinin 4-ü, o cümlədən gəmi kapitanı Ələkbər Mirzə oğlu, Astara gömrükxanasının da ştatda olan 14 nəfərdən 6-sı (rəis – Şahverdiyev), 2-ci dərəcəli Lənkəran gömrükxanasında 9 nəfərdən 4-ü (rəis – İ.Talışxanov ), 3-cü dərəcəli Biləsuvar gömrükxanasında 5 nəfərdən 3-ü, 3-cü dərəcəli Kilvəz gömrükxanasında 3 nəfərdən 2-si (rəis Bakıxanov) azərbaycanlı idi. Fəaliyyətdə olan gömrük postlarının əksəriyyətinin tərkibi və rəis heyəti (Gızıl-Ağac postu – rəis Talışxanov, Xudafərin postu – rəis Səfərov, Maralyan (Mincivan) postu – rəis İsrafil Məmmədəlizadə) azərbaycanlılardan təşkil olunmuşdu [13, 1-24].

Bakı gömrükxanasının bir qrup əməkdaşı (28 nəfər) Bakı Xalq Mahal məhkəməsinin 1923-cü il oktyabrın 15-də onların xeyrinə qərar qəbul etməsinə baxmayaraq, əmək haqlarını almadıqlarına görə Azərbaycan KP(b) Mərkəzi Komitəsinə müraciət etmişdilər. Şikayət məktubunda Bakı gömrükxanası və Zaqafqaziya Gömrük İdarəsinin rəhbərlərindən məhkəmə qərarına əməl edilməsini xahiş edirdilər.

Azərbaycan SSR XKS-nin AK(b)P MK-nın İşlər idarəsinə göndərdiyi 1924-cü il 11 mart tarixli cavab məktubunda Bakı gömrükxanası rəisindən əməkdaşlara çatan əmək haqqının təcili surətdə ödənilməsi, əks təqdirdə, məhkəmənin icra vərəqəsi üzrə gömrükxana tərəfindən müsadirə edilən malların məcburi hərraca çıxarılacağı haqqında xəbərdarlıq edilirdi [47, 24].

Azərbaycan gömrük rayonu üzrə gömrükxanaların 1923-cü il fevralında tərtib olunan ştat cədvəlinə görə 1-ci dərəcəli Bakı gömrükxanası üzrə 87, "Bakı" barkası üzrə 5, 2-ci dərəcəli Lənkəran gömrükxanası üzrə 9, 2-ci dərəcəli Astara gömrükxanası üzrə 14, 3-cü dərəcəli Biləsuvar gömrükxanası üzrə 5, 3-cü dərəcəli Biləsuvar gömrükxanası üzrə 5, Kilvəz, və Cəbrayıl gömrükxanaları üzrə 3, Küryanı, Qızıl-Ağac, Xudafərin, Maralyan və Arus gömrük postlarının hər birində 3 nəfər gömrük əməkdaşı çalışırdı [13, 10-15].

Xarici ticarət üzrə xalq komissarlığının tərkibində mövcud olan gömrük orqanlarının başlıca vəzifəsi məhz yuxarıda göstərdiyimiz siyasətə xidmət etmək olmuşdur və gömrük işi sahəsində heç də müstəqil siyasət yürüdən bir ali təşkilat kimi fəaliyyət göstərə bilməmişdir. SSRİ-nin bütün gömrük təşkilatları kimi Azərbaycan ərazisində yerləşən gömrükxanalar məhdud hüquqlara malik olmaqla yanaşı, həmişə mərkəzin ciddi nəzarəti altında olmuşdur.

Azərbaycan gömrük rayonuna daxil olan Bakı gömrükxanası nəzdində əsasən yerli əhali içərisindən seçilmiş əməkdaşlara gömrük nəzarətçisi, pakhauz və gəmilərə gömrük baxışı keçirən məmur, kargüzar və rəis köməkçi vəzifələrini öyrədən peşə kursları fəaliyyət göstərirdi. Kursantlara

tarif cədvəlinin 10-cu dərəcəsi üzrə məvacib verilirdi. Bakı gömrükxanasından Azərbaycan KP Bakı Komitəsinə göndərilən 1923-cü il 17 iyun tarixli məktubda partiya üzvü olan 15 nəfər savadlı türkün (azərbaycanlının) gömrük kurslarına göndərilməsi haqqında göstəriş verilməsi xahiş olunurdu [14, 2].

1922-ci ildə SSRİ yaranarkən gömrük təşkilatı özündə səkkiz gömrük dairəsini birləşdirirdi: Petroqrad, Qərbi Ukrayna, Zaqafqaziya, Türküstan, Semipalatinsk, Sibir və uzaq şərq dairələri. Həmin dairələrdə 134 gömrükxana və 149 gömrük postları mövcud idi. 1924-cü ildə SSRİ-nin Gömrük Nizamnaməsi qəbul edildi. Nizamnamədə idxal-ixrac əməliyyatları zamanı malların qəbul edilməsi, anbar mühafizəsinə götürülməsi və buraxılması qaydaları ilə yanaşı gömrük orqanları strukturuna dair bir sıra dəyişikliklər nəzərdə tutulurdu. Azərbaycan SSR ərazisindəki gömrük müəssisələrində ştat cədvəli ilə bağlı müvafiq dəyişikliklər aparıldı.

Cədvəl 1.3

**Azərbaycan SSR-in sərhədləri daxilində Erməni-Naxçıvan gömrük inspektorluğu rayonu üzrə ştat cədvəli (dekabr 1923-cü il)**

| s/s | Gömrükxanalar | Ştat vahidi | Tarif dərəcəsi |
|---|---|---|---|
| 1. | *1-ci dərəcəli Culfa gömrükxanası* | 1 | 15 |
| 2. | Rəis | 1 | 13 |
| 3. | İnspektor | 2 | 12 |
| 4. | Baş nəzarətçi | 1 | 12 |
| 5. | Pakhaus xidmətinin rəisi | 2 | 11 |
| 6. | Anbar baxıcısı | 4 | 10 |
| 7. | 1-ci dərəcəli anbar baxıcısı | 3 | 8 |
| 8. | 2-ci dərəcəli anbar baxıcısı | 2 | 6 |
| 9. | 3-cü dərəcəli anbar baxıcısı | 1 | 11 |
| 10. | Baş kargüzar | 1 | 9 |
| 11. | 1-ci dərəcəli kargüzar | 1 | 12 |
| 12. | 2-ci dərəcəli mühasib | 1 | 9 |
| 13. | Baş hesabdar | 1 | 12 |
| 14. | Tərcüməçi | 1 | 9 |
| 15. | Makinaçı | 1 | 4 |
| 16. | Kuryer | 1 | 2 |
| | Gözətçi | | |
| 1. | *2-ci dərəcəli Şahtaxtı gömrükxanası* | 1 | 14 |
| 2. | Rəis | 2 | 12 |

| | | | |
|---|---|---|---|
| 3. | Baş nəzarətçilər | 1 | 11 |
| 4. | Baş kargüzar | 1 | 9 |
| 5. | 1-ci dərəcəli kargüzar | 1 | 8 |
| 6. | 2-ci dərəcəli kargüzar | 1 | 12 |
| 7. | 2-ci dərəcəli mühasib | 1 | 10 |
| 8. | Baş hesabdar | 1 | 12 |
| 9. | Anbar baxıcısı | 2 | 10 |
| 10. | 1-ci dərəcəli anbar baxıcısı | 2 | 8 |
| 11. | 2-ci dərəcəli anbar baxıcısı | 2 | 6 |
| 12. | 3-cü dərəcəli anbar baxıcısı | 1 | 3 |
| | Gözətçi | | |
| 1. | *3-cü dərəcəli Bulqan gömrükxanası* | 1 | 12 |
| 2. | Rəis | 1 | 10 |
| 3. | Rəis müavini | 2 | 9 |
| 4. | 1-ci dərəcəli anbar baxıcısı | 1 | 6 |
| 5. | 2-ci dərəcəli anbar baxıcısı | 1 | 9 |
| 6. | 1-ci dərəcəli kargüzar | 1 | 3 |
| | Gözətçi | | |
| 1. | *3-cü dərəcəli Alışar gömrükxanası* | 1 | 12 |
| 2. | Rəis | 1 | 10 |
| 3. | Rəis müavini | 2 | 9 |
| 4. | 1-ci dərəcəli anbar baxıcısı | 1 | 5 |
| 5. | 3-cü dərəcəli anbar baxıcısı | 1 | 9 |
| 6. | 1-ci dərəcəli kargüzar | 1 | 3 |
| | Gözətçi | | |

Mənbə: ARDA, f. 363, siy. 1, iş 46, 10-15.

Nizamnaməyə görə, SSRİ ərazisində gömrük işinə ümumi rəhbərlik Xarici ticarət üzrə xalq komissarlığının səlahiyyətlərinə, yerli gömrük orqanlarına rəhbərlik, gömrük işi ilə təlimatların və digər hüquqi sənədlərin hazırlanması və qaçaqmalçılıqla mübarizə işi Baş gömrük idarəsinə tapşırıldı. 1924-cü ildə həyata keçirilən islahatlardan sonra Azərbaycan SSR-in ərazisindəki gömrükxana və gömrük məntəqələrinin şəxsi heyətinin say tərkibi və tarif dərəcələri üzrə göstəriciləri aşağıdakı kimi idi:

Cədvəl 1.4

**Azərbaycan SSR-in gömrük müəssisələrinin ştat cədvəli (aprel, 1924-cü il)**

| s/s | 1-ci dərəcəli Bakı gömrükxanası üzrə | Sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| **1.** | Gömrükxana rəisi | 1 | 17 |
| **2.** | Rəis müavini | 1 | 16 |
| **3.** | İnspektorlar | 2 | 15 |
| **4.** | Böyük nəzarətçilər | 6 | 14 |
| **5.** | Gəmi nəzarəti şöbəsinin rəisi | 1 | 14 |
| **6.** | Gəmi nəzarətçiləri | 4 | 13 |
| **7.** | 1-ci dərəcəli gəmi nəzarətçilərinin köməkçiləri | 8 | 11 |
| **8.** | 2-ci dərəcəli gəmi nəzarətçilərinin köməkçiləri | 4 | 10 |
| **9.** | 3-cü dərəcəli gəmi nəzarətçilərinin köməkçiləri | 3 | 9 |
| **10.** | Pakhauz şöbəsinin rəisi | 1 | 14 |
| **11.** | Anbar müdirləri | 3 | 13 |
| **12.** | Anbar müdirinin 1-ci dərəcəli köməkçiləri | 7 | 11 |
| **13.** | Anbar müdirinin 2-ci dərəcəli köməkçiləri | 4 | 10 |
| **14.** | Anbar müdirinin 3-cü dərəcəli köməkçiləri | 2 | 9 |
| **15.** | İşlər müdiri | 1 | 14 |
| **16.** | Böyük kargüzarlar | 4 | 12 |
| **17.** | 1-ci dərəcəli kargüzarlar | 3 | 11 |
| **18.** | 2-ci dərəcəli kargüzarlar | 3 | 10 |
| **19.** | Yazı makinaçıları | 2 | 10 |
| **20.** | Baş mühasib | 1 | 15 |
| **21.** | 2-ci dərəcəli mühasib | 2 | 12 |
| **22.** | Hesabdarlar | 2 | 11 |
| **23.** | Xəzinədarlıq hissəsinin müdiri | 1 | 14 |
| **24.** | Tərcüməçi | 1 | 14 |
| **25.** | Kuryerlər | 3 | 6 |
| | Gözətçi | 1 | 6 |
| **26.** | Texniki işçi | 1 | 6 |
| | Cəmi | 72 | |

Cədvəl 1.4.1

| s/s | 2-ci dərəcəli Lənkəran gömrükxanası | sayı | tarif dərəcsi |
|---|---|---|---|
| **1.** | Gömrükxana rəisi | 1 | 15 |
| **2.** | Böyük nəzarətçi | 1 | 14 |
| **3.** | Gəmi nəzarəti və pakhauz xidmətinin rəisi | 1 | 14 |
| **4.** | Böyük kargüzar | 1 | 12 |
| **5.** | Gözətçi | 1 | 6 |
| | Cəmi | 5 | |

Cədvəl 1.4.2

| s/s | 2-ci dərəcəli Astara gömrükxanası | Sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| 1. | Gömrükxana rəisi | 1 | 15 |
| 2. | Böyük nəzarətçi | 1 | 14 |
| 3. | Gəmi nəzarəti və pakhauz xidmətinin rəisi | 1 | 14 |
| 4. | 1-ci dərəcəli gəmi nəzarətçilərinin köməkçiləri | 1 | 11 |
| 5. | 2-ci dərəcəli gəmi nəzarətçilərinin köməkçiləri | 1 | 10 |
| 6. | Anbar müdirinin 1-ci dərəcəli köməkçisi | 1 | 11 |
| 7. | Böyük kargüzar | 1 | 12 |
| 8. | 2-ci dərəcəli mühasib | 1 | 12 |
| 9. | Gözətçi | 1 | 6 |
| | Cəmi | 9 | |

Cədvəl 1.4.3

| s/s | 3-cü dərəcəli Biləsuvar gömrükxanası | sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| **1.** | Gömrükxana rəisi | 1 | 14 |
| **2.** | Gömrükxana rəisinin köməkçisi | 1 | 13 |
| **3.** | Anbar müdirinin 1-ci dərəcəli köməkçisi | 1 | 10 |

Cədvəl 1.4.4

| s/s | 3-cü dərəcəli Bəhramtəpə gömrükxanası | sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| **1.** | Gömrükxana rəisi | 1 | 14 |
| **2.** | Gömrükxana rəisinin köməkçisi | 1 | 13 |
| **3.** | Anbar müdirinin 1-ci dərəcəli köməkçisi | 1 | 10 |

Cədvəl 1.4.5

| s/s | 3-cü dərəcəli Kilvəz gömrükxanası | sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| 1. | Gömrükxana rəisi | 1 | 14 |
| 2. | Gömrükxana rəisinin köməkçisi | 1 | 13 |

Cədvəl 1.4.6

| s/s | 3-cü dərəcəli Cəbrayıl gömrükxanası | sayı | tarif dərəcəsi |
|---|---|---|---|
| 1. | Gömrükxana rəisi | 1 | 14 |
| 2. | Gömrükxana rəisinin köməkçisi | 1 | 13 |

Növbəti ildə Azərbaycan ərazisində yerləşən gömrük müəssisələrinin tərkibində yeni dəyişikliklər aparıldı. Bakı gömrükxanası üzrə 15 nəfər, Lənkəran gömrükxanası üzrə 4 nəfər, Astara gömrükxanası üzrə 5 nəfər, Kilvəz, Biləsuvar və Cəbrayıl gömrükxanalarının hər biri üzrə 1 nəfər, gömrük postları üzrə cəmi 5 nəfər ixtisar edildi. Beləliklə, Azərbaycan ərazisində 1 aprel 1924-cü ilin vəziyyətinə görə, 7 gömrükxana və 6 gömrük postu fəaliyyət göstərirdi. Tarif cədvəlinə əsasən, gömrük müəssisələrinin 108 əməkdaşından 1 nəfəri 17-ci, 2 nəfəri 16-cı, 5 nəfəri 15-ci, 24 nəfəri 14-cü, 17 nəfəri isə 13-cü dərəcəli gömrük məmuru statusuna malik idi. Gömrük müəssisələrinin aylıq əmək haqqı fondu 23212 manat 80 qəpik həcmində nəzərdə tutulmuşdu [22, 7-8].

SSRİ MİK Rəyasət Heyətinin 30 dekabr 1924-cü il tarixli qərarı ilə ittifaq əhəmiyyətli ilk Gömrük Məcəlləsi təsdiq olundu. Sovet gömrük idarəçiliyini hüquqi cəhətdən təsbit edən Məcəllənin 1-ci maddəsinə əsasən yerlərdə gömrükxanaların fəaliyyətinə Xalq Xarici Ticarət Komissarlığının müttəfiq respublikalarda olan müvəkkilləri nəzarət edirdi. Müvəkkilin səlahiyyətlərinə müttəfiq respublikanın ərazisində yerləşən gömrükxanalarda ittifaq orqanlarının gömrük işinə aid qərar və göstərişlərinin yerinə yetirilməsinə nəzarət etmək, gömrük müəssisələrində təftiş aparmaq, yerli hakimiyyət orqanları ilə gömrük müəssisələri arasında yarana biləcək problemləri nəzərdən keçirilməsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirlərinin hazırlanması daxil idi.

Həmin ildə respublikanın bütün gömrükxanaları, habelə Naxçıvan MSSR ərazisindəki gömrükxanalar da daxil olmaqla 5542000 pud həcmində idxal, 2333100 pud həcmində ixrac malları gömrük baxışından keçirilmişdi. Lakin bu göstəricilər 1913-cü il səviyyəsindən idxal üzrə 6 dəfə, ixrac üzrə 5 dəfə geri qalırdı. Əgər 1924-cü ildə Azərbaycan SSR ərazisində yerləşən bütün gömrükxanalarda (Naxçıvan və Şahtaxtı gömrükxanaları daxil olmaqla) 35399,6 min ton (13,3 mln. manat) həcmində ixrac malları qeydə

alınmışdısa, bu göstərici 1925-ci ildə 2,3 dəfə artaraq 25,2 mln. manat dəyərində olmaqla 83365,8 min tona çatmışdı. 1924-cü ildə yerli gömrükxanalardan respublikaya 90266, 5 min ton (31,3 mln. manat) həcmində, növbəti ildə isə 132786,0 min ton (56401,6 min manat), başqa sözlə 1,5 dəfə müxtəlif adda mallar gətirilmişdi. 1926-cı ildə isə Bakı və Culfa gömrükxanaları istisna olmaqla, digər gömrükxanalarda həm ixrac, həm də idxal əməliyyatları üzrə gömrükxanalarda qeydə alınan malların həm çəkisi, həm də gömrük dəyərində kəskin azalma baş vermişdi [186, 138-140].

SSRİ XXTK Baş Gömrük İdarəsinin rəisi İ.Potyayevin 1925-ci il 5 iyun tarixli 57 saylı əmri ilə gömrük-əmtəə muzeylərinin yaradılması haqqında göstəriş verilmişdi. Muzeylərin yaradılması yeni gömrük əməkdaşlarının gündəlik gömrük əməliyyatlarında təcrübə qazanmaları və gömrük tarifi ilə əyani surətdə tanış olmalarına, qaçaqmalların mənşə ölkəsinin təyin edilməsinə kömək etməli idi. Bu məqsədlə gömrük müəssisələrinə tapşırılırdı ki, idxal və ixrac əməliyyatları üçün tipik olan mal nümunələrindən bir neçə nümunə toplansın. Gömrükxanalarda saxlanılan nümunələrin dublikatlarının digər gömrükxanalara paylanması üçün Moskva gömrükxanasında təşkil olunan Mərkəzi gömrük muzeyinə göndərilsin.

Gömrük muzeylərində mal nümunələri xüsusi sxem əsasında yerləşdirilməli, nümunələr idxal və ixrac mallarına ayrılmaqla bərabər, malların tarif siyahısı üzrə ardıcıllıq gözlənilməli və malın bütün xüsusiyyətlərinin göstərildiyi xüsusi yarlıqla təchiz edilməli idi. Muzeylərin müxtəlif kataloq və çertyojlarla, nümayiş etdirilməsi mümkün olmayan maşın və avadanlıqların isə foto şəkilləri ilə təchiz olunması tövsiyə olunurdu. Ölkə üzrə 21 müəssisədə gömrük muzeylərinin təşkil edilməsi nəzərdə tutulurdu ki, bunların sırasında Arxangelsk, Murmansk, Moskva, Minsk, Xarkov, Rostov-Don, Tiflis, Daşkənd, Vladivostok, Xabarovsk, Odessa, Novorossiysk, Batum, Nikolayevsk gömrükxanaları ilə yanaşı Bakı gömrükxanası da var idi. Moskva gömrükxanasının rəisi İ.Vinokurun 1925-ci il 18 iyul tarixli məktubundan aydın olur ki, Bakı gömrükxanasının ünvanına 51 adda malın nümunəsi göndərilmişdi. Bununla yanaşı Mərkəzi gömrük muzeyində saxlanılması üçün Bakıdan Moskvaya bəzi qiymətli ağac növlərinin (samşit, tiss, bakaut və qoz) və zəfəran bitkisinin (təbii və süni) nümunələrinin göndərilməsi xahiş olunurdu [16, 2-5].

Bakı gömrükxanasının rəisi Ə.Məcidovun Biləsuvar gömrükxanasına göndərdiyi 1926-cı il 3 yanvar tarixli 113 saylı məktubunda göstərilirdi: *"Zaqafqaziya Gömrük İdarəsinin Biləsuvar gömrükxanasının yeni ştat cədvəli haqqında 1925-ci il 28 dekabr tarixli 404 nömrəli əmrini əsas tutaraq, Bakı gömrükxanası Sizə tapşırır ki, vakant vəzifələrə tam savadlı və həqiqətən bu sahədə çalışmaq istəyən türklərə (azərbaycanlılara) üstünlük verilsin vakant vəzifələrin birinə təqdimat verdiyiniz A.B.Nurullabəyovu*

*yerləşdirin".* Qeyd edilən əmrlə gömrükxananın ştat cədvəlində vəzifələrin sayı əlavə 4 vahid artırılmışdı [23, 4].

Cədvəl 1.5

**Azərbaycan gömrük rayonu üzrə gömrük postlarının ştat cədvəli (1924-cü il)**

| s/s | Gömrük postu | Vəzifənin adı | sayı | tarif dərəcəsi |
|---|---|---|---|---|
| **1.** | Qızıl-Apac | Postun rəisi<br>Rəis müavini | 1<br>1 | 14<br>13 |
| **2.** | Yuxarı Kür (Pereval) | Postun rəisi<br>Rəis müavini | 1<br>1 | 14<br>13 |
| **3.** | Xudafərin | Postun rəisi<br>Rəis müavini | 1<br>1 | 14<br>13 |
| **4.** | Mincivan | Postun rəisi Rəis müavini | 1<br>1 | 16<br>13 |
| **5.** | Arus | Postun rəisi<br>Rəis müavini | 1<br>1 | 14<br>13 |
| **6.** | Maralyan | Postun rəisi<br>Rəis müavini | 1<br>1 | 14<br>13 |
| | **Cəmi** | | **12** | |

Azərbaycan SSR-in inzibati sərhədləri daxilində fəaliyyət göstərən Naxçıvan gömrük ərazisi heç bir zərurət olmadan süni olaraq yeni yaradılan Erməni-Naxçıvan gömrük inspektorluğunun tərkibinə daxil edilmişdi. Halbuki ştat cədvəlindən də aydın olur ki, inspektorluğun əhatə etdiyi məntəqələrin həm dislokasiyası, həm də say kontingentini Naxçıvan ölkəsinin ərazisində yerləşən və zəngin tarixi ənənələrə malik Culfa, Naxçıvan, Şahtaxtı gömrükxanaları təşkil edirdi. Belə ki, 1-ci dərəcəli Culfa gömrükxanasının şəxsi heyəti 26 nəfəri əhatə edirdi. 2-ci dərəcəli Şahtaxtı gömrükxanasının şəxsi heyəti 16, 3-ü dərəcəli Bulqan və Alışar gömrükxanaları isə 7 nəfərdən ibarət idi. Erməni-Naxçıvan gömrük inspektorluğu üzrə gömrük rüsumlarının əsas hissəsi Naxçıvan ərazisində adları qeyd edilən gömrükxanalarda yığılırdı. Gömrük inspektorluğunun fəaliyyət dairəsinə daxil olan ərazidə İrana aparılan və İrandan daşınan bütün yüklərə gömrük baxışı qeyd edilən gömrükxanalarda aparılırdı.

1924-cü il dekabrın 12-də SSRİ MİK SSRİ-nin Gömrük Məcəlləsini təsdiq etdi. Bundan sonra bütün SSRİ ərazisində gömrük işinin həyata keçirilməsi Xalq Xarici Ticarət Komissarlığının tərkibində olan Baş Gömrük İdarəsinə verildi.

Gömrük Məcəlləsi gömrük müəssisələrinin hüquq və vəzifələrini müəyyən edirdi. Həmin dövrdə gömrük müəssisələrinin başlıca vəzifəsi iri

qaçaqmalçılıq hallarının qarşısının alınması idi. Məcəllədə qaçaqmalçılıq anlayışının dəqiq izahı verilmişdi: *"dövlət sərhəd xəttindən malların, qiymətli əşyalarının və hər hansı bir predmetin gömrükdən kənar yerdən və ya bu göstərilənlərin gömrük nəzarətindən gizlədilərək daşınması".* SSRİ XXTK-nin 22 dekabr 1924-cü il əmri ilə Zaqafqaziya Gömrük İdarəsinin statusu dəyişdirilərək SSRİ XXTK Baş Gömrük İdarəsinin Zaqafqaziya bölməsi adlandırıldı. 1925-ci il yanvarın 1-dən Cənubi Qafqaz gömrük müfəttişliyi, o cümlədən Azərbaycan rayon gömrük müfəttişliyi ləğv edildi [36, 21].

### 1.4. Bakı gömrükxanası 20-ci illərin sonu - 30-cu illərdə

SSRİ Baş Gömrük İdarəsinin 24 yanvar 1925-ci il tarixli 19 saylı əmri ilə *"Xəzər dənizində üzən kabotaj gəmilərinə baxışın keçirilməsi qaydasının tətbiq edilməsi haqqında"* təlimat Bakı gömrükxanasının fəaliyyət dairəsini bir qədər də genişləndirdi. Baş İdarənin 8 sentyabr 1926-cı il tarixli 5856 saylı digər bir əmri ilə gömrükxanaya Bakı Bazis anbarından buraxılan aksizli mallara müstəqil surətdə, vergi agentlərinin iştirakı olmadan, gömrük baxışı keçirmək səlahiyyəti verildi. Gömrükxanada maliyyə əməliyyatlarının təkmilləşdirilməsi üçün 1 oktyabr 1926-cı ildən bütün mühasibatlıq işlərinin İtaliya sistemi ilə ikiqat aparılmasına başlanıldı [95,137-139, 148 ].

Cədvəl 2.12

**1913, 1924-1926-cı illərdə Azərbaycan SSR-in dəniz daşımaları**

(Bakı limanına daxil olan və göndərilən yüklər, tonla)

| Malların adı | Daxil olub | | | Göndərilib | | |
|---|---|---|---|---|---|---|
| | **1913** | **1924/25** | **1925/26** | **1913** | **1924/25** | **1925/26** |
| Buğda | 57234 | 3335 | 103 | 824 | 3905 | 13746 |
| Arpa | 10056 | 10673 | 7554 | 882 | 51 | 4440 |
| Buğda unu | 28229 | 307 | 2334 | 24003 | 5556 | 16885 |
| Digər taxıl məhsulları | 30896 | 2179 | 604 | 8014 | 199 | 782 |
| Düyü | 68488 | 74398 | 45545 | 36138 | 8806 | 4535 |
| Tərəvəz | 3182 | 6036 | 6666 | 672 | 603 | 975 |
| Kartof | 2996 | 593 | 939 | 738 | 79 | 412 |
| Quru meyvə | 9078 | 16415 | 7859 | 12258 | 6386 | 1870 |
| Üzüm şərabı | 331 | 3 | - | 1842 | 1897 | 7287 |
| Balıq məhsulları | 17004 | 10217 | 15633 | 2631 | 1751 | 1992 |
| Xörək duzu | 10896 | 1966 | 7424 | 2879 | 617 | 283 |
| Qənd | 6897 | 21 | 68 | 74604 | 21474 | 25137 |
| Toxumlar | 4385 | 4032 | 2421 | 2568 | 717 | 850 |
| Pambıq | 20517 | 13250 | 8984 | 4726 | 341 | 901 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yun | 4490 | 550 | 783 | 241 | 136 | 117 |
| İpək və barama | 1608 | 339 | 380 | 15 | 21 | 1 |
| Manufaktura və qalanteреya | 8755 | 673 | 2010 | 4758 | 877 | 1008 |
| Dəri | 1388 | 992 | 594 | 1220 | 69 | 69 |
| Dəmir tullantısı | 19450 | 2056 | 6821 | 7193 | 5326 | 3340 |
| Şüşə və şüşə materialları | 4811 | 35 | 815 | 1881 | 1527 | 1399 |
| Dərman, kimya məhs., sabun | 4897 | 1470 | 924 | 1688 | 1276 | 705 |
| Metal məmulatlar | 11295 | 693 | 1066 | 7752 | 1332 | 1939 |
| Meşə materialları | 12101 | 63485 | 43440 | 6645 | 4733 | 7111 |
| Sement | 6 | 7149 | 7961 | 2408 | 2822 | 5137 |
| Neft məhsulları (qablaşdırılmış) | 7766 | 35 | - | məl.yox. | 8348 | 1562 |
| Digər yüklər | məl.yox. | 16997 | 17653 | məl.yox | 21083 | 323127 |
| **Cəmi** | **556689** | **237899** | **188518** | **288753** | **99932** | **139671** |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.153.

1925-1926-cı təsərrüfat ilində Bakı gömrükxanasında müsadirə edilən 135780 manat dəyərində qaçaq mallar hərracda satılmış, 69588 manatlıq mal dövlət və kooperativ təşkilatlara təhvil verilmişdi.

Hesablamalar göstərir ki, 1925/1926-cı təsərrüfat ilində Azərbaycan SSR ərazisindəki gömrükxanalar üzrə xarici ticarət dövriyyəsinin həcmi 1913-cü il səviyyəsinin cəmi 57,9 faizi təşkil etmişdi.

Aşağıdakı cədvəldən göründüyü kimi, İranla ticarətin genişlənməsi bütün əsas məhsul növlərini əhatə etmişdi. İrandan Azərbaycana gətirilən malların əsas hissəsi respublikadan kənara daşınır və ümumittifaq ehtiyaclarına sərf olunurdu:

Azərbaycan SSR XKS-nin sədr müavini Hacı Qasımovun imza etdiyi 1927-ci il 16 fevral tarixli 12 saylı qərarı ilə SSRİ gömrük Məcəlləsinin 275-ci maddəsinə əsasən gömrükxanalar tərəfindən təyin edilən cərimələri ödəməyənlərə inzibati cəza tətbiq edilməsi hüququ Bakı şəhər Sovetinə və qəza icraiyyə komitələrinə verildi [71, 79, 93].

Cədvəl 2.13

**1913, 1924-1926-cı illərdə Azərbaycan SSR və İran arasında dəniz daşımaları üzrə yük dövriyyəsi (tonla)**

| Malların adı | Daxil olub | | | Göndərilib | | |
|---|---|---|---|---|---|---|
| | **1913** | **1924/25** | **1925/26** | **1913** | **1924/25** | **1925/26** |
| Buğda | - | 237 | - | - | - | 10733 |
| Arpa | 95 | 331 | - | 766 | - | 3458 |
| Buğda unu | - | - | - | 1406 | 1319 | 6574 |
| Digər taxıl məhsulları | 167 | 3 | 3 | 0 | 21 | 3 |
| Düyü | 62730 | 68389 | 41094 | 78 | - | - |
| Tərəvəz | - | 186 | - | - | 2 | 1 |
| Kartof | - | - | - | - | - | 1 |
| Quru meyvə | 4390 | 15093 | 6398 | 90 | 2 | - |
| Üzüm şərabı | - | - | - | 100 | 7 | 22 |
| Balıq məhsulları | 6374 | 202 | 56 | 18 | 6 | - |
| Xörək duzu | - | - | - | - | 34 | 66 |
| Qənd | - | - | - | 350 | 16547 | 22650 |
| Toxumlar | 167 | 682 | 939 | 6001 | 370 | 350 |
| Pambıq | 17801 | 10336 | 7311 | 4 | - | - |
| Yun | 355 | 470 | 557 | 16 | - | - |
| İpək və barama | 952 | 248 | 277 | - | 11 | 1 |
| Manufaktura və qalantereya | 16 | 25 | 15 | - | 470 | 649 |
| Dəri (xam və aşılanmış) | 451 | 828 | 425 | - | 9 | 6 |
| Dəmir tullantısı | - | - | 49 | 2664 | 4139 | 2512 |
| Şüşə və şüşə materialları | - | - | 10 | 46 | 1033 | 949 |
| Dərman, kimya məhs., sabun | 424 | 875 | 461 | 2592 | 351 | 183 |
| Metal məmulatları | 15 | - | 50 | 1088 | 566 | 889 |
| Meşə materialları | 476 | 210 | 2146 | 461 | 605 | 1019 |
| Sement | - | - | - | 1899 | 1187 | 1928 |
| Neft məhsulları (qablaşdırılmış) | məl.yox. | - | - | 839 | 2490 | 3482 |
| Digər yüklər | - | 4693 | 5105 | 1501 | 5783 | 4600 |
| **Cəmi:** | **98378** | **102808** | **64896** | **117820** | **34952** | **60076** |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.153.

Zaqafqaziya Gömrük idarəsi 1926-cı ilin mayında Azərbaycan hökumətinə müraciət edərək İranla sərhəddə, Astara çayı üzərindəki sərhədyanı ticarətdə mühüm əhəmiyyət daşıyan, lakin yararsız vəziyyətdə olan körpünün bərpa edilməsini xahiş edirdi. Azərbaycan SSR XKS və Ali İqtisad Şurasının 1934-cü il 21 mart tarixli sərəncamı ilə Şahtaxtı gömrükxanası rəisinin (Naxçıvan MSSR) məlumatı nəzərə alınaraq Araz çayı üzərindəki qəzalı vəziyyətə düşən körpünün bərpa edilməsi haqqında göstəriş verilmişdi [48,10; 71, 46-47].

1928-ci il mayın 26-da Salyan qəza İcraiyyə komitəsinin sədri vəzifəsini əvəz edən Ağayev Azərbaycan SSR XKŞ-yə göndərdiyi məktubda Biləsuvar gömrük məntəqəsi və sərhəd mühafizəsində qaçaqmalçılardan müsadirə edilən malların qəza ərazisindəki bazarlarda satılaraq əldə edilən vəsaitin Biləsuvar mahal büdcəsinə köçürülməsi və qəzanın ehtiyacları üçün xərclənməsinə icazə verilməsini xahiş edirdi. Məktubdan məlum olur ki, müsadirə edilən mallar həmin vaxta qədər Bakının daxili bazarlarında satılır, yığılan vəsait Bakı İcraiyyə Şurasının sərəncamına keçirdi [44, 1].

SSRİ-nin İranla ticarət əməliyyatlarında yük dövriyyəsinin 80 faizindən çoxu Bakı gömrükxanasının əməliyyat fəaliyyətini əhatə edirdi. Məsələn, 1927-1928-ci təsərrüfat ilində İrandan 47,8 mln. manat dəyərində 84600 ton mal idxal edilmiş, İrana 49,4 mln. manat məbləğində 104091 ton mal ixrac edilmişdi. Həmin müddətdə Bakı gömrükxanasından İran ərazisindən keçməklə Avropa ölkələrinə 2592 ton, Avropadan İrana 2488 ton tranzit yüklərə göndərilmişdi. Sovet sənayesinin ehtiyacları üçün Avropadan 5,3 mln. manatlıq 27217 ton müxtəlif adda yüklər qəbul edilmişdi [44, 2-3].

Cədvəl 2.14

**1925-1926-cı illərdə Bakı limanında əsas yüklərin dəmiryolu ilə tranziti (tonla)**

| Malların adı | Dərbənd-Bakı | Poylu-Bakı | Bakı-Dərbənd | Bakı-Poylu | tranzitlə daşınan yüklərin cəmi |
|---|---|---|---|---|---|
| **Buğda** | 12951 | - | - | - | 12951 |
| **Buğda unu** | 1393 | - | - | - | 1393 |
| **Arpa** | 16 | - | - | - | 16 |
| **Digər taxıl məhsulları** | 6 | - | - | - | 6 |
| **Balıq məhsulları** | - | - | - | 1222 | 1222 |
| **Üzüm şərabı və spirt** | 148 | 3451 | - | - | 3599 |
| **Pambıq** | - | - | 232 | - | 232 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Yun** | - | - | 155 | - | 155 |
| **İpək** | - | - | - | 76 | 76 |
| **Barama** | - | - | - | 324 | 324 |
| **Manufaktura** | 252 | 9 | - | 487 | 748 |
| **Qənd və şəkər tozu** | - | 656 | - | - | 656 |
| **Sement** | 935 | - | - | - | 935 |
| **Dəmir, polad və çuqun** | - | 333 | - | 782 | 1115 |
| **Digər yüklər** | 2 | 150 | 372 | 192 | 716 |
| **Cəmi** | **15703** | **4599** | **759** | **3083** | **24144** |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.155.

XSFSR XXTK-nın müavini Hacınskinin Azneftə ünvanlandığı 1928-ci il 11 mart tarixli məxfi qrifli məktubundan məlum olur ki, Cənubi Qafqaz dəmir yolunun buraxılış imkanlarından kənar neft yükləri dolayı yolla Novorossiysk və Tuapse limanlarına istiqamətləndirilirdi. Komissarlıq neft məhsullarının ixracı haqqında məlumatların qeydiyyatını gömrük statistikası əsasında aparırdı. Lakin Bakıdan ixrac edilən neft məhsulları Bakı gömrükxanasından keçmədiyinə görə qeydiyyata düşmürdü. Məktubda Azneftdən tələb olunurdu ki, ayda bir dəfə Bakıdan çıxarılan neft məhsullarının dəqiq qeydiyyatını aparmaq üçün həm hər bir neft məhsulun növü, miqdarı və Bakı gömrükxanasından keçməsi haqqında, həm də neft yüklərinin ixracının dolayı yolla həyata keçirilməsinin başlandığı vaxtdan etibarən məlumat versin [67, 32].

Cədvəl 2.15

**Bakı rayon gömrükxanasına dəmiryolu ilə daxil olan yük, poçt bağlamaları və sərnişinlər haqqında məlumat (01.10.1926 – 01.04.1927-ci illər)**

| Gömrük baxışı keçirilən obyektlər | Vaqonların və bağlamaların sayı | Yüklərin çəkisi (tonla) |
|---|---|---|
| 1. İdxal yükləri | 2828 | 45169 |
| 2. İxrac yükləri | 2910 | 4415 |
| 3. Tranzit buraxılan yüklər | 276 | 4415 |
| 4. Tranzit buraxılan bağlamalar | 8790 | - |
| 5. Gömrük nəzarətindən keçən bağlamalar | 377 | - |
| 6. Gömrükdən keçən sərnişinlər (nəfər): | | |
| a) xarici ölkələrə gedənlər | 2217 | - |

| | | |
|---|---|---|
| b) ölkəyə gələnlər | 1043 | - |
| 7. Malların müsadirəsinə aid işlərinin sayı | 421 | - |
| 8. Daxil olan gömrük rüsumları (manat) | 4158701 | - |

Mənbə: ARDA, f. 363, siy.1, iş 765, v.4.

Bütövlükdə, 1927-1928-ci təsərrüfat ilində Bakı gömrükxanası 102519270 manat həcmində 220997 ton yükün gömrük qeydiyyatı aparılmış, dövlət büdcəsinə 10934051 manat gömrük rüsumu və digər ödənişlər köçürülmüşdü. İran limanlarından 282 gəmi daxil olmuş, 259 gəmi yola salınmışdı. Gömrük nəzarətindən İrandan gələn 3425 nəfər, İrana gedən 6576 nəfər sərnişin keçmişdi.

Cədvəl 2.16

**Bakı rayon gömrükxanasında kabotaj və xarici gəmilərə gömrük nəzarəti keçirilməsi haqqında məlumat (01.010.1926 – 01.04.1927-ci illər)**

| **Qəbul edilən və yola salınan gəmilər** | **ton / ədəd** |
|---|---|
| 1. Kabotaj qəbul edilən mallar | 68980 |
| 2. Kabotaj yola salınan mallar | 909776 |
| 3. Xaricdən gələn gəmilərin sayı | 110 |
| onlardan,<br>yelkənli gəmilər | 10 |
| 4. Kabotaj üzrə qəbul edilən gəmilərin sayı<br>onlardan, | 1502 |
| buxarla işləyən gəmilər | 1008 |
| yelkənli gəmilər | 125 |
| 20 tondan az subasımı olanlar | 369 |
| 5. Xaricə üzən gəmilərin sayı | 124 |
| onlardan,<br>yelkənli gəmilər | 8 |
| 6. Kabotaj üzrə yola salınan gəmilərin sayı | 1071 |
| onlardan,<br>yelkənli gəmilər | 130 |

Mənbə: ARDA, f. 363, siy. 1, iş 765, v. 10.

Gömrük əməkdaşları 601 halda qaçaqmalçılıq hallarının üstünü açmış, 110791 manat mal müsadirə edilərək 235894 manat cərimə təyin edilmişdi [94, 21-22].

1927-ci il noyabrın 23-də Tehranda SSRİ ilə İran arasında Bakı-Tehran hava xəttinin açılması haqqında razılıq protokolu imzalandı. Bu hadisə ilə əlaqədar SSRİ Baş Gömrük İdarəsinin 1928-ci il 8 may tarixli

təlimatına əsasən verilən Bakı gömrükxanası rəisinin 20 may tarixli əmrində göstərilirdi ki, SSRİ-dən İrana və əksinə baqaj və poçt bağlamaları, həmçinin yüklərin Bakı-Tehran hava xətti ilə buraxılışı Gömrük-Tarif Komitəsinin təsdiq etdiyi Qaydaların (13 mart, 1925-ci il) 1-ci maddəsinə və Gömrük Məcəlləsinin 98-ci maddəsinə əsasən Bakı gömrükxanasına tapşırılır [95, 28-29].

Bakı gömrükxanası əhaliyə xarici ölkələrdən göndərilən kiçik həcmli poçt bağlamalarına gömrük baxışını və qeydiyyatını həyata keçirirdi. Gömrük nəzarətçilərindən xaricdən bağlama alan vətəndaşların dəqiq qeydiyyatının aparılması tələb olunurdu. Bağlamalarda eyni adda malların təkrar göndərilməsi aşkar edildikdə nəzarətçi baxış sənədində müvafiq qeydlər aparmalı idi. 1928-ci ilin fevralında İrəvan və Tiflis gömrükxanaları ləğv edildiyindən həmin ünvanlara beynəlxalq yük və poçt əməliyyatları Bakı gömrükxanası rəisinin 14 fevral tarixli əmri ilə dayandırıldı.

1928-ci il mayın 3-də Culfada SSRİ Baş Gömrük İdarəsi və Cənubi Qafqaz Baş Gömrük İdarəsinin iştirakı ilə keçirilən xüsusi müşavirədə idxal mallarının sərhəddən buraxılışı qaydalarının təkmilləşdirilməsi məsələsi müzakirə edilmişdi. Müşavirədə qəbul edilən qərara əsasən Bakı, Culfa və Astara gömrükxanalarında İrandan gətirilən malların daxili bazara buraxılışı aşağıdakı qaydalar əsasında həyata keçirilməli idi: 1) Əgər Xarici Ticarət Komissarlığının İranla ticarət üzrə Müvəkkilinin daxili bazara buraxılmasına icazə verdiyi yüklərə tətbiq edilən gömrük rüsumları qanunla müəyyən edilmiş müddətdə ödənilmədiyi halda, bu mallar gömrük Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq hərracda satılmalıdır; 2) Gömrükxana normadan çox gətirilən və ya icazə verilməyən yüklər daxil olarkən, belə yüklərin buraxılıb-buraxılmaması haqqında İranla ticarət üzrə Müvəkkilə sorğu verir. Mənfi cavab alındıqda, yük sahibinə bir ay ərzində SSRİ ərazisindən yükün çıxarılmasına möhlət verildiyi bildirilir. Yüklər həmin müddətdə daşınmasa, Gömrük Məcəlləsinin 257 və 258-ci maddələri tətbiq edilməklə hərracda satılır; 3) Gömrükxananın sorğusuna Müvəkkildən iki həftə ərzində cavab alınmadığı halda, yükün daxili bazara buraxılmasına icazə verilmir [95, 29].

Digər dövlət strukturlarında olduğu kimi respublikanın gömrük orqanlarında vaxtaşırı "kadr təmizliyi" aparılırdı. Bu işlə gömrükxanaların yerləşdiyi rayonların qəza komitələrində xüsusi olaraq yaradılan komissiyalar məşğul olurdu. AKP (b) Lənkəran təşkilatının 24 dekabr 1924-cü il tarixli iclasında təsdiq olunan siyahıya gömrük xidmətində uzun müddət işləyən Astara gömrükxanasının mühasibi Talışxanov Mirismayıl Mirəsgər oğlunun, həmin gömrüyün gəmi nəzarətçisi Salatenko Andrian İvanoviçin, onun köməkçisi Kərimov Bahadır Kərim oğlunun, Port-İliç gömrük məntəqəsinin rəisi Talışinski Rzaqulu Əbülfət oğlunun, Kilvəz gömrük məntə-

qəsinin rəisi Nurullabəyov Şirəlibəy Xankişi oğlunun, Əsədov İsrafil Dadaş oğlunun adları daxil edilmişdi [88, 164].

SSRİ gömrük idarəsi Cənubi Qafqaz şöbəsinin 16 dekabr 1926-cı il tarixli 241 nömrəli əmri ilə Bakı gömrük rayonuna tabe olan gömrük müəssisələrinin şəxsi heyətində dəyişikliklər aparıldı. Növbəti ilin yanvarın 1-dən Bakı gömrükxanası üzrə heyətin 59 nəfərə çatdırılması nəzərdə tutulurdu. Onlardan 7 nəfərinin əmək haqqını Azneft, 14 nəfərinin əmək haqqını Xəzər gəmiçiliyi (Kaspar), 7 nəfərinin əmək haqqını "Komvo" ticarət şirkəti ödəməli idi. Astara gömrükxanasında (rəis – M.B.Mirzəyev) qulluqçuların sayı 7, Lənkəran gömrükxanasında (rəis – P.D.Salayev) 6 nəfər, Biləsuvar gömrükxanasında (rəis – M.F.Xoylu, az sonra Ə.Nərimanov), Cəbrayıl məntəqəsində (rəis – A.Y.Bıkov) 3, Bəramtəpə məntəqəsində (rəis – Şərbətərov) 2 nəfər saxlanılırdı [89, 166].

Culfa gömrükxanasında İrandan qəbul edilən və həmin ölkəyə yola salınan tranzit yüklərə gömrük baxışının sürətləndirilməsi sahəsində görülən tədbirlər mərkəzi aparatın diqqətini cəlb etmişdi. Zaqafqaziya Gömrük İdarəsinin rəisi Xutuşvili və Gömrük İnspeksiyasının rəisi Lebedevin imzaları ilə yerli gömrük orqanlarına göndərilən 29 sentyabr 1927-ci il tarixli məktubda əldə edilən müsbət təcrübədən istifadə edilməsi tövsiyə olunurdu. Gömrükxanada tranzit yüklərə nəzarətin sadələşdirilməsi məqsədilə aşağıdakı tədbirlər həyata keçirilirdi: 1) anbara vurulmayan tranzit yüklərin rəsmiləşdirilməsində paralelizmi aradan qaldırmaq üçün malların qeydiyyatı pakhauz kitablarında deyil, yalnız mühasibatlıq tərəfindən aparılsın; 2) vaxt itkisinin qarşısını almaq üçün bəzi gömrükxanalarda tranzit yüklərə dəmiryolu xəttindəki gömrük məntəqələrində baxış keçirilməsi hallarına son qoyulsun, gömrük baxışı malların dəmiryolunda yüklənməsi və çəkilməsi ilə eyni vaxtda keçirilsin: 3) tranzit əməliyyatlarının gecikdirilməsinin qarşısını almaq və gömrükxananın xəzinədarına əlavə çətinlik yaratmamaq üçün yük sahiblərindən gerb rüsumu marka ilə ödənilsin, yaxşı olar ki, gömrükxanalar bu nişanlara müntəzəm təchiz edilsin; 4) sənədlərin tərtib edilməsinə sərf edilən vaxt itkisinin qarşısını almaq üçün tranzit yüklərin və ixrac əməliyyatların rəsmiləşdirilməsi bundan sonra iki yox, bir nüsxədə hazırlansın [24, 3].

Müxtəlif bəhanələr əsas gətirilərək, ZSFSR XKS-nin 1928-ci il 30 avqust tarixli 19 nömrəli qərarı ilə Naxçıvan və Ordubad gömrükxanalarının da fəaliyyəti dayandırılmışdı [168, 21].

Arxiv sənədlərində Naxçıvan MSSR XKS yığıncaqlarında gömrük nəzarəti ilə bağlı məsələlərin müzakirə edildiyi və müvafiq qərarlar qəbul edilməsi haqqında məlumatlar vardır. 1929-cu il fevralın 29-da Məmmədxanovun sədrliyi ilə keçirilən yığıncaqda Naxçıvan MSSR ərazisindəki gömrükxanalarda müsadirə edilən qaçaqmalların bundan sonra Tiflisə göndərilməməsi müzakirə edilmişdi. Yığıncağın qərarı ilə Culfa gömrük-

xanasında saxlanılan qaçaqmalların reallaşdırılması üçün yerli kooperasiya təşkilatına təhvil verilməsinə razılıq verilməsi haqqında Cənubi Qafqaz Baş Siyasi İdarəsinə müraciət edilmişdi [167, 13].

1927-ci ildə Bakı Gömrükxanasının strukturuna istintaq, pakhauz, gəmi, müsadirə, inzibati-təsərrüfat və mühasibat şöbələri daxil idi. Gömrükxana müntəzəm olaraq müsadirə edilən malların hərracda satışını təşkil edirdi.

Bütövlükdə Azərbaycan SSR ərazisindəki gömrükxana və gömrük postlarının şəxsi heyətinin sayı 86 nəfər idi. Ayrı-ayrı gömrük müəssisələri üzrə göstəricilər aşağıdakı kimi idi:

***Bakı gömrükxanası üzrə 61 nəfər, o cümlədən:***
*Gömrükxana rəisi – 1 nəfər*
*Rəis müavini – 1 nəfər*
*Nəzarətçilər – 3 nəfər*
*Ekspert-əmtəəşünas – 5 nəfər*
*İnzibati-təsərrüfat müdiri – 1 nəfər*
*Dəftərxana müdiri – 2 nəfər*
*Kargüzarlar (1-ci dərəcəli) – 2 nəfər*
*Makinaçılar – 2 nəfər*
*Maliyyə nəzarəti hissəsinin müdiri – 1 nəfər*
*Mühasibatlıq şöbəsinin müdiri – 1 nəfər*
*Mühasibatlıq şöbəsinin müdir müavini – 1 nəfər*
*Mühasiblər – 2 nəfər*
*Böyük hesabdarlar – 3 nəfər*
*Hesabdarlar – 4 nəfər*
*Xəzinədar – 1 nəfər*
*Pakhauz bölməsinin müdiri – 1 nəfər*
*Anbar müdiri – 2 nəfər*
*Anbar müdirinin müavini (1-ci dərəcəli) – 3 nəfər*
*Anbar müdirinin müavini (2-ci dərəcəli) – 3 nəfər*
*Gəmi şöbəsinin müdiri – 1 nəfər*
*Gəmi nəzarətçisi – 3 nəfər*
*Gəmi nəzarətçisinin müavini (1-ci dərəcəli) – 3 nəfər*
*Gəmi nəzarətçisinin müavini (2-ci dərəcəli) – 3 nəfər*
*Kuryerlər – 3 nəfər*
*Sanitariya işçiləri – 1 nəfər*
*Yeniyetmə öyrəncilər – 2 nəfər*
*Təsərrüfat müdiri – 1 nəfər*

***Biləsuvar gömrükxanası üzrə 6 nəfər, o cümlədən:***
*Rəis – 1 nəfər*
*Ekspert-əmtəəşünas – 1 nəfər*
*Dəftərxana müdiri – 1 nəfər*

*Baş hesabdar – 1 nəfər*
*Anbar müdiri – 1 nəfər*
*Gözətçi – 1 nəfər*
***Astara gömrükxanası üzrə 8 nəfər, o cümlədən***
*Rəis – 1 nəfər*
*Ekspert-əmtəəşünas – 1 nəfər*
*Anbar müdiri – 1 nəfər*
*Dəftərxana müdiri – 1 nəfər*
*Mühasib – 1 nəfər*
*Gəmi nəzarətçisi – 1 nəfər*
*Gəmi nəzarətçisinin köməkçisi – 1 nəfər*
*Kuryer – 1 nəfə*
***Lənkəran gömrükxanası üzrə 6 nəfər, o cümlədən***
*Rəis – 1 nəfər*
*Ekspert-əmtəəşünas – 1 nəfər*
*Baş hesabdar – 1 nəfər*
*Dəftərxana müdiri – 1 nəfər*
*Gəmi nəzarətçisi – 1 nəfər*
*Kuryer - 1 nəfər*
***Cəbrayıl gömrükxanası üzrə 3 nəfər, o cümlədən**:*
*Rəis – 1 nəfər*
*Dəftərxana müdiri – 1 nəfər*
*Anbar müdiri köməkçisi – 1 nəfər*
***Bəhramtəpə gömrük postu üzrə 2 nəfər:***
*Rəis – 1 nəfər*
*Anbar müdirinin köməkçisi – 1 nəfər* [25, 2; 183,89].

1928-ci ildə Bakı gömrükxanasının strukturuna əmək haqqı dövlət büdcəsindən ödənilən 9 nəfər heyətdən ibarət yoxlama-baxış aparatı, İnzibati-təsərrüfat şöbəsi (15 nəfər), Mühasibatlıq (9 nəfər), Pakhauz şöbəsi (9 nəfər) və Gəmi şöbəsi (10 nəfər) daxil idi. Bundan əlavə, xüsusi vəsait hesabına dəyirmanlara 6, Pakhauz şöbəsinə 12, Gəmi şöbəsinə 15, digər şöbələrin hərəsinə 1-3 nəfər gömrük məmuru təyin edilmişdi. Gömrük nəzarətini həyata keçirən 98 nəfər gömrük əməkdaşının cəmi 52 nəfəri gömrükxananın ştat cədvəlinə daxil idi [86, 1-2].

Bakı gömrükxanası su və dəmiryolu nəqliyyatının kəsişdiyi coğrafi mövqeyinə və xarici ticarət əməliyyatlarının ölçüsünə görə Cənubi Qafqazın əsas gömrük müəssisəsi idi. Buradan İrana və əksinə, həmçinin Orta Asiyaya böyük miqdarda sənaye və kənd təsərrüfatı malları, neft və neft məhsulları daşınırdı. Bakı limanı vasitəsilə Rusiyaya neft və neft məhsulları daşınırdı. Xarici ticarət balansı artdıqca Bakı gömrükxanasında qaçaqmalçılıq üzrə açılan təhqiqat işlərinin sayı da artırdı. Əgər 1920-1923-cü illərdə hər il orta hesabla yüzə yaxın qaçaqmalçılıq halları baş verirdisə,

1927-ci ildə bu hallar üzrə açılan cinayət işlərinin ümumi sayı artmaqda idi. Belə ki, 1925-1927-ci illərdə gömrükxanalarda qaçaqmalçılıq faktlarına görə 1653 halda cinayət işi açılmış və təhqiq olunmuşdu [20, 59, 59[arx.]].

1927-1929-cu illərdə sovet dövlətinin gömrük müəssisələri sırasında Bakı gömrükxanası aparıcı rolunu saxlamaqda idi. 1929-cu ildə Bakı gömrükxanası aşağıdakı idarəetmə strukturuna malik idi: 1. İdarəetmə aparatı (rəis, pakhauz - gəmi şöbəsinə rəhbərlik edən rəis müavini); 2. Nəzarət aparatı (müfəttişlər, ekspert-əmtəəşünaslar, və ekspert-texnik); 3. İnzibati-təsərrüfat şöbəsi; 4. Mühasibatlıq; 5. Pakhauz - gəmi şöbəsi (şöbə müdiri, anbar müdiri, gəmi nəzarətçiləri) [17, 26].

Bakı gömrükxanasında siyasi rejimin tələbinə uyğun kadr və struktur dəyişiklikləri aparılırdı. Məsələn, Azərbaycan KP (b) MK Bakı şəhər Komitəsinin 1928-ci il iyulun 15-də keçirilən yığıncağında Bakı gömrükxanasının rəisi Sumbatov-Topuridzenin hesabatı dinlənilmiş və gömrükxanada partiya və dövlət intizamının möhkəmləndirilməsinə “xidmət edən” və gömrük işinə heç bir müsbət təsiri olmayan qərar qəbul edilmişdi: 1) Bakı gömrükxanasının rəhbərliyi əməkdaşların əmək haqqının artırılması təklifi ilə Bakı partiya təşkilatına müraciət etsin; 2) gömrükxananın şəxsi heyətində kadr təmizliyi aparılsın; 3) azad edilən işçilər partiya üzvləri ilə əvəz edilsin; 4) yeni işə qəbul edilən kommunistlər üçün gömrükxananın təcrübəli işçilərini cəlb etməklə təcrübə kursları açılsın; 5) Şəhər partiya komitəsinin təşkilat şöbəsinə tapşırılırdı ki, gömrükxananın həmkarlar komitəsinin tərkibində bir nəfər də olsun partiya üzvü olmadığı nəzərə alınsın və sovet ticarət işçiləri ittifaqı yerli özəyinin tərkibinin yenidən seçilməsi məsələsinə baxılsın [44, 1].

1929-cu ildə Bakı gömrükxanasında malların yüklənməsini sürətləndirmək üçün yükvurma Bürosu təşkil edildi. Həmin ilin sonunda işdə aparatın saxlanılması xərclərinin azaldılması üçün ixtisarlar aparıldı, idarəetmə aparatı yenidən quruldu. Gömrükxanada bir neçə böyük, o cümlədən hər birinin texniki personalı, katerləri, aksiz və əmtəə mühasibatlıqları olan Avropa, Asiya, İran mallarının mühafizə olunduğu anbarlar yaradıldı [18, 15].

Beləliklə, 1930-cu illərdən başlayaraq SSRİ-nin xarici ticarət dövriyyəsinin kəskin surətdə azalması (1930-cu ildəki 2 mlrd. rubldan 1935-ci ildə 608,7 mln. rubladək) gömrükxanaların sayının ilbəil ixtisar edilməsi ilə nəticələndi. Əgər 1922-ci ildə bütün SSRİ üzrə 290 gömrük müəssisəsi fəaliyyət göstərirdisə, kütləvi ixtisarla əlaqədar 1925-ci ildə gömrükxanaların sayı 266, 1926-cı ildə 218, 1927-ci ildə isə 160-a qədər azaldılmışdı. Artıq 1935-ci ildə bütün dərəcələr üzrə cəmi 67 gömrükxana mövcud idi. Bununla yanaşı, Azərbaycan SSR-in sərhədlərinin nisbətən yaxınlığında yerləşən Dərbənd, Taqanroq, Mahaç-Qala, Soçi, Rostov, Həştərxan kimi gömrükxanaların fəaliyyəti dayandırmışdı. Bu vəziyyət SSRİ-nin

cənub sərhədlərində yerləşən 1-ci dərəcəli Bakı və ikinci dərəcəli Culfa gömrükxanalarının əhəmiyyətini daha da artırmış oldu [200, 330-331].

1933-cü ildə gömrükxana əməkdaşlarının illik əmək haqqı 65280 manat, əmək haqqına 10,75 faizlik əlavələr hesabına 2515 manat, təsərrüfat xərcləri 11309 manat olmaqla cəmi 79104 manat vəsait ayrılmışdı [26, 13].

Cədvəl 2.11

**Bakı gömrükxanasının 1933-cü ilə aid ştat cədvəli və xərclər smetası (manatla)**

| S/s | Vəzifələrin adı | Ştat vahidi | Aylıq əmək haqqı | Cəmi aylıq əmək haqqı |
|---|---|---|---|---|
| 1. | Gömrükxana rəisi | 1 | 375 | 375 |
| 2. | İnspektor | 1 | 325 | 325 |
| 3. | İnspektor | 1 | 300 | 300 |
| 4. | İnspektor | 1 | 300 | 300 |
| 5. | İnspektor | 1 | 275 | 275 |
| 6. | Müvəkkil, AKP (b) Bakı Komitəsindən | 1 | 300 | 300 |
| 7. | Gömrük icraçısı | 1 | 325 | 325 |
| 8. | Nəzarətçi | 8 | 200 | 1600 |
| 9. | Nəzarətçi | 4 | 175 | 700 |
| 10. | Baş mühasib | 1 | 275 | 275 |
| 11. | Dəftərxana müdiri | 1 | 175 | 175 |
| 12. | Hesabdar-statistik | 1 | 135 | 135 |
| 13. | Makinaçı, həm də məxfi şöbə üzrə | 1 | 125 | 125 |
| 14. | Sürücü | 1 | 200 | 200 |
| 15. | Kuryer | 1 | 65 | 65 |
| 16. | Texniki işçi | 1 | 65 | 65 |
| | **Cəmi** | **26** | **3515** | **5440** |

Mənbə: ARDA, f. 363, siy. 1, iş 771, v. 22

1935-ci ildə xarici ticarətin aparılması qaydalarında qismən islahatlar aparıldı, belə ki, bundan sonra xarici ticarət əməliyyatları və alqı-satqı müqavilələrinin bağlanması bilavasitə SSRİ ərazisində keçirilməli idi. Bu isə öz növbəsində yük sənədlərinin dövriyyəsində, yüklərin təhvil verilməsi və qəbulu qaydalarında bir sıra dəyişikliklərə səbəb oldu. Respublikanın xarici ticarət fəaliyyətinin genişlənməsi onsuz da əməkdaşlarının sayı ixtisar edilmiş Bakı gömrükxanasının işində gərginlik yaradırdı. Gömrükxanalar yeni şəraitdə öz funksiyalarını daha az vaxtda və dəqiq həyata keçirmək

üçün işlərini yenidən qurmalı idilər. Lakin gömrük xidmətində kadr axıcılığı səviyyəsi xeyli yüksək idi. Məsələn, 1935-ci ildə ittifaq üzrə bu göstərici 38 faiz təşkil etmişdi.

Bəzən təsadüfi adamlar gömrük xidmətinə işə qəbul edilirdi. Xarici dili yaxşı bilən gömrük məmurları azlıq təşkil edirdi. İxtisaslı gömrükçü kadrları hazırlayan xüsusi ali məktəblər yox idi. Gömrükxana nəzdindəki dərnəklər və Baş Gömrük İdarəsinin təşkil etdiyi xüsusi kurslar gömrük əməkdaşlarının peşə hazırlığı ilə az-çox məşğul olurdu. 1938-ci ildə Bakı Liman gömrükxanası üzrə rəhbər vəzifələrə irəli sürülən 8 nəfərdən azərbaycanlı gömrük əməkdaşları aşağıdakı şəxslər olmuşdu: Rəhimov Nəcəfqulu (inspektorluqdan baş inspektor vəzifəsinə), Sultanov Mahmud (nəqliyyat-yük qrupunun inspektoru vəzifəsinə), Məmmədov Hüseyn (Astara gömrük məntəqəsinin rəisi vəzifəsinə). Bununla yanaşı, Bakı Liman Gömrükxanası əməkdaşlarının 1939-cu ilə aid siyahısında 18 nəfər əməkdaşın 6 nəfərinin erməni olması göstərilmişdir. Ermənilər gömrük inspektoru və nəzarətçi, gömrükxana rəisinin müavini və gömrük məntəqəsinin rəisi (Biləsuvar) vəzifələrinə təyin edilmişdilər [96, 114; 91, 139].

Cədvəl 2.18

**1935-ci ildə Bakı gömrükxanasının ştat və smeta cədvəli (manatla)**

| S/s | Vəzifələr | Dövlət büdcəsi hesabına | | | Xüsusi vəsait hesabına | | |
|---|---|---|---|---|---|---|---|
| | | Ştat vahidi | 1 ştata görə | Cəmi | Ştat vahidi | 1 ştata görə | Cəmi |
| 1. | Gömrükxana rəisi | 1 | 375 | 375 | - | - | - |
| 2. | Baş inspektor | 1 | 325 | 325 | - | - | - |
| 3. | Müvəkkil, AKP(b) Bakı kom. | 1 | - | - | 1 | 300 | 300 |
| 4. | Nəzarətçilər | 4 | 175 | 700 | - | - | - |
| 5. | Nəzarətçilər | - | - | - | 7 | 200 | 1400 |
| 6. | Baş mühasib | 1 | 275 | 275 | - | - | |
| 7. | Dəftərxana müdiri | 1 | 175 | 175 | - | - | - |
| 8. | Kargüzar-makinaçı | 1 | 125 | 125 | - | - | - |
| 9. | Sürücü | - | - | - | 1 | 200 | - |
| 10. | Kuryer | 1 | 75 | 75 | - | - | 200 |
| 11. | Həştərxan gömrük postu rəisi | 1 | 250 | 250 | - | - | - |
| 1-11 | **C ə m i** | **12** | **-** | **12600** | **9** | **-** | **1900** |

Mənbə: ARDA, f. 363, siy. 1, iş 775, v. 69.

Təsərrüfat həyatının digər sahələrində olduğu kimi, sovet gömrükxanaları arasında da sosializm yarışı, staxanovçuluq hərəkatları yayılmışdı və Baş Gömrük İdarəsinin keçici qırmızı bayrağı uğrunda yarış və müsabiqələr də keçirilirdi. 1936-cı il fevralın 9-12-də gömrük işçilərinin Moskvada keçirilən müşavirəsində 22 gömrükxananın iştirak etdiyi *"SSRİ-nin ən yaxşı gömrükxanası"* devizi altında yarış keçirilmişdi. Müsabiqə komissiyasının yekun qərarına görə, ümumittifaq birinciliyində ən yaşı gömrükxanalar müəyyən edilmişdi. Leninqrad gömrükxanası 1-ci, Bakı gömrükxanası 2-ci, 3-5-ci yerlərə isə Odessa, Şepetovskaya və Murmansk gömrükxanaları layiq görülmüşdü. Müsabiqədə gömrük baxışının aparılmasında əməkdaşların peşəkarlıq səviyyəsi, gömrük rəsmiləşdirilməsi sənədlərinin tez və düzgün hazırlanması, qaçaqmalçılığa qarşı mübarizənin səmərəliliyi kimi meyarlar əsas götürülmüşdü [195, 1941, № 8, 13-14].

1930-cu illərdə SSRİ-də hökm sürmüş inzibati-amirlik sistemi xalq təsərrüfatının bütün sahələrində olduğu kimi gömrük işinin inkişafında da dərin izlər buraxdı. Sovet dövlətinin siyasətində xarici ticarətin həcminin azaldılması və gələcəkdə ondan müəyyən mənada imtina etmək meylləri güclənməyə başladı. Bu meyllər 1930-cu ildə qəbul olunmuş Gömrük Tarifində özünü bariz şəkildə əks etdirirdi. Köhnə tariflərdən fərqli olaraq, bu tarifdə mal nomenklaturasının böyük bir hissəsi ixtisar edilərək tarif maddələrinin sayı iki dəfədən çox azaldılmışdı.

# II FƏSİL. SSRİ-nin XARİCİ TİCARƏT VƏ GÖMRÜK MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCANIN ROLU (1922-1960-cı illər)

## *2.1. Bakıda keçirilən xarici ticarət yarmarkaları gömrük sənədlərində*

1922-ci ildən başlayaraq, Azərbaycan SSR-in xarici ölkələrlə ticarət əlaqələri və gömrük işinin inkişafında ənənəvi Bakı yarmarkalarının mühüm əhəmiyyəti oldu. Beynəlxalq yarmarkanın məhz Bakıda təşkil edilməsi onun təkcə onun qərb və şərq ölkələrini birləşdirən ticarət yollarının üzərində yerləşməsi, xüsusilə mənfəətli dəniz yoluna malik olması deyil, həm də sovet Rusiyasının mənafeyi ilə bağlı idi. Yarmarkanın harada keçirilməsi mübahisə və müzakirə obyekti idi. Bəziləri mərkəzi idarələrin yerləşdiyi Tiflis şəhərinə üstünlük verirdilər. Yarmarkanın keçirilməsi üçün Tiflisə nisbətən Bakı şəhərinin yarmarka üçün daha əlverişli olduğunu israrla təkid edən Nəriman Nərimanov məqsədinə çatdı. Bakı yarmarkası həmin dövrdə SSRİ-nin İran, Türkiyə, Əfqanıstan, Monqolustan və Qərbi Çinlə xarici iqtisadi əlaqələrinin yaradılmasında ilkin mərhələ rolunu oynayırdı. İranın Bakı yarmarkasına çıxarılan kənd təsərrüfatı xammalı Cənubi Qafqaz respublikalarına, RSFSR və Ukraynaya ixrac edilirdi. Bir sıra sovet respublikalarının sənayesi xüsusi olaraq yarmarkada satılması nəzərdə tutulan məhsulların istehsalına başlamışdı. Bakının coğrafi mövqeyi, əlverişli ticarət limanının və tarixi ənənələrə malik gömrükxananın mövcudluğu xarici ölkələrlə ticarət əlaqələrini asanlaşdırırdı [163, 93].

Bu yarmarkaların təşkilində məqsəd SSRİ-nin bərbad vəziyyətdə olan iqtisadiyyatını bərpa prosesində ittifaqın daxili rayonlarını zəruri mallarla təmin edilməsi, Yaxın Şərq ölkələri və birinci növbədə İranla Qərbi Avropa ölkələri arasında pozulmuş ticarət-iqtisadi əlaqələri bərpa etməklə iqtisadi dividentlər əldə etmək olmuşdur [152, 55-59].

Azərbaycan SSR Xalq Komissarları Soveti Bakı yarmarkasının təşkili barədə qərarı 1922-ci ilin mayın 14-də qəbul edildi. Yarmarka Komitəsinin tərkibinə iki nəfər azərbaycanlı - A.Qulubəyov və A.Mahmudbəyov daxil idi. Bakı Soveti 1922-ci ilin avqustun 21-də təşkilati işlər üçün Komitəyə 25 mlrd. rubl vəsait ayırdı [177, 1990, 18 dekabr].

Ticarət əlaqələrinin qarşılıqlı şəkildə inkişaf etdirmək üçün bir sıra Şərq ölkələrindən, o cümlədən Türkiyədən bəzi ticarət şirkətlərini yarmarkada iştirak etməyə dəvət edildi. Bu dəvət Türkiyə hökuməti tərəfindən müsbət qarşılandı, türk tacirlərinin Bakı yarmarkasında iştirakına icazə verildi.

Birinci Bakı yarmarkası 1922-ci ilin sentyabrın 15-dən noyabrın 15-dək davam etdi. "Bakinski raboçi" qəzetinin verdiyi məlumata görə yarmarkada Rusiya və Ukraynanın bir çox iri sənaye potensialına malik regionları, Türküstan respublikası, İran və Türkiyədən olan sahibkarlar, o cümlədən 6 xüsusi müəssisə və 2 kooperativ təşkilatla yanaşı, 6 xarici şirkət iştirak edirdi [178, 1922, 17 sentyabr; 1922, 2 oktyabr].

"Экономический Вестник" (İqtisadi xəbərlər) məcmuəsinin 1922-ci il 19-cu sayında dərc edilən məlumata görə, oktyabrın 8-nə qədər yarmarkaya 148694 pud, o cümlədən xarici şirkətlər tərəfindən 13600 pud müxtəlif mallar gətirilmişdi. Bunlardan 95200 pudu ərzaq malları, 14800 pudu texniki material və avadanlıqlar, 14480 pudu tikinti materialları, 8976 ədəd kənd təsərrüfatı alət və mexanizmləri, 3342 pudu isə pambıq mahlıcı, yun, dəri və digər xammal növləri olmuşdu.



***Bakı Yarmarka Komitəsi üçün xüsusi olaraq tikilən bina, 1924-cü il***

Son hesablamaya görə birinci Bakı yarmarkasına təqribən yarım milyon pud müxtəlif mallar reallaşdırılmışdı. İranı 30 şirkət və tacir (bütün iştirakçıların 20 faizi) təmsil edirdi. Yarmarkada satılan 1641120 qızıl manat həcmində malların 40 faizi İran tacirlərinə məxsus idi. 1923-cü ildə RSFSR Xarici ticarət komissarlığı Rusiya ilə İran arasında aparılan ticarətə daxil

edilən bütün mallarına lisenziyasız idxal-ixrac rejimi tətbiq olunurdu. Bundan əlavə, Şərq ölkələri ilə ticarətdə RSFSR-in 1922-ci il Asiya gömrük tarifindən fərqli olaraq bəzi mallara mütərəqqi hesab edilən 1903-cü il tarifi qüvvəsini saxlayırdı. Bununla yanaşı, bəzi siyasi-iqtisadi və hüquqi sədlərin yaradılması yarmarkanın işini çətinləşdirirdi. Məsələn, lord Kerzonun məlum notası, qara birjanın bağlanması, fabrik mallarının, xüsusilə pambıq parçaların qiymətinin süni surətdə artırılması və s. 1923-ü il yarmarkasında satışa çıxarılan əsas ticarət mallarının 22,8 faizini şəkər, 23,7 faizini pambıq parçalar, 10,3 faizini pambıq mahlıcı, 8,3 faizini düyü, 3,8 faizini quru meyvələr, 3,2 faizini şüşə və çini-saxsı qablar, 5,3 faizini kibrit təşkil etmişdi. Bütün satılan malların 30 faizi, o cümlədən 81 min pud şəkər, 68 min pud un, 19 min pud kibrit, cəmi 1465000 manatlıq mallar İrana daşınmışdı. Rusiya fabriklərinin istehsalı olan parçalara yüksək qiymət təyin edildiyindən çox hissəsi satılmamışdı. 1923-cü il yarmarkasının təcrübəsində bəzi zərərli fors-major faktorlar nəzərə alınaraq yeni güzəştləri nəzərdə tutan tədbirlər görüldü. Tarif komitəsinin qərarına görə, Bakıya dəmir yolu ilə gətirilən bütün mallara yarmarkanın keçirildiyi müddətdə yol tarifi 15 faiz aşağı salındı. Parça və toxunma mallarına, kibrit, sement, mis, latun, bürünc, və dəmir təbəqəyə, kənd təsərrüfatı maşın və alətlərinə (ağacdan hazırlanan alətlər istisna olmaqla) və elektrik avadanlıqlarına 20 faiz, şüşə, büllur və çini-saxsı qablara, dəmir və çuqundan hazırlanmış məmulatlara 30 faiz, xarici ölkə mənşəli mallara 10 faiz güzəşt tətbiq olundu. Xəzər Dəniz Gəmiçiliyi analoji qərar qəbul edərək İran limanlarından gətirilən düyü və quru meyvə yüklərinin daşınmasına 20 faiz, digər yüklərə 30 faiz güzəşt tətbiq etmişdi. Bundan əlavə satılmayan malların geri daşınmasına dəmir yolu tarifləri 10 faiz, gəmi daşımaları 15 faiz güzəştlə həyata keçirilirdi.

Şərq ölkələrindən yarmarkaya göndərilən malların gömrük baxışından keçirilməsi və rüsumların ödənilməsi sahibkarın istəyinə görə sərhəd gömrükxanalarından birbaşa Bakı gömrükxanasına göndərilməsinə icazə verilirdi. Bundan əlavə, yarmarkada satılmayan mallar mənşə ölkələrinə nəzərdə tutulan müddət ərzində aparıldıqda gömrük rüsumu geri qaytarılırdı. Xarici ölkə tacirlərinə yarmarkada satdıqları mallardan əldə etdikləri valyutanın 25 faizini aparmalarına icazə verilirdi.

Yarmarkada Azərbaycanı "Azərittifaq", "Azəripək", "Azərtütün", "Azərdəri" trestləri, mərkəzi təşkilatlardan "Neftesindikat", "Saxartrest", "Spiçsindikat", "Rezinotrest" və "Kojsindikat" təmsil edirdi. Nijni Novqorod yarmarkasından fərqli olaraq Bakı yarmarkası orta və kiçik kapitala malik tacir təbəqəsi üçün daha əlverişli bazar sayılırdı. Yarmarkaya RSFSR-in sənaye mərkəzlərindən su yolu ilə malların daşınmasını həyata keçirən Volqa Dövlət çay gəmiçiliyi nəqliyyat tariflərini aşağı salmışdı. Lakin bəzi qüvvələr guya Bakı yarmarkasında İran tacirlərinin mallarının müsadirə

edilməsi haqqında yalan xəbərlər yayaraq bununla yarmarkanın işinə mane olmağa cəhd edirdilər.

RSFSR XXTK-nin Bakı şöbəsi İran qəzetlərinə teleqramlar göndərərək, bu boykot kampaniyasının qarşısını almağa çalışırdı.

1922-ci il oktyabrın 26-da ZSFSR XKS-nin sədri N.Nərimanovun adından radio ilə Tehran və Ənzəliyə aşağıdakı məzmunda məlumat verilmişdi: *"Özümüzə borc bilərək qəti surətdə təsdiq edirik ki, Federativ respublikalar Şərq xalqları, xüsusi ilə də İranla hər iki tərəfin sıx tarixi bağlılığından irəli gələn ən yaxın iqtisadi əməkdaşlıq platforması üzərində möhkəm durur. Əminliklə təsdiq edə bilərik ki, Azərbaycan SSR-də İran tacirlərinin mallarının əllərindən alınması və ya müsadirə edilməsi halları baş verməmiş və baş verə bilməz, Bakı yarmarkası ilə əlaqədar verilən bütün imtiyaz və güzəştlər qüvvəsini saxlamaqdadır".* Radio ilə verilən bəyannamə Bakı yarmarkasının boykot edilməsinin qarşısını almış oldu [65, 39].

1922-ci il martın 12-də Azərbaycan XTK ləğv edildi və xarici ticarət əməliyyatlarının vahid bir mərkəzdən idarə edilməsi səlahiyyətləri yeni təşkil olunmuş ZSFSR Xarici Ticarət Komissarlığına (XXTK) verildi. Bu komissarlığın ayrı-ayrı respublikalarda, o cümlədən Azərbaycanda şöbələri yaradıldı. Həmin ilin avqust ayından isə komissarlığın yerlərdəki şöbələri dövlət idxal-ixrac kontorları ilə əvəz olundu [205, 3].

Qeyd etmək lazımdır ki, bu tədbir regionda fəaliyyət göstərən bir sıra xarici şirkətlərin ciddi müqavimətinə rast gəldi. Buna baxmayaraq, xarici ticarətin tamamilə dövlət inhisarına alınması tədbirləri davam etdirildi. Bir sıra xarici şirkətlərə lisenziya verilməsi dayandırıldı. 1925-ci ildən Baş konsessiya idarəsi tərəfindən verilmiş icazələr ləğv olundu [178, 1922, 3 ноября].

1923-cü ildə SSRİ Xalq Komissarları Şurası tərəfindən müttəfiq respublikalardakı bir neçə təşkilat və birliklərə sərbəst xarici bazarlara çıxmaq "hüquqları" verildi. Bir neçə birliklərlə yanaşı, o zaman dünya neft istehsalatında aparıcı rollardan birinin sahibi olan "Azneft" birliyinə istehsal etdiyi bir neçə neft məhsullarının alqı-satqısına "icazə" verildi. SSRİ neft sənayesinin əsas hegemonu olan Azneft və Qrozneft birliklərinin istehsal etdikləri neft məhsulları yalnız mərkəzdə yaradılmış "Neftesindikat" adlı təşkilat tərəfindən dünya bazarına çıxarılırdı ki, bu da sovet quruluşunun ilk günlərində yerli təşkilatların xarici ticarət sahəsində çox az səlahiyyətlərə malik olmasını sübut edirdi. Xarici ticarət əməliyyatları aparan idarə, təşkilat və birliklərə verilmiş məhdud icazələrin həyata keçirilməsi təcrübəsində çox böyük süni problemlər yaradılırdı. Belə ki, mövcud qanuna əsasən xarici ölkələrlə ticarət etmək üçün icazə almış təşkilat ilk növbədə xarici valyutanı Sovet İttifaqının xarici ölkələrdə olan ticarət nümayəndəliyinin hesabına köçürməli idi [153, 1998, 25 may, № 9 (61)].

Həmin siyasətin məğzi ondan ibarət idi ki, SSRİ-də xarici ticarət yalnız dövlət inhisarında olmaqla ayrı-ayrı mal sövdələşmələri yalnız Xarici ticarət komissarlığı tərəfindən verilmiş xüsusi lisenziyaların əsasında aparıla bilərdi. Xarici ticarət əməliyyatlarının gömrük qanunlarına müvafiq aparılmasına nəzarət işi dövlət sərhədlərində mövcud olan gömrük xidmətinə tapşırılırdı.

1923-cü il yarmarkasında ən fəal iştirak edən müəssisə, təşkilat və şirkətlər bunlar idi (çaşqınlıq yaratmasın deyə xüsusi adların bir çoxu sənəddə olduğu kimi verilir): Ümumrusiya toxuculuq sindiqatı, Baş pambıq komitəsi, Saxarotrest, Ümumrusiya dəri sindiqatı, Komvol tresti, Tikiş sənayesi sindiqatı, Dövlət əlvan metallurgiya birliyi, Moskva maşınqayırma tresti, İpək tresti, "Uralmet", "Ukrtekstiltrest", "Qosspirt", "Rezintrest", "Kibrit sindiqat", "Prodasilikat", "Qosposrednik", "Nəqliyyat cəmiyyəti", "Dobroflot", Cənubi Qafqaz dövlət ticarət idarəsi, Gürcüstan və Belorusun XTŞ-ləri, "Çentrsoyuz", "Azərittifaq", "Bakittifaq", "Kraytorq", "Nijeqorod Promtorq", "Tsaritsın Paytorq", "Novtresttorq", "Acartorq", "Armyantorq", "Rusiya-İran", "İran Assosiyasiyası", "Rupetorq", "Azşərab", Cənubi Qafqaz dəmir yolları idarəsi, Şüşə-saxsı tresti, "Jirkost", "Mosmukomol", "Lenopravlenie", "Polestorq", "Donsnabtorq", "Yuqspirt", "Yuqostal", Şimali Qafqaz şərab tresti, "Novrosçementtrest", "Donbassilikat" və "Donselmaş" [59, 15-19].

ZSFSR XXTK-nin kollegiyasının 1923-cü il aprelin 24-də keçirilən yığıncağında xarici şirkətlərin Bakı yarmarkasında iştirakı məsələsi müzakirə edildi. Yarmarkada xarici şirkətlərin, əsasən Qərbi Avropa şirkətlərinin iştirakı məqbul sayılmadı. Bunu qəbul edilən qərarın məzmunundan aydın müşahidə etmək olur: *"1) Sovet respublikaları ilə İranın bazarları arasında əlaqə yaratmaq Bakı yarmarkasının əsas vəzifəsidir; 2) Cənubi Qafqaz respublikalarının xarici ticarət siyasəti Avropa idxalının tamamilə məhdudlaşdırır; 3) Bakı yarmarkasına Qərbi Avropa mallarının daşınmasına icazə verilməsi sovet sənayesinin maraqlarına zərbə vurmaqla bərabər, eyni zamanda Avropanın müstəmləkəçilik siyasətinin diqqətini Şərq bazarına yönəltmiş olur. Bütün bunları nəzərə alaraq, ZSFSR XXTK yarmarkada Qərbi Avropa şirkətlərinin Bakı yarmarkasında iştirakına yol verməməklə heç də Avropa mənşəli mallarla sövdələşmə aparılmasını qadağan etmir, çünki bu cür mallar onsuz da sovet respublikalarının ərazisinə ümumi qaydalar əsasında daxil olacaqdır".*

Kollegiyanın qərarı ilə Bakı yarmarkasının keçirildiyi günlərdə qonşu dövlətin şirkətlərinin iştirakı ilə sovet-İran ticarət məsələlərinə həsr edilmiş müşavirənin təşkil edilməsi nəzərdə tutulurdu [42, 49-49$^{arx}$].

Fikrimizcə, tədqiqatçı S.Seyidovanın Bakı yarmarkasının Azərbaycanın dövlət büdcəsinə və azad ticarətə ziyan vurması tezisi ilə heç də razılaşmaq olmaz. Əgər belə olsaydı, "Zaqvneştorq"un müəyyən iqtisadi

təfəkkürə malik gürcü rəhbərləri ümumittifaq yarmarkasının öz ərazilərinə, daha doğrusu Tiflisə köçürülməsi haqqında təkid etməzdilər, Burada yarmarkanın əmtəə dövriyyəsinin genişlənməsinə təsir edən iqtisadi və siyasi amillərdən söhbət gedə bilər [171, 90].

Ali İqtisadi Şuranın Azərbaycan SSR XKS-yə təqdim etdiyi hesabatda 1924-cü ildə respublikaya mal ixracının 32 mln., idxal səviyyəsinin isə 25 mln. manata çatması göstərilirdi. İxrac mallarının əsas hissəsini pambıq, ipəkçilik, şərabçılıq və balıqçılıq məhsulları, idxal mallarını isə taxıl, qənd, çay, mətbəə kağız və kitablar, kənd təsərrüfatı alətləri təşkil edirdi. Bakı yarmarkasında ticarət dövriyyəsinin artım tempini aşağıdakı cədvəldən aydın müşahidə etmək olur:

Cədvəl 2.1

**Bakı yarmarkasında satış həcminin dinamikası**

| **İllər** | **Daxil olan mallar (pudla)** | **Yarmarkada satılan mallar (pudla)** | **Satılan malların dəyəri (manat)** |
|---|---|---|---|
| 1922 | 422155 | 240863 | 1864912 |
| 1923 | 1011356 | 515802 | 4776477 |
| 1924 | 1354776 | 1137210 | 8469844 |

Cədvəldən göründüyü kimi, əgər 1922-ci ildə yarmarkaya daxil edilən malların cəmi 57 faizi, 1924-cü ildə 81 faizi satılmışdı. Üçüncü yarmarkada satılan malların dəyəri 4,5 dəfə çox olmuşdu. Təkcə İran tacirlərinin bu yarmarkada mal dövriyyəsi 4,8 mln. manatdan çox olmuşdu [49, 22-23].

Azərbaycan SSR XKŞ-nin IV Sovetlər qurultayında xalq təsərrüfatının bütün sahələri ilə yanaşı daxili və xarici ticarətin vəziyyəti müzakirə edildi. Qurultaya Q.Musabəyovun hesabat məruzəsindən aydın olur ki, 1924-cü ildə respublika üzrə 138 dövlət, 317 kooperativ, 12036 xüsusi olmaqla cəmi 12491 ticarət müəssisəsi fəaliyyət göstərmişdir. 1924-cü ildəki 80,2 mln. manat həcmində olan (1922-ci ilə nisbətən 3 dəfə çox) ticarət dövriyyəsinin 45 faizi dövlət, 6 faizi kooperativ, 49 faizi isə xüsusi ticarətin payına düşürdü. İkinci yarmarkadan başlayaraq xarici tacirlərə gömrük vergisi və nəqliyyat tariflərində güzəştlər tətbiq olunurdu. Yarmarkada satışa çıxarılan malın dəyərinin 1 faizi həcmində yarmarka rüsumu, 8 faizi keçməmək şərti ilə gömrük tarifi müəyyən edilmişdi. Azərbaycan SSR XKŞ-nin 1925-ci il 15 iyul və 14 oktyabr tarixli qərarları ilə Bakı yarmarkası üçün yeni bina tikilmişdi. Artıq 1926-cı ildə keçirilən növbəti yarmarka yeni binada baş tutmuşdu [50, 29]. Bakı yarmarkası Şərq ölkələri ilə ticarət əlaqələrinin inkişafında mühüm əhəmiyyət daşıyırdı. Bunu yarmarkanın yüklərin

miqdarı, həmçinin satışa çıxarılan malların çeşidi və dəyərinin artması sübut edirdi:

Cədvəl 2.2

**Bakı yarmarkasında yük dövriyyəsinin dinamikası**

| İllər | Malların çəkisi | | Malların dəyəri | |
|---|---|---|---|---|
| | Tonla | 1-ci yarmarkaya nisbətən faizlə | manatla | 1-ci yarmarkaya nisbətən faizlə |
| 1922 | 6920,6 | 100 | 4670066 | 100 |
| 1923 | 16579,6 | 239,6 | 16335457 | 349,8 |
| 1924 | 22209,4 | 320,9 | 9881765 | 211,4 |
| 1925 | 59142,1 | 854,7 | 20586587 | 440,8 |
| 1926 | 21673,4 | 313,0 | 10947818 | 234,0 |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.168.

Cədvəldən göründüyü kimi, 2-ci, 3-cü, 4-cü və 5-ci Bakı yarmarkasına gətirilən malların həm çəkisində, həm də dəyərində ilbəil artım olmuşdur. Belə ki, 1925-ci ildə yarmarkaya gətirilən malların çəkisi 1922-ci ilə nisbətən 8,5 dəfə, dəyərinin isə 4,4 dəfə çoxaldığını görürük. Bakı yarmarkasında 1922-ci ildə 1865 min, 1923-cü ildə 4776 min, 1924-cü ildə 8470 min, 1925-ci ildə 16109 min, 1926-cı ildə isə 16283 min manatlıq mal alınıb-satılmışdı.

Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin məlumatına görə, 1925-ci ildə İrandan Bakı yarmarkasına 4320 min manat dəyərində müxtəlif mallar, o cümlədən 535 min manat dəyərində pambıq (12,4 faiz), 665 min manatlıq düyü (38,5 faiz) və 756 min manat dəyərində quru meyvə (40,6 faiz) gətirilmişdi. İran tacirləri Bakı yarmarkasından 3936 min manat dəyərində mal almışdı ki, bunun yarıya qədərini (1958 manat) qənd və şəkər tozu təşkil etmişdi. 1926-cı ildə keçirilən yarmarkada İrandan idxal olunan malların ümumi dəyərində 2,7 faiz azalma müşahidə edilsə də, İran tacirləri əvvəlki ilə nisbətən 27 faiz çox mal almışdı. İran tacirlərinin aldıqları malların siyahısında manufaktura malları 98 faiz, qənd və şəkər tozunun həcmi 71 faiz artmış, metal məmulatları isə 51,3 faiz azalmışdı [218, 170].

Yarmarkaya gətirilən mallar mənşəyi və coğrafiyasına görə qonşu İran və Türkiyədən başqa Rusiya, Ukrayna, Cənubi Qafqaz və Orta Asiyanın bir çox bölgələrini əhatə edirdi.

Bunu aşağıdakı cədvəldən müşahidə etmək mümkündür:

Cədvəl 2.3

**Bakı yarmarkasına gətirilən malların ixrac rayonları üzrə bölgüsü**

| s/s | İqtisadi rayonlar və ölkələr | Çəkisi (tonla) | | Dəyəri (min manatla) | |
|---|---|---|---|---|---|
| | | 1925-ci il | 1926-cı il | 1925-ci il | 1926-cı il |
| 1. | Azərbaycan SSR | 14379 | 5464 | 3295 | 2787 |
| 2. | Şimal-qərb | 1149 | 870 | 826 | 486 |
| 3. | Şimal-şərq | 47 | - | 16 | - |
| 4. | Qərb | 312 | 262 | 116 | 121 |
| 5. | Mərkəzi sənaye | 1608 | 1328 | 2370 | 2381 |
| 6. | Orta Volqa | 131 | 1025 | 62 | 164 |
| 7. | Aşağı Volqa | 4015 | 1923 | 630 | 145 |
| 8. | Ural | 2107 | 127 | 563 | 24 |
| 9. | Mərkəzi Qaratorpaq | 3 | 28 | 2 | 18 |
| 10. | Cənub-qərb | 9731 | 3101 | 4683 | 1545 |
| 11. | Cənub Daş-sənaye | 3217 | 891 | 893 | 544 |
| 12. | Şimali Qafqaz | 400 | 162 | 22 | 11 |
| 13. | Cənubu Qafqaz | 1183 | 61 | 547 | 81 |
| 14. | Türküstan | 82 | 34 | 51 | 28 |
| 15. | İran | 20779 | 6355 | 6512 | 2625 |
| 16. | Vyatka | - | 2 | - | 3 |
| 1-16 | **Cəmi** | **59142** | **21673** | **20587** | **10949** |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.169.

5-ci Bakı yarmarkasında iştirakına əsasən 10 ölkə iştirak etsə də, 4 ölkənin payı (Ukrayna, İran, RSFSR və Azərbaycan) satışa çıxarılan bütün malların 92 faizini təşkil etmişdi. Qonşu respublikalardan Gürcüstan (0,4 faiz), Ermənistan (0,2 faiz) və Dağıstan (0,1 faiz) son dərəcə zəif iştirakı ilə seçilirdi.

Yarmarkada mal dövriyyəsinin həcminə görə Azərbaycan İran, Rusiya və Ukraynadan sonra 4-cü yeri tuturdu. Ermənistanın tutduğu sonuncu mövqe onun xarici iqtisadi əlaqələr qurması üçün zəruri iqtisadi imkanlara malik olmadığını göstərirdi.

İran 1926-cı il yarmarkasında 625 min manatlıq kənd təsərrüfatı malları, o cümlədən 519 min manatlıq pambıq mahlıcı, 1870 min manatlıq düyü, 583 min manatlıq quru meyvə satmışdı. İran tərəfinin payına yarmarkada satılan dərinin 73,3 faizi düşmüşdü (1024 min manat).

Aşağıdakı cədvəldən göründüyü kimi, yarmarkadan daşınan malların xüsusi çəkisində Azərbaycan mənşəli malların payı azalmağa doğru meyl

etmişdir ki, bu vəziyyət əslində digər region və respublikalardan gətirilən malların həcminin artması ilə izah olunur.

Cədvəl 2.4

**Bakı yarmarkasından aparılan malların idxal rayonları üzrə bölgüsü (min manatla)**

| Ölkələr və iqtisadi rayonlar | 1925-ci il | ümumu dövriyyəyə nisbətən faizlə | 1926-cı il | ümumu dövriyyəyə nisbətən faizlə | 1925-ci ilə nisbətən faizlə |
|---|---|---|---|---|---|
| İran | 3936 | 24,0 | 5006 | 30,8 | 127,0 |
| Azərbaycan SSR | 5028 | 31,2 | 5950 | 36,5 | 118,0 |
| Ukrayna SSR | 612 | 3,08 | 1268 | 7,8 | 207,0 |
| Şimali Qafqaz | 123 | 0,8 | 659 | 4,0 | 535,0 |
| RSFSR | 3872 | 24,0 | 2240 | 13,7 | 58,0 |
| Cənubi Qafqaz | 1828 | 11,3 | 344 | 2,1 | 19,0 |
| Türküstan | 291 | 1,8 | 26 | 0,2 | 9,0 |
| Müəyyən edilməmiş rayonlar | 418 | 3,1 | 790 | 4,9 | 188,0 |
| Cəmi | 16108 | 100 | 16283 | 100 | 101 |

Mənbə: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, s.170.

Yarmarkada satılan 3942 min manatlıq şəkərin hamısı Ukraynadan gətirilmişdi. RSFSR-in satış həcmi 3147 min manat olmuşdu ki, bunun da 35,4 faizini toxuculuq malları təşkil etmişdi. Azərbaycan SSR yarmarkada satdığı sənaye malları satış dövriyyəsinin 21,4 faizi səviyyəsində olmuşdu. Respublikamız öz tələbatını ödəmək üçün yarmarkadan 4854 min manatlıq sənaye, 1096 min manatlıq ərzaq və kənd təsərrüfatı malları, RSFSR 1810 min manatlıq sənaye, 430 min manatlıq kənd təsərrüfatı malları almışdı. Ukrayna yarmarkadan 1925-ci ildə olduğundan iki dəfə çox mal almışdı. 1926-cı ildə yarmarkasında 1925-ci ilə nisbətən mal dövriyyəsi İranda bəzi qadağaların tətbiqinə baxmayaraq azalmamış, demək olar ki, sabit qalmışdı.

Cədvəl 2.5

**1926-cı ildə keçirilən 5-ci Bakı yarmarkasında malların dəyərinə və mənşə ölkəsinə görə bölgüsü**

| s/s | **Respublika və iqtisadi rayonlar** | **Malların dəyəri (min manat)** | **Xüsusi çəkisi (faizlə)** |
|---|---|---|---|
| 1. | İran | 4203 | 25,6 |
| 2. | Azərbaycan SSR | 3303 | 20,1 |
| 3. | Ukrayna SSR | 4269 | 26,0 |
| 4. | Şimali Qafqaz | 1127 | 6,7 |
| 5. | RSFSR | 3335 | 20,3 |
| 6. | Dağıstan | 21 | 0,1 |
| 7. | Gürcüstan | 63 | 0,4 |
| 8. | Ermənistan | 26 | 0,2 |
| 9. | Türküstan | 39 | 0,3 |
| 10. | Estoniya | 26 | 0,2 |
| 1-10 | **Cəmi** | **16412** | **100** |

Mənbə: ARDA, f. 710, siy. 1, iş 68.

Bakı yarmarkasında mülkiyyət mənsubiyyətinə görə dövlət ticarəti, kooperativlər və xüsusi ticarət geniş miqyasda təmsil olunurdu. Aşağıdakı cədvəldən görünür ki, 1-ci yarmarkada 28 dövlət təşkilatı, 2 kooperativ və 65 tacir və ya xüsusi mülkiyyəti təmsil edən şirkət iştirak etmişdisə, 1925-ci ildə iştirakçıların sayı artaraq 95-dən 198-ə, o cümlədən dövlət təşkilatlarının sayı 70-ə, kooperativlərin sayı 7-yə, tacirlərin və xüsusi şirkətlərin sayı 121-ə çatmışdı. Daha doğrusu, həmin dövrdə yarmarka iştirakçıları arasında dövlət təşkilatlarının sayı 2,5 dəfə, kooperativlərin sayı 3,5 dəfə, xüsusi kapitalı təmsil edən tacir və şirkətlərin sayı 1,9 dəfə artmışdı.

SSRİ Dövlət Plan komissiyasının 1926-cı il martın 15-də keçirilən yığıncağında 1925-ci ildə keçirilən Bakı və Nijni Novqorod yarmarkaları haqqında xarici ticarət komissarlığının hesabatı dinlənilmişdi. Komissiya yarmarkaların işini gücləndirmək üçün aşağıdakı tədbirlərin görülməsi qərara almışdı: 1) yarmarkaların ixrac mallarının həcminin artırılması; b) yarmarkaların ticarət dövriyyəsində passiv balansın azaldılması; c) satış sərgilərinin təşkili və ticarət mallarının nümunələri üzrə sövdələşmələrin genişləndirilməsi; ç) bazara kifayət qədər çıxarılmayan malların alqı-satqı müqavilələrinin bağlanılması təcrübəsinin yayılması və s [55, 13].

Cədvəl 2.6

**Bakı yarmarkasında xarici iqtisadi fəaliyyət iştirakçılarının tərkibi (1922-1926-cı illər)**

| İllər | Dövlət orqanları | Kooperativlər | Xüsusi kapital | Cəmi |
|---|---|---|---|---|
| 1922 | 28 | 2 | 65 | 95 |
| 1923 | 32 | 4 | 37 | 73 |
| 1924 | 53 | 5 | 388 | 97 |
| 1925 | 70 | 7 | 121 | 198 |
| 1926 | 36 | 4 | 76 | 116 |

Mənbə: ARDA, f. 710, siy. 1, iş. 68.

Bəzi Qərbi Avropa ölkələrinin ticarət-kommersiya şirkətləri şirkətləri yarmarkaya ciddi maraq göstərməyə başlamışdılar. Parisdə fəaliyyət göstərən Beynəlxalq ticarət palatası 1927-ci ilin oktyabrında Zaqafqaziya xarici ticarət idarəsindən Bakı yarmarkası haqqında ətraflı məlumat göndərilməsini xahiş etmişdi [181, 37].

Həmin dövrün iqtisadi fikrinə əsaslanaraq Bakı yarmarkalarının ümumi iqtisadi nəticələrini qısaca olaraq belə şərh etmək olar: SSRİ-nin daxili bazarında bəzi şərq malların, o cümlədən düyünün şişirdilmiş qiymətləri aşağı salındı. Satışın netto-balans metodu ilk dəfə tətbiq edilsə də, nəticəsi qənaətbəxş oldu. Sovet ixracının əsasını təşkil edən mallar, o cümlədən şəkər, manufaktura və silikat qiymətlərinin münasib olmasına, çeşidlərinə və satış şərtlərinə görə İran bazarında müvəffəqiyyət qazana bildi.

Lakin bəzi sovet mallarının satışı (kibrit, mətbəə kağızı və qənnadı məmulatları) xarici ölkə mallarına müqayisədə aşağı keyfiyyətdə olmasına görə gözlənilən həcmdə baş tutmadı [186, 3].

Bir çox hallarda sovet ticarət təşkilatları ilə İran tacirlərinin kommersiya maraqları üst-üstə düşməsə də, qonşu ölkə tacirlərinin əksəriyyəti ticarət əməliyyatlarının təşkilindən razı qalmışdı. Yarmarkanın iştirakçıları arasında bir tərəfdən SSRİ-nin mərkəzi rayonlarının mövqeyi davamlı olaraq yüksəlmiş, digər tərəfdən isə, Cənubi Qafqaz rayonunun, daha doğrusu Gürcüstan və Ermənistanın iştirak səviyyəsi zəifləmişdi. 1929-cu il dünya iqtisadi böhranı beynəlxalq ticarət dövriyyəsinin kəskin azalması SSRİ-nin ixrac potensialına da mənfi təsir etdi.

Aşağıdakı cədvəl Bakı yarmarkasında mal dövriyyəsinin artımını daha dolğun əks etdirir:

Cədvəl 2.7

**Bakı yarmarkasında mal dövriyyəsinin dinamikası (1922-1929-cu illər)**

| İllər | Çəki hesabı ilə | | | Dəyər hesabı ilə | | |
|---|---|---|---|---|---|---|
| | tonla | 1922-ci ilə nisbətən faizlə | əvvəlki yarmarkaya nisbətən faizlə | manatla | 1922-ci ilə nisbətən faizlə | əvvəlki yarmarkaya nisbətən faizlə |
| 1922 | 6921 | 100 | 100 | 4670066 | 100 | 100 |
| 1923 | 16580 | 239,6 | 239,6 | 16335457 | 319,6 | 349,8 |
| 1924 | 22209 | 320,9 | 134,0 | 9881765 | 211,4 | 60,0 |
| 1925 | 59142 | 854,7 | 266,3 | 20586587 | 440,8 | 208,3 |
| 1926 | 21673 | 313,0 | 36,6 | 10947813 | 234,0 | 53,2 |
| 1927 | ... | ... | ... | 31220000 | 668,5 | 285,2 |
| 1929 | ... | ... | ... | 36600000 | 783,7 | 117,2 |

Mənbə: ARDA, f. 710, siy.1, iş 68.

1929-cu ildə keçirilən VII Bakı yarmarkası sonuncu oldu. SSRİ Əmək və Müdafiə Şurasının 1930-cu il 16 mart tarixli qərarı ilə son illər ərzində Şərq ölkələri ilə birbaşa qarşılıqlı ticarət əlaqələrinin yaranması nəzərə alınaraq Nijni Novqorod və Bakı yarmarkaları ləğv edildi. Ticarət əlaqələrinin dövlət inhisarına alınması ilə yarmarkaların təşkilinə ehtiyac azaldı. Beləliklə, SSRİ-nin İranla aparılan xarici iqtisadi əlaqələrinin inkişafında Bakı yarmarkasının mühüm əhəmiyyəti oldu.

## 2.2. Azərbaycan sovet-İran və digər ölkələrlə ticarət-gömrük münasibətlərində. Xarici ticarət əlaqələri 1930-cu illərdə

Bərpa illərində ittifaq üzrə xarici ölkələrlə ticarət əməliyyatlarında, xüsusilə ixracda Azərbaycanın payı 1913-cü ildəki 2,7 faizdən 1922-1923-cü illərdə 9,7 faizə çatsa da, 1924-1925-ci illərdə bu göstərici 7,5 faizə düşmüşdü [62, 26].

Azərbaycanın xarici ölkələrlə ticarətində qonşu İran dövləti xüsusi yer tuturdu. 1924-1925-ci illərdə SSRİ-nin İranla apardığı ticarət əlaqələrində Azərbaycanın xüsusi çəkisi ixrac üzrə 88,0 faiz, idxal əməliyyatları üzrə isə 81,8 faizə bərabər olmuşdu. 1922-1923-cü illərə nisbətən Azərbaycandan İrana ixracın həcmi 7,0 dəfə, idxal isə 2,7 dəfə artmışdı. İrandan başlıca olaraq kənd təsərrüfatı malları (hazır məhsul və xammal şəklində) gətirilmiş əsasən sənaye malları göndərilmişdi. Bir cəhəti qeyd etmək lazımdır ki,

İrandan gətirilən mallar yalnız Azərbaycanın deyil, digər Qafqaz respublikaları və ittifaqın ehtiyacının ödənilməsinə sərf edilirdi [65, 8].

Azərbaycan SSR-dən ixrac olunan mallar içərisində neft və neft məhsulları, xam ipək və ipək məhsulları, biyan kökü və bəzi heyvandarlıq məhsulları əsas yer tuturdu. İxrac edilən neft məhsullarının daha sürətlə artması sayəsində respublikanın xarici ticarət dövriyyəsi öz həcminə görə 1913-cü ilin səviyyəsini keçmişdi. Lakin xalça, texniki bitkilər və bəzi heyvandarlıq məhsullarının ixracı üzrə göstəricilər hələ də aşağı səviyyədə idi [66, 17, 19].

Cədvəl 2.8

**Azərbaycan SSR-in xarici ticarət əlaqələrinin dinamikası**
(1913-cü ilə nisbətən faizlə)

| İllər | Ticarət dövriyyəsi | Neft məhsulları | Digər məhsullar | Neft məhsullarının xüsusi çəkisi | Digər məhsulların xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| **1913** | 100 | 100 | 100 | 82,4 | 17,6 |
| **1922-1923** | 31,1 | 29,7 | 37,0 | 78,6 | 21,4 |
| **1924-1925** | 104,8 | 118,0 | 42,1 | 92,0 | 7,1 |

Cədvəldən göründüyü kimi, 1924-1925-ci illərdə respublikanın ümumi xarici ticarət balansı 1913-cü il səviyyəsini ötüb keçmişdi. Lakin neft və neft məhsulları, balıq və xəz məmulatları istisna olmaqla digər ixrac malları müharibədən əvvəlki səviyyədən çox aşağı idi yaratdı [66, 19].

SSRİ-nin təşkilindən sonra İranla ticarət əlaqələrinin genişləndirilməsi əsasən Bakı üzərindən həyata keçirilirdi. Sovet dövləti 1924-cü il mayın 1-dən fəaliyyət göstərən Rusiya-İran ticarət cəmiyyətinə (Rupeto) lisenziyasız və gömrük rüsumu ödənmədən idxal-ixrac əməliyyatları aparmağa icazə vermişdi. Maraqlıdır ki, "Rupeto" Bakı neftinin Şimali İranda satışının təşkili haqqında "Neftesindiqat"la müqavilə bağlamışdı. 1924-cü il fevralın 11-də yaradılan "Şərq" sovet-İran idxal-ixrac cəmiyyəti İran dövlət torpaqları və ictimai işlər İdarəsinin sifarişi ilə sovet istehsalı olan kənd təsərrüfatı texnikasını pambıq, düyü, və meyvə ilə mübadilə edirdi. 1923-1924-cü illərdə yaradılan "Persazneft", "Rusperssaxar", "Persxlopok", "Persşelk", "Bazari-İrano-Rus", "Mənsucat İrano-Rus" kommersiya cəmiyyətləri Azərbaycan ərazisindən istifadə etməklə geniş ticarət əməliyyatları həyata keçirirdilər. "Zaqqostorq" İrandakı nümayəndəlikləri vasitəsilə sovet sənaye mallarının həmin ölkəyə ixracını təşkil etməklə yanaşı və İran

mallarının Cənubi Qafqaza idxalını həyata keçirirdi. 1925-cı ildən başlayaraq Qərbi Avropadan Batum limanından dəmir yolu ilə Bakı limanına və Culfadan keçməklə tranzit mallar vahid lisenziya əsasında və çox aşağı tariflərlə İrana daşınırdı.

1928-ci ilin may ayında imzalanan sovet-İran gömrük konvensiyası 1927-ci il oktyabr konvensiyasından fərqli olaraq İranın gömrük işi sahəsində müstəqilliyini təmin edirdi. Tərəflər 1936-cı il mayın 10-na qədər gömrük rüsumlarında heç bir dəyişiklik etməməyi öhdələrinə götürmüşdü [205, 54-55, 81].

Azərbaycan Ticarət Palatasının nəzdində "Sovet-İran ticarətinin inkişafına yardım Bürosu" fəaliyyət göstərirdi. Bakı yarmarkasının keçirildiyi illərdə Büronun yığıncaqlarında İran tacirləri ilə əməkdaşlığın müxtəlif məsələləri müzakirə olunurdu. 1925-ci il Bakı yarmarkasında İran tacirləri 1480 min pud neft məhsulları alınmasına öncədən sifariş vermişdi. Lakin Yarmarka Komitəsinin qərarı ilə İrana satılacaq neft məhsullarının normaları 5,5 dəfə az müəyyən edilmişdi (250 min pud kerosin, 3 min pud benzin, 10 min pud mazut və 3 min pud sürtgü yağı). Ticarət Palatası neft məhsullarının yalnız sovet respublikaları ilə davamlı ticarət əməliyyatları aparan və iki ölkənin iqtisadi əlaqələrində yeri olan tacirlərə satılmasına qərar vermişdi. İran tacirlərinə neft məhsullarının satışına aşağıdakı qiymətlər təyin edilmişdi: bir pud kerosin – 60 qəpik, sürtgü yağı – 1 manat 60 qəpik, benzin – 2 manat və mazut – 46 qəpik [54, 19].

"Persazneft"in idarə heyəti Bakıda yerləşirdi. 1927-ci ildə Bakıdan İrana 4,5 min ton benzin və 25,5 min ton ağ neft aparılmışdı. "Avtoiran" adlı nəqliyyat kontorunun Almaniyadan alınmış "Bens" markalı yük avtomobilləri Astara və Culfa gömrükxanasından keçərək maye yanacaq daşıyırdı. Azərbaycan neftinin ixracından külli miqdarda valyuta əldə edilirdi. Əgər 1913-cü ildə neft ixracının payı Rusiya imperiyasının ümumi ixracında cəmi 3,8 faiz təşkil edirdisə, neft və neft məhsulları 1924-1925-ci təsərrüfat ilində taxıl ixracından sonra 2-ci yeri, 1932-ci ildə isə 1-ci yeri tutmuşdu [211, 128].

Cədvəl 2.9

**1924-1926-cı illərdə Azərbaycan SSR gömrükxanalarında qeydə alınan idxal malları**

(Bakı bazarının topdansatış qiymətləri ilə, min manatla)

| **Gömrükxanalar** | **1924** | | **1925** | | **1926** | |
|---|---|---|---|---|---|---|
| | ton | manat | ton | manat | ton | manat |
| Bakı gömrükxanası | 78744, 3 | 28468,0 | 114155, 5 | 50358,9 | 62970,6 | 31712, 0 |
| Lənkəran gömrükxanası | 13,9 | 2,5 | 25,6 | 6,5 | 6,7 | 1,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Astara gömrükxanası | 1639,0 | 429,9 | 2439,6 | 709,2 | 463,2 | 220,0 |
| Biləsuvar gömrükxanası | 20,0 | 7,9 | 200,6 | 42,1 | 121,3 | 49,1 |
| Culfa gömrükxanası | 9711,6 | 2291,0 | 14678,7 | 4943,0 | 5958,8 | 4138,7 |
| Şahtaxtı gömrükxanası | 107,7 | 65,6 | 1286,0 | 341,9 | 976,2 | 371,9 |
| Cəmi (1-6) | **90266,5** | **31264,9** | **132786,0** | **56401,6** | **70496,8** | **36493,1** |

Hesablanıb: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, 198 с., с.138-140.

Azərbaycan ipəyinin xarici bazara çıxarılması və satışının düzgün təşkil edilməsi ölkə büdcəsinə külli miqdarda valyuta gətirə bilərdi. Ali İqtisad Şurasının Q.Musabəyovun sədrliyi ilə keçirilən 1925-ci il 12 yanvar tarixli iclas protokolundan məlum olur ki, Azərbaycan İpək Birliyinə (Azəripək) xaricə ipək ixrac etməsi və əldə edilən valyuta hesabına müxtəlif mallar alınmasına icazə verilməsi haqqında məsələyə baxılmışdı.

SSRİ-də satış bazarında həmin məhsula tələbatın zəif olması ipək sənayesinin ağır böhran keçirirdi. İpəyin Qərbi Avropa bazarlarında satılması haqqında Azəripək birliyi ilə Zaqafqaziya XXTK arasında aşağıdakı şərtlər daxilində razılıq əldə edilmişdi: 1) Azəripək pul əvəzinə özündə olan ipəyin xaricdə satılması üçün təhvil versin; 2) XXTK Azəripəyin sifarişi ilə satışdan əldə edilən pula xaricdən idxalına icazə verilən və idxal planına daxil edilən mallar alsın və ZSFSR-ə gətirsin; 3) malların satışından əldə edilən xalis gəlir XXTK ilə Azəripək arasında bərabər surətdə bölünsün. Bu qərarın həyata keçirilməsi məqsədilə ZSFSR Ali İqtisad Şurası qarşısında təşəbbüs qaldırılsın.

## Ali İqtisad Şurasının iclas protokolundan çıxarış

*№ 78* *12 yanvar 1925-ci il*

***Eşidildi***: *Azərbaycan İpək Birliyinə (Azəripək) xaricə ipək ixracına və əldə edilən məbləğə müxtəlif mallar idxal edilməsinə səlahiyyət verilməsi haqqında.*

***<u>Qərara alındı:</u>*** *SSRİ-də satış bazarının olmaması səbəbindən ipək sənayesinin ağır böhran keçirdiyini nəzərə alaraq ipəyin Qərbi Avropa bazarlarında satılması haqqında Azəripək birliyi ilə Zaqafqaziya XXTK arasında aşağıdakı şərtlər daxilində razılığa gəlinsin:*

*1) Azəripək pul əvəzinə özündə olan ipəyi xaricə daşınaraq orada satılması üçün təhvil verir;*

*2) XXTK Azəripəyin sifarişi ilə satışdan əldə edilən pula xaricdən idxalına icazə verilən və idxal planına daxil edilən mallar alır və ZSFSR-ə gətirir;*

*3) Bu malların satışından əldə edilən xalis gəlir XXTK ilə Azəripək arasında bərabər surətdə bölünür.*

*Bu qərarın həyata keçirilməsi məqsədilə ZSFSR Ali İqtisad Şurası qarşısında təşəbbüs qaldırılır.*

*Sədr:* *Q. Musabəyov*
*Katib:* *R. Xoyski.*
[49, 40].

Gömrük sənədlərində 1924-1926-cı illərdə Azərbaycan SSR-nin ixrac potensialı haqqında ətraflı məlumatlar vardır. Respublika ərazisindəki 6 gömrükxanadan (Bakı, Lənkəran, Astara, Biləsuvar, Culfa, Şahtaxtı) 1924-cü ildə 13346,9 rubl dəyərində 35399,6 ton, 1925-ci ildə 25241,1 rubl dəyərində 83365,8 ton, 1926-cı ildə isə 39800,0 rubl dəyərində 92344,4 ton müxtəlif mallar ixrac edilmişdi. Daha doğrusu 3 il ərzində gömrük baxışından keçirilən ixrac mallarının çəkisi 2,6 dəfə, dəyəri isə 3 dəfəyə qədər artmışdı. 1926-cı ildə ixracın əmtəə strukturunda neft məhsulları 30500,0 ton olmaqla qənd və şəkər tozu ixracından sonra (33706,5 ton) ikinci, dəyərinə görə isə 4-cü yerdə idi.

1926-cı ildən başlayaraq, qabaqcıl kapitalist dövlətləri tərəfindən SSRİ-nin iqtisadi cəhətdən təcrid edilməsi siyasəti gömrükxanaların fəaliyyətinin nəticələrinə təsirsiz qalmadı. Aşağıdakı cədvəldən göründüyü kimi, əgər 1924-cü ildə Azərbaycan SSR gömrükxanalarında qeydə alınan idxal malları 90266,5 min manat təşkil etmişdisə, bu göstərici 1925-ci ildə 132786,0 min manata yüksəlmiş, 1926-cı ildə 36493,1 min manata qədər azalmışdı. Xarici ticarət əməliyyatlarının daha yüksək olduğu 1925-ci ildə Azərbaycan ərazisindəki gömrükxanalara daxil olan 132,8 min ton idxal mallarının 86 faizi Bakı, 11 faizi Culfa gömrükxanasında qeydə alınmışdı.

SSRİ Maliyyə Komissarlığının nəzdində fəaliyyət göstərən Xüsusi Valyuta Müşavirəsi hüquqi və fiziki şəxslər tərəfindən gömrükxanalardan sərbəst surətdə valyuta keçirmələrinə sertifikat verirdi. Azərbaycan SSR-də bu işi Maliyyə Komissarlığına tabe olan Valyuta idarəsi həyata keçirirdi. Məsələn, İdarəyə ərizə ilə müraciət edən görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidə Almaniyaya müalicəyə getməsi ilə əlaqədar olaraq gömrükdən 1500 ABŞ dolları keçirməyə icazə verilmişdi. 1926-1929-cu illərdə Valyuta idarəsinin rəisi Yunis Mirzəbəyov olmuşdur. Valyuta İdarəsinin sertifikatı ilə İran tacirləri Bakı gömrükxanasından təkcə 1928-ci ilin aprel ayında 447316 xarici valyuta manat keçirmişdi. Bu

vəsaitin, 7538 manatı isə xarici pasportlara görə alınan rüsumlardan, 436734 manatı ixrac-idxal əməliyyatlarının rəsmiləşdirilməsindən daxil olmuşdu. İranlı fəhlələr ailələrinə cəmi 1388 manat göndərmişdi. 1929-cu ilin iyun ayında isə ticarət dövriyyəsi artdığına görə İran tacirlərinə 522854 manat xarici valyuta manatını gömrükdən keçirilməsinə icazə verilmişdi. İri ticarət əməliyyatları aparması ilə fərqlənən iranlı tacir Hüseyn Zeynalabdin Kaşaninin şirkətinə təkcə 1928-1929-cu illərdə 161 dəfə sertifikat verilmişdi. Bakı Əmtəə Birjasında və gömrükxana sənədlərində 1928-ci ilin iyun-avqust aylarında bu şirkətin on tonlarla düyü, sitrus meyvələri, quru meyvə, o cümlədən 491,4 ton pambıq satması qeydə alınmışdı. İdxal mallarına gömrükxanalar tərəfindən verilən sertifikatın aylıq limit müəyyən edilmişdi. Valyuta İdarəsinin qərarı ilə 1929-cu ilin fevralından etibarən İranlı tacirlər malın satış dəyərinin cəmi 10 faizinin xarici banklara köçürə bilərdi [26, 6-9, 151].

1922-1927-ci illərdə Bakı limanından İran limanlarına 129807 ton neft məhsulları daşınmışdı ki, bu orta hesabla bir il ərzində 26000 min ton demək idi. 1926/27-ci təsərrüfat ilində Bakı gömrükxanasından keçməklə İrana 1866 ton sement, 1538 ton manufaktura, 32632 ton şəkər, 8518 ton metal məmulatları, 2441 ton taxıl, 1002 ton meşə materialları, 1500 ton duz göndərilmişdi. 1926/27-ci təsərrüfat ilində Xəzər dənizinin SSRİ-yə məxsus dörd limanından İrana daşınan 62691 ton yükün 96 faizi Bakı limanının payına düşürdü. İrandan Bakıya həmin təsərrüfat ilində 60055 ton düyü, 5339 ton pambıq, 713 ton yun, 349 ton günəbaxan çəyirdəyi, 3028 ton quru meyvə, 911 ton təzə meyvə və giləmeyvə, 423 ton xam dəri, 545 ton barama, 1453 ton kənaf və digər mallar gətirilmişdi [19, 29-35].

Cədvəl 2.10

**1925-1926-cı illərdə Bakı gömrükxanasına dəmir yolu ilə daxil olan əsas tranzit yüklər (tonla)**

| Tranzit malların qrupları | Cəmi daxil olan yüklər | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Dərbənd-Bakı | Poylu-Dərbənd | Bakı-Dərbənd | Bakı-Poylu |
| Buğda | 24144 | 15703 | 4599 | 759 | 3083 |
| Buğda unu | 12951 | 12951 | - | - | - |
| Arpa | 16 | 16 | - | - | - |
| Digər taxıl məhsulları | 6 | 6 | - | - | - |
| Balıq məhsulları | 1222 | - | - | - | 1222 |
| Üzüm şərabı və spirt | 3599 | 148 | 3451 | - | - |

| | | | | | |
|---|---|---|---|---|---|
| Pambıq | 232 | - | - | 232 | - |
| Yun | 155 | - | - | 155 | - |
| İpək | 76 | - | - | - | 76 |
| Barama | 324 | - | - | - | 324 |
| Manufaktura | 748 | 252 | 9 | - | 487 |
| Qənd və şəkər tozu | 656 | - | 656 | - | - |
| Sement | 935 | 935 | - | - | - |
| Dəmir, polad və çuqun | 1115 | - | 333 | - | 782 |
| Digər qruplar üzrə | 716 | 2 | 150 | 372 | 192 |

Hesablanıb: Статистический справочник по Азербайджану (под ред. В.В.Смирнова). Баку: ЦСУ Азербайджанской ССР, 1927, с.155.

1927-1928-ci təsərrüfat ilində Bakı gömrükxanasından İrana 84600 ton və ya 47777386 manat idxal malları, 104000 ton və ya 49410670 manat həcmində ixrac malları buraxılmışdı. İrandan Avropaya 2592 ton, Avropadan İrana 2488 ton tranzit yüklər keçirilmişdi. Bütövlükdə İran limanlarından daxil olan və İrana yola salınan 541 xarici ticarət gəmisinə və 10001 sərnişin gömrük baxışından keçirilmişdi. Gömrükxana üzrə 102519270 manat həcmində 220997 ton yük gömrük qeydiyyatına alınmış, dövlət büdcəsinə gömrük rüsum və ödənişləri hesabına 10934051 manat vəsait köçürülmüşdü. Gömrük əməkdaşları tərəfindən 601 fakt üzrə 110791 manatlıq qaçaq mallar saxlanılaraq 235897 manat cərimə təyin edilmişdi.

Bununla bərabər, 1928-ci ilin noyabr ayında Baş Gömrük idarəsinin Cənubi Qafqaz şöbəsi tərəfindən aparılan təftiş gömrükxananın fəaliyyətində nöqsanlar aşkar etmişdi. Xarici ticarət iştirakçılarına valyuta sertifikatlarının verilməsi gömrük nəzarətçilərindən daha məsuliyyətli olmağı tələb edirdi. Siyasi İdarə orqanları tərəfindən cəmi 4 ay ərzində İran tacirlərinə qeyri-qanuni “xidmət” göstərən 14 gömrük əməkdaşı cinayət məsuliyyətinə cəlb edilmişdi. Aparılan təftişin və digər materialların əsasında Azərbaycan KP (b) MK-nın Xüsusi Komissiyasının qərarı ilə bir neçə gömrük əməkdaşı vəzifədən azad edilmişdi. Gömrük baxışından keçən sərnişinlərin şikayəti bir çox hallarda Xarici İşlər Komissarlığı ilə İranın diplomatik nümayəndəliyi arasında yazışmaların mövzusu olurdu. Təftiş Komissiyasının rəyində gömrükçülərin peşə və xidməti hazırlıq səviyyəsinin və xidməti intizamının yüksəldilməsi, gömrükxana rəhbərliyinə nüfuzlu yerli əməkdaşın gətirilməsi tövsiyə olunmuşdu. Komissiyanın rəyinə əsasən, Baş Gömrük İdarəsi əməliyyat şəraitini nəzərə alaraq Bakı gömrükxanası rəisinin əməliyyat üzrə müavini vəzifəsi təsis edilmişdi [80, 12-13; 94, 22-23].

1928-ci il dekabrın 19-da ÜMİK və SSRİ XKS SSRİ-nin Gömrük Məcəlləsini təsdiq etdi. Sənəddə göstərilirdi ki, *"gömrük müəssisələri xarici ticarətin inhisarı sahəsində dövlət qərarlarının yerinə yetirilməsi üzərində faktiki nəzarət edir, gömrük rüsumları toplayır, bütün digər gömrük əməliyyatlarını həyata keçirirlər".*

Beləliklə, Sovet İttifaqında xarici ticarət üzərində dövlət inhisarı sahəsində qərarların yerinə yetirilməsinə nəzarət gömrük orqanlarının əsas funksiyası kimi təsbit olundu. Məcəllədə Baş Gömrük idarəsinin vəzifə və funksiyaları, hüquqları, gömrük siyasətinin işlənilib-hazırlanması qaydaları, həmçinin gömrük nəzarətinin forma və metodları dəqiq göstərilirdi. Yeni Gömrük Məcəlləsi "Gömrük idarəçiliyinin təşkili", "Gömrük əməliyyatları", "Qaçaqmalçılıq, qaçaqmalçılıq hərəkətlərinə görə cərimələr və təhqiqat işlərinin aparılması" və "Gömrük rüsumu və ödənişlərinin tutulması qaydaları və gömrük qaydalarının pozulmasına görə cərimələr" adlı dörd bölmədən ibarət idi. Məcəllədə gömrük vergi və rüsumlarının yığılması və yüklərin gömrük ərazisində mühafizə qaydaları, gömrükdən buraxılması, sərhəddən geri qaytarılması və satışı qaydaları göstərilirdi. Yüklərin sərhəddən yalnız gömrük orqanlarının nəzarəti altında buraxılmasına yol verilirdi. Ölkəyə gətirilən və ölkədən daşınan yüklərə görə rüsumların dərəcəsi SSRİ XKS-nin təsdiq etdiyi tariflərlə müəyyən olunurdu. Gömrük idarəçiliyi Xarici Ticarət üzrə Xalq Komissarlığının səlahiyyətində qalırdı. Əvvəlki sənədlərdə olduğu kimi, bu qanunun əsas məqsədi xarici ticarət üzərində dövlət inhisarını daha da sərtləşdirmək idi. Gömrük orqanlarının üzərinə gömrük rüsumlarının yığılması kimi ənənəvi vəzifə qoyulurdu. Gömrük Məcəlləsində gömrük idarəçiliyində islahatlar aparılması meylləri öz əksini tapdı. Belə ki, əvvəllər mövcud olan yeni Məcəllədə Gömrük müfəttişliyi nəzərdə tutulmamışdı.

SSRİ-nin İranla bağlanan ticarət müqaviləsi əsasında hər il min tonlarla idxal olunan çəltik "A.Abasquliyev", "Ağasiyev qardaşları", "İran", "Slon", "Azəri" adlı xüsusi mülkiyyətə məxsus, həmçinin Bakı şəhərindəki 2 və 4 saylı dövlət dəyirmanlarında bilavasitə gömrük nəzarəti altında emal olunurdu. Dəyirmanlarda gömrük baxışının həyata keçirilməsi üçün ayrıca nəzarətçilər təyin edilmişdi. Gömrük sənədlərində təkcə 1927-ci ilin oktyabrından 1-dən 1928-ci ilin iyunun 1-nə qədər dəyirmanlardan 48232 ton təmizlənmiş düyü buraxılması qeydə alınmışdı. İranla ticarət əməliyyatlarında iştirak edən təşkilatların 1928-ci il avqustun 18-də keçirilən bağlı müşavirəsində dəyirmanlarda çəltik emalının 3 faizlik natura ilə deyil, nağd pulla ödənilməsi təklif olunmuşdu. Məqsəd düyü məhsulunun daxili bazarda xüsusi ticarətin əlinə keçməsinin qarşısını almaq idi. Çəltiyin emalı görə on illər boyu ənənə şəklini alan natura şəklində ödənişin ləğv edilməsi dövlət nəzarətini gücləndirilməsi kimi qələmə verilsə də, əslində azərbaycanlı sahibkarlara iqtisadi təsir metodu kimi başa düşülməlidir. Müşavirəyə dəvət

olunan vəzifəli şəxslərin tərkibi bunu sübut edir: SSRİ Xarici ticarət Komisarlığının İrandakı xüsusi səlahiyyətli nümayəndəsi Avanesov, Bakı Birjasından A.Oleniçev, RSFSR ticarət komissarlığından S.Petrenko, Bakı gömrükxanasından Topuridze, İodkov, Şaginyan və Asanov [94, 48-49].

1923-cü ilin sonundan Türkiyə ilə ticarət münasibətlərində lisenziyasız ticarət rejimi tətbiq edilmiş və bu proses 1927-ci il birinci sovet-Türkiyə ticarət müqaviləsinin tətbiqinə qədər davam etmişdi. Lisenziyasız ticarət rejiminə əsasən türk tacirləri sovet bazarına siyahı əsasında müəyyən edilmiş malları gətirmək və lazım olan malları alıb aparmaqda sərbəst idilər. Belə bir güzəşt Yaxın və Orta Şərq ölkələri içərisində ilk dəfə Türkiyə və İrana tətbiq edilmişdi. 1926-cı ildə SSRİ Xarici Ticarət Komissarlığının qərarı ilə Türkiyə və İran ilə əlaqələr netto-balans ticarəti qaydası əsasında qurulmuşdu [149, 4-5].

1923-1929-cu illərdə SSRİ ilə Türkiyə arasında ticarət "Lozanna rejimi" və "Lozanna gömrük-tarif sistemi" əsasında qarışıq sovet-ingilis səhmdar cəmiyyəti "Arkos"un İstanbul şöbəsi tərəfindən aparılırdı. 1924-1927-ci illərdə bu vəzifə eyni zamanda sovet-Türkiyə birgə cəmiyyəti olan "Russoturk" şirkəti icra edirdi.

Məlumdur ki, Sovet-Türkiyə münasibətləri tarixində ilk ticarət müqaviləsi 1927-ci ilin martın 1-də bağlandı və iyunun 1-də qüvvəyə mindi. Müqavilənin 1-ci hissəsində (1-9-cu maddələr) ticarət və ticarət işləri əlaqədar şəxslərin hüquq və səlahiyyətləri, ticarətin forma və qaydaları, 2-ci hissədə isə dənizçilik, gömrük və icarə rüsumlarından bəhs edilirdi. Qafqaz respublikalarını Türkiyə ilə ticarət əlaqələrində təmsil edən "Zaqqostorq" "Şərq Dövlət Ticarət Birliyi"nin tərkibinə daxil idi.

1931-ci ilin martın 16-da Moskvada SSRİ ilə Türkiyə arasında ticarət və dənizçilik haqqında 2-ci müqavilə imzalandı. Beş il müddətinə bağlanmış müqavilənin 17-ci maddəsində tranzit xərcləri və gömrük rüsumları qeyd olunmuşdu. Müqavilədə göstərilirdi ki, malların tranzit daşınması, yerləşdirilməsi hər bir ölkənin mövcud dövlət qanunları əsasında yerinə yetirilməli, hər iki tərəf bir-birini gömrük vergisindən azad etməlidir. Sovet İttifaqından Türkiyəyə ixrac olunan malların böyük bir qismi Qafqaz respublikalarından, xüsusilə neft və neft məhsulları əsasən Azərbaycandan aparılırdı. Zaqafqaziya Xarici Ticarət Palatasının verdiyi məlumata görə, 1934-cü ildə Qafqazdan Türkiyəyə ixrac olunan məhsulların dəyəri 676,6 min qızıl manata bərabər olmuşdu ki, bu da əvvəlki ildə olduğundan 48 faiz çox idi. 1937-ci ilin oktyabrın 8-də Ankarada "SSRİ ilə Türkiyə Cümhuriyyəti arasında ticarət və gəmiçilik haqqında" müqavilə imzalandı. Müqavilə 29 maddə və 11 əlavə bənddən ibarət olub 3 il müddətinə bağlanmışdı. Müqavilənin 1-8-ci maddələri hər iki ölkənin vətəndaşları və hüquqi şəxslərinin səlahiyyətlərini, 9-16-cı maddələri ticarət əlaqələrini, 17-28-ci

maddələri isə gəmiçilik, gömrük və rüsum məsələlərini əhatə edirdi. [219, 244-253].

Türkiyə və İranla ticarəti inkişaf etdirmək üçün 1937-ci ilin əvvəllərində SSRİ Xalq Xarici Ticarət Nazirliyi nəzdində xüsusi ticarət orqanı olan "Soviranturktorq" yaradılmışdı.

İranla ticarət əməliyyatları "Eksportxleb" ümumittifaq birliyinin Bakı şöbəsi mühüm rola malik idi. Şöbənin eyni zamanda Culfada agentliyi fəaliyyət göstərirdi. 1932-ci ildə birliyin xətti ilə İrandan 40000 ton plana qarşı 60106 ton düyü gətirilmişdi ki, bunun əsas hissəsi ittifaq təşkilatlarına, 20400 tonu Bakı və Culfadakı anbarlara təhvil verilmişdi. İrana Bakı gömrükxanasından keçməklə 9700 ton qənd və 3091 ton şəkər, Culfa gömrükxanasından 3996 ton qənd və 1622 ton şəkər tozu göndərilmişdi [71, 6-8].

1932-ci il noyabrın 28 Culfada keçirilən qapalı müşavirədə İranın daxili bazarında alıcılıq səviyyəsinin aşağı düşməsi və üçüncü ölkələrdən idxal edilən mallar hesabına külli miqdarda sovet mallarının sərhədyanı bazalarda yığışıb qalması məsələsi müzakirə edildi. 1932-ci il 1 oktyabr vəziyyətinə görə, gömrük anbarlarında malların dəyəri (neft məhsulları nəzərə alınmadan) 2 mln. qızıl manata çatmışdı. Təkcə Culfa gömrükxanasında pambıq parça ilə yüklənmiş 109 vaqon "ilişib qalmışdı". Nəticədə bütün dərəcələr üzrə gömrük müəssisələrinin və burada çalışan əməkdaşların sayı 2-3 dəfə ixtisar edilmişdi [70, 88].

1933-cü ildən SSRİ Xarici Ticarət Komissarlığının ümumittifaq "Raznoeksport" ixrac-idxal birliyinin Azərbaycan şöbəsi və Bakı kontoru fəaliyyət göstərirdi. Azərbaycan şöbəsinin və Bakı kontorunun rəisi Ə.Yüzbaşov təyin edilmişdi. Kontor Bakı limanının 26-cı körpüsünün ərazisində, 1-ci Qara şəhər küçəsi ilə Fəhlə prospektinin kəsişdiyi küncdə yerləşirdi. Kontor əsasən İrandan idxal edilən xam dərinin emal etdikdən sonra ixracını həyata keçirirdi [63, 14].

"Raznoeksport"un Bakı və Culfada qəbul məntəqələri yaradılmışdı. SSRİ Xarici Ticarət Komissarlığının Azərbaycan SSR üzrə Müvəkkilinin sərəncamı ilə kontorun məsul əməkdaşları 1934-cü ilin sentyabrından təşkil edilən xarici dil öyrədilən dərnəklərə cəlb olunurdu. "Raznoeksport"ın mərkəzi aparatının 1935-ci il 30 dekabr tarixli əmri ilə Azərbaycan şöbəsinin rəisi Ə.Yüzbaşova bütün Cənubi Qafqaz respublikaları ərazisində kontorun fəaliyyətini əlaqələndirmək, o cümlədən: 1) birliyin Bakı, Culfa və Batumdakı ixrac-idxal bazalarına və "Raznoeksport"un nomenklaturasına daxil edilən mallar üzrə (dəri, bağırsaq, at qılları, kibrit, şüşə, məişət qabları, xalçalar, kustar məmulatları, müxtəlif tullantılar və s.) aparılan əməliyyatlar; 2) Bakı, Batum və Culfa gömrükxanalarında "Raznoeksport"un gömrük nəzarətindən keçirilən bütün yüklərin və tranzitin tələb olunan qaydalar əsasında gömrük rəsmiləşdirilməsinə cavabdehlik; 3) idxal və ixraca verilən lisenziyalar əsasında digər təşkilatlardan "Raznoeksport"un ünvanına daxil

olan malların gömrükxanadan alınması və "Raznoeksport"a məxsus malların göndərilməsi; 4) Müəyyən edilən hallarda, gömrükxanalara, Maliyyə Komissarlığı və Dövlət Bankına verilən girovun təmin edilməsi və azad edildikdən sonra geri alınması; 5) "Raznoeksport"un adından gömrük qaydaları əsasında müxtəlif adda yığım və rüsumlar haqqında öhdəlik götürmək; 6) yüklərin yanğın və oğurlanması hallarının qarşısını almaq, yüklərin mühafizəsi üçün anbarlar icarəyə götürmək və bu xidmətlərin haqqını ödəmək; 7) digər dövlət, ictimai təşkilatlar və məhkəmə orqanlarında "Raznoeksport"u təmsil etmək və hüquqlarını müdafiə etmək kimi məsələlərə rəhbərlik etmək səlahiyyəti verilmişdi. 1936-cı il yanvarın 1-dən "Mineralsilikateksport" ümumittifaq birliyinin Bakı şöbəsi, bir müddət sonra isə texniki dərman bitkilərinin ixracı üzrə ixtisaslaşmış ümumittifaq birliyinin ("Lektexsırye") Bakı bazası və Cənubi Qafqaz dövlət idxal-ixrac və tədarük birliyinin ("Zakqostorq") xalça və biyan kökü bölmələri də "Raznoeksport"un Azərbaycan şöbəsinə birləşdirildi. Təkcə 1936-cı ildə birliyin müəssisələrində 1401966 ədəd xırdabuynuzlu heyvan dərisi emal edilmiş, bunun 970280 ədədi ixrac edilmişdi [64, 23].

1934-cü illərdə gömrük anbarlarının ləğv edilməsi xarici ticarət və gömrük işinə ağır zərbə vurmuşdu. Xarici ticarət əməliyyatlarının xeyli azalması gömrük işini bir növ "arxa plana" salmışdı. Lakin 1935-ci il avqustun 13-də imzalanmış SSRİ-İran ticarət müqaviləsi iqtisadi-ticarət əlaqələrinin artmasına səbəb oldu. Əgər 1934-cü ildə hər iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 221298 min manat olmuşdusa, 1935-ci ildə bu göstərici 1,5 dəfə artaraq 336300 min manatı ötmüşdü [204, 1935, № 8, 22].

1935-ci il ərzində İrandan 20688 ton mal gətirilmiş, 15661 ton mal ixrac edilmişdi. Quru yolla daşınan digər mallar kimi sovet maşınları da İran bazarına Culfa gömrükxanasından keçməklə daxil olurdu. 1934-cü ilin may ayında ilk dəfə İ.Stalin adına Moskva avtomobil zavodunda istehsal olunmuş üç tonluq "ZİS"-lər sovet-İran sərhədindən Culfa-Təbriz-Tehran-Bəndərşah-Pəhləvi-Tehran marşrutu ilə hərəkət edərək yerli istismar şəraitinə tam uyğun oldu göstərdilər. 1934-cü il oktyabrından sovet yük avtomobilləri və avtobuslarının İran bazarında satışına başlanıldı. 1935-ci ilin iyuluna qədər Culfadan keçməklə İran bazarına 482 min rial (1 rial = 7,5 qəpik) 110 ədəd "ZİS" markalı yük avtomobilləri çıxarılmışdı. İrana yük avtomobilləri ilə yanaşı, 12 ədəd həmin markadan olan avtobuslar da göndərilmişdi. Yerli mətbuat Tehranda şəhər sərnişin nəqliyyatının təşkilində və avtobus parkının genişlənməsində sovet avtomobillərinin xarici şirkətlərin avtobusları, o cümlədən "Şevrole" və "Doc"la rəqabətdə geri qalmadığı haqqında yazırdı [201, 1935, № 7, 21-22].

Azərbaycan SSR XKS-nin sədri M.C.Bağırovun imzaladığı 1933-cü il 14 may tarixli qərarda bütün dövlət, təsərrüfat, kooperativ və ictimai

təşkilatlara ixrac əhəmiyyətli xalçaların müəyyən edilməsi üçün xarici ticarət birliyinə təhvil vermələri haqqında göstəriş verilmişdi [69, 3].

Statistik rəqəmlərdən aydın olur ki, Azərbaycan SSR-in 1936-cı ilin yanvar-mart ayları üçün Moskvada tərtib edilən ixrac planı 696200 manat olmaqla 101, 6 faiz yerinə yetirilsə də, xalça məmulatları (56,6 faiz) və qiymətli balıq növləri üzrə (70,9 faiz) kəsirdə qalmışdı. Azərbaycan SSR ixrac planının kontrol rəqəmlərinin göstərildiyi və XKS-nin sədri Hüseyn Rəhmanovun imzaladığı 1936-cı il 19 aprel tarixli 339 s nömrəli qərarda təsərrüfat ilinin ikinci yarısında bir sıra mallar üzrə ixrac həcminin artırılması (neft məhsulları nəzərə alınmadan - 1686800 manat), o cümlədən 1432000 manat dəyərində 142 ton qara kürünün ixracı nəzərdə tutulmuşdu [50, 23]. Cənubi Qafqaz dövlət ticarət idarəsinin (Zakqostorq) ləğv edilməsi ilə əlaqədar Azərbaycan SSR XKS-nin qərarı ilə 1936-cı ilin dekabrın 20-dək xalça və xalça məmulatlarının, biyan kökünün tədarükü və topdan-satışını həyat keçirmək səlahiyyəti Yerli sənaye Komissarlığına verildi. Respublika ərazisi hüdudlarında digər təşkilatlara həmin mallar üzrə kommersiya əməliyyatları aparmaq qadağan edilirdi [74, 170].

SSRİ MİK və XKS-nin 1930-cu il 22 dekabr tarixli qərarı ilə SSRİ XXTK iki müstəqil komissarlığa bölündü: SSRİ Təchizat Komissarlığı və SSRİ XXTK. Hər iki qurumun qarşısında duran əsas vəzifə dünya iqtisadi böhranı nəticəsində ticarət dövriyyəsinin kəskin surətdə azalması və başlıca kapitalist dövlətlərinin sovet ixracını məhdudlaşdıran tədbirlər həyata keçirdiyi bir şəraitdə xarici ticarət fəaliyyətinin çevikliyini və manevr qabiliyyətini təmin etmək idi. Buna müvafiq olaraq, komissarlıqların idarəetmə strukturunda dəyişikliklər aparıldı.

1931-ci ilin ortalarında SSRİ XXTK-nın tərkibində aşağıdakı idarələr yaradıldı: İşlər idarəsi; İxrac idarəsi; İdxal idarəsi; Baş xəz idarəsi; Baş gömrük idarəsi və Müfəttişlik. Bundan əlavə, xarici ticarətin qarşısında qoyulan vəzifələrə müvafiq müstəqil bölmələr yaradıldı: Şərq bölməsi, tədarük və təchizat bölməsi, nəqliyyat bölməsi, valyuta-maliyyə bölməsi, təşkilat bölməsi, ticarət siyasəti bölməsi, kadrlar bölməsi, kadr hazırlığı və qeydiyyat bölməsi. Şərq bölməsinə Monqolustan, Tuva, Qərbi Çin, Əfqanıstan, İran və Türkiyə ilə idxal-ixrac əməliyyatlarına rəhbərlik həvalə edildi. Bu bölmənin fəaliyyətində əsas istiqamətlərdən birini Azərbaycan üzərindən İranla ticarət əlaqələrinin və tranzit daşımaların genişləndirilməsi tuturdu [211, 118-119].

Aşağıdakı cədvəldən görünür ki, 1933-cü ildə qeyri-neft məhsulları sahələrində Azərbaycanın ixrac potensialında bir çox sahələr üzrə üstün artım sürəti müşahidə olunmuşdu. Belə ki, bir il ərzində bu göstərici, xüsusilə xalça, barama toxumu və xəzin ixrac həcmi təqribən 2 dəfə artmışdı:

Cədvəl 2.17

**1932-1933-cü illərdə Azərbaycan SSR-in ixracatı**

| **İxrac təşkilatları və müəssisələri** | **illər** | | | |
|---|---|---|---|---|
| | **1932** | **1933** | **1932-ci ilə nisbətən faizlə** | **ölçü vahidləri** |
| I. Meşə ixracatı (Экспортлес) | 316,8 | 464,9 | 146,7 | min manat |
| II. İttifaq sənaye ixracı (“Союзпромэкспорт”) | 284,5 | 996,2 | 350,2 | min manat |
| o cümlədən - barama toxumu | 24,6 | 33,1 | 134,6 | ton |
| III. Xalça sənaye eksport (“Коверкустэкспорт”) | 1104,2 | 5157,5 | 467,1 | min manat |
| IV. Balıq konserv eksport (“Рыбконсервэкспорт”), o cümlədən | 1832,8 | 1775,8 | 96,9 | min manat |
| - qızıl balıq (losos) | 151,7 | 130,3 | 85,9 | ton |
| V. İttifaq meyvə ixracı (“Союзплодоэкспорт”) o cümlədən | 574,1 | 578,6 | 100,8 | min manat |
| - fındıq içi | 1909,0 | 1811,0 | 94,9 | ton |
| - alma | 153,0 | 301,0 | 196,7 | ton |
| VI. Dərman-texniki bitki ixracı (Лектехэкспорт) o cümlədən, | 339,6 | 569,7 | 167,7 | ton |
| - biyan kökü | 7114 | 5989 | 84,2 | ton |
| VII. İttifaq xəz-dəri (“Soyuzpuşnina”), o cümlədən | 830,5 | 1315,8 | 158,4 | min manat |
| - hazır xəzlər | 452,5 | 609,0 | 134,6 | min manat |
| VIII. “Разноэкспорт” | 325,9 | 240,4 | 73,8 | min manat |
| IX. Mineral silikat eksport, | - | 34,1 | - | min manat |
| o cümlədən - kükürdlü kolçedan | - | 5690 | - | ton |
| Yekun | 5608,4 | 11188 | 198,5 | min manat |

Mənbə: Azərbaycan Sovet Sosialist Cümhuriyyəti sosialist quruluşu statistika külliyyatı. Bakı: Soyuzorquçot, 1935. -502 s., 384-385.

Gömrük sənədləri təsdiq edir ki, 1930-1931-ci illərdə İrandan Azərbaycan sərhədlərindən keçməklə üçüncü ölkələrə göndərilən tranzit yüklərin həcmi artmaqda idi. Bu yüklərin 74 faizi Culfa, 36 faizi isə Bakı gömrükxanasında qeydiyyata alınaraq Batum limanına göndərilirdi. Məsə-

lən, Bakı limanın İrandan daxil olan 1930-cu ildə tranzit yüklərin həcmi cəmi 547,5 ton olmuşdusa, 1931-ci ildə bu rəqəm 8,5 dəfə artaraq 4570,5 tondan çox olmuşdu. İrana göndərilən tranzit yüklərin həcmi isə 5525 tondan 2140 tona qədər azalmışdı [58, 80].

Əsas strateji xammal növlərindən olan pambıq mahlıcının Cənubi Qafqazdan ixracı ilk dəfə 1931-ci ildə həyata keçirilmiş, gömrük sənədlərinə əsasən həmin ildə 1041 ton mahlıcın 666 tonu Azərbaycandan İngiltərə, Estoniya və Latviyaya ixrac edilmişdi. 1932-ci ildə ümumittifaq "Tekstilimport" şirkəti Azərbaycan SSR-dən 3000 ton mahlıcın ixrac edilməsini təklif etmişdi. Azərbaycan SSR-in ittifaq üzrə ixrac potensialının əvvəlki illərdə 17 faiz olması nəzərə alınaraq Xarici Ticarət Komissarlığının ixrac üzrə komissiyası tərəfindən hazırlanan proqnoza görə 1933-1937-ci illərdə respublika üzrə ixracın həcmi 1933-cü ildə 4200 ton, 1934-cü ildə 6300 ton, 1935-ci ildə 9400 ton, 1936-cı ildə 14100 ton, 1937-ci ildə isə 21000 tona çatdırılmalı idi.

Komissiya tərəfindən satış qiyməti haqqında 1931-ci il gömrük məlumatları və 15 faiz azalma meyli nəzərə alınmaqla 1933-1937-ci illərdə ixrac edilən pambığın 27 mln. 500 min rubl dəyərində olacağı hesablanmışdı. Cənubi Qafqaz ərazisindən SSRİ-nin İranla tranzit daşımaları istiqamətdə aparılırdı: Culfa-Batum gömrük-sərhəd sahəsi(təqribən – 74 faiz) və Bakı gömrük-sərhəd sahəsi (36 faiz). Bakı gömrükxanasından keçərək üçüncü ölkələrə göndərilən İran mənşəli tranzit yüklərin həcmi bütövlükdə 1930-cu ilə nisbətən 1931-ci ildə 8,3 dəfə artmış, əksinə Avropadan İrana göndərilən tranzit yüklərin həcmi 2,6 dəfə azalmışdı. Yerli mütəxəssislər yaxın perspektivdə tranzit daşımaların təxmini həcmini müəyyən etmək üçün aşağıdakı iqtisadi məlumatların: a) İrandakı sovet təşkilatlarının tədarük və ixrac planlarının; b) İranın qonşu vilayətlərinin ixrac mallarının növləri və həcmi haqqında; c) ixraca ayrılan valyuta ehtiyatları və nəhayət Transiran dəmir yolu xəttinin vəziyyəti haqqında məlumatların təhlil edilməsini təklif edirdilər [57, 78-80].

Azərbaycandan İrana daşınan neft və neft məhsullarının həcmi ilbəil artmaqda idi. SSRİ-nin İrandakı Ticarət nümayəndəliyinin tərtib etdiyi cədvəldən aşkar olur ki, 1934-cü ilin yanvar-mart ayları ərzində qonşu ölkəyə 11523 ton, o cümlədən Gilan vilayətinə 6153 ton, Təbrizə 1395 ton, Məşhədə 1010 ton neft məhsulları göndərilmişdi. Bundan əlavə, Bakı, Astara və Culfa gömrükxanalarından keçməklə İrana 25148,3 ton həcmində müxtəlif təyinatlı mallar, o cümlədən 1230 ton pambıq parça, 56,7 ton pambıq sap, 16 ton lak və boyaq, 9,2 ton rezin ayaqqabı, 258,2 ton mətbəə kağızı, 11,6 ton tikiş maşınları 3330 ton sement, 500 ton kibrit, 30 ton tibbi ləvazimat və dərman, 18000 ton qənd və şəkər tozu və s. mallar göndərilmişdi [72, 5].

Azərbaycan SSR Ticarət Palatası gömrükxanalarla sıx təmasda işləyən təşkilatlardan biri idi. Palatanın əsas vəzifəsi xarici ticarət əlaqələrinin səmərəli qurulmasında xarici iqtisadi fəaliyyət iştirakçısı olan hüquqi və fiziki şəxslərə təşkilati-metodiki yardım etmək idi. Palatanın 1932-ci ildə təsdiq olunan və 14 maddədən ibarət olan Əsasnaməsində qeyd olunurdu ki, Palata ictimai təşkilat olub Azərbaycan SSR-in xarici ticarət maraqları çərçivəsində fəaliyyət göstərirdi. Xaricə mal çıxarmaq iqtidarında olan müəssisələrə kömək məqsədi ilə bir sıra təbliğat vasitələrindən geniş istifadə olunurdu. Məsələn, təbliğat xarakteri daşıyan aşağıdakı məzmunda şüarlar yazılırdı: *"Xarici ölkələrə mal ixracatı sosializm məmləkətinə lazımi maşınlar və təchizat verir!"; "Eksporta yardım özəyinin düzgün çalışması, eksport planının yerinə yetirilməsini təmin edir!"; "İctimaiyyəti eksport ətrafında səfərbər edəlim – beşillik planın dörd ildə yerinə yetirilməsini təmin edəlim!"; "Eksport malın keyfiyyətini yüksəltməklə valyuta gəlməsini artıralım – Sosialist Şuralar Cümhuriyyəti İttifaqının sənayeləşməsini tezləndirəlim!"; "Eksporta yardım özəyi olmayan heç bir kolxoz, sovxoz, kənd şurası qalmamalı!"* və s. Şüarlardan aşağıda *"Zaqafqaziya Xarici Ticarət Odası. 1932-ci il"* sözləri yer alırdı. Zaqafqaziya Xarici Ticarət Palatası Azərbaycan Ticarət Palatasına göndərdiyi 1932-ci il 14 iyul tarixli 2218 saylı məktubda Tiflis mətbəələrində türk əlifbasının iri ölçüdə şriftləri olmadığından xarici ticarət və ixrac mallarının istehsalının artırılmasına çağırış kimi səslənən şüarların nəşr edilməsinə köməklik göstərilməsi xahiş olunurdu [56, 64-67].

Azərbaycan KP(b) MK və Azərbaycan SSR XKS-nin *"İrandan daxil olan ixrac düyüsünün Bakıda yerləşdirilməsi haqqında"* 1936-cı il 4 noyabr tarixli qərarı xarici ticarət fəaliyyətini genişləndirməyə imkan yaradırdı. Bu məqsədlə, Bakı ticarət limanı və gömrükxana ərazisində yenidənqurma işlərinin aparılması yeni anbarların tikilməsi həyata keçirildi. Mülkiyyət növünə görə dövlətə və fiziki şəxslərə məxsus çəltik emal edən Dəyirmanlar işə salındı. Gömrük ərazisində emal rejimi altında gömrük əməliyyatlarının rəsmiləşdirilməsinə başlanıldı [73, 161].

1936-cı ildə Respublikanın 7 şəhərindəki (Bakı, Gəncə, Şəki, Zaqatala, Ucar, Xankəndi, Yelenendorf) 34 təşkilat və müəssisə Azərbaycan Ticarət Palatasının üzvü idi. Palatanın sədri A.Qulubəyovun imzaladığı siyahıdan görünür ki, "İttifaqnefteksport", "Azneftzavodları", "Leninneft", "Orconokidzeneft", "Stalinneft", "Əzizbəyovneft" "İttifaqneftticarət" kimi trestlərlə yanaşı, "Azərbalıq" tresti, "Texnoeksport", "İransovtrans", Şəki ipək kombinatı, Ucar biyan kökü zavodu kimi yerli müəssisələr xarici ticarət fəaliyyətinə qoşulmuşdu [53, 11].

Azərbaycan Ticarət Palatası 1937-ci ildə aşağıdakı tədbirlər həyata keçirməli idi:

*I. Xarici ticarət məsələləri*

*1. Azərbaycan SSR-dən ixrac edilən məhsulların keyfiyyətinin yüksəldilməsi məsələlərinə fabrik və zavod kollektivlərinin ictimai rəyini yönəltmək;*

*2. İxrac planlarının yerinə yetirilməsində Xarici Ticarət Nazirliyi orqanlarına ictimaiyyətin praktiki köməyini təşkil etmək, istehsalat yerlərində müvafiq müşavirələr və söhbətlər keçirmək, SSRİ-nin xarici ticarəti, ixracın əhəmiyyəti, xarici şirkətlərlə rəqabət, ixrac mallarına verilən keyfiyyət tələbləri və s. mövzularda məruzələr təqdim etmək;*

*3. Xarici ticarət məsələlərini əhatə edən (xarici ticarət təşkilatlar, staxanovçular, istehsalat qabaqcılları və zərbəçilərin işləri haqqında məqalələr, qeydlər və materiallar) aylıq bülleten nəşr etmək;*

*4. Ticarət limanının, anbar təsərrüfatının, idxal-ixrac mallarının mühafizəsi, dəmir yolu və dəniz daşımaları, İranla yük dövriyyəsini, tranzit məsələlərini, tarif səviyyələrini, malların Bakıya və Culfaya daşınma xərclərini daimi müşahidə etmək və öyrənmək. İqtisadi təhlil haqqında qeydləri respublikanın və ittifaqın müvafiq orqanlarına təqdim etmək;*

*5. Azərbaycan SSR və SSR İttifaqı təşkilatlarının liman təsərrüfatı, nəqliyyat, yük dövriyyəsi və tranzit məsələləri üzrə gördükləri tədbirlər haqqında geniş müşavirə və konfranslar keçirmək;*

*6. İran (başlıca olaraq), Türkiyə və Əfqanıstan iqtisadiyyatı, daxili bazar qiymətləri, əsaslı tikinti və s. haqqında məlumat bülleteni nəşr etmək;*

*7. İran iqtisadiyyatı haqqında, xüsusilə onun SSRİ-ni maraq dairəsində olan ixrac ehtiyatlarının təhlil olunduğu məqalə və monoqrafiyaların yazılması;*

*8. SSRİ-nin İrandakı ticarət nümayəndəsi və nümayəndəliyin məsul əməkdaşları Bakıda olarkən onların iştirakı ilə təsərrüfat işçilərinin respublikanın müşavirəsində informasiya xarakterli çıxışlarını təşkil etmək;*

*9. Azərbaycan və rus dillərində idxal-ixrac və tranzit yüklərin yığılıb-boşaldılması və mühafizəsi qaydaları haqqında bədii şəkildə plakat, kitabça, bildiriş və bukletlərin buraxılması;*

*10. Sovet və xarici ölkə limanlarının yük boşaldılması əməliyyatları və anbar təsərrüfatında mexanikləşdirmə işlərinin təşkilində ən qabaqcıl təcrübənin Bakı ticarət limanı və Xəzər Dəniz Gəmiçiliyində tətbiqinə yardımçı olmaq;*

*11. SSRİ-nin müvafiq təşkilatları ilə şərq ölkələri tacirləri arasında möhkəm iş birliyi və əlaqələrin yaradılmasına kömək etmək (sovet istehsalı olan malların, kənd təsərrüfatı maşınların və mühərriklərin nümayiş etdirilməsi, qarşılıqlı görüş və işgüzar söhbətlərin keçirilməsi);*

*12. Müxtəlif sahələrə aid (yüngül və yerli sənaye məhsulları, kənd təsərrüfatı maşınları, mühərriklər) xüsusi sərgilərin keçirilməsinə yardımçı olmaq;*

*13. Xarici ticarətlə məşğul olan təşkilatlara müxtəlif xarici dillərdə bədii plakat, kitabça və digər reklam materiallarının buraxılmasına kömək etmək;*

*14. Azərbaycan SSR-in direktiv və tənzimləyici orqanlarının tapşırığı ilə Azərbaycan Ticarət Palatasının fəaliyyət dairəsinə daxil olan xarici ticarət məsələlərinə aid bəzi iqtisadi məsələlərin işlənilib hazırlanması.*

*II. Daxili ticarət məsələləri*

*Daxili ticarəti idarə edən ticarət təşkilatlarına və tənzimləyici orqanlara aşağıdakı istiqamətlər üzrə tövsiyələr vermək:*

*a) keyfiyyətin artırılması;*

*b) malların çeşidinin öyrənilməsi, yaxşılaşdırılması və artırılmasına ictimai kömək;*

*c) istehlak tələbatı məsələlərinin işlənilib hazırlaması;*

*d) ticarət təşkilatlarına informasiya və reklam-tərtibat işlərinin təşkilində Palatanın reklam bürosu vasitəsi ilə yardım edilməsi* [73, 1-3].

1936-cı ildə Azərbaycanın ixrac ayrı-ayrı mal növləri üzrə SSRİ XXTK-nın Azərbaycan SSR üzrə Müvəkkili İdarəsindən Azərbaycan KP (b) MK-nın katibi M.C.Bağırov və XKS sədri H.Rəhmanova ünvanlanan məxfi məlumata görə, bütövlükdə xarici ölkələrə 853929 ton neft və neft məhsulları ixrac edilmişdi ki, bunun 821279 tonu Avropa ölkələrinin, 32650 tonu isə İranın payına düşürdü. Qərb ölkələrinə kürü, xalça, biyan kökü, balıq yapışqanı kimi valyuta tutumlu malların ixrac tapşırıqları artıqlaması ilə yerinə yetirilmişdi. Bakıdan ixrac olunan 3241 ton sementin əsas hissəsi Qərb ölkələrinə göndərilmişdi [61, 1; 75, 6-7].

İttifaq orqanları, o cümlədən "Soyuzneftеksport" (All-union Corporation for the Export of crude Petroleum and petroleum products) şirkəti Bakdan ixrac neftinin tərtib edilən qrafik əsasında müxtəlif istiqamətlər üzrə vaxtında daşınmasını ciddi nəzarət altında saxlayırdı. Şirkətin sədri Pevznerin SSRİ XXTK-nın Azərbaycan üzrə müvəkkili Avakyana (?!) və Gürcüstan müvəkkili Mirzəbekyana (?!) ünvanlandığı 1937-ci il 14 fevral tarixli məktubda neft ixracında yaranan problemin neft məhsullarının daşınmasında istifadə edilən iritutumlu çənlərin çatışmaması ilə izah edirdi. SSRİ XKS-nin sədr müavini V.Mejlaukun ağır metallurgiya komissarı S.Orconokidzeyə müraciətindən sonra bu məsələ həll olunmuş və Bakı neftinin ixracında artım təmin edilmişdi. Bunu 1938-ci ilin göstəriciləri əsasında tərtib edilmiş aşağıdakı cədvəldən müşahidə etmək olur:

Cədvəl 2.19

**1938-ci ildə Bakıdan ixrac edilən neft məhsulları haqqında**

| | İxrac etdiyi ünvan | plan | icra | plana görə faizlə |
|---|---|---|---|---|
| 1 | Batum | 200915 | 211003 | 105,02 |
| 2 | Leninqrad | 530 | 783 | 147,8 |
| 3 | Monqolustan | 400 | 15 | 3,7 |
| 4 | Leninakan-Türkiyə | 4837 | 4471 | 92,6 |
| 5 | İran | 43431 | 30022 | 69,13 |
| Cəmi: | | 250103 | 246294 | 98,5 |

Mənbə: ARDA, f. 1698, siy. 1, iş 20, v.2.

1938-ci ildə Azərbaycan SSR üzrə ixracın həcmi (neft məhsulları daxil edilmədən) 2206,1 min manat təşkil etmişdi. İxrac siyahısına daxil edilən 14 adda malların 11 növü üzrə plan göstəriciləri, o cümlədən qara kürünün ixracı nəzərdə tutulan göstəricidən 43,3 faiz çox mal, o cümlədən yeni toxunmuş xalça məmulatları 96,4 faiz, köhnə xalçalar 35,8 faiz çox göndərilmişdi. Cədvəl 2.19-dan aydın olur ki, Azərbaycanın ixrac neftinin 85 faizindən çoxu Batumda gömrük rəsmiləşdirilməsindən keçirdi.

Sovet-İran ticarət münasibətləri 1940-cı ilin martında imzalanan ticarət müqaviləsindən sonra daha da genişləndi. 1940-1941-ci illərdə İranın xarici ticarət dövriyyəsində SSRİ-nin payı kəskin surətdə artdı. İran iqtisadiyyatı ölkədə istehsal edilməyən məhsulların idxalına kəskin ehtiyacı var idi.

Qonşu ölkə böyük miqdarda pambıq və yun parçalar, qənd, çay, kimya məhsulları, maşın və mexanizmlər, nəqliyyat vasitələri və avtomobillər idxal edilirdi.

Təkcə 1939-1940-cı illərdə İran idxalının demək olar ki, yarısını təşkil etmişdi. 1940-cı ildə Tehran-Zəncan xəttinin tikintisinin başa çatdırılması ilə Tehranla Təbriz şəhərləri arasında dəmir yolu əlaqəsi yaradıldı. Beləliklə, Xəzər dənizində (Bakı-Ənzəli və Bakı-Rəşt) və quru yolla (Təbriz-Culfa) beynəlxalq yük daşımalarının artması və müvafiq olaraq Bakı və Culfa gömrükxanalarının xarici ticarət əməliyyatlarının həyata keçirilməsində əhəmiyyətini artırdı [189, 1941, № 6, 20-23].

Lakin Azərbaycan SSR-in öz təbii sərvətləri üzərində tam sahiblik hüququna malik olmaması, gömrük nəzarəti sahəsində yerli orqanların mərkəzi idarələrə tabeçiliyinin gücləndirilməsi bu əlaqələrin daha səmərəli təşkilinə mane olurdu.

## 2.3. Gömrükxanalar II Dünya müharibəsi illərində

1940-cı ildə Bakı-Culfa dəmiryolu xəttinin tikintisi başa çatdırıldı. 1941-ci ildə ümumi uzunluğu 125 km və 182 km olan Culfa-Mincivan və Osmanlı-Astara dəmir yolu xətlərinin istismara verilməsi ilə yük və sərnişin daşımaları artdı və gömrükxanaların fəaliyyəti daha da genişləndi. Hərbi rejimə keçidlə əlaqədar olaraq gömrük tənzimlənməsi qaydalarında da ciddi dəyişikliklər aparıldı.

Bakı limanının yük dövriyyəsi 1939-cu ildə 13480 min ton, 1940-cı ildə isə 9,1 faiz artaraq 14780 min ton olmuşdu. 1939-cu ildə 1375 yük və 944 sərnişin, 1940-cı ildə isə 1471 yük, 1134 sərnişin gəmisinə xidmət edilmişdi. Müvafiq olaraq 1939-cu ildə liman ərazisinə daxil olan 8336 ədəd, 1940-cı ildə 18011 ədəd dəmiryolu vaqonu gömrük nəzarətindən keçirilmişdi. Bakı limanda sərnişin daşınması 328 min nəfər olmuşdu. 1940-cı ildə İrana 158,8 min ton tranzit yük buraxılmışdı.

Lakin liman infrastrukturu işin həcminə uyğun deyildi. Yeni anbarların tikintisi aparılmırdı. İşçi qüvvəsinin, xüsusilə yükboşaldan fəhlələrin sayı artırılmalı idi. Limanın idarə aparatında çalışan 47 əməkdaşın cəmi 4 nəfərinin ali, 9 nəfərinin orta ixtisas təhsili var idi.

SSRİ XXTK-nın 18 mart 1941-ci il tarixli 47 saylı əmri ilə ölkə ərazisindən malların tranziti haqqında yeni qaydalar müəyyən edildi. Malların tranziti yalnız SSRİ ilə ticarət müqaviləsi olan və malların göndərildiyi ölkələrlə tranziti haqqında sazişi olan dövlətlərin yüklərinə şamil edilirdi.

İxracatçı şirkətin ərizəsində aşağıdakı məlumatlar göstərilməli idi: 1) malların yerləşdiyi ölkə və mənşəyi; 2) malların göndərilməsi nəzərdə tutulan ölkə; 3) ixracatçının adı və ünvanı; 4) alıcının adı və ünvanı; 5) malların keçirilməsi nəzərdə tutulan sovet sərhəd məntəqələrinin adı; 5) malların ətraflı təsviri (adı, nömrəsi, növü, yüklərin sayı, brutto çəkisi); 6) malların qiyməti (hesab qəbzləri əlavə edilir). Əmrdə göstərilən dəyişikliklər dövlət sərhədini tranzit keçən sərnişinlərin baqajlarına və beynəlxalq poçt bağlamalarına aid edilmirdi. Həmin əmrə olan əlavədə SSRİ-nin gömrük sərhədindən tranzitinə icazə verilməyən malların siyahısı verilmişdi. Sovet Gömrük Tarifi ilə ixracı qadağan edilən malların, döyüş sursatı və hərbi ləvazimatın, uçuş aparatları və onların hissələrinin, silah, döyüş sursatı və uçuş aparatlarının istehsalında istifadə edilən maşın və dəzgahların tranzitinə icazə verilmirdi.

İkinci Dünya müharibəsi ərəfəsində Bakı Liman Gömrükxanasının strukturuna "Gəmi-sərnişin", "Tranzit yüklər", "Qaçaqmalçılıqla mübarizə" və "Maliyyə-təsərrüfat" qrupları daxil idi. Gömrükxananın 1940-cı il martın 19-da təsdiq edilmiş Əsasnaməsində sənədlərin imzalanması, yazışmaların aparılması və daxil olan sənədlərin mühafizəsi ilə bağlı qaydalar, həmçinin

gömrük inspektorları və nəzarətçilərinin, baş mühasibin, mühasib və iqtisadçıların vəzifə funksiyaları göstərilmişdi [92, 31-41].

Cədvəl 2.20

**Bakı gömrükxanası və tabeçiliyində olan gömrük postlarının 1 avqust 1940-cı ilə aid ştat cədvəli və xərclər smetası (manatla)**

| S/s | Vəzifələrin adı | Ştat vahidi | Aylıq əmək haqqı | Cəmi aylıq əmək haqqı |
|---|---|---|---|---|
| **1.** | Bakı gömrükxanası üzrə, o cümlədən | 22 | - | 15753 |
| **2.** | Gömrükxana rəisi | 1 | 1300 | 1300 |
| **3.** | Rəis müavini | 1 | 1100 | 1100 |
| **4.** | Baş inspektor | 1 | 900 | 900 |
| **5.** | Baş inspektor | 1 | 900 | 900 |
| **6.** | AKP Bakı Komitəsinin müvəkkili | 1 | 1000 | 1000 |
| **7.** | Baş mühasib | 1 | 800 | 800 |
| **8.** | İnspektorlar | 5 | 700 | 3500 |
| **9.** | Nəzarətçilər | 7 | 600 | 4200 |
| **10.** | Sürücü | 1 | 453 | 453 |
| **11.** | Kuryer | 1 | 250 | 250 |
| | Gözətçi | 1 | 250 | 250 |
| 1. | **Həştərxan gömrük postu üzrə,** o cümlədən | | | |
| **2.** | Gömrük postunun rəisi | 1 | 700 | 700 |
| **1.** | **Astara gömrük postu üzrə, o cümlədən** | 1 | 700 | 700 |
| **2.** | Gömrük postunun rəisi | 2 | 950 | 950 |
| **1.** | **Biləsuvar gömrük postu üzrə:** | 1 | 700 | 700 |
| **2.** | Gömrük postunun rəisi | 1 | 250 | 250 |
| | Gözətçi | | | |
| | **Yekun** | **26** | **-** | **18453** |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy 2, iş 2, vər. 15.

SSRİ XXTK 1940-cı il 3 mart tarixli 124 saylı və Bakı Liman Gömrükxanasının 1940-cı il 10 avqust tarixli 93 saylı müvafiq əmrləri ilə avqustun 15-dən Biləsuvar gömrük postu ləğv edilmişdi [92, 110].

İkinci dünya müharibəsi ərəfəsində Bakı gömrükxanasının şəxsi heyəti cəmi 26 nəfər idi. 1941-ci ilin dövlət büdcəsində Bakı gömrükxanasının xərclər smetasında əmək haqqına 225830 manat, XXTK sistemində xidmət illərinə görə əlavələrə - 26520, sosial sığortaya görə - 11737, dəftərxana və təsərrüfat xərclərinə – 17600, ezamiyyət xərclərinə – 7200, avadanlıq

alınması və təmirinə, xüsusi geyim forması alınmasına - 2700, digər xərclərə və qaçaqmalçılıq hallarını aşkar edənlərə mükafat verilməsinə - 5700 manat vəsait yönəldilmişdi [75, 10,16].

Bakı gömrükxanasında gömrük gəlirləri və qaçaqmalçılıqla mübarizə haqqında statistik məlumatlarda göstərilir ki, 1940-cı ildə dövlət büdcəsinə müsadirə edilən qaçaq malların hərracda satışından 36574 manat, cərimələrin hesabına 11334 manat keçirilmişdi. Sərnişinlərin baqaj və əl yükündən cəmi 358 manat, normadan artıq daşınan yüklərə görə 1087 manat rüsum alınmışdı. Gömrük nəzarətindən gizli yolla keçirilən malların siyahısına yun və ipək parçalar, xəz, çay, xına, Fransa və İsveçrə istehsalı olan qol saatları, xarici və sovet valyutası, qiymətli metallardan hazırlanmış bəzək əşyaları və qızıl sikkələr daxil idi. 1940-cı ildə gömrük sərhədindən gizli keçirilməsinə cəhd edilən 600 baş iribuynuzlu mal-qara müsadirə edilmişdi [38, 43-44].



***Bakı gömrükxanası (1940-cı il)***

SSRİ XXTK-nin 1941-ci il 19 mart tarixli 48 saylı əmri ilə *"SSRİ ərazisindən xarici malların tranzit buraxılmasına görə yığımlar haqqında"* yeni qaydalar təsdiq edildi. Bundan sonra vergi və rüsumların həcmi yükün dəyərindən asılı olaraq aşağıdakı qaydada hesablanırdı: dəyəri 3 min manata qədər olan mallardan 20 manat; dəyəri 3 min manatdan 10 min manata qədər olan mallardan 30 manat; dəyəri 10 min manatdan 20 min manata qədər olan mallardan 40 manat; 20 min manatdan yuxarı dəyəri olan mallara görə dəyərinin 0,2 faizi qədər rüsum alınırdı. SSRİ XXTK-nın 1941-ci il 31 mart tarixli *"SSR İttifaqına malların ixracına icazələrin verilməsi qaydaları haqqında"* 61 saylı əmrinə görə xarici ticarət birlikləri ixrac mallarını SSRİ ərazisinə yalnız XXTK-nın İxrac İdarəsi və Şərq İdarəsinin müvafiq

formada tərtib edilmiş icazə sənədi əsasında daşıya bilərdi. Xüsusi formada tərtib edilən yol vəsiqəsi olmayan mallar gömrük məntəqəsindən buraxılmırdı [184, 1941, № 4, 42-43].

Azərbaycan ərazisindəki gömrükxanalar müharibənin ilk günlərindən hərbi vəziyyət şəraitinə keçirildi. Bakı, Astara və Culfa gömrükxanaları müharibə dövrünün yeni tələblərinə və xarici ticarət dövriyyəsinin artmasına uyğun olaraq nəzarət işinin həcmi xeyli artdı.

Müharibə şəraitində gömrükçülərdən böyük çeviklik və dəqiqlik tələb olunurdu. Müharibə dövründə xarici ticarət əməliyyatlarında yol verilən itkilərin qarşısının alınması, yüklərə görə gömrük rüsumlarının düzgün yığılması və gömrük statistikasının düzgün aparılması üçün gömrük nəzarəti aşağıdakı metodlarla həyata keçirilirdi: sənədlərin və məlumatların yoxlanılması; şifahi sorğunun aparılması; gömrük müşahidəsi; gömrük yoxlanışı; gömrük baxışı; malların uyğunluğunun yoxlanılması; gömrük nəzarəti altında olan malların dəqiq qeydiyyatının və hesabat sənədlərinin aparılması.

Faşist Almaniyası ilə aparılan müharibənin ilk günlərində qərb sərhədlərində bir sıra gömrükxanalar zəbt olunub dağıdıldı və yüzlərlə gömrük işçisi həlak oldu. Müharibənin lap əvvəlində gömrük işçilərinin 90 faizi döyüşən orduya çağırılmışdı. Müharibə dövründə ittifaq üzrə gömrük işinin çox böyük bir hissəsi Azərbaycanda yerləşən gömrükxana və gömrük postlarını üzərinə düşürdü. Azərbaycanın gömrük işçiləri sıralarının azalmasına baxmayaraq qarşılarına qoyulmuş tələblərin öhdəsindən gəlməyə çalışırdılar.

Azərbaycanın neft sənayesi, ağır və yüngül sənayesi ilə yanaşı, mövcud nəqliyyat qovşağı, dəmiryolu və Xəzər dəniz nəqliyyatı ilə yanaşı gömrük xidmətinin də mühüm rolu oldu. Müharibə illərində təsərrüfatın hərbi şəraitə uyğun yenidən qurulmasında gömrükxanalar fəal iştirak edirdi. Qonşu ölkələrdən quru və dəniz yolu ilə daşınan müxtəlif təyinatlı yüklər Azərbaycan ərazisindəki gömrükxanalarda yoxlanılırdı.

Öz sıralarının yarısından çoxunu itirmiş olan Bakı, Culfa gömrükxanaları və Astara gömrük postu əməkdaşları Qırmızı Xaç və Aypara Cəmiyyətini xətti ilə ölkəyə gətirilən böyük həcmdə yükləri gömrük baxışından vaxtında keçirməklə bərabər, sərhəddə ayıq-sayıq dayanmışdı.

Faşist Almaniyası SSRİ-nin cənub sərhədi ilə qonşu ölkələrə tranzitlə hərbi təyinatlı mallar göndərməyə cəhd edirdi. Məsələn, 1941-ci il yanvarın 6-da Bakı gömrükxanası əməkdaşları tərəfindən İrana tranzitlə gedən yüklərdə 20 minə yaxın tüfəng və pulemyot lülələri, habelə atıcı silahların lülələrində kanalların emalı üçün istifadə olunan iki ədəd xüsusi dəzgah aşkar olunaraq müsadirə edilmişdi. Fevralın 7-də isə yenə İrana daşınan və gömrük bəyannaməsində sənaye respiratoru kimi göstərilən yükün içərisində hərbi təyinatlı əleyhqazlar tapılmışdı.



***Bakı limanı, 1942-ci il***

1942-ci ildən lend-liz üzrə İranın limanlarına müttəfiq dövlətlər tərəfindən Fars körfəzi vasitəsilə böyük miqdarda hərbi mallar, o cümlədən silah-sursat, tanklar, partlayıcı və kimyəvi maddələr, qara və əlvan metallar, ərzaq malları daxil olmağa başladı. SSRİ-yə gətirilən strateji malların bir hissəsi İran körfəzindən keçməklə, İranın Xürrəmşəhr və Bəndər-Şahpur limanlarından avtomobillərlə Culfa gömrükxanasına, digər hissəsi isə İranın Xəzər dənizindəki limanlarına daşınırdı. Bu yüklər Xəzər dənizində Azərbaycana məxsus "Kaspflot" və "Kasptanker" gəmiçilik şirkətləri tərəfindən daşınır və Bakı gömrükxanasında qeydə alınırdı. 1941-1944-cü illərdə həmin şirkətlərin gəmiləri ilə 2682 min ton yük daşınmışdı. Əgər bu göstərici 1942-ci ildə cəmi 236 min ton olmuşdusa, müharibənin sonuna yaxın, 1944-cü ildə yük daşımaları 6,2 dəfə artmışdı. Azərbaycanın ticarət gəmilərindən "Dağıstan", "Bakı Soveti", "Osetiya", "Spartak", "Kuybışev" kimi bütövlükdə 30 gəmi gömrük nəzarətindən keçdikdən sonra İran limanlarına sərnişin və yük daşıyırdı. 1941-1945-ci illərdə Xəzərdəki neft daşıyan tankerlərlə 830 min nəfər və 105 min ton hərbi təyinatlı yük daşınmışdı [175, 53-56, 336; 224, 217].

1942-1943-cü illərdə sovet gömrükxanalarında 3665 ədəd dəniz nəqliyyat vasitəsi, 1386 təyyarə, 121601 ədəd yük maşını, 3133 ədəd parovoz, 71391 ədəd vaqon, 19631 baş yük heyvanı, 5686 ədəd yük arabası və s. yoxlanmışdı. Bu qədər nəqliyyat vasitələri və yüklər cəmi 6 gömrükxanadan - Arxangelsk, Murmansk, Vladivostok, Bakı, Culfa və Qaudandan keçirdi. Göründüyü kimi, fəaliyyətdə olan 6 gömrükxananın 2-si Azərbaycan ərazisində yerləşirdi.

Müharibənin ilk illərində sərhəddən buraxılan yük və nəqliyyat vasitələri haqqında məlumatlar bizə Bakı və Culfa gömrükxanalarının sovet gömrük sistemində mühüm əhəmiyyət daşıdığını sübut edir. Culfaya lend-liz xətti ilə ilk karvanı 50 ədəd Dodge markalı yük maşını ilə 1942-ci ilin 23 fevralında Buşerdən Zaqros aşırımını aşmaqla İsfahan-Miyanə-Təbriz şose yolu ilə (təqribən 2 min km.) hərəkət etmişdi. Buradan isə qadın sürücülərdən təşkil edilən batalyon hərbi sursat, silah və tibbi vasitələr yüklənmiş maşınları Şimalı Qafqaza - Orconokidzeyə daşıyırdı. Cəbhənin tələbatını ödəmək üçün dəniz yolu ilə Azərbaycan neftinin şimala daşınması işi xeyli sürətləndirildi. Əgər 1913-cü ildə bu yolla 5061 min ton, 1920-ci ildə 2652 min ton, 1932-ci ildə 8204 min ton neft və neft məhsulları daşınmışdısa, 1941-ci ildə bu rəqəm 13333 min tona çatmışdı. Bütövlükdə, 1941-1943-cü illər ərzində neft daşıyan tankerlərlə 34343 min ton neft və neft məhsulları daşınıb [188, 153; 78, 85].

SSRİ Plan Komitəsi Mərkəzi Statistika idarəsi sənaye şöbəsinin rəisi Yejovun imza etdiyi məktubda Azərbaycandan 1941-1942-ci illərdə 68,8 min ton polad və prokat, 39280,2 min ton neft və neft məhsulları və 4041,8 ton maye qaz göndərilməsi haqqında məlumat verilir [78, 43].

Bakıdan neft daşımalarının həcminin artırılmasına mane olan digər səbəblər də mövcud idi. Dənizin səviyyəsinin aşağı düşməsi, akvatoriyanın lillə dolması Bakı-Həştərxan reydində iri və orta tonnajlı gəmilərin istismar edilməsində çətinlik yaradırdı. Volqada naviqasiyanın dayanması, Mahaç-Qala və Krasnovodsk limanlarının texniki imkanlarının uyğunsuzluğu, neft çənlərinin az tutumlu olması, xüsusilə qış mövsümündə Xəzər Dəniz Gəmiçiliyinin neft tankerlərinin işinə mane olurdu. Vəziyyətdən çıxmaq üçün neft məhsullarının bir hissəsini qəbul edən Abşeron limanında yenidənqurma işləri aparıldı, sahildə nasoslar qoyuldu və körpülərə neft kəmərləri çəkildi.

SSRİ rəhbərliyi bununla kifayətlənməyib, neft daşımalarının həcminin daha da artırılması üçün tədbirlər görülməsini tələb edirdi. Azərbaycan KP(b) MK və Azərbaycan SSR XKŞ-nin *"Xəzərdəki neft daşıyan gəmilərin 1944-cü ilin naviqasiyasına hazırlığı haqqında"* 1944-cü il 1 fevral tarixli qərarında "Kasptanker"ə 23 neft daşıyan tankerin və 8 quru yük gəmisinin vaxtından əvvəl təmir edilərək istismara verilməsi tapşırığı verilmişdi.

Azərbaycan SSR XKŞ sədrinin müavini İslamzadə və MK katibi P.Çeplakovun imzaladığı qərarda gəmi təmiri zavodunun bütün işçi qüvvəsinin kazarma şəraitinə keçirilməsi, gündə 3 dəfə isti yemək və xüsusi geyim dəsti ilə təmin edilməsi, əmək haqqının ödənilməsində akkord sisteminin tətbiqi nəzərdə tutulurdu. "Kasptanker"in kazarma şəraitinə keçirilən fəhlə və mühəndislərinə əlavə olaraq 24 ton müxtəlif konservlər, 48 ton düyü, 6 ton yağ və 6 ton quru meyvə ayrılması üçün SSRİ XKS-nin sədr müavini A.Mikoyana müraciət edilmişdi [79, 1-2].



***İran ərazisindən Culfa gömrükxanasına irəliləyən avtomobil karvanı (1943-cü il)***

1942-ci ildən başlayaraq Bakı limanına, o cümlədən gömrük anbarlarına İrandan, həmçinin Donbas və Şimali Qafqazdan külli miqdarda müxtəlif təyinatlı yüklər daxil olurdu. Gömrük baxışından keçirilən yüklər göndərildiyi ünvana görə aşağıdakı qrupa bölünürdü: 1) İrandan daxil olan xarici humanitar yüklər; 2) daxili təchizatla bağlı yüklər (taxıl, meyvə-tərəvəz, ət və s.); 3) dəmir yolu ilə şimaldan daxil olan xarici humanitar yüklər və strateji mallar); 4) Donbas, Cənub-Şərq, Moskva və Şimali Qafqazdan daxil olan yüklər və mülki əhali. 1942-ci ilin iyul-avqust aylarında dəmir yolu ilə daxil olan 1952 vaqon gömrük baxışından keçirilmişdi ki, bunlardan 273-ü döyüş sursatı, 142-si hərbi əmlak, 299-u aviasiya əmlakı, 89-u təyyarə, 174-ü təyyarə təmiri emalatxanası, 254-ü Aviasiya məktəbinin avadanlıqları və s. mallar yüklənmiş vaqonlar olmuşdu [52, 11-12, 25-27 arx.].

Xəzər Dəniz Gəmiçiliyi 1943-cü ilin mayında Bakı-İran-Bakı istiqamətində 26,4 min ton yük daşımışdı. Lakin Bakı limanında idxal yüklərinin "ilişib" qalması, boş vaqonların perrona çatdırılmasında gecikmələr gömrükxananın işini çətinləşdirirdi. SSRİ XKS yanında Dövlət Plan Komissiyasının Bakıdakı xüsusi nümayəndəsi xəbərdarlıq edirdi ki, yüklənmiş qatarlar vaxtında yola salınmır. Belə ki, 1 iyun vəziyyətinə görə Bakı limanında 30 min ton idxal malları "ilişib" qalmışdı. Limandakı 1417 vaqondan (22,7 min ton) 869-una metal borular, 152-sinə dəmiryolu relsləri, 176-sına isə düyü yüklənmişdi. İran limanlarında isə gəmilərə yük

vurulması əməliyyatlarının təşkilində vaxt itkisinə yol verilirdi. Təkcə may ayında 1152 saat boş dayanmalara görə 10 min ton az yük vurulmuşdu. SSRİ Xarici Ticarət Komissarlığı "İransovtrans" nəqliyyat birliyinin İran limanlarında qəbul etdiyi yüklər gömrük sənədlərində son ünvanı göstərilmədən birbaşa Bakıya yola salınırdı. Digər tərəfdən, texniki sertifikatları olmayan metal yüklər Bakı gömrükxanasında yenidən texniki ekspertizadan keçirilirdi. Bakı limanına SSRİ Xarici Ticarət Komissarlığının İran və sovet limanları arasında bütün daşımalara nəzarət edən xüsusi müvəkkil təyin edilmişdi [78, 15-16].

SSRİ Xarici Ticarət Komissarlığı A.Mikoyanın 1943-cü il 27 iyun tarixli məktubunda SSRİ Plan Komitəsinin Bakıdakı müvəkkili P.Paşininə aşağıdakı məxfi məlumatları çatdırılmışdı:

*1. "Mahaç-Qalaya idxal yüklərinin daşınmasının artırılması haqqında: iyun ayında Mahaç-Qalaya 9 min tondan əlavə olaraq 15 min ton yük daşınması üçün sifariş verilmiş, iyul ayında isə İrandan Mahaç-Qalaya 28 min ton yük daşınması planlaşdırılmışdır; 2. İdxal mallarının daşınması üçün Bakıya boş vaqonların verilməsinin sürətləndirilməsi haqqında: Xarici Ticarət Komissarlığı Cənubi Qafqaz dəmir yolunda boş qatarların formalaşması üçün vaxtında tədbirlər görmüş, iyun ayının cəmi 20 günü ərzində Bakıdan 25603 ton idxal yüklənmişdir. Yol. A.İ.Mikoyan Cənubi Qafqaz dəmir yolunun rəisi yol. Kiknadzeyə teleqramla bildirmişdir ki, o, Təbrizdən ixrac-idxal malları yaxşı daşındığı kimi Bakıdan da daşınmasına xüsusi diqqət yetirsin; 3. "İransovtrans"la "Narkomflot" arasında 1942-ci il sazişi haqqında: 1 may 1943-cü ildən İran Xəzər dənizindəki limanlarında gəmilərin yüklənməsi "Narkomflot"un 157 saylı əmrinə əsasən həyata keçirilsin; 4. Bakıya gətirilən ünvansız idxal yükləri haqqında: Xalq komissarının sərəncamı ilə "Sənaye xammalı idxalı" ümumittifaq birliyinin sədr müavini yol. Stolyarov idxal edilən metalların növlərə ayrılaraq müəyyən edilən ünvanlara göndərilməsinin təşkili üçün Bakıya ezam edilir; 5. İran limanlarında nəqliyyat əməliyyatlarının "İransovtrans"dan alınaraq "Narkomflot"a verilməsi haqqında: bu məsələ bir neçə dəfə müzakirə edilmişdir. "Narkomflot" hesab edir ki, onun işçi heyəti indiki vaxtda bu işin öhdəsindən gələ bilməz, buna görə də hələlik İran limanlarında əməliyyatları (yükboşaltma) "İransovtrans" həyata keçirsin; 6. Yüklərin texniki sənədlərlə müşayiət olunması: Ticarət nümayəndəliyi və "İransovtrans" bu məsələni həll edə bilmir, çünki İrandan yüklərin daşınması xüsusiyyətlərindən asılı olaraq yüklər bir neçə istiqamətdə göndərilir. Amerikadan gələn yüklərin hara göndəriləcəyini öncədən müəyyən etmək olmur. Buna baxmayaraq, Xarici Ticarət Komissarlığı yüklərin təftiş edilməsi və növlərə ayrılması işlərini sadələşdirmək üçün sovet limanlarına mütəxəssisləri ezam etmişdir; 7. Xarici Ticarət Komissarlığının Xəzər üzrə Müvəkkili haqqında: xalq komissarının sərəncamı ilə "İransovtrans" ümu-*

*mittifaq birliyinin sədri yol. Klensov komissarlığın müvəkkili kimi Bakıya ezam edilir, XXTK-nin İran və sovet limanlarındakı bütün nəqliyyat müəssisələrinin idarə heyəti onun tabeçiliyinə keçir. SSRİ XXTK Nəqliyyat idarəsinin rəisi: Borisov. 27.06.1943"* [77, 24-27; 184, 1944, № 6, c. 28-29].

Cədvəl 2.21

**Xəzər dənizində duru yanacaq nəqlinin dinamikası (1913-1943-cü illər)**

| s/s | illər | yükün çəkisi (min ton) | 1913-cü ilə nisbətən faizlə |
|---|---|---|---|
| 1. | 1913 | 5061 | 100 |
| 2. | 1920 | 2652 | 52,4 |
| 3. | 1927 | 4631 | 91,5 |
| 4. | 1-ci beşillikdə (1928-1932) | 33489 | - |
| 5. | 1932 | 8204 | 162,1 |
| 6. | 2-ci beşillikdə (1933-1937) | 57870 | - |
| 7. | 1937 | 13006 | 257 |
| 8. | 1938 | 13555 | 268 |
| 9. | 1939 | 13290 | 262,5 |
| 10. | 1940 | 13979 | 276,2 |
| 11. | 1941 | 13333 | 263,4 |
| 12. | 1942 | 8282 | 163,6 |
| 13. | 3-cü beşillikdə (1938-1942 | 62439 | - |
| 14. | 1943 | 12728 | 251,5 |

Mənbə: ARDA, f. 2511, siy 1, iş 57, v. 85.

Yuxarıdakı cədvəldən göründüyü kimi, 1913-1943-cü illərdə Xəzər dənizində neftinin daşımaları 2,5 dəfədən çox artmışdı. 1927-1943-cü illərdə gəmilərlə üst-üstə 171 mln. 157 min ton duru yanacaq daşınmışdı.

SSRİ XKS yanında Dövlət Ştat Komissiyası 25 dekabr 1943-cü il tarixli qərarı ilə Bakı gömrükxanasının ştat cədvəlinə 15700 manat əmək haqqı fondu ilə 25 ştat vahidi əlavə edildi, o cümlədən gömrük postunun rəisi, inspektor (5 nəfər), nəzarətçi (17 nəfər) mühasib və katibə-makinaçı. SSRİ XTK 12 avqust 1944-cü ildə Bakı gömrükxanasının şəxsi heyətinin sayını 10 ştat vahidi artırdı.

Bundan başqa, fəaliyyət dairəsinin və işin həcminin artması nəzərə alınaraq Baş Gömrük idarəsinin əmri ilə Arxangelsk və Murmansk gömrükxanalarının 6 nəfər əməkdaşı da Bakı gömrükxanasına köçürülmüşdü [106, 11-12, 20].

Dəniz yolu ilə yük və sərnişin daşımaları, xüsusilə də duru yanacaq daşımalarının artması gömrük nəzarətinin həcminə təsir göstərməyə bilməzdi.

Bakı gömrükxanasının tabeçiliyində olan postlarda təkcə 1943-cü ilin son rübündə gömrük nəzarətindən 245 halda qanunsuz aparılmasına cəhd edilən 82733 manat dəyərində qaçaqmal aşkar edilmişdi.

Cədvəl 2. 22-dən göründüyü kimi, 1943-cü ildə neft daşıyan gəmilərin sayı 1913-cü ilə nisbətən 41 ədəd azalsa da, yük tutumu 1,6 dəfə artmışdı.

1944-cü ilin birinci rübündə 243 fakt üzrə aşkar edilən 149446 manat dəyərində qaçaqmal 6 halda (52 min manat) Bakı gömrük postunun, 88 halda Astara gömrük postunun (26727 manat) və 151 halda (70719 manat) isə Bakı gömrükxanasının yük-gəmi və poçt-sərnişin şöbələrinin payına düşürdü. 1944-cü ildə qaçaqmalçılıq faktlarına əsasən 576 cinayət işinə baxılmışdı [90, 39, 43].

Cədvəl 2.22

**Xəzər dəniz gəmiçiliyinin duru yanacaq daşıyan gəmilərinin istismar göstəricilərinin dinamikası (1913-1943-cü illər)**

| **İllər** | **1913** | **1920** | **1927** | **1932** | **1937** | **1938** | **1939** | **1940** | **1941** | **1942** | **1943** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Gəmilərin sayı | 113 | 68 | 52 | 67 | 65 | 67 | 69 | 69 | 74 | 77 | 72 |
| 2.Yük tutumu (min ton) | 135 | 117 | 86 | 129 | 184 | 190 | 188 | 206 | 219 | 221 | 218 |

Mənbə: ARDA, f. 2511, siy. 1, iş 57, v. 86.

Baş Gömrük İdarəsindən ünvanlanan 1944-cü il 26 mart tarixli 478 saylı teleqramla xaricdən göndərilən humanitar yüklərin qeydiyyatı üçün Bakı gömrükxanasının tabeçiliyində Rostov-Don gömrük postunun açılması haqqında göstəriş verildi. Bakı gömrükxanası rəisinin 10 aprel 1944-cü il tarixli 39 saylı əmri ilə vəzifəyə təyin edilən gömrük postunun rəisi və nəzarətçi Rostova ezam edildi.

Bakı limanında keçirilən gömrük baxışında "Budyonnı", "Volodarski", "Sovet Gürcüstanı", "Sekstant", "Həştərxan", "Karl Marks" və "Türkmənistan" gəmilərinin komanda və texniki heyəti tərəfindən gömrük hüquqpozmaları aşkar edilmişdi.

Gömrükxana rəisinin 1944-cü il 13 aprel tarixli əmri ilə aşkar edilən malların dəyərindən asılı olaraq, qaçaqmalçılığa qarşı mübarizədə fərqlənən 17 nəfər gömrük əməkdaşına 150-750 manat həcmində mükafat verilmişdi.

Təkcə Astara gömrükxanasında 1941-ci ildə 27, 1942-ci ildə 107, 1943-cü ildə 155, 1944-cü ildə 35 qaçaqmalçılıq faktı üzrə işə baxılmışdı.

Astara və Culfa gömrükxanalarında avtomobillərə gömrük baxışı həyata keçirilirdi. Cənub sərhədindən ölkəmizə qeyri-leqal surətdə əsasən düyü, quru meyvə, təsərrüfat sabunu, xına, ət konservləri, quru süd keçirilməsi halları geniş yayılmışdı.

SSRİ Gömrük Məcəlləsinin 164 “a” və 167-ci maddələrinə əsasən gömrük nəzarətindən gizlədilən mallar müsadirə edilirdi. Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin matrosları İrandan aldıqları Fransa istehsalı qol saatlarını Bakının “qara bazar”ında satırdılar. Bakı gömrükxanasında açılan cinayət tərkibli təhqiqat materiallarında erməni millətinə məxsus qaçaqmalçı şəxslərin adlarına daha çox rast gəlinir [39, 1-16].

1944-cü il 1 yanvar məlumatına əsasən, SSRİ-də cəmi 31 gömrükxana və 56 gömrük postu fəaliyyət göstərirdi. Ölkə üzrə 1944-cü ilin xarici ticarət dövriyyəsi (silah və sursatdan başqa) 5792493 tona çatmışdı. 1945-ci il isə gömrük xidmətinin fəaliyyətində ən fəal illərdən biri kimi qeyd edilir. Müharibənin başa çatdığı ildə isə 20 milyondan çox sovet və xarici ölkə vətəndaşı gömrük-buraxılış məntəqələrindən keçmişdi. Gömrük nəzarətində işin həcminin artması Bakı və Culfa gömrükxanasına təsirsiz qalmamışdı. İran ərazisindən geri qaytarılan sovet hərbi kontingenti, maşın-texnika və digər təyinatlı yüklər sərhəd-buraxılış məntəqələrində “gərginlik” yaradırdı.

Cədvəl 2.23

**Bakı gömrükxanası və tabeçiliyində olan gömrük postlarının 1 iyul 1944-cü ilə aid ştat cədvəli və xərclər smetası (manatla)**

| S/s | Vəzifələrin adı | Ştat vahidi | Aylıq əmək haqqı | Cəmi aylıq əmək haqqı |
|---|---|---|---|---|
| | **Bakı gömrükxanası üzrə, o cümlədən** | 77 | - | 63330 |
| 1. | Gömrükxana rəisi | 1 | 2000 | 2000 |
| 2. | Rəis müavini | 1 | 1700 | 1700 |
| 3. | Yük şöbəsinin rəisi, baş inspektor | 1 | 1400 | 1400 |
| 4. | Gəmi şöbəsinin rəisi, baş inspektor | 1 | 1400 | 1400 |
| 5. | Poçt-sərnişin şöbəsinin rəisi, baş inspektor | 1 | 1400 | 1400 |
| 6. | Baş inspektorlar | 2 | 1200 | 2400 |
| 7. | Qaçaqmalçılıqla mübarizə üzrə müvəkkil, baş inspektor | 1 | 1300 | 1300 |
| 8. | Baş mühasib | 1 | 1100 | 1100 |
| 9. | Mühasib | 1 | 800 | 800 |

| | | | | |
|---|---|---|---|---|
| 10. | İnspektorlar | 6 | 1100 | 6600 |
| 11. | İnspektorlar | 19 | 1000 | 19000 |
| 12. | Nəzarətçilər | 38 | 600 | 22800 |
| 13. | Makinaçı | 1 | 600 | 600 |
| 14. | Sürücü | 1 | 330 | 330 |
| 15. | Kuryer | 1 | 250 | 250 |
| 16. | Gözətçi | 1 | 250 | 250 |
| | **Astara gömrük postu üzrə, o cümlədən** | 2 | - | 2600 |
| 1. | Gömrük postunun rəisi | 1 | 1500 | 1500 |
| 2. | İnspektor | 1 | 1100 | 1100 |
| | **Kirovabad (Gəncə) gömrük postu üzrə:** | | | |
| 1. | Gömrük postunun rəisi, baş inspektor | 1 | 1300 | 1300 |
| | **Yekun** | **80** | **-** | **67230** |

Mənbə: ARDA Bakı filialı, f.126, siy. 2, iş 6, v. 44.

1944-cü il 1 iyul vəziyyətinə görə Bakı gömrükxanası və tabeçiliyində olan Astara və Kirovabad (Gəncə) gömrük postlarının şəxsi heyətinin strukturunda gömrük inspektorları və nəzarətçilərinin payı 80 faiz təşkil edirdi. Gömrükxana 1936-cı il dekabrın 25-dən 1946-cı il martın 3-nə qədər SSRİ XXTK Baş gömrük idarəsinin tərkibində olmuşdu. 1946-cı il 1 yanvar vəziyyətinə görə, gömrükxananın strukturunda bəzi dəyişikliklər həyata keçirilmiş, əlavə iki şöbə təşkil edilmişdi: Yük və Poçt-sərnişin şöbələri. 1945-ci ildə Bakı gömrükxanasının tərkibində əlavə olaraq iki gömrük postu: Mahaç-Qala, Hacıqabul və Bakı (Abşeron) postları təşkil olunmuşdu. Lakin SSRİ XKS yanında Dövlət ştat komissiyasının 2 iyul 1945-ci ildə təsdiq etdiyi yeni ştat cədvəlinə görə Bakı gömrükxanasının şəxsi heyətinin sayı iki dəfə ixtisar edilmişdi. Baş Gömrük idarəsinin rəisi D.Aleksandrovun imzaladığı sənəddə 1 iyul 1945-ci ildən Bakı gömrükxanası üzrə inspektorların sayı 18 nəfər, nəzarətçilərin sayı 23 nəfər ixtisar edildiyi göstərilirdi. Aparılan ixtisarlardan sonra əməkdaşların milli mənsubiyyətində tarazlıq yenə də "qorunub saxlanmışdı". Belə ki, vəzifədə saxlanılan 41 nəfər əməkdaşın 5 nəfəri azərbaycanlı, 5 nəfəri isə erməni millətinə mənsub idi [106, 16-17].

Beləliklə, arxiv sənədləri bir daha təsdiq edir ki, II dünya müharibəsi illərində Azərbaycan ərazisində yerləşən sovet gömrükxanalarının müstəsna rolu olmuşdur.

## *2.4. Müharibədən sonrakı illərdə gömrük əməliyyatlarının zəifləməsi*

Müharibədən sonrakı dövr sovet gömrükxanaları üçün başlıca vəzifə xalq təsərrüfatının bərpası işinə xidmət etmək idi. Azərbaycan SSR XKŞ-nin 22 yanvar 1946-cı il 28 saylı qərarı ilə Bakı limanında işçi qüvvəsinin gücləndirilməsi üçün respublikanın şəhər və kənd rayonlarından, o cümlədən Zəngilan, Astara, Yardımlı, Sabirabad, Quba, Zaqatala, Göyçay, Şamaxı, Ağdam və Lerikdən 500 nəfər yükboşaldan işçinin cəlb edilməsi nəzərdə tutulurdu. Qərarda Bakı limanı rəhbərliyinə tapşırılırdı ki, işçilərə zəruri maddi-məişət şəraiti yaradılması və mədəni xidmətin təşkil edilməsi üçün tədbirlər görsün [51, 1].

Düzdür, Yüklərin sifarişçi təşkilatlara vaxtında çatdırılması üçün gömrük baxışının sürətləndirilməsi tələb olunurdu. Ordu sıralarından tərxis olunmuş zabitlər və sıravi heyət gömrük xidmətində işə cəlb olunurdu. Ali məktəbləri bitirən müxtəlif xarici dil mütəxəssisləri gömrükxanalarda işləməyə göndərilirdi. Bununla bərabər, müharibədən sonra ittifaq üzrə olduğu kimi Bakı gömrükxanasının şəxsi heyətinin sayı qeyri-peşəkar əməkdaşların hesabına tədricən ixtisar edilirdi.

Aşağıdakı cədvəldən görünür ki, Bakı gömrükxanası və onun tabeçiliyində olan Həştərxan, Astara, Gəncə və Mahaç-Qala gömrük postlarının şəxsi heyəti əvvəlki illərə nisbətən ixtisar edilmişdi və bu proses ilbəil təkrar ixtisarlarla müşahidə olunurdu. 1949-cu ildə şəxsi heyəti 17 nəfərə qədər ixtisar edilmiş 1-ci dərəcəli Bakı gömrükxanasının tabeliyində Astara və Həştərxan gömrük postları (hər birində 1 nəfər əməkdaş olmaqla) fəaliyyət saxlanılmış, Gəncə postu isə ləğv edilmişdi.

Lakin 1950-ci ildə SSRİ Nazirlər Soveti nəzdində Dövlət Ştat komissiyasının qərarı ilə Həştərxan gömrük postunun rəisi vəzifəsi ləğv edildi. Ştat cədvəlində əməkdaşlarının sayı azaldılaraq 9 nəfərə çatdırıldı.

1951-ci ilin avqustundan SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə ilk dəfə gömrük işçilərinə fərdi rütbələrin verilməsinə başlanıldı.

1955-ci ildə Bakı gömrükxanasında struktur dəyişikliyi aparıldı və “Gəmiçilik şöbəsi” ilə “Yük şöbəsi” birləşdirilərək “Gəmi-yük şöbəsi”, “Müsadirə şöbəsi” isə “Qaçaqmalçılığa qarşı mübarizə qrupu” adlandırıldı. Gömrükxana 1955-ci ilin sonuna qədər SSRİ Nazirlər Soveti Xarici Ticarət Nazirliyi Baş gömrük idarəsinin, 1956-cı ildən 27 yanvar 1989-cu ilə qədər SSRİ Nazirlər Soveti yanında Gömrük Nəzarəti Komitəsi Baş gömrük idarəsinin strukturuna daxil idi. Həmin müddətdə Gömrükxananın istər strukturunda, istərsə də vəzifə və funksiyalarının məzmununda bir neçə dəfə dəyişikliklər aparıldı [107, 99-101; 1-8, 1].

Cədvəl 2.24

**Bakı gömrükxanası və tabeçiliyində olan gömrük postlarının ştat cədvəli və xərclər smetası (1946-cı il, manatla)**

| S/s | Vəzifələrin adı | Ştat vahidi | Aylıq əmək haqqı | Cəmi aylıq əmək haqqı (əlavələrlə) |
|---|---|---|---|---|
| | **Bakı gömrükxanası üzrə, o cümlədən** | | | |
| **1.** | Gömrükxana rəisi | 27 | - | 30570 |
| **2.** | Rəis müavini | 1 | 2000 | 2500 |
| **3.** | Yük şöbəsinin rəisi | 1 | 1800 | 1980 |
| **4.** | Gəmi şöbəsinin rəisi | 1 | 1600 | 1600 |
| **5.** | Sərnişin və poçt şöbəsinin rəisi | 1 | 1500 | 1920 |
| **6.** | Baş inspektor | 1 | 1600 | 1600 |
| **7.** | Baş mühasib | 1 | 1600 | 1600 |
| **8.** | İnspektorlar | 1 | 1600 | 1400 |
| **9.** | Nəzarətçilər | 4 | 1400 | 5100 |
| **10.** | Sürücü | 12 | 1200 | 11070 |
| **11.** | Kuryer | 2 | 900 | 840 |
| **12.** | Gözətçi | 1 | 420 | 250 |
| | **Həştərxan gömrük postu üzrə:** | 1 | | 250 |
| **13.** | Gömrük postunun rəisi | 1 | 250 | 1650 |
| | **Astara gömrük postu üzrə, o cümlədən** | | | |
| **14.** | Gömrük postunun rəisi | 1 | 250 | 1650 |
| **15.** | İnspektor | 1 | 1500 | 1265 |
| | **Gəncə gömrük postu üzrə:** | | | |
| **16.** | Gömrük postunun rəisi | 1 | 1500 | 1650 |
| | **Bakı gömrük postu üzrə:** | | | |
| **17.** | Gömrük postunun rəisi | 1 | 1100 | 1650 |
| | **Mahaç-Qala gömrük postu:** | | | |
| **18** | Gömrük postunun rəisi | 1 | 1500 | 1650 |
| | **Yekun** | **33** | | **39935** |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 2, iş 8, v.31.

SSRİ Nazirlər Sovetinin 1961-ci il 11 avqust tarixli 722 saylı qərarı ilə 1961-ci il oktyabrın 1-dən yeni Gömrük tarifi qüvvəyə mindi. Yeni tarifdə göstərilirdi ki, minimal gömrük rüsumları yalnız sovet mallarına güzəştli rejim tətbiq edilən ölkələrdən idxal edilən mallara, maksimal gömrük

rüsumu isə həmin rejimi sovet mallarına tətbiq etməyən ölkələrə şamil olunur. Bu tarifdə dünya ticarət qaydalarında baş verən dəyişikliklər və sosialist sistemi ölkələri ilə iqtisadi əlaqələrdə bir çox güzəştlər nəzərdə tutulurdu.

Sovet dövləti gömrük işi sahəsində beynəlxalq əlaqələrini əsasən sosializm sistemi ölkələri ilə qururdu. Əməkdaşlığın əsas formasını sosialist ölkələrinin gömrük orqanları rəhbərlərinin mütəmadi olaraq keçirilən konfransları idi. Bu konfranslarda gömrük rəsmiləşdirilməsi və baxışının sadələşdirilməsi, gömrük nəzarətinin daha da təkmilləşdirilməsi məsələləri müzakirə edilirdi.

Birinci konfrans Şərqi Avropanın sosialist ölkələrinin gömrük idarələri nümayəndələrinin iştirakı ilə 1957-ci ildə Varşavada keçirilmişdi. Sonrakı konfranslara bütün sosialist ölkələrinin nümayəndələri dəvət olunurdu. Varşava konfransında tərəflər xidmət səviyyəsini yaxşılaşdırmaq məqsədi ilə gömrük qeydiyyatının sərnişin qatarları bilavasitə hərəkətdə olarkən keçirilməsi haqqında razılığa gəlmişdilər. İri dəmir yolu stansiyalarında qonşu ölkələrin gömrük əməkdaşlarının birgə fəaliyyətinin həyata keçirilməsi və bir neçə adda vahid gömrük qeydiyyatı sənədlərinin hazırlanması qərara alınmışdı. Bundan əlavə, gömrük və valyuta əməliyyatları qaydalarının pozulması, qaçaqmalçılıqla birgə mübarizə aparılması məsələlərinə baxılmışdı.

İkinci konfrans 1958-ci ilin martında Praqada keçirildi. Dunay çayında gəmilərin gömrük rəsmiləşdirilməsində qismən dəyişikliklər edilməsi haqqında müzakirələr aparılmış, qərar layihəsinin hazırlanması Macarıstan nümayəndələrinin də iştirakı ilə ÇSSR-nin gömrük idarəsinə tapşırılmışdı. Gömrük nəzarəti qaydalarının unifikasiya edilməsi haqqındakı təkliflər Dunayətrafı dövlətlərlə razılaşdırılmış və 1961-ci ilin yanvarında Dunay komissiyasının XIX sessiyasında qəbul edilmişdi. Şərqi Almaniyanın gömrük idarəsi tərəfindən gömrük işi sahəsində çoxtərəfli əməkdaşlıq və qarşılıqlı yardım məsələləri haqqında sazişin layihəsi hazırlanmışdı.

Bu layihə 1959-cu ilin oktyabrında gömrük idarələri rəhbərlərinin Berlində keçirilən sayca üçüncü konfransında bəyənilmişdi. Konfransda turistlərin gömrük qeydiyyatının sadələşdirilməsi, sosialist ölkələrinə avtomobil nəqliyyatı ilə daşınan yüklərin rəsmiləşdirilməsinin vahid sisteminin yaradılması, sərnişin vaqonlarında və vaqon-restoranlarda aparılan ərzaq ehtiyatlarının gömrük rüsumuna cəlb edilməməsi kimi təkliflər müzakirə edilmişdi. Baş Gömrük İdarəsi konfransda gəmilərə gömrük baxışının sadələşdirilməsi məqsədi ilə hazırlanmış və sovet gömrükxanalarında tətbiq edilən "Gəmi kapitanının məlumatı" adlı sənədlə tanış etmişdi. Konfransda Çexoslovakiya gömrükçülərinin təşəbbüsü ilə "Sosialist gömrük nəzarəti" adlı dövri jurnalın dərc edilməsi qərara alındı. Sosialist birliyi ölkələrinin gömrük təşkilatları arasında ikitərəfli əməkdaşlığın inkişafına xüsusi əhə-

miyyət verilirdi. 1958-ci ildə gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Çexoslovakiya və Macarıstan, 1960-cı ildə isə Polşa və Rumıniya ilə ikitərəfli əməkdaşlıq sazişləri imzalanmışdı. Razılaşmaların əsas məzmunu demək olar ki, eyni idi: əsas məqsəd iştirakçı ölkələrin bu sahədəki qanunvericiliyini gözləməklə nəqliyyat vasitələri və yüklərin, sərnişinlərin və əl yüklərinin, valyuta və digər qiymətli əşyaların sərhəddən buraxılışını sürətləndirmək üçün tədbirlərin hazırlanması.

1961-ci ilin sentyabrında Moskvada keçirilən dördüncü konfransın qərarlarının gömrük nəzarətinin təkmilləşdirilməsi sahəsində mühüm rolu oldu. Gömrük nəzarəti qaydalarında dəyişikliklər edilməsi haqqında bundan öncə təqdim edilən saziş layihələri bəyənildi və xarici ticarət nazirlikləri tərəfindən imzalanması qərara alındı. Digər dövlətlərin gömrük orqanları da bu razılaşmalara qoşula bilərdi. Bolqarıstan tərəfi təklif etmişdi ki, dəmir yollarında yük daşımaları üzrə Beynəlxalq Sazişə qoşulan sosialist ölkələri öz aralarında dəmir yolunda gömrük sənədlərinin tətbiqini ləğv etsinlər. SSRİ Baş Gömrük İdarəsi sovet-macar sərhədində Macarıstan gömrük idarəsi ilə yüklərə birtərəfli nəzarət edilməsində toplanan müsbət təcrübəyə əsaslanaraq, digər sosialist ölkələri ilə ticarət əməliyyatlarında bu qaydanın tətbiq edilməsi təklif etdi. Təklifin mahiyyəti bundan ibarət idi ki, gömrük yoxlamasından keçirilən və bir ölkədən digərinə göndərilən yüklər təkrar yoxlamaya cəlb edilməsin [207, 1961, №12, 24-27].

1962-ci il iyunun 5-də Berlində sosialist ölkələrinin gömrük xidmətinin rəhbərləri gömrük işi sahəsində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi haqqında saziş imzaladılar. Berlin sazişinə görə, QİYŞ üzv ölkələrinin gömrük orqanları bundan sonra yük və sərnişin daşımalarında gömrük baxışının və gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi tədbirlərinin həyata keçirilməsi haqqında öhdəlik qəbul etdilər [216, 5 февраля, 2005].

SSRİ-nin yeni 1964-cü il mayın 5-də qüvvəyə minən Gömrük Məcəlləsində üç gömrük rejimi tətbiq olunurdu: ixrac, idxal və tranzit rejimi. Gömrük işi iki istiqamətdə: 1) Baş Gömrük İdarəsi və 2) gömrükxana və gömrük postları vasitəsilə həyata keçirilirdi. Xarici ticarət üzərində dövlət inhisarının mühafizə edilməsi gömrükxanaların əsas vəzifəsi olaraq qalırdı. SSRİ Nazirlər Sovetinin 1964-cü il 21 dekabr tarixli 1021 saylı qərarı ilə 1965-ci il yanvarın 1-dən başlayaraq inkişaf etməkdə olan Asiya, Afrika və Latın Amerikası ölkələrindən idxal edilən mallara gömrük rüsumu ləğv edildi [213, 69-84].

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1964-cü il 5 may tarixli qərarı ilə SSR İttifaqının Gömrük Məcəlləsi təsdiq edildi. Məcəllə "Gömrük İdarəsinin təşkili", "Gömrük əməliyyatları" və "Gömrük qaydalarının pozulması və qaçaqmalçılığa görə məsuliyyət" adlı 3 bölmədən, 10 fəsil və 120 maddədən ibarət idi. Məcəllənin 1-ci maddəsində göstərilirdi ki, SSRİ ərazisində gömrük işinin idarə edilməsi Xarici Ticarət Nazirliyi və onun

tabeçiliyində olan Baş Gömrük İdarəsinin səlahiyyətindədir. 4-cü maddəyə əsasən Baş Gömrük İdarəsinin səlahiyyətlərinə daxil edilmişdi: a) yerli gömrük müəssisələrinin idarə edilməsi, gömrük işi və qanunvericiliyi və qaydalarının gömrük müəssisələri tərəfindən yerinə yetirilməsinə nəzarət və onlara müvafiq göstərişlərin verilməsi; b) gömrük siyasəti məsələlərinin işlənilib hazırlanması; c) beynəlxalq saziş layihələrinin, o cümlədən bu sənədlərin gömrük işinə aid hissəsinin hazırlanmasında iştirak; d) gömrük tarifinin layihəsinin hazırlanması və gömrük tarifinin tətbiqi ilə bağlı məsələlərin həlli; ç) qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirlərinin hazırlanması; e) gömrük müəssisələrinin qəbul etdiyi qərarlardan və gömrükxanaların vəzifəli şəxslərinin hərəkətləri haqqında şikayətlərə baxılması, həmçinin nəzarət qaydasında yerli gömrük müəssisələrinin qərarlarının yoxlanılması.

SSRİ-nin 1964-cü il Gömrük Məcəlləsinin 1-ci fəslində gömrük nəzarətinin ümumi əsasları müəyyən edilmişdi. 2-ci fəsil su nəqliyyatı ilə daşımaların, 3-cü fəsil dəmir yolu və avtomobil nəqliyyatı, 4-cü fəsil hava nəqliyyatı, 5-ci fəsil ölkə ərazisində yüklərin bir gömrükxanadan digərinə və tranzit daşınan yüklərin gömrük nəzarətinə, 6-cı fəsil yüklərə gömrük baxışı keçirilməsi və buraxılışına, 7-ci fəsil yüklərin mühafizəsi və satışına, 8-ci fəsil isə gömrük yığımlarının hüquqi tənzimlənməsi məsələlərini əhatə edirdi. Məcəllənin mühüm bir hissəsini gömrük qaydalarının pozulması və qaçaqmalçılıq cəhdlərinə görə məsuliyyəti müəyyən edən qaydalar təşkil edirdi. 96-cı maddədə gömrükxananın rəisinə bu hallarda cərimə təyin etmək hüququ verilirdi. Gömrük qaydalarını pozan vətəndaşlara tətbiq edilən cərimənin həcmi 10 manat, vəzifəli şəxslərə isə 50 manat, qaçaqmalçılıq hallarında isə ən yuxarı cərimənin həcmi müvafiq olaraq vətəndaşlara 50 manat, vəzifəli şəxslər isə 100 manatdan artıq olmamalı idi. Qaçaq malın aşkar edildiyi şəxs əgər əşyanın qaçaq mal olması haqqında məlumatı yoxdursa, bu hal onun qaçaqmalçılıq hərəkəti kimi qiymətləndirilmir və cərimə tətbiq olunmurdu. Qaçaqmalçılıq hallarının qarşısına sədd çəkmək üçün Xarici Ticarət Nazirliyinə səlahiyyət verilirdi ki, gömrükxana əməkdaşlarının iştirakı ilə, Rabitə Nazirliyi ilə razılaşdırmaqla ölkənin ayrı-ayrı rayonlarında xaricdən göndərilən poçt bağlamalarının yoxlanılmasını həyata keçirsin [193, 6-10; 199, 14-16].

Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının tabeliyində olan sənaye müəssisələri xarici ölkələrə 1956-cı ildə 393, 1957-ci ildə 553 sifariş üzrə müxtəlif mallar ixrac etmişdi. 1958-ci ildə dünyanın 22 ölkəsinə üzərində Azərbaycan XTŞ markası olan müxtəlif növ məhsul göndərilmişdi. Həmin beşillikdə XTŞ-nın müxtəlif sahələrinə rəhbərlik edən idarələri, maşınqayırma, kimya mədən-filiz, metallurgiya, tikinti materialları, balıq, yüngül və ərzaq, habelə pambıqtəmizləmə sənayesi, pambıq tədarükü idarələri xarici ölkələrə 120 adda məhsulları, o cümlədən qazıma və neftçıxarma

avadanlığı, müxtəlif cihazlar, elektrik mühərrikləri, səyyar elektrik stansiyaları, müxtəlif borular, diyircəkli çarxlar, sement, kimya məhsulları, dərmanlar, balıq, pambıq və s. göndərirdi [161, 1969, 15 fevral].

Müharibədən sonrakı dövrdə respublika müəssisələrinə avadanlıq və məlumat üçün xaricdən verilən sifarişlər ildən-ilə çoxalırdı. Yerinə yetirilən sifarişlərin xeyli hissəsi elektrotexnika, cihazqayırma, maşınqayırma, metallurgiya və kimya sənayesi müəssisələrinin payına düşür.

1950-1960-cı illərdə Azərbaycan SSR Sovet İttifaqının xarici ölkələrlə iqtisadi və texniki əməkdaşlığında fəal iştirak edirdi. Belə ki, 1950-60-cı illərdə 50-yə qədər ölkəyə Azərbaycan nefti, 32 ölkəyə kimya məhsulları, 30-dan çox ölkəyə elektrotexnika və cihazqayırma avadanlığı göndərirdi Bakı neftçiləri həm də Albaniya, Əfqanıstan, BƏR, Suriya, İraq, Qvineya, Pakistan, Mali, Həbəşistan və Əlcəzairdə neft-qaz yataqlarının axtarışı və istismarında yaxından iştirak etmişdi. 1962-ci ildə SSRİ-nin xarici ölkələrə satdığı neftin 62, sürtgü yağlarının 71 faizini Azərbaycanın neft sənayesi verirdi. 1965-ci ildə Azərbaycan neft və neft məhsullarını 50 ölkəyə ixrac edirdi. Həmin dövrdə ixracın strukturunda neft məhsulları 65 faiz təşkil etmişdi [160, 7; 203, 54-55].

Sovet gömrük sistemində yeni qaydaların tətbiqi ilə Bakı gömrükxanasının da fəaliyyətində "canlanma" yarandı. 1966-cı ilin ştat cədvəlində əməkdaşların say tərkibində heç bir dəyişiklik baş verməmişdi. Bunu 1967 və 1968-ci illərdə Bakı gömrükxanasında qeydə alınan nəqliyyat vasitələri və yüklər haqqında məlumatın müqayisəli təhlili sübut edir. Belə ki, idxal mallarının həcmi sabit qalsa da, qeydə alınan ixrac mallarının həcmi 14 faiz artmışdı.

Cədvəl 2.25

**1967 və 1968-ci illərdə SSRİ-nin dövlət sərhədindən keçən və Bakı gömrükxanasında qeydə alınan nəqliyyat vasitələri və yüklər haqqında məlumat**

| S/s | Nəqliyyat növləri və yüklər | SSRİ-dən | | SSRİ-yə | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|
| | **İllər** | **1967** | **1968** | **1967** | **1968** | **1967** | **1968** |
| 1 | Bütün yüklər (tonla) o cümlədən, | 278521 | 322714 | 106757 | 106741 | 385278 | 429456 |
| | dəniz nəqliyyatı ilə | 278521 | 316178 | 106757 | 106741 | 385278 | 423080 |
| | avtomobillə | - | 6376 | - | - | - | 6376 |
| 2 | Nəqliyyat vasitələrinin sayı | 342 | 1277 | 340 | 1177 | 665 | 2454 |
| | o cümlədən, dəniz gəmiləri | 342 | 407 | 340 | 410 | 665 | 816 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | yük avtomobilləri | | 822 | | 727 | | 1549 |
| | minik avtomobilləri | ... | 41 | ... | 29 | ... | 70 |
| | avtobuslar | - | 7 | - | 3 | | 10 |
| | təyyarələr (xarici ölkə) | - | - | - | 8 | - | 8 |

Hesablanıb: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 52.

Cədvəldən göründüyü kimi, 1968-ci ildə Bakı gömrükxanasında 429,4 min ton idxal-ixrac yükləri gömrük rəsmiləşdirilməsindən keçirilmişdi: bunun 25 faizini ixrac malları təşkil etmişdi. Bir ildə 816 gəmi, 1549 yük avtomobili gömrük baxışından keçirilmişdi.

1960-cı illərdə respublikamızın sənaye və kənd təsərrüfatı sahələri üzrə ixrac tutumlu mallarının istehsalında mütləq rəqəmlərində artım müşahidə olunsa da, əslində bu göstəricilər respublikanın iqtisadi imkanlarından çox aşağı səviyyədə idi. Bu əlaqələr hər halda dünya iqtisadiyyatına qovuşmağa imkan verə biləcək səviyyədə deyildi. Əvvəllər olduğu kimi, xarici iqtisadi əlaqələrin mühüm məsələləri bir qayda olaraq, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin birgə qərarları, həmçinin SSRİ Xarici ticarət nazirliyinin xidməti istifadə üçün nəzərdə tutulan hüquqi aktları ilə həll edilirdi. SSRİ-nin xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimlənməsinə ikinci dərəcəli məsələ kimi baxılırdı. 1960-cı illərin sovet xarici ticarət və gömrük qanunvericiliyinin təhlili göstərir ki, iqtisadiyyatın bu sahəsinin normal fəaliyyət göstərməsi üçün hərtərəfli hüquqi-normativ baza hələ də yaradılmamışdı. Sovet respublikalarında idxal-ixrac əməliyyatlarının səmərəliliyi dövlətin xarici ticarətdən əldə etdiyi ümumi gəlirin səviyyəsi ilə ölçülürdü. Bu zaman əsas diqqət təkcə ümumi pul gəlirlərinin artmasına deyil, həmçinin xarici ticarətin ölkənin sosial-iqtisadi inkişafına necə təsir etməsinə, idxal və ixrac edilən məhsulların sosial əhəmiyyətinə verilirdi. Müxtəlif malların ixracının səmərəlilik göstəricisi yerli istehsalçılardan alınan ixrac mallarına sərf edilən maliyyə vəsaiti ilə (manatla), həmin malların xarici bazarda dollarla satış qiyməti arasındakı fərqi müqayisə etməklə təyin edilirdi. Eyni zamanda, ixrac mallarının strateji əhəmiyyətli, az tapılan olması və başqa cəhətlər də nəzərə alınırdı. Aztapılan mallar, bir qayda olaraq, ixrac olunmurdu və ya ixrac kvotası dövlət planında məhdudlaşdırılırdı. Bütövlükdə, həmin dövrün xarici ticarət əlaqələrinin planlı surətdə nizamlanmasına birmənalı qiymət vermək çətindir. Lakin qeyd etmək lazımdır ki, ictimai maraqların üstün tutulması, çox zaman kağız üzərində qalsa da belə, bu siyasətin yeganə müsbət cəhəti idi. Dövlətin idxal və ixrac planları hazırlanarkən, birinci növbədə bu və ya başqa bir xarici ticarət iştirakçısının kommersiya maraqları deyil, həmin məhsulun ölkə iqtisadiyyatının inkişafında əhəmiyyəti nəzərə alınırdı. Sovet idxalının

strukturunda müasir texnika, dərmanlar, məişət elektronikası əsas yer tuturdu. Daxili istehsalın az-çox ödəyə bildiyi kütləvi tələbat mallarının idxal həcmi kəskin surətdə ixtisar edilirdi. İxrac mallarının əsas hissəsini isə xammal və enerji daşıyıcıları, o cümlədən daxili bazarın tələbatını artıqlaması ilə ödəyən yerli mallar təşkil edirdi.

# III FƏSİL. AZƏRBAYCAN SSR-in XARİCİ İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİ GÖMRÜK İŞİ MÜSTƏVİSİNDƏ (1969-1985-ci illər)

## *3.1. Respublikanın xarici iqtisadi-ticarət əlaqələrində irəliləyişlər*

Beynəlxalq münasibətlərin inkişafında, xalqlar arasında qarşılıqlı etimadın və anlaşmanın yaranmasında xarici iqtisadi əlaqələrin mühüm rolu vardır. Beynəlxalq inteqrasiya olmadan, onun imkanlarından geniş surətdə istifadə etmədən heç bir cəmiyyətdə tərəqqi mümkün olmaz və təbii ki, heç bir ölkə yalnız öz qüvvəsi ilə ona lazım olan maddi nemətlərin hamısını istehsal edə bilməz. Azərbaycanın 70 il ərzində tərkibində olduğu SSRİ-də xarici iqtisadi əlaqələrin bütün formalarının həyata keçirilməsi istisnasız olaraq dövlətin səlahiyyətində idi. İqtisadi stimulları inkar edən qeyri-bazar təsərrüfatı və sərt inhisarçılıq şəraitində milli respublikaların real tələbatları nəzərə alınmırdı.

Əslində Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin maddi əsasını təşkil edən amillər: əlverişli coğrafi mövqe, zəngin strateji xammal ehtiyatları, əmək ehtiyatları, iqtisadi və elmi-texniki potensialı fəal xarici iqtisadi əlaqələr qurmağa imkan versə də, respublikamız bu imkanlardan real surətdə istifadə edə bilmirdi. Sovet xarici ticarəti bir müttəfiq respublikanın (o cümlədən Azərbaycanın) maddi sərvətlərinin digərlərinin mənafeyini və tələbatını ödəmək üçün daşınmasına (bir çox hallarda dəyər-dəyməzinə) xidmət edirdi. Azərbaycan SSRİ Konstitusiyasında suveren hesab olunub beynəlxalq hüququn subyekti sayılsa da, respublikamızın xarici iqtisadi əməkdaşlıq sahəsində müstəqil konsepsiyasının işlənilib hazırlanmasına ehtiyac olmamışdı. SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalar kimi Azərbaycana da müstəqil xarici iqtisadi əlaqələr yaratmaq imkanı verilmirdi. Azərbaycan digər müttəfiq respublika və ya iqtisadi regionlar kimi xarici iqtisadi əlaqələrdə ittifaq dövləti və onun səlahiyyətli orqanları tərəfindən imzalanmış müqavilə və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsində iştirak edirdi.

Sovet dövləti xarici ticarət əməliyyatlarında yeritdiyi inhisarçılıq siyasətini bu məqsədlə yaradılmış xüsusi orqanlar - Xarici ticarət nazirliyi və idxal-ixrac birlikləri, beynəlxalq maliyyə hesablaşmalarını isə Xarici

iqtisadi əlaqələr Bankı vasitəsi ilə həyata keçirirdi. Sovet ixracatının zəif struktura malik olması iqtisadi inkişafı ləngidən əsas amillərdən biri idi. Məlum olduğu kimi, Azərbaycanın iqtisadi əlaqələrinin əsasında digər müttəfiq respublikalarla əməkdaşlıq dururdu. Müttəfiq respublikalarla ticarət dövriyyəsində ixracın həcmi ənənəvi olaraq Azərbaycanın ziyanına idxaldan çox olurdu.

SSRİ-nin vahid xalq təsərrüfatı kompleksi çərçivəsində, digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da birinci növbədə yerli imkanlara uyğun sahələr inkişaf etdirilirdi. "Ümumittifaq əmək bölgüsü" deyilən anlayışa görə, Azərbaycanın müttəfiq respublikalarla iqtisadi əlaqələrində neft-kimya, elektrotexnika, radiotexnika, neft avadanlıqları və maşınları, neftayırma məhsulları və bəzi kənd təsərrüfatı məhsulları ənənəvi xarakter daşıyırdı. Azərbaycanın müttəfiq respublikalarla və xarici ölkələrlə iqtisadi əlaqələrində bu sənaye sahələri mühüm yer tuturdu. İxrac mallarının çeşidinin artırılmasına dövlət səviyyəsində bir o qədər səy göstərilmirdi. İqtisadiyyatın bir sıra sahələrində istehsal və ixrac potensialından əldə edilən büdcə gəlirlərinin böyük bir hissəsi ümumittifaq ehtiyaclarının ödənilməsinə yönəldilirdi.

Sovet dövlətinin xarici ölkələrlə apardığı ticarətin strategiyasında isə ixrac malları da daxil olmaqla, məhsul istehsalı və bölgüsünün bəzi parametrləri əsas götürülürdü. İxrac mallarının satışı dövlət qiymətqoyma orqanları tərəfindən daxili bazar üçün təyin edilən qiymətlərlə həyata keçirilirdi. Buna görə də bu qiymətlər dünya bazarındakı qiymətlərdən fərqlənirdi: ya dəfələrlə az, ya da çox olurdu. Məsələn, neftin, qazın və bir çox mineral xammalların daxili bazardakı qiymətləri xarici bazardakı qiymətlərdən xeyli ucuz olsa da, elə bu qiymətlərlə də istehsalçılarla (məsələn, Azneftlə) haqq-hesab aparılırdı. İxrac mallarından əldə edilən gəlir mərkəzi dövlət büdcəsinə daxil olurdu. Əks halda, əgər xaricə ixrac olunan bəzi malların daxili bazar qiymətləri dünya qiymətlərindən yuxarı olurdusa, müəssisələrə dəymiş zərər dövlət büdcəsindən ödənilirdi. Belə bir şəraitdə xarici iqtisadi fəaliyyətdə iqtisadi metodların rolu məhdud idi.

Azərbaycan SSR-in sosial-iqtisadi inkişafın bütün istiqamətləri üzrə geriliyin hökm sürdüyü 1960-cı illərdə respublikamızın beynəlxalq iqtisadi əlaqələrinin zəif inkişafının obyektiv və subyektiv səbəbləri var idi. Sözsüz ki, bütövlükdə respublika iqtisadiyyatında, o cümlədən sənayenin ənənəvi və aparıcı sahələrində hökm sürən uzunmüddətli gerilik, istehsal prosesində yeni avadanlıq və texnologiyaların zəif tətbiq edilməsi dövlət sifarişlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə mane olurdu. Digər tərəfdən, xarici iqtisadi fəaliyyətin tamamilə Moskvanın, yəni ittifaq nazirlikləri və təşkilatlarının səlahiyyətində idi və bu əlaqələr birbaşa mərkəzdən planlaşdırılırdı. Xarici ticarətlə məşğul olan birlik və təşkilatların dünya bazarında baş verən dəyişikliklərə uyğunlaşmasına və iqtisadi maraqlara uyğun

çevik qərarlar qəbul etməsinə imkan verilmirdi. Buna görə də çox vaxt xarici iqtisadi əlaqələrin subyektləri olan istehsal müəssisələri bu əlaqələrin daha səmərəli qurulmasına bir o qədər maraq göstərmirdi. Əslində beynəlxalq standartlara uyğun valyuta tutumlu məhsulların istehsalı başlı-başına buraxılmışdı. İxrac edilən bir çox məhsulların aşağı keyfiyyətdə olması haqlı narahatlıq doğururdu. Düzdür, 1969-cu ildə xarici ticarət birliklərinin sifarişi ilə Respublikanın 70 müəssisəsi dünyanın 60 ölkəsinə müxtəlif adda məhsul ixrac etmişdi. İxrac məhsullarının həcmi 133,7 mln. manat olsa da, dövlət planında nəzərdə tutulan göstəricilər yerinə yetirilməmişdi. 1969-cu ilin birinci yarısında Respublika üzrə xarici bazarlara 2756,9 min manatlıq ixrac malları az göndərilmişdi. Bu sahədə ən aşağı göstəricilər Yüngül sənaye Nazirliyinin müəssisələrinə məxsus olmuşdu. Həmin il xarici ölkələrə 3258 min manat həcmində neft məhsulları, o cümlədən 318822 ton dizel yanacağı, 61030 ton gəmi mazutu, 84064 ton dizel və 312,8 ton təyyarə mühərriki yağı ("MK-22"), 814,4 min manatlıq neft maşınqayırma avadanlığı, 457, 2 min manatlıq kimya sənayesi məhsulları, 519 min manatlıq 3092 ton metal borular müqavilədə nəzərdə tutulduğundan az göndərilmişdi [117, 46-47; 158, 37-38].

1970-1980-ci illərdə Azərbaycan SSR-in xarici ölkələrlə iqtisadi əlaqələri yeni forma və məzmun kəsb etməyə başladı. Beynəlxalq əməkdaşlığın əsas formalarını xarici ticarət, xarici ölkələrin ərazisində tikinti işlərinin aparılması sahəsində fəaliyyət, beynəlxalq yük daşımaları, beynəlxalq yarmarka və sərgilərdə iştirak, mütəxəssis mübadiləsi və beynəlxalq turizm və birbaşa iqtisadi əlaqələr təşkil edirdi.

Tarixi həqiqət budur ki, Heydər Əliyev Azərbaycanın öz təbii sərvətləri və strateji xammal mənbələrinə söykənən passiv iqtisadi siyasətin deyil, bütün iqtisadi resursların vahid məqsədə xidmət etməsinin, elm və texnologiya tutumlu sahələrin hərtərəfli inkişafını nəzərdə tutan, fəal və uzaq perspektivə hesablanan iqtisadi siyasətin tərəfdarı olmuşdur. Kommunist ideologiyasının və sosialist idarə sisteminin hökm sürdüyü bir cəmiyyətdə Heydər Əliyevin qətiyyətli mövqeyi, işə peşəkar münasibəti respublikanın xarici iqtisadi əlaqələrinin malik olduğu iqtisadi resurslara uyğun reallaşması üçün geniş meydan açırdı. Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər) xarici ölkələrlə ticarət iqtisadi əlaqələrin ümumi mənzərəsini düzgün qiymətləndirir və bu əlaqələrin ən səmərəli forma və metodlardan istifadə etməyi tövsiyə edirdi. Heydər Əliyev Mərkəzi Komitənin o dövrdə keçirilən plenumları və büro yığıncaqlarında, partiya-sovet və təsərrüfat fəallarının müşavirələrində ayrı-ayrı sənaye müəssisələrinin ixrac potensialının artırılmasına cavabdeh olan nazirlik, komitə və baş idarə rəhbərlərini işlərində əsaslı dönüş yaratmağa çağırırdı.

1977-ci il SSRİ Konstitusiyasının qəbulundan sonra, gömrük işini tənzimləyən hüquqi sənədlərə yenidən baxıldı, gömrük qaydalarında bəzi dəyişikliklər edildi. Məsələn, SSRİ-nin dövlət sərhədinin keçən sərnişinlərin yüklərinə gömrük nəzarəti qaydaları bir qədər sadələşdirildi. 70-ci illərin sonu – 80-ci illərdə sovet gömrük qanunvericiliyində qəbul edilən bir sıra hüquqi aktlar və qaydalar əslində valyuta və qiymətli metalların qaçaqmalçılığı ilə mübarizədə gömrük nəzarətinin səmərəsini artırmaq məqsədi daşıyırdı.

Sovet gömrük rejiminin sərt şəraitində müttəfiq respublikanın xarici bazara daha geniş xarici bazara çıxışının təmin edilməsi həyati zərurət olmaqla bərabər, yaxın və uzaq perspektivə hesablanan düşünülmüş təşkilati-inzibati tədbirlərin və iqtisadi stimullaşdırmanın həyata keçirilməsini tələb edirdi. Tarixi inkişafın obyektiv nəticəsi olaraq milli respublikaların xarici iqtisadi-ticarət əlaqələrinin, o cümlədən qərb ölkələri ilə əlaqələrinin genişlənməsi ilə müşahidə olunurdu. Bir sıra müttəfiq respublikaların rəhbərləri müxtəlif ölkələrə gedən nümayəndə heyətlərinə rəhbərlik etməyə, təsərrüfat xarakterli müqavilələr imzalamağa başlamışdı. İqtisadi əməkdaşlığın təkmilləşdirilməsi üçün görülən tədbirlər sırasında xarici iqtisadi əlaqələrin inkişafına dair Respublika hökumətinin qəbul etdiyi qərarların mühüm əhəmiyyəti olmuşdur. Eyni zamanda bu proses bir tərəfdən beynəlxalq gərginliyin zəifləməsi və sovet xarici siyasətində "yumşalma" meyllərinin güclənməsi, digər tərəfdən isə, xarici ticarət sahəsində respublikalara qismən də olsa müstəqillik verilməsi və ilə bağlı idi. Azərbaycanın xarici siyasət fəaliyyətinin mühüm istiqamətlərini aşağıdakılar təşkil edirdi:

- xarici iqtisadi-ticarət fəaliyyətinin respublikanın iqtisadi imkanlarına və tələbatına uyğunlaşdırılması;
- iqtisadiyyatın strukturunda ixrac yönümlü istehsal sahələrinin xüsusi çəkisinin və ixrac malların rəqabət qabiliyyətinin artırılması;
- xarici iqtisadi-ticarət əlaqələrində idarəçiliyin yenidən qurulması, müəssisə və təşkilatların xarici bazara sərbəst çıxışının təmin edilməsi;
- ixracda xammal və strateji malların üstünlüyünün tədricən aradan qaldırılması, hazır məhsulun payının artırılması və s.

Azərbaycanın xarici iqtisadi fəaliyyətinin geniş xarakter alması və əsas istehsal sahələrinin xarici bazarlara yol tapmasında Heydər Əliyevin bir ümdə məqsədi var idi: Azərbaycanın iqtisadi cəhətdən müstəqil yaşamasının əsaslarının yaradılması və möhkəmləndirilməsi. Respublikanın sözün əsl mənasında öz təbii sərvətləri və iqtisadi potensialının tam sahibi olmaması, xarici iqtisadi əlaqələri yönləndirən mərkəzi idarələrin mövcudluğu kimi bir çox maneələrə baxmayaraq, bu strateji xətt məqsədyönlü və ardıcıl şəkildə həyata keçirilməkdə idi. Beləliklə, respublika iqtisadiyyatında həyata keçirilməkdə olan yeniləşmənin əsas istiqamətlərindən biri beynəlxalq iqtisadi əməkdaşlığa meylin güclənməsi idi.

Ulu öndərin yüksək təşkilatçılıq və məqsədyönlü fəaliyyəti qısa müddət ərzində respublikanın ixrac potensialını artırmağa imkan verdi. Nəticələr özünü elə birinci ildə göstərmiş oldu. Azərbaycan SSR Xarici İşlər Nazirliyinin Azərbaycan KP MK-ya təqdim etdiyi *"1970-ci ildə Azərbaycan SSR-nin xarici ölkələrlə əlaqələri"* haqqında hesabatda göstərilirdi ki, 1969-cu illə müqayisədə ixrac mallarının ümumi dəyəri 7,7 mln. manat artmışdır. Xüsusilə, neft emalı və neft kimyası, yüngül, yerli, tikinti materialları, kənd təsərrüfatı və ticarət nazirlikləri, "Azneftsənayemaş", "Azneft", "Xəzərdənizneft", Dövlət üzümçülük və şərabçılıq Komitəsi, "Azərkitab", Sumqayıt alüminium və kimya zavodları, Bakı yod zavodu və başqa təşkilatlar ixrac öhdəliyini yerinə yetirmişdi. Rəqəmlər ilk uğurlardan xəbər verirdi. Bütövlükdə 1970-ci ildə respublikanın 70 müəssisəsi dünyanın 60 ölkəsinə məhsul ixrac etmişdi.

Bununla bərabər, Azərbaycan iqtisadiyyatını təmsil edən müəssisə və təşkilatların xarici bazara istiqamətlənməsi, ixrac mallarının dünya standartlarının tələblərinə uyğunlaşdırılması və çeşidinin artırılması sahəsində hələ çox iş görülməli idi. Hesabatda "Xəzərbaqı" idarəsi, "Azgeofizika" tresti, Boru-prokat, Q.Musabəyov adına maşınqayırma, "Bakelektroavtomat", Bakı transformator və Kirovabad (Gəncə) cihazqayırma zavodlarının ixrac planlarının yerinə yetirilməsi sahəsində geriliyə yol verildiyi göstərilirdi. Azərbaycan SSR ixracının əsas hissəsini təşkil edən neftin müstəqil surətdə dünya bazarına çıxarmaq imkanından məhrum idi. Eyni zamanda neft tullantılarının xarici bazarda satışına kvotalar ayrılması və lisenziyalar verilməsi tamamilə mərkəzin ixtiyarında qalırdı. İstehsal olunan pambığın 88, sulfanolun 86, neft məhsullarının 64, polad boruların 97, neftmədən avadanlığının 75 faizi respublikadan kənara - SSRİ-nin digər bölgələrinə və xarici ölkələrə aparılırdı. Hesabatda qeyd olunurdu ki, əgər respublika təşkilatları göstərilən xammal və avadanlıqları xarici bazara müstəqil surətdə çıxarsa idi, respublika büdcəsinə milyonlarla əlavə valyuta vəsaiti daxil olardı [160, 38].

Azərbaycan KP MK-nın birinci katibi vəzifəsini daşıyarkən Heydər Əliyev dühasının üstünlüyü özünü sosializm sisteminin verdiyi məhdud imkanlardan xalqımızın milli maraqlarının maksimum dərəcədə istifadəsində və xarici iqtisadi fəaliyyətin daha səmərəli idarə edilməsində özünü göstərirdi. Ulu öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində böyük imkanların mövcud olduğunu yaxşı bilir, buna görə də ixrac potensialından daha səmərəli və məqsədyönlü şəkildə istifadəsinə çalışırdı. Onun bilavasitə təşəbbüsü ilə bu sahədə qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər həmin dövrdə Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə inkişafına gətirib çıxardı.

XX yüzilliyin 70-80-ci illərində Azərbaycan SSR-in xarici iqtisadi əlaqələrinin böyük bir qismi digər müttəfiq respublikalarda olduğu kimi dünya sosializm birliyi ölkələri ilə aparılırdı. Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) çərçivəsində Şərqi Avropanın sosialist ölkələri ilə əməkdaşlıq sovet xarici ticarətinin və gömrük-tarif siyasətinin prioritet istiqamətini təşkil edirdi. Bu ölkələrin gömrük xidmətləri arasında qarşılıqlı əməkdaşlıq və gömrük qanunvericiliyinin unifikasiyası haqqında ikitərəfli və çoxtərəfli müqavilə və sazişlər bağlanmışdı. Sosialist ölkələrinin gömrük rəhbərlərinin hər il keçirilən konfranslarında gömrük işinin müxtəlif məsələləri müzakirə edilirdi. Gömrük işi sahəsində fəaliyyətin əlaqəli qurulması sərhəd-gömrük rejiminin bir qədər "yumşaldılması"nda da özünü göstərirdi. Respublikamızın xarici ticarət dövriyyəsinin əsas hissəsini Sovet İttifaqına daxil olan respublikalar və QİYŞ üzvü ölkələri ilə mal mübadiləsi təşkil edirdi. Azərbaycan QİYŞ xətti ilə fəal surətdə beynəlxalq inteqrasiya prosesinə qoşulmuşdu. 1971-ci ilin noyabrında Bakıda keçirilən QİYŞ-in maşınqayırma üzrə daimi komissiyasının yığıncağı kimya və neft maşınqayırması sahəsində inteqrasiya məsələlərinə həsr olunmuşdu. Azərbaycan Şərqi Avropa ölkələrinin beynəlxalq iqtisadi inteqrasiyası problemlərinin müzakirəsində fəal iştirak etmişdi.

Azərbaycanın maşınqayırma müəssisələri Əfqanıstan, Qvineya Birma, Əlcəzair, Hindistan, Mali, Sudan, BƏR, Seylon, Pakistan, İraq, Həbəşistan, Türkiyə, İran, Suriya, Somali və başqa ölkələrin sifarişlərini yerinə yetirirdi. Leytenant Şmidt adına zavod dünyanın 20-dən artıq ölkəsinə 30-dan çox adda neft avadanlığı hazırlayırdı. Respublikamız Hindistana polad borular, alüminium, reaktiv yod göndərirdi. İxrac edilən avadanlıq və məmulatlar içərisində neft qazması və neftçıxarma avadanlığı mühüm yer tuturdu. Azərbaycan neftçiləri Tümen və Tatarıstan neftçiləri ilə birlikdə bu ölkədə neft və qaz yanacaqlarının axtarışında iştirak edirdilər. Birgə səylər nəticəsində Assam və Qucarat ştatları ərazisində (Kalol və Qandinahar), həmçinin Bombey şelfinin qərbində iri neft yataqları kəşf edilmişdi. Azərbaycanın köməyi ilə Hindistanda 50-dən çox neft və qaz yatağı müəyyən edilmişdi. Rançi və Durqaput maşınqayırma müəssisələrindən Azərbaycana avadanlıqlar göndərilirdi. Bakının Ə.Qarayev və P.Montin adına maşınqayırma zavodları Hindistan şirkətləri ilə kooperasiya əsasında istehsal etdikləri avadanlıq və dəzgahları üçüncü ölkələrə ixrac edirdilər. Sovet İttifaqının iqtisadi və texnika yardımı ilə Əfqanıstanda tikilən avtomobil təmiri zavodu üçün Azərbaycandan mütəxəssislər, səyyar elektrik stansiyaları, polad borular, elektrik mühərrikləri və s. göndərilirdi [160, 10, 20].

Sovet İttifaqının yardımı ilə Əfqanıstanda avtomobil yolları və təyyarə meydanlarının, Türkiyə Cümhuriyyətində şüşə və sement zavodlarının, Nepalda şin zavodunun tikintisinə işlədilən bir çox avadanlıqlar Bakıdan aparılmışdı. Azərbaycan SSR inkişaf etməkdə olan ölkələrə kənd təsərrüfatı

maşınları ilə bərabər, ziyanvericilərə qarşı mübarizə aparmaq üçün kimyəvi vasitələr göndərirdi.



***Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev***

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Respublika Nazirlər Sovetinin 13 aprel 1973-cü il tarixli B-63/7 saylı qərarında müvafiq nazirlik, təşkilat və müəssisələrin rəhbərlərinə ixrac planlarının yerinə yetirilməsi üzərində ciddi nəzarətin tətbiq edilməsi və dekabrın 5-dən gec olmayaraq Dövlət Plan Komitəsinə məlumat verilməsi tapşırılırdı. İxrac mallarının keyfiyyətinə SSRİ Xarici ticarət nazirliyi dövlət müfəttişliyinin Azərbaycan şöbəsi nəzarət edirdi. Xarici ticarət fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatların sırasında Azneft, Xəzərdənizneft, Ticarət Sənaye Palatası və Azərittifaqla yanaşı, respublikanın Yüngül sənaye, Meşə və ağac emalı sənayesi, Yerli sənaye, Yeyinti sənayesi, Kənd təsərrüfatı və Ticarət nazirlikləri, Əlvan metallurgiya birliyi tabeliyində olan müəssisələr mühüm yer tuturdu. Sumqayıt kimya birliyi, Bakı və Gəncə cihazqayırma zavodları, Bakı quru transformatorlar, "Bakelektroavtomat", yod, dərman preparatları və zərgərlik məmulatları, elektrik-montaj avadanlıqları və elektrik lampaları zavodları, Xəzər Dəniz Gəmiçiliyi və Xəzərbalıq şirkətlərinin, Azərbaycan boru prokat, Mingəçevir "Azərkabel" və Yol maşınları zavodlarının işi qənaətbəxş sayılmamışdı. 1970-ci ildə respublikanın 70-ə yaxın müəssisəsi 56 ölkəyə mal ixrac etmişdisə, 1975-ci ildə 100-dən çox müəssisə və təşkilat Avropa, Asiya, Afrika və Latın Amerikasının 65 dövlətinə 350 adda məhsul göndərmişdi [129, 89].

Heydər Əliyev Azərbaycanın əsas ixrac potensialını təşkil edən neft maşınqayırması sənayesində də yaranan durğunluğu aradan qaldırmaq üçün böyük əmək sərf edirdi. Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin 1973-cü il 20 aprel tarixli qərarında qeyd olunurdu ki, son illərdə ixraca göndərilən maşınqayırma məhsullarının texniki göstəriciləri və

keyfiyyətinin yüksəldilməsi sahəsində görülən tədbirlər müsbət nəticə vermiş, 1967-ci illə müqayisədə sənaye məhsulları ixracında maşınqayırma sənayesinin payı 36 faiz artmışdı. Bununla bərabər, qərarda, ixraca göndərilən maşınqayırma məhsullarının ümumi ixracda payının cəmi 5,2 faiz təşkil etməsi qeyd olunurdu. Bunun əsas səbəbi, qərarda göstərildiyi kimi, respublikanın istehsal və elmi-tədqiqat müəssisələrində, layihə institutları və konstruktor bürolarında rəqabət qabiliyyətli məmulatların istehsalının artırılması, ixrac üçün nəzərdə tutulan maşın və avadanlıqların texniki göstəricilərinin yüksəldilməsinə laqeydlik göstərilməsi idi. Məsələn, elmi-tədqiqat “Azinmaş” İnstitutunda hazırlanmış reduktorun Keşlə maşınqayırma zavodunda kütləvi istehsala tətbiqi gecikdirildiyinə görə “Bakı fəhləsi” zavodu təkcə 1972-ci ildə 704,8 min manat dəyərində 140 ədəd quyudan neft dartan dəzgahın xarici ölkə sifarişçisinə göndərilməsi baş tutmamışdı [125, 28; 126, 47-50].

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanı xarici ticarət balansında mühüm payı olan neftayırma sənayesinin texniki cəhətdən yenidənqurma və kompleks modernləşdirmə proqramının həyata keçirilməsinə başlanıldı. Məhsullarının bir hissəsi xarici ölkələrə ixrac edilən bu kimi müəssisələrdə yeni avadanlıqlar və istehsal texnologiyaları tətbiq edilməsinə başlanıldı. Yeni Bakı neftayırma zavodunda neftin ilkin emalı qurğusu – ELOU-AVT vaxtından əvvəl işə salındı. Bakı prokat zavodunda “250-2” stanının istifadəyə verilməsi termik üsulla boru istehsalının 2,1 dəfə artmasına səbəb oldu. Onuncu beşillikdə “Azərelektroterm” Birliyi təcrübə-eksperimental zavodunun ikinci növbəsi istifadəyə verildi. Sumqayıt Üzvi Sintez Birliyinin müəssisələrində istehsal olunan polietilen məhsullar 200-dən çox ölkəyə ixrac olunurdu.

Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin 8 fevral 1966-cı il qərarı ilə yaradılan xarici ölkələrlə iqtisadi əlaqələr Komissiyası fəaliyyət göstərirdi. Lakin müxtəlif səbəblərə görə bəzi üzvlər komissiyanın işində iştirak etmirdi. Azərbaycan KP MK Bürosu xarici iqtisadi əlaqələrin təşkilat işlərinin gücləndirilməsi üçün Komissiyanın fəaliyyətinin bərpa edilməsinə mühüm əhəmiyyət verirdi. *“Azərbaycan SSR Nazirlər Soveti Rəyasət Heyətinin xarici ölkələrlə iqtisadi əlaqələr komissiyasının yaradılması haqqında”* Azərbaycan KP MK Bürosunun 22 avqust 1973-cü il tarixli qərarı ilə respublika Hökumətinin təklifi nəzərə alınaraq komissiyanın 6 nəfərdən (Ə.İbrahimiov, Q.Şeqlov, İ.Əsədov, B.Baxşəliyev, N.Xələfbəyov və T.Hüseynov) ibarət tərkibini təsdiq etdi. Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin inkişafına əngəl törədən bir çox problemlər Komissiyanın yığıncaqlarında müzakirə edilir və müvafiq tövsiyələr hazırlanırdı [127, 260-264].

Heydər Əliyev Azərbaycanın sənaye müəssisələrində istehsal olunan məhsulların, xüsusilə dünya bazarına çıxarılan malların keyfiyyətinin

artırılmasına xüsusi əhəmiyyət verirdi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin *"İxrac malları istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi haqqında"* məhz onun təşəbbüsü ilə qəbul edilən 1974-cü il 1 avqust tarixli qərarının mühüm əhəmiyyəti oldu. Respublikanın xarici ticarət potensialının yüksəlişini nəzərdə tutan bu sənəd uzunmüddətli proqram xarakteri daşıyırdı. Qərarda bu sahədə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı sahəsində görülən işlər təhlil edilir, qarşıda duran vəzifələr müəyyən edilirdi. İxrac mallarının nomenklaturasının artırılması, yeni mal növlərinin ixrac siyahısına daxil edilməsi, istehlak kooperasiyası və sərhədyanı ticarət əməliyyatlarının genişlənməsi kimi müsbət irəliləyişlərlə yanaşı, hələ də bəzi nazirlik, müəssisə və təşkilatlarda mövcud imkanlardan qeyri-qənaətbəxş istifadə edilməsi, ixrac tapşırıqlarının yerinə yetirilməsi və keyfiyyətin artırılması sahəsində nöqsanların olması göstərilirdi. Qərarda bu sahədəki geriliyin səbəbləri göstərilir və xarici iqtisadi fəaliyyət iştirakçısı olan müvafiq nazirlik, dövlət təşkilatları və müəssisə rəhbərləri qarşısında aşağıdakı vəzifələr qoyulurdu:

- ixrac mallarının keyfiyyətinin, texniki göstəriciləri və rəqabət qabiliyyətinin artırılması, xarici bazara çıxarılması üçün yeni maşın, avadanlıq və materialların yaradılması;
- dünya standartlarına uyğun yeni məmulatların lisenziyalı ticarət xətti ilə maksimum miqdarda satışına nail olunması;
- xaricdən maşın, avadanlıq, cihaz və digər malları alınmasına ayrılan valyuta vəsaitindən səmərəli istifadə etməklə ixrac malları istehsalının artırılması;
- respublika Nazirlər Soveti yanında xarici ticarət üzrə müvəkkilin vasitəsi ilə sənaye müəssisələrinin ixrac mallarının artırılması haqqında irəli sürdüyü təkliflər SSRİ Xarici ticarət nazirliyinin müvafiq birliklərinə təqdim edilməsi;
- hər il xarici bazarlara 25-30-min ton betonit gil, 3-4 min kub metr travertin, nəzərdə tutulduğundan əlavə əllə toxunan 5 min kv. metr xalça çıxarılmasının təmin edilməsi;
- "İncəsənət" fabrikinin Nardaran kəndindəki xalça sexinin yenidən qurulması;
- ölkə ərazisində böyük ehtiyatlara və xarici bazarda yüksək tələbata malik biyan kökünün tədarükü və emalının həyata keçirilməsi üçün SSRİ Kənd təsərrüfatı nazirliyinin təklifi ilə "Soyuzlakritsa" ümumittifaq birliyinin respublikada filialının açılması;
- Azərbaycan Ticarət-sənaye palatasının təşkilatçılığı ilə hər il respublikada xarici şirkət və birliklərin iştirakı ilə 3-4 beynəlxalq sərgilərin keçirilməsi [129, 75-83].

Qərara əlavə edilən siyahıda plandan kənar ixrac edilməsi tövsiyə olunan məhsulların siyahısı verilmişdi: yerli sənaye üzrə - əllə toxunma

xalça və palazlar, kustar üsulla hazırlanmış milli bədii suvenirlər, alüminium və emallı qablar; yüngül sənaye üzrə - pambıq çiyidi, ipək və pambıq emalı qalıqları, maşınla toxunan xalçalar, farfor və fayans qablar, dəri və toxuculuq istehsalı qalıqları, ipək, yun və pambıq parçalar; üzümçülük və şərab emalı üzrə - konyak, şampan, şərab, üzüm cecəsi və şirəsi; tikinti materialları üzrə - sement, travertin bloklar, mərmər və mərmər qırıntıları, bentonit gil (toz və dənəvər halda), pəncərə şüşəsi, vitrin şüşəsi, şifer, və sənaye istehsalı tullantıları; ət və süd sənayesi üzrə - texniki albumin, sümük unu və texniki yağ; aqrar sənaye və kənd təsərrüfatı məhsulları - barama, gül və nanə yağı, yunan qozu, fındıq və müxtəlif toxumlar; yeyinti sənayesi üzrə - çay, tütün, mineral su, tütün; "Azərbaşnefttəchizat" idarəsi - mazut, ağ neft, dizel yanacağı, neft məhsulları qalıqları; "Azərkonserv meyvə tərəvəz" idarəsi üzrə - meyvə-tərəvəz konservləri, meyvə şirələri, qoz və gül mürəbbələri, narşərab, pomidor şirəsi, təzə meyvələr və kələm; Sumqayıt "Kimyasənaye" birliyi üzrə - kimya məhsulları; Əlvan metallurgiya birliyi üzrə - mineral gübrələr, mətbəx əşyaları; "Xəzərbalıq" idarəsi üzrə - kilkə (dondurulmuş, duzlanmış və ya hisə verilmiş), balıq konservləri və balıq unu. Qeyd edildiyi kimi bu siyahıya yalnız ixrac həcmindən əlavə göndərilməsi nəzərə tutulan mallar daxil edilmişdi.

1973-cü ilin yekun göstəriciləri üzrə Azərbaycanın ixrac mallarının strukturu aşağıdakı kimi olmuşdur: 1) neft məhsulları - 50,2 faiz; 2) yüngül sənaye malları -34,3 faiz; 3) əlvan metallurgiya məhsulları - 4,9 faiz; 5) neft maşınqayırma avadanlığı - 3,2 faiz; 6) yerli sənaye malları - 2,0 faiz; 7) cihazqayırma sənayesi malları - 1,6 faiz; 8) elektrotexnika sənayesi malları- 1,1 faiz; qara metallurgiya sənayesi məhsulları - 0,7 faiz; 9) yeyinti sənayesi məhsulları - 0,5 faiz; 10) kimya məhsulları - 0,5 faiz və digər ixrac malları - 1,0 faiz [129, 89].

1970-ci illərin ikinci yarısında respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər əldə edilməsi Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin maddi əsasını daha da möhkəmləndirdi. SSRİ Xarici Ticarət Nazirliyinin ixrac malları siyahısına əlavə olaraq 49 adda məhsulun daxil edilməsinə razılıq verildi. İxrac malları sırasında əsas yeri neft və neft məhsulları (49 faiz), pambıq mahlıcı (32 faiz) tutsa da, hazır məhsulların xüsusi çəkisi artmaqda idi. 1980-ci ildə təkcə "Şərqxariciticarət" birliyinin Bakı şöbəsinin apardığı əməliyyatların həcmi 372,0 min xarici valyuta manata çatmışdı. Bu, 1975-ci illə müqayisədə 91,5 min xarici valyuta manat çox idi. İranla sərhədyanı ticarət dövriyyəsi 164,1 min xarici valyuta manat, o cümlədən ixrac əməliyyatları – 80,6 min, idxal isə 83,5 min xarici valyuta manat təşkil etmişdi.

Belə bir şəraitdə, 1970-1980-ci illərdə, Azərbaycan SSR hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənirdi. 1980-ci ildə respublikada yaradılan ümumi ictimai məhsul 1970-ci ilə nisbətən 208, milli gəlir 204, əsas istehsal

fondları isə 191 faiz artmışdı. Respublikanın beynəlxalq iqtisadi əlaqələrdə fəal iştirak etməsi ixrac yönümlü iqtisadiyyatın formalaşmasına və inkişaf tempinə müsbət təsir göstərə bildi [208, 11].

Aşağıdakı cədvəldən göründüyü kimi, respublika iqtisadiyyatının dinamik inkişaf prosesi onun ixrac potensialının sabit şəkildə artması ilə müşahidə olunurdu. Belə ki, 1980-ci ildə Azərbaycan SSR-dən ixrac edilən malların dəyəri 1960-cı illə müqayisədə 2,8 dəfə, 1970-ci illə müqayisədə isə 1,5 dəfə artmışdı. Artıq 1981-ci ildə Azərbaycanın ixrac potensialı 231,2 mln. manatı ötüb keçmişdi. Xarici iqtisadi əlaqələrin coğrafiyasına gəlincə, mənzərə aşağıdakı kimi idi: respublikamızın inkişaf etməkdə olan ölkələrlə ticarətinin 60 faizi Asiya, 35 faizi Afrika, 5 faizi latın Amerikası ölkələrinin payına düşürdü.

Cədvəl 3.1

**1960-1980-ci illərdə Azərbaycan SSR-nin ixrac potensialının dinamikası** (milyon manatla)

| **İllər** | **İxracın həcmi** | **1960-cı ilə nisbətən faizlə** | **İllər** | **İxracın həcmi** | **1970-ci ilə nisbətən faizlə** |
|---|---|---|---|---|---|
| **1960** | 76,3 | 100,0 | **1970** | 141,3 | 100,0 |
| **1961** | 71,3 | 93,5 | **1971** | 161,5 | 114,3 |
| **1962** | 84,7 | 111,0 | **1972** | 175,3 | 124,1 |
| **1963** | 106,6 | 140,0 | **1973** | 215,7 | 152,6 |
| **1964** | 101,3 | 133,0 | **1974** | 213,3 | 150,9 |
| **1965** | 117,7 | 154,0 | **1975** | 244,3 | 172,9 |
| **1966** | 131,6 | 172,0 | **1976** | 226,7 | 160,4 |
| **1967** | 135,5 | 178,0 | **1977** | 220,8 | 156,3 |
| **1968** | 149,5 | 196,0 | **1978** | 218,5 | 154,6 |
| **1969** | 133,7 | 175,0 | **1979** | 209,4 | 148,2 |
| **1970** | 141,3 | 185,0 | **1980** | 217,7 | 154,1 |

Mənbə: ARPİİSSA, f. 1, siy. 61, iş 59, v. 89.

Azərbaycan SSR Ticarət-Sənaye Palatasının təşkilatçılığı ilə müxtəlif ölkələrdə keçirilən sərgi və yarmarkalarda iştirak edilməsi xarici ölkələrlə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin daha da fəallaşmasına yardım edirdi. Respublikamızın bu sahədə fəaliyyəti hələ 1965-ci ildə Tehranda keçirilən beynəlxalq sərgidə müstəqil stendlə iştirakı ilə başlamış, 1966-cı ildə Dəməşqdə keçirilən beynəlxalq yarmarkada müstəqil bölmə və 1970-ci ildə İzmirdə keçirilən 39-cu beynəlxalq yarmarkada müstəqil pavilyonla iştirakı ilə davam etmişdi [174, 7-10].

1969-cu ildən başlayaraq Bakı şəhərində xarici şirkətlərinin məhsulları nümayiş etdirilən 4 sərginin eksponatlarına - “Metrimpeks” şirkətinin (Macarıstan) nəzarət-ölçü cihazlarına, “Motoimport”un (Polşa) qaraj avadanlıqlarına, “Stroyimport”un (Çexoslovakiya) metal emalı üzrə texniki sənəd və materialları, “Paged” (Polşa) müəssisəsinin məişət mebellərinə baxış həyata keçirilmişdi. Azərbaycan SSR həmin ilin 5-25 oktyabrında Tehranda keçirilən Asiya ölkələrinin 2-ci Beynəlxalq ticarət yarmarkasının informasiya bölməsinin iştirakçısı olmuşdu [117, 25-27 ].

Ticarət Palatası Azərbaycan SSR-in beynəlxalq ticarət yarmarkası və sərgilərində müstəqil bölmə ilə iştirakını təmin etmək üçün respublikanın müvafiq nazirlikləri və müəssisələri ilə geniş hazırlıq işləri aparırdı. Məsələn, İzmirdə (2 avqust - 2 sentyabr 1970-ci il, Türkiyə) keçirilən beynəlxalq yarmarkada 884 kv. metr sahəni əhatə edən müstəqil pavilyonda respublikamızın iqtisadiyyat, elm və texnika sahəsində əldə etdiyi nailiyyətlər müvəffəqiyyətlə nümayiş olunmuşdu.

1970-ci ilin oktyabrında Bakıda Polşanın “Pol-Mot” xarici ticarət birliyinin təşkilatçılığı ilə bu ölkədə istehsal edilən minik avtomobilləri nümayiş etdirildi. Respublikanın Ticarət Palatası elmi-tədqiqat cihazları istehsal edən fransız şirkətlərinin nümayəndələri ilə Azərbaycan SSR Elmlər Akademiyasının mütəxəssislərinin görüşünü təşkil etmişdi. ADR-in “Hemikombinat Batterfeld” kimya kombinatının nümayəndələri ilə Bakıda keçirilən işgüzar görüşdə neft emalı və neft kimyası sənayesində işlədilən istilik mübadiləsi cihazlarının sərgisinin təşkili haqqında razılıq əldə edilmişdi. 1971-ci il mayın 18-26-da “Karbon məhsulları” adı altında keçirilən sərgidə müəssisədə istehsal olunan yüksək keyfiyyətli kimya məhsulları təqdim edilmişdi. Həmin ilin 31 may-12 iyunda Bakıda Çexoslovakiyanın “Kovo” xarici ticarət şirkətinin təşkilatçılığı ilə “Dəqiq cihazlar və radiotexnika” adlı satış-sərgi keçirilmişdi.

Respublikamıza ən yeni elmi-tədqiqat cihazlarının göndərilməsi haqqında ADR-in “Karl Çeys-Yena” müəssisəsi ilə razılıq əldə edilmişdi. May ayında Bolqarıstanın “Aqromaşinoimpeks” şirkəti ilə birgə keçirilən “Bolqarıstan Xalq Respublikasının kənd təsərrüfatı maşınqayırması və kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi sahəsində nailiyyətləri” adlı beynəlxalq simpoziumda qarşılıqlı elmi-texniki və ticarət əlaqələrin perspektivləri diqqət mərkəzidə olmuşdu. Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə Bakıda keçirilən ittifaq miqyaslı yığıncaqda (sentyabr, 1971-ci il) sənayedə ixtiraların və kəşflərin xaricdə patentləşdirilməsi və lisenziyalaşdırılması məsələləri müzakirə edilmişdi.

Respublikamızın xarici iqtisadi-ticarət əlaqələrinin inkişafına xidmət edən beynəlxalq yarmarkalarda iştirakı ildən-ilə daha geniş xarakter almaqda idi. Azərbaycan Bağdad, Qahirə, Dəməşq və Əlcəzairdə keçirilən beynəlxalq yarmarkalarda müstəqil bölmələrlə iştirak etməsi bu sahədə

irəliləyişdən xəbər verirdi. 1973-cü ildə keçirilən Bağdad yarmarkasında Azərbaycan iqtisadiyyatının sənaye və aqrar bölməsində istehsal olunan 350 adda məhsul nümayişə çıxarılmışdı. Azərbaycan pavilyonuna yarmarkanın "Böyük qızıl medal"ı təqdim edilmişdi. 1974-cü ildə Qahirədə keçirilən 7-ci Beynəlxalq yarmarkanın Azərbaycan pavilyonunun eksponatları ilə 400 min nəfər tanış olmuşdu. 1974-cü ildə ticarət əlaqələri saxlanılan 66 ölkədən 12-si sosialist, 28-i inkişaf etmiş, 26-sı inkişaf etməkdə olan ölkələr qrupuna daxil idi. Azərbaycan 1975-ci ildə Dəməşqdə 400, 1982-ci ildə Əlcəzairdə keçirilən yarmarkalarda 350 adda məhsulla, o cümlədən ən müasir neft maşınqayırması avadanlıqları ilə təmsil olunmuşdu [220, 43].

Azərbaycan KP MK-nın Bürosu *"Azərbaycan SSR-in 1976-1978-ci illərdə xaricdə keçiriləcək beynəlxalq yarmarka və sərgilərdə müstəqil bölmə ilə iştirakı haqqında"* 1973-cü il 23 oktyabr tarixli qərarında respublikamızın Hindistan (1976-cı il), Fransa (1977-ci il) və Finlandiyada (1978-ci il) keçiriləcək yarmarka və sərgilərdə iştirakına ciddi hazırlıq işləri aparılması haqqında əlaqədar təşkilatlara tapşırıqlar verilmişdi. Azərbaycan SSR Yeni Dehlidə (Hindistan, noyabr 1976-cı il) keçirilən sovet milli sərgisində müstəqil bölmə ilə təmsil olunmuşdu [129, 59, 89].

Bu illər ərzində Bakıda 9 beynəlxalq ixtisaslaşmış sərgi və elmi-texniki simpozium keçirilmişdi. Bakıda ilk dəfə keçirilən "Şərabkonserv-maş-76" sərgisində 11 ölkəni təmsil edən 56 xarici ticarət şirkəti iştirak edirdi. Yaponiya şirkətlərinin mallarını nümayiş etdirən "Orqtexnika-76", "Finmetal-76" (Finlandiya), ADR-in məişət və avtokosmetika məhsulları, İsveçin "Erikson" şirkətinin rabitə avadanlıqları sərgiləri, Macarıstan alimlərinin iştirakı ilə "Kimyəvi reaktivlər və xüsusi təmiz maddələr" adlı beynəlxalq simpozium müvəffəqiyyətlə keçmişdi [130, 36-139].

Bakıda Azərbaycan Ticarət Palatasının xətti ilə Fransa, Çexoslovakiya və Polşa dövlətlərinin sənaye məhsullarının texniki və istehlak göstəriciləri nümayiş etdirilən sərgi və simpoziumlar xarici ölkə mütəxəssislərinin təcrübəsi ilə tanış olmağa əlverişli imkan yaradırdı. 1979-cu ildə respublikamız SSRİ-nin Cakartada (İndoneziya) keçirilən sərgisində müstəqil bölmə ilə iştirak etdi. 1980-ci ildə Azərbaycan Ticarət-Sənaye Palatası ixrac potensialının nümayişi və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi nailiyyətlərə görə "Qızıl Merkuri" adlı beynəlxalq mükafata layiq görülmüşdü. 1981-ci il sentyabrın 7-15-də Parisdə, YUNESKO-nun nümayəndəliyinin iqamətgahında "Azərbaycanın xalçaçılıq sənəti" adlı sərgi keçirildi. Fransız ictimaiyyətinin böyük maraqla qarşıladığı bu tədbir haqında 25 dildə, dünyanın 150 ölkəsinə yayımlanan "Kuryer YUNESKO" jurnalında geniş informasiya dərc olunmuşdu [132, 57-58].

Azərbaycan KP MK 1981-ci il 13 may tarixli Büro yığıncağında SSRİ Ticarət-sənaye Palatasının təklifi nəzərə alınaraq respublikamızın 1983-cü ilin payızında Hindistanda keçiriləcək beynəlxalq yarmarkada da müstəqil

bölmə ilə iştirak etməsi haqqında qərar qəbul etmişdi. Azərbaycanın ixrac məhsullarının nümayiş etdirildiyi bu yarmarka da müvəffəqiyyətlə keçmişdi [134, 67].

Beləliklə, Azərbaycan SSR 1970-1980-ci illərdə Plovdiv (Bolqarıstan), Leypsiq (ADR), Praqa (Çexoslovakiya), Bağdad (İraq), Qahirə (Misir), Dehli (Hindistan), Poznan (Polşa), Zaqreb (Yuqoslaviya), Cakarta (İndoneziya), Boqota (Kolumbiya), Oslo (Norveç), Saloniki (Yunanıstan) və Hanoyda (Vyetnam) keçirilmiş beynəlxalq sərgi və yarmarkalarda iştirak etmişdi. Həmin illərdə xarici şirkətlərin iştirakı ilə Bakıda 50-dən çox beynəlxalq sərgilər keçirilmişdi. Ölkənin genişlənməkdə olan xarici iqtisadi əlaqələri ixrac məhsullarının keyfiyyət və texniki göstəricilərinin yüksəldilməsini tələb edirdi. Məsələn, görülən tədbirlər nəticəsində Respublikanın əsas ixrac potensialının cəmləşdiyi maşınqayırma kompleksində yüksək keyfiyyətli məmulat istehsalı daha yaxşı təşkil olunmuşdu. Keyfiyyət nişanlı malların xüsusi çəkisi elektrotexnika sənayesi sahəsində 60, neft maşınqayırması və cihazqayırma sahəsində 40 faizə çatmışdı. Bakı məişət kondisionerləri və Azərbaycan elektrik lampaları istehsalat birliyinin baş zavodunun bütün məhsulları keyfiyyət nişanı ilə buraxılırdı [208, 50].

Azərbaycan sovet-İran ticarət əlaqələrində mövqeyi artmaqda idi. Təkcə 1960-1973-cü illər ərzində Bakı və Culfa gömrükxanalarında dəmir yolu ilə İrana göndərilən 592 min ton, İrandan daxil olan 535 min ton tranzit yük rəsmiləşdirilmişdi. Məlum olduğu kimi, sovet iqtisadi siyasətində xarici ticarət fəaliyyətinin bir mərkəzdən idarə olunmasına üstünlük verilirdi. Türkmənistan və Cənubi Qafqaz respublikalarının İranla sərhədyanı ticarət əlaqələri hələ 1968-ci ildə yaradılan "Şərqxariciticarət" ümumittifaq Birliyinin Bakı şöbəsinin vasitəsi ilə həyata keçirilirdi. 1969-cu ildə respublikamız sərhədyanı ticarət yolu ilə qonşu İrana 486,5 min ABŞ dolları həcmində mal (əsasən pambıq yağı, təbii əlif, şampan şərabı və təsərrüfat sabunu) satmışdı. Bu vəsaitin 465 min ABŞ dollarına İrandan Azərbaycana trikotaj, sintetik parçalar və ayaqqabı, elektrik soyuducuları, parfümeriya və "sədri" növlü düyü alınmışdı. 1968-ci illə müqayisədə qonşu ölkə ilə ticarət dövriyyəsi 2 dəfə artmışdı. İranın Tehrandan başqa Təbriz, Məşhəd və Rəşt şəhərlərinin rəsmi və sənaye-ticarət şirkətlərinin nümayəndələri ilə "Şərqxariciticarət" birliyinin Bakı şöbəsinin nümayəndələri arasında ticarət əlaqələrinin genişləndirilməsi məqsədi ilə danışıqlar aparılırdı. Birliyin ticarət dövriyyəsi ildən-ilə artmaqda idi: 1981-ci ildə İrana 952, 2 min manatlıq ixrac malları göndərilmiş, 1 mln. 360 min manatlıq müxtəlif adda mallar idxal edilmişdi [117, 25-27; 136, 70].

İranla ticarət əlaqələrinin genişləndirilməsi məqsədi ilə hələ 1968-ci ildə SSRİ idxal-ixrac Bankının Bakı şöbəsi açılmışdı. Lakin "Şərqxariciticarət" ümumittifaq Birliyi İran bazarlarının tələbatı haqqında zəruri informasiyaya malik olmadığından sərhədyanı ticarətin həcmində geriləmə

müşahidə olunurdu. Məsələn, 1970-ci ildə Azərbaycanın İranla arasında sərhədyanı ticarət dövriyyəsi müqavilə öhdəliklərində nəzərdə tutulan 40,8 min manat əvəzinə, cəmi 16,4 min manat olmuşdu. İranın xarici ticarət şirkətləri Azərbaycanın özünün də daxili ehtiyacları üçün gərəkli olan metal məmulatları, sement, bitki yağları və digər aztapılan mallar və xammal göndərilməsini tələb edirdi [22, 41-45].

SSRİ ilə İran arasında dövlətlərarası razılaşmaya əsasən (1963-cü il), 1971-ci ildə Araz çayı üzərində su elektrik stansiyası, su anbarı və ötürücü sistemlərin daxil olduğu kompleksin tikintisi başa çatdırıldı. Araz çayı üzərində hidrokompleksin istifadəyə verilməsi Azərbaycan və İran ərazisində on minlərlə hektar əkinə yararlı sahələrin suvarma suyu ilə təmin edilməsinə imkan yaratdı.

Azərbaycanlı mütəxəssislər qonşu dövlət üçün hidrotexnika üzrə yerli kadrların hazırlanmasında da yaxından iştirak etdilər. Çayın hər iki sahilində irriqasiya kanallarının və qovşaqlarının çəkilişi sonrakı illərdə davam etdirildi. Enerji daşıyıcıları sahəsində Azərbaycanın qonşu İranla geniş əlaqələrinin inkişafında 1971-ci ildə istifadəyə verilən SSRİ-İran magistral qaz kəmərinin mühüm əhəmiyyəti oldu. Azərbaycan ərazisindən keçən bu kəmərlə Cənubi Qafqaz respublikalarına hər il təqribən 10 mlrd. kub.m. təbii qaz verilirdi. Azərbaycanın onlarla tikinti-quraşdırma təşkilatı, mühəndis və texniki heyətdən ibarət böyük bir dəstəsi qaz kəmərinin istifadəyə verilməsi və istismarında iştirak edirdi. SSRİ-nin müxtəlif şəhərlərində İsfahan metallurgiya kombinatı üçün hazırlanmış avadanlıqların quru və dəniz yolu ilə daşınmasını da Azərbaycan həyata keçirirdi. İrana məxsus yüklər Bakı-Culfa dəmir yolu ilə və Xəzər gəmiçilik idarəsinin gəmiləri ilə Ənzəli və Nouşəhr limanlarına daşınırdı [146, 1969, 17 oktyabr].

İsfahan metallurgiya kombinatının işçiləri üçün salınan Ariyaşəhr qəsəbəsi 17 ölkənin mütəxəssislərinin iştirak etdiyi müsabiqədə qalib gələn həmyerlimiz, memar M.Paşayevin təqdim etdiyi layihə əsasında tikilmişdi [155, 1971, № 2, 10].

Bir sıra səbəblərə görə, İranla sərhədyanı ticarət əlaqələrinin səviyyəsi aşağı düşmüşdü. Belə ki, "Şərqxariciticarət"in xətti ilə aparılan ticarət dövriyyəsi cəmi 26 min manat olmuşdu. 1974-cü ildə sərhədyanı ticarətin həcmi bir qədər genişlənmiş, İran şirkətləri ilə 200 min manatlıq ticarət kontraktları bağlanmışdı. 1978-ci ildə "Şərqxariciticarət"in Bakı şöbəsinin ticarət dövriyyəsinin həcmi 342,9 min manatı ötmüşdü ki, bunun 156,5 min manatı idxalın payına düşürdü. Lakin İranda yaranan ictimai-siyasi vəziyyətlə əlaqədar "Şərqxariciticarət" ümumittifaq birliyi Bakı şöbəsinin qonşu ölkə ilə ticarətinin həcmi 1979-1982-ci illərdə orta hesabla 188,3 mln. manata qədər azalmışdı. Azərbaycan mallarının İrana ixracının ən yüksək həddinin 1970-ci illərin sonuna doğru bir qədər səngiməsi İranda baş verən siyasi hadisələrlə əlaqədar bu ölkə ilə aparılan ticarət əlaqələrinin müvəqqəti

olaraq zəifləməsi olmuşdu. Sonrakı illərdə qonşu ölkə ilə iqtisadi-ticarət əlaqələri əvvəlki məcrasına qayıtmış oldu.

Azərbaycanın ərəb ölkələri ilə iqtisadi əlaqələri yüksək səviyyədə idi. Respublikamız Misirdə, Nil çayı üzərində Asuan bəndinin tikintisinə texniki avadanlıqlarla, yüksək ixtisaslı mütəxəssislərlə kömək edirdi. Azərbaycandan İraq, Səudiyyə Ərəbistanı, Yəmən, Tunis, Əlcəzair, Tunis və Suriyada tikilməkdə olan neftayırma, metallurgiya və kimya müəssisələrinə müxtəlif avadanlıqlar göndərirdi. Respublikamız Livan, Küveyt, Liviya və Mərakeşlə daha sıx ticarət əlaqələri qurmuşdu.

Azərbaycanın sosialist ölkələr ilə iqtisadi əlaqələri çox geniş xarakter daşıyırdı. Azərbaycan maşınqayıranları Almaniya Demokratik Respublikası üçün neftçıxarma avadanlığı göndərirdi. Azərbaycan İtaliya ilə də iqtisadi əlaqələr saxlayırdı. Şəki ipək kombinatı İtaliyanın "Sakim" və "Eksportim" firmaları ilə geniş əlaqə saxlayırdı. "Kuala" firması Bakı zərgərlik zavoduna ən müasir avadanlıqlar göndərmişdi. Təkcə 1982-ci ildə İtaliya firmaları tərəfindən Azərbaycandan 800 min manat dəyərində məişət kondisionerləri alınmışdı.

1970-1980-ci illərdə beynəlxalq münasibətlərdə gərginliyin aradan qalxması SSRİ-nin xarici ölkələrlə ticarət dövriyyəsinin, turizm əlaqələrinin inkişafına adekvat təsir etdi. Əgər 1961-1970-ci illərdə sovet xarici ticarət dövriyyəsinin illik artım sürəti 8,2 faiz olmuşdusa, 1971-1980-ci illərdə bu göstərici 15,6 faizə çatmışdı. 1982-ci ildə SSRİ-nin xarici ticarət tərəfdaşları 140 ölkəni təmsil edirdi. Azərbaycan isə metalkəsən və toxuculuq dəzgahları, teplovoz və elektrovozlar, minik və yük avtomobilləri, avtobuslar pambıqyığan maşınlar, traktorlar, dağ-mədən, elektrotexnika, nasos-kompressor avadanlıqları və mexanizmləri, yüngül, yeyinti və yemçilik sənayesi üçün texnoloji avadanlıqlar, kağız və poliqrafiya sənayesi üçün avadanlıqlar, qaldırıcı nəqliyyat vasitələri və inşaat mexanizmləri, gəmiqayırma sənayesi avadanlıqları, kənd təsərrüfatı avadanlıqları və onların müxtəlif hissələri, hesablama maşınları və s. mallar alırdı. Respublikanın qara və əlvan metallara, maşınqayırma və metal emalı, meşə və ağac emalı sənayesi məhsullarına olan tələbatının yarısı digər müttəfiq respublikalardan gətirilirdi. Boru prokat zavodu sifariş əsasında keçmiş SSRİ-dəki 600, Mingəçevirin yol maşınları zavodu 100 ünvana öz məhsullarını göndərirdi. Azərbaycanın iqtisadi əlaqələrində elektrotexnika və məişət cihazları istehsal edən müəssisələr mühüm yer tuturdu. Məhsulunun 97 faizindən çoxu keyfiyyət nişanı alan Sumqayıt kompressorlar zavodu Orta Asiya respublikalarında yerləşən məişət soyuducu cihazları zavodlarını təmin edirdi [176, 80-81].

"Ağ qızıl" strateji əhəmiyyətinə görə Azərbaycanın ixrac potensialında ikinci yeri tuturdu. Ötən əsrin 70-80-ci illərində dünyada pambıq xammalına olan tələbat artması Azərbaycanın ixrac potensialının artmasına müsbət təsir etdi. 1977-ci ildə Yaponiyanın sifarişi ilə Bakı pambıqtəmizləmə fabriki bu

ölkəyə 300 ton məhsul göndərmişdi. 1982-ci ildə Azərbaycandan Macarıstana 28,1 mln., Almaniya Demokratik Respublikasına 31,7 mln., Polşaya 45,4 mln., Rumıniyaya isə 21,0 mln. manat həcmində pambıq mahlıcı ixrac edilmişdi.

Bu bir daha sübut edir ki, respublika rəhbəri Heydər Əliyev iqtisadi-ticarət əlaqələrinin düzgün qurulmasına son dərəcə diqqətlə yanaşırdı. O, bu sahədə prinsipial mövqe tutmaqla Azərbaycanın həm keçmiş sovet respublikaları, həm də xarici ölkələrlə iqtisadi əlaqələrinin normal məcraya yönəldilməsinə və milli maraqlarımızın təmin olunmasına çalışırdı.

Qeyd etmək lazımdır ki, bu illərdə respublikadan çıxarılan məhsulların həcmi respublikaya gətirilən malların həcmindən xeyli çox olurdu. 1970-1980-ci illərdə müttəfiq respublikalardan Azərbaycana gətirilən malların həcmi 87,8 faiz artmışdısa, respublikadan göndərilən malların artımı 90,3 faiz olmuşdu. Bütövlükdə, respublikalararası mal mübadiləsində Azərbaycanın payı iki dəfə artmışdı. Qərbi Sibir, Başqırdıstan, Tatarıstan, Orta Asiya respublikaları, Belorus və Ukraynada neft-qaz yataqlarında istifadə edilən avadanlıqlarının demək olar ki, əksəriyyəti Azərbaycanda istehsal olunurdu. Təkcə "İttifaqneftmaş" istehsalat birliyində istehsal olunan neft-qaz avadanlıqlarının 75 faizi respublikadan kənara - keçmiş SSRİ-nin neft mədənlərinə göndərilirdi. Azərbaycanın daxili iqtisadi əlaqələrində başlıca tərəfdaşı RSFSR idi. Qonşu respublikaya Azərbaycandan kimya və neft kimyası, maşınqayırma, yüngül və yeyinti sənayesi, əlvan metallurgiya məhsulları göndərilirdi. Rusiyanın demək olar ki, bütün iqtisadi rayonları ilə sıx əlaqələr qurulmuşdu. Azərbaycanın iqtisadi əlaqələrində RSFSR-dən sonra müttəfiq respublikalar arasında aparıcı yer Ukrayna SSR-ə məxsus idi. Respublikamız şəkər sənayesi məhsullarının 67, süd məhsullarının 50 faizini Ukraynadan alırdı [170, 1984, № 2, 43-51; 164, 31-32].

Azərbaycandan uzaq xaricə səyyar qazıma qurğuları, qaldırıcılar, səyyar buruq aqreqatları, fontan armaturu, rotorlar, nasos ştanqları, elektrik mühərrikləri, geofizika cihazları, kabel, alüminium, sement, metal borular, neft məhsulları, müxtəlif yüngül sənaye, yeyinti sənayesi və s. məhsullar ixrac olunurdu Respublikanın paytaxtı Bakının sənaye müəssisələri, nəqliyyat qovşağı, xüsusilə Bakı ticarət limanı xarici iqtisadi əlaqələrində fəal rol oynayırdı. Bakı şəhərinin 85 sənaye müəssisəsi və təşkilatı dünyanın 65 ölkəsinə 300 adda məhsul göndərirdi. Maşınqayırma avadanlığı zavodu 20-yə yaxın ölkəyə, o cümlədən 1977-ci ildən başlayaraq, Səudiyyə Ərəbistanına qazıma qıfılları ixrac etməyə başladı. Vyetnama ölkənin 20 müəssisəsi mal göndərirdi. Bunların içərisində neft sənayesi avadanlığı və cihazları ixracı mühüm yer tuturdu. Əgər 1920-ci illərdə Azərbaycan özü xaricdən neft avadanlığı alırdısa, artıq 70-ci illərdə respublikamız dünyanın 50 ölkəsinə ən müasir qazıma və neftçıxarma avadanlıqları göndərirdi.

1979-cu ildə "İttifaqneftmaş" Birliyinin Lenin ordeni ilə təltif edilməsi bu sahədəki uğurlardan xəbər verirdi [146, 1977, 23 iyul].

Yeni istifadəyə verilən bir sıra sənaye müəssisələri yerli məhsulların dünya bazarına çıxarılmasına əlverişli imkanlar açırdı. İxracın 180 mln. manat həcmində olan hissəsi Xarici Ticarət Nazirliyinin xətti ilə həyata keçirilmişdi. Sənaye məhsulları ixracında üstün yeri pambıq mahlıcı, neft məhsulları, alüminium təbəqə, sintetik kauçuk, dəmir filizi konsentratı və texniki yod tuturdu. Demək olar ki, bu məhsulların payı ümumi ixracın 82,4 faizini təşkil edirdi [147, 15]. Azərbaycan nefti SSRİ-nin bu sahədə xarici iqtisadi əlaqələrində mühüm rol oynayırdı. Azərbaycan SSR-nin ixracının 42 faizini neft və neft məhsulları, 33 faizini pambıq mahlıcı təşkil edirdi. Təkcə 1979-cu ildə Respublikanın 110 sənaye və emal müəssisəsi dünyanın 65 ölkəsinə 21888464,3 min manatlıq mal ixrac etmişdi [131, 19].

Lakin bir çox hallarda keçmiş ittifaq səviyyəsində qeyri-bərabər əsaslarla aparılan əmtəə mübadilələri, hər şeydən əvvəl, Azərbaycan sənayesi və aqrosənayesinin ixrac strukturunun formalaşmasına mənfi təsir edir, valyuta gəlirlərinin artmasına mane olurdu. Keçmiş SSRİ-nin vahid xalq təsərrüfatı kompleksində Azərbaycan SSR-nin tutduğu mövqe aşağıdakı kimi olmuşdu:

Cədvəl 3.2

**Azərbaycan SSR-in idxal və ixracında müttəfiq respublikaların payı (1977-ci il, faizlə)**

| s/s | Müttəfiq respublikalar | idxal | ixrac |
|---|---|---|---|
| 1. | RSFSR | 47,0 | 54,3 |
| 2. | Ukrayna SSR | 18,9 | 10,5 |
| 3. | Belorusiya SSR | 2,8 | 2,1 |
| 4. | Özbəkistan SSR | 1,3 | 2,9 |
| 5. | Qazaxıstan SSR | 3,4 | 5,1 |
| 6. | Gürcüstan SSR | 4,3 | 6,8 |
| 7. | Litva SSR | 1,1 | 0,8 |
| 8. | Moldaviya SSR | 0,7 | 0,7 |
| 9. | Latviya SSR | 1,3 | 0,8 |
| 10. | Qırğızıstan SSR | 0,2 | 0,3 |
| 11. | Tacikistan SSR | 0,3 | 0,8 |
| 12. | Ermənistan SSR | 2,1 | 4,3 |
| 13. | Türkmənistan SSR | 0,5 | 3,9 |
| 14. | Estoniya SSR | 0,6 | 0,5 |
| 15. | Xarici dövlətlər | 15,5 | 6,0 |
|  | **Yekun** | **100,0** | **100,0** |

Xarici ticarət əməliyyatları əsasən barter (mübadilə) yolu ilə həyata keçirilir, əvəzində Azərbaycana əsasən yüngül və yeyinti sənayesi məhsulları gətirilirdi. Belə ki, 1982-ci ildə respublikaya 340,4 mln. manatlıq yüngül sənaye məhsulları idxal edilmişdi. İdxalın 181,2 mln. manatı sosialist ölkələrinin, 94,4 mln. manatı inkişaf etmiş kapitalist ölkələrinin və 64,8 mln. manatı inkişaf etməkdə olan ölkələrinin payına düşürdü. 1982-ci ilin statistik məlumatlarına əsasən, Azərbaycan SSR-dən xarici ölkələrə 36938,5 manat dəyərində neft məhsulları göndərilmişdi ki, bunun 26,4 faizi sosialist ölkələrinin, 7,0 faizi inkişaf etmiş kapitalist ölkələrinin, 66,6 faizi isə inkişaf etməkdə olan ölkələrin payına düşürdü. Qara metallurgiya sahəsində idxal 44104, 2 min, ixrac 5174, 6 min manat təşkil etmişdi. Həmin ildə Azərbaycandan 5870, 9 min manatlıq əlvan metallurgiya, 3977, 5 manatlıq kimya sənayesi məhsulları, 190071,1 manatlıq yeyinti məhsulları ixrac edilmişdi. Azərbaycanın neft məhsulları, neft-qaz çıxarma avadanlıqları, polad boruları, sintetik kauçuku, müxtəlif güclü elektrik mühərrikləri, məişət kondisionerləri, avtomobil şinləri, mineral gübrələri, tikinti materialları, çini qabları, xalça və xalça məmulatları, pambıq mahlıcı və digər məhsulları SSRİ-nin ixrac potensialının mühüm hissəsini təşkil edirdi [134, 113, 122].

Xarici iqtisadi əlaqələrdə "Azərittifaq"ın rolu artmaqda idi. Əgər 1976-cı ildə "Azərittifaq"ın xətti ilə 7746,0 min manat həcmində hazır məhsul və xammal göndərilmişdisə, artıq 1978-ci ildə bu təşkilatın xətti ilə xarici ölkələrə 8673,8 min manatlıq mal ixrac edilmişdi. Öz növbəsində, müxtəlif xarici ölkələrdən "Azərkooperasiya" xarici ticarət bazasına 20317,4 min manatlıq idxal malları daxil olmuşdu [210].

Təkcə 1979-cu ildə 15 ölkəyə, o cümlədən 8 kapitalist ölkəsinə göndərilən 9,9 mln. manatlıq malların reallaşdırılması hesabına "Azərittifaq"ın tərkibində olan "Azərkooperasiya" xarici ticarət bazasının ünvanına 29,4 mln. manat həcmində idxal malları gətirilmişdi. 1979-1983-cü illərdə 56,7 mln. manat kooperativ mallar ixrac edilmiş, 221,7 manat həcmində müxtəlif mallar gətirilmişdi. Bu təşkilatın ixrac potensialına dərman və texniki bitkilərin, yabanı halda bitən giləmeyvələrin, kooperativ sənayenin bəzi məhsulların, dövlət tabeçiliyində olan sənaye müəssisələrinin müxtəlif istehsalat tullantılarının daxil edilməsi xarici ticarət əməliyyatlarının həcmini artırırdı. Lakin bəzi rayonların o cümlədən Quba, Gədəbəy, Şamaxı, Zəngilan, Lerik, Qubadlı, Yardımlı və Dağlıq Qarabağın kooperativ təşkilatlarında, bu rayonların böyük təbii-coğrafi imkanları olmasına baxmayaraq, yabanı halda bitən giləmeyvə və dərman bitkilərinin tədarükü və ixrac edilməsi işləri aparılmırdı. Xaricdə istehsal olunmuş istehlak mallar tədarükçülərin əməyinin stimullaşmasına yönəldilməsi əvəzinə tamamilə başqa məqsədlər üçün istifadə edilirdi [208, 91-92].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin *"1981-1985-ci illərdə Azərbaycan SSR istehlak kooperasiyasının inkişafı və fəaliyyətinin yaxşılaşdırılmasının əlavə tədbirləri haqqında"* 21 iyul 1981-ci il tarixli qərarı ilə təşkilatın maddi-texniki bazasının inkişafına ittifaq büdcəsindən 7,5 mln. manat və bir o qədər də Respublika büdcəsindən əsaslı vəsait ayrılması, kooperativ müəssisələrdə ərzaq və qeyri-ərzaq malları istehsalının artırılması, 400 pərakəndə satış, 30 ictimai iaşə müəssisənin istifadəyə verilməsi, Bakı kooperativ texnikumunun yeni tədris binasının, Naxçıvan və Xankəndində tədris mərkəzlərinin tikilməsi nəzərdə tutulurdu. Qərarda daxili imkanlar hesabına "Azərittifaq"ın xarici ticarət idarəsinin 3 ştat vahidi artırılmasına icazə verilmişdi [135, 117-123].

Lakin xarici ticarət əməliyyatlarında, xüsusilə qonşu müttəfiq respublikalarla ticarət-mübadilə əməliyyatlarının aparılmasında kobud qanun pozuntularına yol verilirdi. Respublikanın xarici ticarət əlaqələrində mühüm payı olan "Azərittifaq" rəhbərliyinin bəzi qanunsuz hərəkətləri onun fəaliyyətinə "kölgə" salırdı. Azərbaycan KP MK-nın 1982-ci il yanvarın 1-də keçirilən büro iclasında Heydər Əliyev "Azərittifaq" rəhbərliyini fəaliyyətində ciddi nöqsanlara yol verdiklərinə görə ciddi surətdə tənqid etmişdi. Söhbət ölkə əhalisinin bir çox ilkin tələbat malları ilə təmin edilməsinə ziyan vuran qanunsuz mübadilə əməliyyatlarının aparılmasından gedirdi. Heydər Əliyev "Azərittifaq" rəhbərliyinin icazəsi ilə Balakən rayonu ərazisindən qonşu respublikalara bir sıra zəruri ərzaq və sənaye məhsullarının daşınaraq (pendir, şirə, cem, tomat, konservlər, rəngli televizor, motosikletlər, avtomobillərin ehtiyat hissələri və s.) araq və tütün məhsulları ilə mübadiləsində yol verilən əyintilərə çox ciddi reaksiya vermişdi. O, bu faktlara münasibətini 1982-ci il yanvarın 19-da respublikanın partiya-təsərrüfat fəalları yığıncağındakı məruzəsində belə ifadə etmişdi: *"Yoldaşlar, bu ki, Azərittifaqın rəhbərlərinin açıq-aşkar imkan yaratdıqları cinayətdir. Axı, onlar bunun qarşısını almaq üçün heç bir tədbir görməmiş, belə əməliyyatların qanuniliyini sübut etməyə çalışmışlar. Onların kommersiya əməliyyatları adlandırdıqları bu əməliyyatları mən fırıldaqçılıq hesab edirəm"* [137, 73-79; 159, 1982, № 3, 36].

Azərbaycanın sənaye müəssisələrində ixrac tutumlu məhsul istehsalının həcminin və çeşidinin artırılması sahəsində dövlət səviyyəsində aparılan təşkilati və elmi-texniki işlər ardıcıl olaraq davam etdirilməkdə idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin *"1980-ci ilin ixrac planının yerinə yetirilməsinin təmin edilməsi tədbirləri haqqında"* 1980-ci il 2 sentyabr tarixli qərarında bir çox müəssisələrin texniki imkanlarından aşağı səviyyədə işləməsi, yeni ehtiyat mənbələrindən istifadə edilməsində yol verilən geriliyin səbəbləri göstərilirdi. Azərbaycan KP MK və Nazirlər Sovetinin 1982-ci il 30 mart tarixli qərarında isə QİYŞ üzvü ölkələrindən respublikanın yüngül sənaye

müəssisələrinə zəruri texniki avadanlıqlar alınması üçün SSRİ Xarici ticarət nazirliyi qarşısında məsələ qaldırılmışdı [138, 57-64].

Aparılan məqsədyönlü işlər öz müsbət nəticəsini göstərməkdə idi. 1970-ci ildə Azərbaycanın 70 müəssisəsi 56 ölkəyə 291 adda, 1975-ci ildə 100 müəssisəsi 64 ölkəyə 300 adda, 1980-ci ildə 110 müəssisə 85 ölkəyə 350 adda məhsul ixrac etmişdi. İxracın həcmi 1970-ci ildə 141, 1 mln., 1975-ci ildə 244,3 mln., 1980-ci ildə 217,2 mln., 1989-cu ildə isə 487,9 mln. manat olmuşdu [148, 17-18].

Respublikamızın xarici ölkələrlə ticarət əlaqələrində ixracın həcmi 1970-ci ildə 141,1 mln. manat, 1975-ci ildə 244,3 mln. manat, 1980-ci ildə 217,7 mln. manat idi. Həmin artım tempi sonrakı illərdə də davam etmiş, 1985-ci ildə 278,8 mln. manata, 1989-cu ildə isə 487,9 mln. manata çatmışdı. Azərbaycan 25 inkişaf etmiş kapitalist ölkəsi ilə ticarət əlaqələri saxlayırdı. ABŞ, İngiltərə, Fransa, Avstriya, Yaponiya, İsveç, İspaniya və Danimarkaya neft və neft məhsulları, neft-mədən avadanlığı, maşınqayırma və kənd təsərrüfatı məhsulları göndərirdi. QİYŞ üzvü ölkələrindən Bolqarıstan, Polşa, Macarıstan, Yuqoslaviyaya və ADR-ə 50 adda, Çexoslovakiyaya 28 adda məhsul ixrac edilirdi. Vyetnam, KXDR, Monqolustan və Kuba ilə geniş iqtisadi-ticarət əlaqələri yaradılmışdı. Hindistan, Suriya, Əfqanıstan, Türkiyə və İranla ticarət əlaqələri daha geniş idi. Afrikada Azərbaycanın əsas ticarət tərəfdaşları Əlcəzair, Qvineya, Misir, Keniya, Konqo, Liviya, Mali, Mərakeş, Nigeriya, Somali, Sudan, Tanzaniya, Həbəşistan və Anqola, Cənubi Amerikada isə Argentina, Braziliya, Peru və Boliviya dövlətləri idi [148, 19].

Azərbaycan həm öz coğrafi mövqeyi və beynəlxalq nəqliyyat qovşağının mərkəzində yerləşməsi ilə, həm də yük daşımaları sahəsində beynəlxalq əməkdaşlığa cəlb olunmuşdu. Xəzər Dəniz Gəmiçiliyi idarəsi beynəlxalq dəniz daşımaları sahəsində böyük təcrübəyə malik idi. 1971-ci il iyulun 22-də Xəzər Dəniz Gəmiçiliyi idarəsi ilə İranın liman və gəmiçilik təşkilatı arasında iki saziş imzalandı. SSRİ-İran iqtisadi-ticarət əlaqələri əsasən dəniz daşımaları sahəsində inkişaf etməkdə idi. Azərbaycan həmin illərdə Xəzər dənizinin cənub sahillərində İrana məxsus ticarət limanlarının yenidən qurulmasında iştirak edirdi. Bu qonşu ölkənin liman təsərrüfatının texniki təchizat səviyyəsinin xeyli yüksəlməsinə səbəb olmuşdu. Pəhləvi limanında iki ədəd qaldırıcı kran istifadəyə verildi, üçüncüsü isə quraşdırılmaqda idi. Bakı-Pəhləvi və Bakı-Nouşəhr limanları arasında idxal yüklərinin daşınması, Xəzər Dəniz Gəmiçiliyi gəmilərinin cədvəl üzrə Bakı-Pəhləvi-Bakı xəttində müntəzəm hərəkəti haqqında razılıq əldə edilmişdi. Xəzər dənizində beynəlxalq gəmiçiliyin inkişafı İran mənşəli malların Azərbaycan SSR-dən tranzit daşımaların həcmini artırmaqda idi. Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri Bakıdan İrana neftçıxarma avadanlıqları, müxtəlif metallar və maşınlar, avtomobillər, sement, ərzaq məhsulları, tikinti

materialları, SSRİ-İran magistral qaz kəməri və Sovet İttifaqı tərəfindən tikilən İsfahan metallurgiya kombinatı üçün zəruri texniki avadanlıqlar daşıyırdı. Əgər 1970-ci ildə Xəzər Dəniz Gəmiçiliyi idarəsinin gəmiləri ilə İrana məxsus 427,2 min ton idxal-ixrac yükləri daşınmışdı. 1971-ci ildə bu göstərici 20,2 faiz çox olmaqla, daşımaların həcmi 513,5 min tona çatmışdı. Bakı limanı İran mallarının mühüm tranzit məntəqəsinə çevrilmişdi. İrana tranzit yük daşımalarının illik həcmi 50 faiz artaraq 250, 1 min tona çatmışdı [124, 45-47].

Bütövlükdə, Xəzər Dəniz Gəmiçiliyi idarəsi tərəfindən 14 ölkəni təmsil edən şirkətlərin sifarişi əsasında 1970-ci ildə 581,5 min ton yük daşınmış və 3445 min xarici valyuta manat gəlir əldə edilmişdi. 1978-ci ildə yük daşımaları 666 min ton, gəlir 5605 min xarici valyuta manat olmuş və daşımaların həcmi ildən-ilə artmaqda idi [214, 50].

1971-1973-cü illərdə Azərbaycan SSR-ə 1966-1970-ci illərlə müqayisədə iki dəfə çox - 30 min nəfər xarici turist gəlmişdi. Bir sıra xarici ölkələrdə Azərbaycan SSR-nin "Turizm günü" və "Turizm həftəsi" keçirilmişdi. Bütün bunlarla yanaşı ölkənin geniş xarici turizm imkanlarından səmərəli istifadə edilmirdi. Qərarda qeyd olunurdu ki, respublika Nazirlər Soveti yanında xarici turizm İdarəsi bu işin yüksək səviyyədə təşkili, xarici turistlərin qəbulu və xidmət səviyyəsinin yüksəldilməsi məsələlərinə peşəkarcasına yanaşmır. Belə ki, 1973-cü ilin turizm mövsümünün ən qızğın vaxtı "Azərbaycan" mehmanxanasının qonaq qəbulu imkanının cəmi 7,5 faizindən istifadə edilmişdi. İdarə xarici turistlərə müxtəlif xidmət növlərinin proqramının təkmilləşdirilməsi ilə zəif məşğul olurdu, halbuki mədəni-kütləvi xidmətlər təklif etməklə əlavə valyuta gəliri əldə etmək olardı [128, 94-102].

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun *"Azərbaycan SSR-də xarici turizmin inkişaf etdirilməsi tədbirləri haqqında"* 21 may 1974-cü il tarixli 94 saylı qərarında göstərilirdi ki, son illər ərzində respublikaya xarici turist axını əhəmiyyətli dərəcədə artmış, onların qəbul edilməsi və göstərilən xidmətin yaxşılaşdırılması üçün müəyyən işlər görülmüşdür. Heydər Əliyevin öz dəst-xətti ilə layihəsində düzəlişlər edilən qərarda göstərilirdi ki, Azərbaycanda xarici turizmin daha da inkişaf etdirilməsi üçün turizm obyektlərinin maddi-texniki bazası müasir tələblər səviyyəsinə çatdırılmalı və respublikamızın turizm potensialının xarici ölkələrdə təbliğ olunmalıdır. Qərarda turizm müəssisələri kompleksi yaradılmasının texniki-iqtisadi əsaslandırılması və layihələndirilməsi haqqında təkliflərin hazırlanması, Bakı, Sumqayıt, Mingəçevir, Şəki, Quba, Şamaxı, Ağdaş, İsmayıllı, Göyçay, Zaqatala, Qax və Balakənin turizm marşrutları üzrə avtomobil yollarının təmiri və yeni yolların tikintisi nəzərdə tutulurdu. Azərbaycan SSR Nazirlər Soveti qısa müddət ərzində xarici avtoturizmin inkişaf etdirilməsi məqsədi ilə Bakı-Gəncə-Tiflis marşrutu açıldı. Quba

rayonunda dövlət nümunəvi ovçuluq-təcrübə təsərrüfatının yaradılması, milli suvenir və xalq yaradıcılığı məmulatları istehsalının artırılması və çeşidlərinin yaxşılaşdırılması nəzərdə tutulurdu.

Respublikada xarici turizmin inkişafı ilə Azərbaycan Baş Xarici Turizm İdarəsi və Azərbaycan Turizm və Ekskursiya Şurası məşğul olurdu. 1975-ci ildə bu xidmət növü ilə 28, 3 min nəfər, 1978-ci ildə isə 20, 5 min nəfər xarici ölkə vətəndaşı əhatə olunmuşdu. Xarici ölkələrə turist səfərinə müvafiq olaraq 4,5 min nəfər və 5,3 min nəfər Azərbaycan vətəndaşı göndərilmişdi. Xarici turizm xidmətindən 1975-ci ildə 51, 6 min, 1978-ci ildə isə 82,6 min manat (xarici valyuta manat hesabı ilə) gəlir əldə edilmişdi.

Sovet İttifaqının ali rəhbərliyi Heydər Əliyevin sosial-iqtisadi quruculuq sahəsində nəhəng təşkilatçılıq fəaliyyətini yüksək qiymətləndirirdi. Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin sədri L.İ.Brejnev 1979-cu il sentyabrın 6-da Kremldə, Heydər Əliyevi Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının "Oraq və çəkic" qızıl medalı ilə təltif edərkən demişdi: *"Razılıq hissi ilə qeyd etmək olar ki, Siz, Heydər Əliyeviç, Azərbaycan KP Mərkəzi Komitəsinə başçılıq etdiyiniz on il ərzində kommunist-rəhbərinin zəruri keyfiyyətlərini inandırıcı surətdə göstərmisiniz. Azərbaycan zəhmətkeşlərinin nail olduqları yaxşı və sabit nəticələrdə Sizin böyük xidmətiniz vardır və mövcud nöqsanları aradan qaldırmaq, vaxtı çatmış böyük vəzifələri yerinə yetirmək üçün Siz az iş görmürsünüz. Mükafat da elə buna görə verilir. Layiqli mükafat, Heydər Əliyeviç"* [150, 49-51].

Beləliklə, dünya ərazisinin cəmi 0,136 faizini və dünya əhalisinin 0,06 faizini təşkil edən Azərbaycan SSR dünya pambıq istehsalının 3,57, təbii qazın 0,56, neftin 0,43 faizini verirdi. Elektrik enerjisi, polad və dəmir filizi, mineral gübrə, kükürd turşusu, sintetik kauçuk, plastmas və bir çox başqa kimya məhsullarının istehsal həcminə görə respublika öndə gedən ölkələr sırasında idi. Əlverişli coğrafi mövqe və təbii sərvətlər beynəlxalq iqtisadi-ticarət əlaqələrində fəal iştirak etməyə imkan verirdi [148, 2].

1969-1982-ci illərdə xarici ölkələrlə iqtisadi əlaqələrin yaradılması və möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə edildi. Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələri xeyli genişləndi. Bu illər ərzində ölkəmizin bu sahədə əməkdaşlıq etdiyi ölkələrin və şirkətlərin sayı, həmçinin ticarət dövriyyəsinin həcmi xeyli artdı. Məsələn, 1970-ci ildə Azərbaycanın 70 müəssisəsi 56 ölkəyə 291 adda, 1975-ci ildə 100 müəssisəsi 64 ölkəyə 300 adda, 1980-ci ildə 110 müəssisə 85 ölkəyə 350 adda müxtəlif məhsullar göndərmişdi. Lakin Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələrinin vəziyyəti respublikanın potensial imkanlarına və tələbatına uyğun deyildi. Uzun illər ərzində ölkəmiz dünya iqtisadi məkanında münasibətlərini ittifaq orqanları vasitəsi ilə qurulması milli maraqlarımıza öz

mənfi təsirini göstərirdi, xarici ticarət və gömrük yığımlarından əldə edilən mənfəətlərin çox hissəsi respublikamıza çatmırdı.

Bütün bunlarla yanaşı, ötən yüzilliyin 70-80-ci illərində Ümummilli lider Heydər Əliyevin nəhəng dövlətçilik fəaliyyətində Azərbaycan SSR-in beynəlxalq iqtisadi əlaqələrinin inkişafı, respublika sənayesinin və aqrar bölmənin ixrac potensialının durmadan artırılması, Azərbaycan mallarının xarici bazarlarda tanınması, ölkəmizdə xarici turizmin infrastrukturunun yaradılması kimi məsələlər mühüm yer tutmuşdur. Sözsüz ki, o dövrdə Azərbaycan müstəqil dövlət olmasa da, Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi sayəsində 1969-1982-ci illərdə Azərbaycanın xarici iqtisadi əlaqələrində keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyuldu. Respublikamızın ixrac potensialının artmasına istiqamətlənən siyasi qərarlar qəbul edildi, bu sahədə daha geniş təşkilati işlər aparıldı. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkənin ixrac potensialının fundamental əsaslarının yaradılması və xarici ticarət fəaliyyətin səmərəli idarə edilməsi sahəsində zəngin təcrübə qazanıldı. Heydər Əliyev keçilmiş yola yekun vuraraq deyirdi: *"Ümumittifaq əmək bölgüsündə Azərbaycanın rolu, SSRİ-nin xarici iqtisadi əlaqələrində onun iştirakı xeyli gücləndi. Respublikamız neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metal, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişətdə işlədilən kondisionerlər, avtomobil şinləri, mineral gübrələr, çini-saxsı məmulat, xalça məmulatları istehsalına görə ölkədə əsas yerlərdən birini tutur"* [157, 17-18].

Azərbaycan KP MK-nın *"Azərbaycan SSR-dən ixrac edilən malların keyfiyyətinin yaxşılaşdırılması, istehsal həcminin daha da artırılması vəziyyəti və görülən tədbirlər haqqında"* 1979-cu il 3 aprel tarixli qərarının mühüm əhəmiyyəti oldu.

Azərbaycanın xarici valyuta vəsaitlərinin formalaşmasında kimya sənayesinin istehsalat tullantılarının, şərabçılıq və yerli sənaye məhsulları ixracının əhəmiyyətli rolu var idi. Təkcə 1981-1982-ci illərdə bu hesaba 20 mln. xarici valyuta manat əldə edilərək yeyinti, ət-süd və yerli sənaye müəssisələrində quraşdırılması üçün yüksək məhsuldarlığa malik xarici avadanlıqlar alınmışdı. Xarici ölkələrlə iqtisadi-ticarət əlaqələrində birbaşa mal mübadiləsi əməliyyatları mühüm yer tuturdu. 1981-1982-ci illərdə "Azərittifaq" tərəfindən xarici ölkələrə 28,3 mln. manat həcmində mallar göndərilmiş, əvəzinə respublikaya 140,6 mln. manatlıq (pərakəndə satış qiymətləri ilə) sənaye və ərzaq malları idxal edilmişdi. 1981-ci ildə yaradılan "Azərkoopdərtexxammal" idarəsinin illik mübadilə əməliyyatları 194 ton olmaqla 13 adda dərman bitkisini əhatə edirdi. 1982-ci ildə yeni yaradılan idarə tərəfindən xarici ünvanlara 549 min manat həcmində dərman bitkiləri göndərilmişdi.

Lakin xarici iqtisadi-ticarət əlaqələrinin qurulmasında nöqsan və çatışmazlıqlar da yox deyildi. Respublikanın bəzi nazirlikləri xarici iqtisadi əlaqələrdə passiv balansa malik idi. Məsələn, Yüngül sənaye nazirliyinin rəhbərliyi tabeliyində olan sənaye müəssisələrinin ixrac imkanlarına malik olmadığını bəhanə edərək problemin həllindən yayınmağa çalışırdılar. Azərbaycanın Yeyinti sənayesi nazirliyinin müəssisələri üçün xaricdən hər il bahalı xarici avadanlıqlar alınmasına baxmayaraq, nazirliyin heç bir müəssisəsində ixrac malları istehsal olunmurdu. Azərbaycan SSR Ticarət nazirliyi ayrılmış 17 mln. manat həcmində mal mübadiləsi limitindən istifadə etmirdi. Nazirlik bu işə biganə yanaşaraq idxal resurslarını yönəldilməsi ilə məşğul olan "İttifaqsənayeidxal" ticarət birliyinə təklif etdiyi malların texniki göstəriciləri haqqında zəruri məlumatları təqdim etmirdi. Bundan əlavə, əllə toxunan xalça məhsullarının malların ixracı iki dəfə azaldığına görə 1,6 mln. manat xarici valyuta manat az vəsait daxil olmuşdu. 1981-1982-ci illərdə respublikanın sənayesi müəssisələri üçün 158 mln. manatlıq, o cümlədən kapitalist ölkələrindən 35,7 mln. manatlıq maşın və avadanlıqlar idxal olunmuşdu. Bunlar əsasən neft-qaz çıxarma avadanlığı və mexanizmləri, metal emalı avadanlıqları və kütləvi istehlak malları idi. Xaricdən alınan maşın və avadanlıqlar vaxtlı-vaxtında quraşdırılıb istifadəyə verilmirdi. 1983-cü ilin əvvəli üçün xaricdən alınıb gətirilən 88 mln. manat həcmində maddi-texniki ehtiyatlardan istifadə edilməmişdi. Məsələn, 1982-ci ildə Meşə-ağac sənayesi, Avtomobil nəqliyyatı nazirlikləri, "Xəzərdənizneftqazsənaye" ümumittifaq birliyi, "Azneft" birliyi və digər müəssisə və təşkilatlara 93,4 mln. manat həcmində 645 adda xarici maşın və avadanlıq alınsa da, bunların yalnız 51,6 mln. manatlığı (55 faiz) quraşdırılaraq istismara təhvil verilmişdi. Meyvə-tərəvəz və Yerli sənaye nazirlikləri İtaliyadan alınan və müvafiq olaraq narın və mərmərin emalı üçün nəzərdə tutulan, 974 min və 371 min manat dəyərində texnoloji xətlərin quraşdırılıb istifadəyə verilməsini təmin etməmişdilər. Bununla yanaşı, kapitalist ölkələrindən idxal edilən xammal və materiallar Azərbaycanın bir çox sənaye müəssisələri, o cümlədən Gəncə alüminium zavodu, "Azneft" istehsalat birliyi, "Azərelektroişıq", "Üzvi sintez", Bakı məişət cihazları və Mayesiz transformatorlar zavodları üçün zəruri əhəmiyyət daşıyırdı. Respublikaya kapitalist ölkələrindən 80 adda müxtəlif materiallar idxal olunurdu.

Azərbaycan KP MK Bürosunun Sov.İKP MK-nın 1983-cü il 7 iyul tarixli "*SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovun "Yeddi kapitalist dövləti başçılarının 1983-cü il may ayının 28-30-da Vilyamsberqdə (ABŞ) keçirilən müşavirəsində qəbul edilən qərarların Sovet İttifaqına mümkün iqtisadi təsirləri haqqında qeydləri"* adlı qərarına istinad olunaraq qəbul etdiyi 1983-cü il 9 avqust tarixli qərarında xarici iqtisadi əlaqələrinin mövcud vəziyyəti təhlil olunmuşdu. Qərarda Azərbaycanın ayrı-ayrı nazirlik və

müəssisələrin ixrac potensialının artırılması və kapitalist ölkələrindən idxal asılılığının azaldılması üçün qarşıda duran vəzifələr müəyyən edilmişdi. Azərbaycan KP MK-nın iqtisadiyyat və maşınqayırma şöbələrinin hazırladığı arayışda göstərilirdi ki, 1981-1985-ci illəri əhatə edəcək on birinci beşilliyin 2,5 ili ərzində ixrac planı üzrə dövlət sifarişi 114,4 faiz yerinə yetirilərək 84 xarici ölkəyə 360 adda 754 mln. manatlıq məhsul göndərilib. İxracın strukturunda müsbət irəliləyişlər olub: əgər 1976-cı ildə ixrac mallarının cəmi 7,6 faizini maşınqayırma məhsulları təşkil edirdisə, 1982-ci ildə bu göstərici 15,0 faizə yüksəlmişdi. Lakin ixracın strukturunda ilkin emal məhsulları hələ də üstünlük təşkil edirdi: pambıq lifi, alüminium ərintisi, dəmir filizi konsentratı və sintetik kauçuk ixracın 60 faizini, neft məhsulları isə 25 faizini təşkil etmişdi.

Respublikanın bir çox sənaye müəssisələrində hazırlanan məhsullar xarici ölkə bazarlarında rəqabətə davamlı deyildi və texniki parametrlərinə görə xarici analoqlardan geri qalırdı. "Azərelektromaş", "İttifaqneftmaş" istehsalat birlikləri və 26 Bakı komissarı adına zavod aşağı keyfiyyətdə ixrac məhsulları göndərməkdə davam edirdi. Xüsusi sex və istehsal sahələrinin yaradılması, yeni texnoloji avadanlıqların quraşdırılması işi ləng aparılırdı. İxraca göndərilən pambıq lifi aşağı keyfiyyətdə olduğuna görə bəzi xarici şirkətlər bu məhsulu almaqdan imtina edirdi. 1983-1985-ci illərdə Bakı zərgərlik zavodu, "Üzvi kimya" istehsalat birliyi və Elektron hesablama maşınları zavodu və s. müəssisələr tərəfindən 6,8 mln. manat həcmində ixrac məhsulu az göndərilmişdi.

Respublika rəhbərliyi ixrac potensialının həcminin artırılmasında yerli müəssisə və təşkilatlarda istehsal intizamının önə çəkilməsini, elmtutumlu məhsul istehsalının artırılmasını əsas şərtlərindən hesab edirdi. Azərbaycan KP MK Bürosunun 1983-cü il 9 avqust tarixli 103 saylı qərarında idxal-ixrac əməliyyatlarının səmərəsinin artırılması və idxaldan asılılığın aradan qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu:

1) 1986-1990-cı illərdə və daha uzunmüddətli dövrdə respublika xalq təsərrüfatının idxaldan asılılığını aradan qaldıran və ixracın strukturunda emal məhsullarının payını artırmağa xidmət edən xüsusi tədbirlərin həyata keçirilməsi;

2) rəqabət qabiliyyətli ixrac mallarının çeşidinin artırılması üçün yeni adda məhsulların istehsalı;

3) yalnız ölkə sənayesinin istehsal etmədiyi xarici maşın və avadanlıqların idxalına yol verilməsi;

4) Elmlər Akademiyası, sahə elmi-tədqiqat və təcrübə-konstruktor təşkilatları kapitalist ölkələrindən idxal edilən xammal, maşın və avadanlıqların ehtiyat hissələrinin hazırlanması üçün tədqiqat işlərinin genişləndirilməsi;

5) Xarici Ticarət Nazirliyinin ixrac mallarının keyfiyyəti üzrə Dövlət müfəttişliyinin Azərbaycan şöbəsi ixrac mallarının keyfiyyətinə nəzarət işini gücləndirsin və s. [139, 21-31].

Yeni tarixi mərhələdə - müstəqil Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, yaxın və uzaq ölkələrlə milli maraqlara cavab verən xarici iqtisadi əlaqələrin daha səmərəli forma və metodlarının axtarışı və tətbiqində ötən yüzilliyin 70-80-ci illərində keçilmiş yolun əvəzedilməz tarixi əhəmiyyəti oldu.

### 3.2. Gömrük əməliyyatlarının həcminin artması. Bakı gömrükxanası

Bakı ticarət limanı Avropa və Şərq ölkələri, xüsusilə, İran və qonşu ölkələrlə tranzit ticarətinin mühüm mərkəzinə çevrilmişdi. "Sovavtonəqliyyat" ümumittifaq birliyinin Bakı şöbəsi və Xəzər Dəniz Gəmiçiliyi idarəsinin daşıdığı yüklər Bakı gömrükxanasının nəzarəti altında həyata keçirilirdi. Məlum olduğu kimi, Azərbaycan SSR ərazisində fəaliyyət göstərən sovet gömrükxanaları xarici iqtisadi əlaqələrin həyata keçirilməsində iştirak edən əsas dövlət qurumlarından biri idi. Xarici ticarət əməliyyatlarında ittifaq əhəmiyyətli Bakı və Culfa gömrükxanaları geniş fəaliyyət göstərirdi.

Bakı gömrükxanası dəniz limanının körpülərində, Bakı mərkəzi poçtunun beynəlxalq şöbəsində, aeroportda, dəmiryolunun Bakı və Keşlə yük stansiyalarında, eyni zamanda Ticarət Palatasının xətti ilə Bakıda təşkil olunan beynəlxalq sərgilərə gömrük baxışını həyata keçirirdi.

Gömrükxana sənədlərinə əsasən, Bakı və Həştərxan limanlarına yan alan gəmilərə gömrük nəzarətinin və baxışının həyata keçirilməsi Bakı gömrükxanasının işinin əsas ağırlığını təşkil edirdi. Xəzər hövzəsində Rusiyanın Çay gəmiçiliyi Nazirliyi təkcə 1969-cu ildə 40 gəmisi İrana 51733 ton yük aparmış, İrandan isə 17254 ton yük gətirmişdi. Təkcə 1970-ci ilin ikinci yarısında SSRİ-yə dəniz nəqliyyatı ilə 214612 ton, avtomobil nəqliyyatı ilə gətirilən 5248 ton yük, SSRİ-dən isə gəmilərlə 145353 ton, avtomobillərlə daşınan 867 ton yük Bakı gömrükxanasında gömrük nəzarətindən keçirilmişdi. Həmin müddətdə gömrükxanada 1721 nəqliyyat vasitəsi, o cümlədən 311 gəmi (onlardan 11-i xarici ölkə bayrağı altında üzən), 856 yük avtomobili, 17 avtobus və 526 minik avtomobili qeydə alınmışdı [110, 26 ].

Bakı gömrükxanası üzrə 1970-ci ildə xaricə üzən gəmilərin sərnişinlərdən 48272, poçt bağlamalarına görə 3122 manat, 1395 manat anbar rüsumu tutulmuşdu. Qaçaqmalçılıq işlərinə görə 2013 manat cərimə alınaraq büdcəyə köçürülmüşdü. Bütövlükdə 1970-ci ildə plandankənar daxilolmalar 58385 manat təşkil etmişdi [111, 21].

Bakı gömrükxanasının yeni inzibati binasının 1970-ci ildə başlanılan tikintisinə (Neftçilər prospekti, 62) tikintisinin smeta dəyəri 302,2 min manat (1969-cu ilin müqayisəli qiymətləri ilə) vəsait ayrılmışdı. Gömrükxana rəhbərliyinin tələbindən sonra, SSRİ Baş Gömrük İdarəsinin rəis müavini A.Koks Bakı gömrükxanasının rəisi E.Zülfüqarzadəyə göndərdiyi 1971-ci il 18 mart tarixli məktubda qısa müddətdə gömrükxananın yeni inzibati binasının tikintisinə aid məsələyə baxılacağı və gömrük müəssisələrinin hesablama texnikası ilə təchiz edilməsi planına əsasən yaxın müddətə Bakıya "Kontaks-55" markalı hesablama maşını ilə təmin olunacağı vəd edilmişdi. Baş Gömrük İdarəsindən Moskvaya ünvanlanan 1972-ci il 7 dekabr tarixli məktubda isə gömrükxananın texniki təchizatının son dərəcə aşağı səviyyədə olması, bir sıra texniki avadanlıqların çatışmaması qeyd olunmuşdu [109, 76 ].

Cədvəl 3.3

**1971 və 1972-ci illərdə SSRİ-nin dövlət sərhədindən keçən və Bakı gömrükxanasında qeydə alınan nəqliyyat vasitələri və yüklər haqqında məlumat**

| s/s | Nəqliyyat növləri və yüklər | SSRİ-dən | | SSRİ-yə | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|
| | İllər | 1971 | 1972 | 1971 | 1972 | 1971 | 1972 |
| 1. | Bütün yüklər (tonla) | 356240 | 373573 | 151689 | 115842 | 507925 | 489421 |
| | o cümlədən, - dəniz nəqliyyatı ilə | 356113 | 373474 | 150310 | 115842 | 506423 | 489316 |
| | - avtomobillə | 129 | 109 | 1373 | - | 1502 | 109 |
| 2. | Nəqliyyat vasitələrinin sayı | 566 | 397 | 604 | 401 | 1170 | 798 |
| | o cümlədən, - dəniz gəmiləri | 334 | 374 | 334 | 379 | 668 | 773 |
| | - yük avtomobilləri | 123 | 18 | 152 | 16 | 275 | 34 |
| | - minik avtomobilləri | 84 | 2 | 98 | 1 | 182 | 3 |
| | - avtobuslar | 9 | 2 | 10 | - | 19 | 2 |
| | - təyyarələr (xarici ölkə) | 4 | - | - | - | - | 4 |

Hesablanıb: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 52.

Bakı gömrükxanasında qeydə alınan nəqliyyat vasitələri və yüklər haqqında 1971-və 1972-ci illərə aid məlumatın təhlili göstərir ki, yüklərin böyük bir hissəsi dəniz nəqliyyatı ilə daşındığına görə, gömrük nəzarəti əsasən Bakı ticarət limanı ərazisində aparılırdı. Aşağıdakı cədvəldən göründüyü kimi, 1972-ci ildə Bakı gömrükxanasında qeydə alınan 489,4 min ton yükün 373,5 min tonunu və ya 76,3 faizini ixrac malları, 115,8 min tonunu və ya 23,7 faizini idxal malları təşkil etmişdir. Gömrük əməkdaşları tərəfindən 1972-ci ildə cəmi 816 nəqliyyat vasitəsinə, o cümlədən 773 dəniz gəmisinə gömrük baxışı keçirilmişdi.

Xarici ticarət fəaliyyətinin genişlənməsi ilə əlaqədar sonrakı illərdə gömrük nəzarətində işlərin həcmi də artırdı. 1971-ci illə müqayisədə 1975-ci ildə Bakı gömrükxanası üzrə qeydə alınan xarici ticarət yüklərinin həcmi 507,9 min tondan 605,5 min tona yüksəlmişdi. Gömrük nəzarətindən keçirilən nəqliyyat vasitələrinin sayı 4,8 dəfə artmışdı. Daşımalarda avtomobil nəqliyyatının payı artmaqda idi. Belə ki, 1975-ci ildə 4752 ədəd yük və minik avtomobilinə gömrük baxışı keçirilmişdi ki, bu 1971-ci ildə olduğundan 10 dəfə çox olmuşdu.

Bakı gömrükxanasının inspektoru A.Zərbəliyevin apardığı müşahidələrə görə, gəmilər İrandan qayıdarkən Həştərxan gömrük-buraxılış məntəqəsinə çatmamış 12-14 saat ərzində sahilində 14 yaşayış məntəqəsinin yerləşdiyi 180 km uzunluğunda kanaldan keçirdi. Bu müddətdə gəmi heyətinin yerli balıqçılarla təmas qurmasına, daha doğrusu, qaçaqmalçılıq hərəkətlərinin həyata keçirilməsinə əlverişli şərait yaranırdı. Bakı gömrükxanasının rəhbərliyi Baltik gəmilərinə gömrük baxışının Həştərxan limanında aparılmasını düzgün hesab etmirdi.

Cədvəl 3.4

**1975-ci ildə Bakı gömrükxanasında gömrük nəzarətindən keçirilən yüklər və nəqliyyat vasitələri**

| s/s | Nəqliyyatın növləri | SSRİ-yə | SSRİ-yə | Cəmi |
|---|---|---|---|---|
| I. | Buraxılan yüklər (min tonla), o cümlədən | 460,1 | 145,4 | 605,5 |
| | - dəniz nəqliyyatı ilə | 439,5 | 144,6 | 584,1 |
| | - avtomobil nəqliyyatı ilə | 20,6 | 0,8 | 21,4 |
| | - dəmir yolu nəqliyyatı ilə | - | - | - |
| | Nəqliyyat vasitələri (ədəd) o cümlədən | 2881 | 2827 | 5708 |
| II. | - gəmilər | 401 | 135 | 536 |
| | - sovet təyyarələri | 62 | 62 | 124 |
| | - xarici dövlətə məxsus təyyarələr | 12 | 15 | 27 |
| | avtomobillər | 2406 | 2346 | 4752 |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 62, v. 1-2.

Təkcə 1973-1974-cü illərdə Bakı gömrükxanasında 15816 manatlıq qaçaqmalçılıq faktı ilə əlaqədar 24 cinayət işi açılmışdı. Gömrük nəzarətindən qeyri-leqal bəzək əşyaları və valyuta keçirməyə cəhd edənlərin 12 nəfəri sovet, 13 nəfəri İran, hər ölkədən 1 nəfər olmaqla ABŞ, Əfqanıstan və Yəmən vətəndaşları olmuşdu. Qaçaqmalçılıq əşyaları içərisində əsas yeri qiymətli metallardan hazırlanmış üzük, bilərzik, sırğa və müxtəlif pullar tuturdu. İrana yaxın qohumlarının dəvəti ilə gedən azərbaycanlı ahıl qadınlar İran gömrükxanasında şəxsi istifadələrində olan bəzək əşyaları müsadirə edildiyindən, gömrük nəzarətindən yayındıraraq aparmağa məcbur olurdular. Gömrükxana əməkdaşları sərnişinlərə bu hərəkətlərin qanun pozuntusu olmasını və qiymətli əşyaların sərhəddən keçirilməsi qaydalarını izah edirdilər.

Cədvəl 3.5

**1974-cü ildə Bakı gömrükxanası üzrə plandan kənar gömrük yığımları haqqında məlumat (manatla)**

| s/s | Gömrük rüsum və yığımları | 01.01. 1974-cü ilə qalıq | Müsadirə malları | Qaytarılan mallar | Büdcəyə köçürülüb | 01.01.1975-ci ilə qalıq |
|---|---|---|---|---|---|---|
| 1. | SSRİ-yə gətirilən yüklərdən | 2511 | 58244 | 7931 | 52037 | 787 |
| 2. | Poçt bağlamalarından | - | 31963 | 587 | 31376 | - |
| 3. | Müsadirə olunan malların satışından | 5091 | 8598 | 2046 | 11550 | 93 |
| 4. | Qiymətli əşyaların və valyutanın satışından | 7763 | 64005 | 51262 | 10085 | 10421 |
| 5. | Daxil olan yüklərin mühafizəsinə görə | - | 190 | - | - | - |
| | **C ə m i** | **15365** | **163000** | **61826** | **105238** | **11301** |

Hesablanıb: ARDA Bakı filialı, f. 126, siy. 2, iş 35, v.1.

Cədvəldən göründüyü kimi, 1974-cü ildə qaçaqmalçılıq faktlarının aşkar edilməsi nəticəsində 163 min manatlı müxtəlif mallar müsadirə edilmiş, aparılan təkrar təhqiqatlardan sonra 61,8 min manatlıq mal

vətəndaşlara geri qaytarılmışdı. Gömrük rüsumları hesabına dövlət büdcəsinə 105,2 min manat vəsait köçürülmüşdü.

Gömrükxananın 1975-ci ilə aid hesabatına görə 66 halda 395 nüsxə pornoqrafik çap məhsullarının ölkəyə daşınmasının qarşısı alınmışdı [100, 12].

Azərbaycan SSR-in xarici iqtisadi əlaqələrinin genişlənməsi, xarici turizmin inkişafında irəliləyişlər, beynəlxalq sərgi və konfransların keçirilməsi gömrük xidmətində nəzarət işlərinin həcmini artırmışdı.

Bakı gömrükxanasında xidmətin əsas hissəsini dövlət sərhədini keçən sərnişinlərin gömrük baxışından keçirilməsi təşkil edirdi. Bunu aşağıdakı cədvəldən müşahidə etmək mümkündür.

Cədvəl 3.6

**1974-cü ildə SSRİ-nin dövlət sərhədini keçən və Bakı gömrükxanasında qeydə alınan sərnişinlər haqqında məlumat**

| s/s | Gömrük baxışı keçirilən sərnişinlərin kateqoriyası | Ölkəyə gələnlər | | Ölkədən gedənlər | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|
| | | sərnişinlərin sayı | yük yerlərinin sayı | sərnişinlərin sayı | yük yerlərinin sayı | sərnişinlərin sayı | yük yerlərinin sayı |
| 1. | **Bütün sərnişinlər** | 16138 | 18212 | 16445 | 18314 | 32583 | 36526 |
| 2. | **Ölkə vətəndaşları** onlardan: | 15823 | 17106 | 16105 | 16927 | 31928 | 34033 |
| a) | gömrük baxışından azad edilənlər | 19 | 61 | 17 | 57 | 36 | 118 |
| b) | digər sərnişinlər | 6113 | 6525 | 6372 | 6529 | 12485 | 13054 |
| c) | hava gəmisi ekipajı | 399 | 399 | 414 | 414 | 813 | 813 |
| ç) | gəmi ekipajı | 9181 | 9181 | 9193 | 9193 | 18374 | 18374 |
| d) | avtomobil sürücüləri | 29 | 6 | 29 | 6 | 35 | 12 |
| 3. | **Xarici vətəndaşlar** onlardan: | 315 | 1106 | 340 | 1387 | 655 | 1761 |
| a) | gömrük baxışından azad edilənlər | 21 | 50 | 25 | 85 | 46 | 135 |
| b) | hüquqşünaslar | 5 | 4 | 69 | 99 | 74 | 103 |
| c) | şəxsi işlə əlaqədar | 107 | 656 | 72 | 838 | 179 | 1494 |
| ç) | tranzit sərnişinlər | 147 | 293 | 123 | 268 | 270 | 561 |
| d) | digər | 6 | 20 | 25 | 18 | 26 | 38 |
| e) | hava gəmisinin ekipajı | 29 | 83 | 26 | 79 | 54 | 162 |

Hesablanıb: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 52.

Cədvəldən göründüyü kimi, bir il ərzində Bakı gömrükxanasında qeydə alınan 32583 nəfər sərnişinin 98 faizi SSRİ, cəmi 2 faizi xarici ölkə vətəndaşı olmuşdu. Gömrük baxışından keçən SSRİ vətəndaşlarının 60,2 faizi avtomobil, dəniz və hava nəqliyyatının ekipaj üzvləri idi.

Bakı gömrükxanasında gəmilərə gömrük baxışının təcrübəsi göstərirdi ki, gəmi heyəti arasında qaçaqmalçılıq halları əsasən Baltik dənizi gəmilərində daha geniş yayılmaqdadır. Məsələn, 1970-ci ildə gömrük nəzarəti Xəzər Dəniz Gəmiçiliyi üzrə cəmi 1 qaçaqmalçılıq faktı, Şimal-Qərb və Belomor-Oneqa gəmiçilik idarəsinin matroslarından 17 fakt üzrə 3509 manat dəyərində qaçaq mal aşkar edilmişdi. Qaçaqmalçılıq hallarının qarşısını almaq məqsədi ilə Bakı gömrükxanasının rəisi Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın ikinci şöbəsinin rəisi Ziya Yusifzadəyə məktubla müraciət edərək, mümkün olarsa, İrandan geri qayıdan bütün Baltik gəmilərinin daimi olaraq, Xəzər Dəniz Gəmiçiliyinə aid gəmilərin isə zəruri hallarda gömrük yoxlamasından keçirilməsinin vacib olduğunu bildirmişdi. Bakı gömrükxanası rəisinin əmri ilə "Baltikalı-31" teploxodunun 7 nəfər əməkdaşı Gömrük Məcəlləsinin 100 "e" maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilmişdi. Gömrük nəzarətindən gizlədilən qaçaq malların aşkar edilməsi faktlarına Bakıdan xarici ölkələrə köçüb gedən erməni millətinə mənsub sərnişinlər arasında daha çox rast gəlinirdi. 1970-ci ildə Bakı-Odessa qatarına gömrük baxışı zamanı Kiprə daimi yaşamağa gedən ər-arvad Kostanyandların əl yüklərindən gömrük nəzarətindən gizlətməklə aparmaq istədikləri 7 ədəd 100 manatlıq əsginaslar aşkar edilmişdi. 1971-ci ilin cəmi 9 ayında isə aşkar edilən qaçaqmalçılıq faktları müvafiq olaraq 3 (159 manat) və 13 (1695 manat) olmuşdu [133, 45-48].

Cədvəl 3.7

**Bakı gömrükxanasında beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti (1975-1978-ci illər)**

| S/s | Gömrük əməliyyatının adı | Poçt göndərişlərinin sayı (ədəd) | | | |
|---|---|---|---|---|---|
| | | 1975 | 1976 | 1977 | 1978 |
| | **I. SSRİ-dən göndərilən bağlamalar:** | | | | |
| 1. | Müəssisələrin xaricə göndərdiyi bağlamalar | 21 | 202 | 1 | 33 |
| 2. | Ümumi tələbat bağlamaları | 552 | 682 | 639 | 783 |
| 3. | Ümumi tələbat kiçik zərfləri | 3793 | 4308 | 5036 | 3453 |
| | Cəmi: | 4366 | 5192 | 5676 | 4269 |
| | **II. SSRİ-yə xaricdən göndərilən bağlamalar:** | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Müəssisələrin ünvanına daxil olan bağlamalar | 209 | 198 | 197 | 195 |
| 5. | Faktura və lisenziyalı bağlamalar | 1011 | 866 | 264 | 26 |
| 6. | Gömrük rüsumu tutulan bağlamalar | 269 | 191 | 301 | 410 |
| 7. | Gömrük rüsumu tutulmayan bağlamalar | 153 | 100 | 97 | 90 |
| 8. | Kapitalist ölkələrindən daxil olan kiçik zərflər | 1861 | 1168 | 663 | 1921 |
| 9. | Kiçik hədiyyə paketləri və kapitalist ölkələrindən daxil olan lisenziyalı kiçik zərflər | 270 | 210 | 128 | 343 |
| | Cəmi: | 3783 | 2733 | 1649 | 2985 |
| 1-9 | **Gömrük əməliyyatlarının yekunu:** | **8149** | **7925** | **7325** | **7254** |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 61, v. 4.

Zaqafqaziya sərhəd dairəsinin 1974-cü il məlumatına əsasən, Bakı, Culfa və Astara sərhəd-buraxılış məntəqəsində 51459 sovet, 41922 nəfər xarici ölkə vətəndaşı və 2982 ədəd nəqliyyat vasitəsi gömrük baxışından keçirilmiş, bütövlükdə 56974 min manat həcmində qaçaqmal saxlanılmışdı [133, 8].

Bakı gömrükxanasında gömrük nəzarətinin səmərəsinin artırılması üçün müvafiq tədbirlər görülürdü. Gömrükxana rəisinin 1979-cu il 1 iyun tarixli əmri ilə aşağıdakı istiqamətlər üzrə gömrük nəzarətinin gücləndirilməsi nəzərdə tutulurdu:

- gömrükxananın bütün fəaliyyət istiqamətləri üzrə işlərin əlaqələndirilməsi və hesabatların hazırlanması;
- gömrük əməkdaşlarının ixtisas səviyyəsi və peşəkarlığının, iqtisadi biliklərinin artırılması sahəsində işlərin aparılması;
- ölkəmizin müəssisə və təşkilatlarının iştirakı ilə Bakıda və xarici ölkələrdə keçirilən beynəlxalq sərgi və yarmarkalara gömrük nəzarətinin təkmilləşdirilməsi;
- Bakı dəniz limanında hər iki tərəfə hərəkət edən, həmçinin İrana daimi yaşamağa gedən sərnişinlərin əl yükləri və baqajlarına gömrük baxışının sürətləndirilməsi;
- QİYŞ üzvü ölkələrinə və geriyə xüsusi reyslə uçan təyyarə və sərnişinlərinə gömrük baxışının sadələşdirilməsi.

Azərbaycanın cənub sərhədində Bakı gömrükxanasının tabeçiliyində olan Astara gömrük məntəqəsi əməkdaşları həm yük, həm də sərnişin daşımaların gömrük nəzarət əməliyyatlarını həyata keçirirdi.

Cədvəl 3.8

**Bakı gömrükxanasında hər gömrük nəzarətçisinə düşən gömrük əməliyyatlarının həcmi haqqında hesabat (1975-ci il)**

| S/s | Gömrük əməliyyatının növü | 1 il ərzində aparılan əməliyyat-ların sayə | 1 nəfər əmək-daşın il ərzində apardığı əməliyyat | 1 nəfər əmək-daşın bir gün ərzində apardığı əməliyyat |
|---|---|---|---|---|
| 1. | Sərnişinlərin qeydiyyatı | 13210 nəfər | 1321 nəfər | 4 nəfər |
| 2. | Baqajın qeydiyyatı | 18760 yer | 1876 yer | 6 yer |
| 3. | Əl yüklərinin qeydiy-yatı | 18623 yer | 1862 | 5yer |
| 4. | Yüklərin qeydiyyatı | 590 min ton | 59 min ton | 0,164 ton |
| 5. | Nəqliyyat vasitələrinin heyəti | 18623 yer | 1862 nəfər | 5 nəfər |
| 6. | Qaçaqmalçılıq işləri | 11 iş | 1 iş | - |
| 7. | Qaçaq malların dəyəri | 3800 manat | 380 manat | 1,4 manat |
| 8. | Gömrük rüsumu | 45888 manat | 4588 | 12,7 manat |
| 9. | Beynəlxalq poçt bağ-lamaları | 8500 ədəd | 850 manat | 3,3 manat |
| 10. | Gömrük rüsumu | 38100 manat | 381 manat | 1,4 manat |

**Qeyd:** 1975-ci ildə Bakı gömrükxanasında 10 nəfər nəzarətçi işləyirdi.

1977-ci ildə Bakı gömrükxanasında bütün mənbələr hesabına gömrük rüsum və vergiləri tutularaq dövlət büdcəsinə köçürülmüşdü: a) sərnişinlərin özləri ilə daşıdığı mallardan 59561 manat 88 qəpik; b) idxalı və ixracı qadağan edilən 8523 manat dəyərində xarici valyutalar; poçt göndərişləri və bağlamalardan 14430 manat. Gömrük inspektorları 6616 manat 69 qəpik dəyərində qiymətli metal və əşyaları müsadirə etmiş, ələ keçirilən qaçaq malların satışından 16602 manat 87 qəpik daxil olmuşdu. İrandan daxil olan mallardan 56550 manat 70 qəpik rüsum alınmışdı [133, 4-5].

Gömrük xidmətində kadrların peşə hazırlığı səviyyəsi və iş təcrübəsi mühüm əhəmiyyət daşıyırdı. 1978-ci il 1 yanvar vəziyyətinə görə Bakı gömrükxanasının 17 nəfər əməkdaşından 6 nəfəri 2 ildən 5 ilə qədər, 5 nəfəri 5 ildən 10 ilə qədər, 5 nəfəri isə 10 ildən 22 ilə qədər gömrük xidmətində fasiləsiz iş stajına malik idi [133, 21].

1979-cu ilin gömrük statistikasına görə Bakı gömrükxanasında 57 ölkəyə məxsus 6466 ədəd beynəlxalq poçt bağlaması və kiçik həcmli paketlər (tranzit göndərişlər istisna olmaqla) gömrük baxışından keçirilmişdi

ki, bunlardan 3935 ədədi idxal edilən, 2531 ədədi isə xarici ölkələrə göndərilən bağlamalar olmuşdu. Beynəlxalq poçt bağlamaları dövriyyəsində əsas yeri İran (2762 ədəd), ABŞ (1186 ədəd), Fransa (757 ədəd), AFR (387 ədəd), Çexoslovakiya (279 ədəd) və Türkiyə (174 ədəd) tuturdu [134, 1-4.]

Cədvəl 3.9

**Bakı gömrükxanasının Astara gömrük məntəqəsində hər gömrük nəzarətçisinə düşən gömrük əməliyyatlarının həcmi haqqında hesabat (1975-ci il)**

| S/s | Gömrük əməliyyatının növü | 1 il ərzində aparılan əməliyyatların sayı | 1 nəfər əməkdaşın il ərzində apardığı əməliyyat | 1 nəfər əməkdaşın bir gün ərzində apardığı əməliyyat |
|---|---|---|---|---|
| 1. | Yüklərin qeydiyyatı | 21400 ton | 10900 ton | 0,474 ton |
| 2. | Avtomobillər | 4760 ədəd | 2380 ədəd | 10 ədəd |
| 3. | Təyyarələr | 22 ədəd | 11 ədəd | - |
| 4. | Nəqliyyat vasitələrinin heyəti | 3166 nəfər | 1583 nəfər | 7 nəfər |

**Qeyd**: 1975-ci ildə Astara gömrük məntəqəsində cəmi 2 nəfər nəzarətçi işləyirdi.

Məlum olduğu kimi, sovet gömrük-buraxılış məntəqələrinin başlıca vəzifələrindən biri qaçaqmalçılıqla mübarizə və “sosialist quruluşuna zərərli ideoloji materialların” ölkəmizə gətirilməsinə qarşı mübarizə aparmaq idi. Bakı gömrükxanasından bir il ərzində 2 min nəfərdən çox xarici ölkə vətəndaşı keçirdi. Təkcə 1978-1980-ci illərdə gömrükxana tərəfindən ümumilikdə 114,2 min manatlıq qaçaqmalçılıq faktı qeydə alınmış və 103 cinayət işi açılmışdı. Həmin müddət ərzində gömrükxana tərəfindən ideoloji cəhətdən zərərli 4655 nüsxə material aşkar edilmişdi. Xarici ticarət dövriyyəsinin artması, sərnişin və turist axınının çoxalması gömrük orqanlarının işinin həcmini artırdı. Sovet gömrük müəssisələrinin əsas funksiyasını xarici ticarət üzərində dövlət inhisarının həyata keçirilməsinə nəzarət edilməsi, gömrük əməliyyatları və qaçaqmalçılıqla mübarizənin təşkili, xarici turizm iştirakçılarının, poçt bağlamaları və göndərişlərinin gömrük baxışından keçirilməsi təşkil edirdi.



***Heydər Əliyev Culfa rayonunda sərhəd və gömrük xidmətlərinin əməkdaşları ilə görüşərkən (sağdan ikinci: Azərbaycan KP Culfa rayon təşkilatının birinci katibi Fəttah Heydərov, üçüncü: general-mayor Mustafa Nəsirov, 1980-cı il***

Respublika rəhbəri Heydər Əliyev sovet dövründə Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin genişlənməsində gömrük nəzarəti və dövlət sərhədinin mühafizəsi ilə yaxından maraqlanırdı. O, hələ 1970-80-ci illərdə böyük uzaqgörənliklə Azərbaycanda gömrük işinin inkişafına, bu sahədə ixtisaslı milli kadrların hazırlanmasına son dərəcə diqqətlə yanaşırdı. O, gömrük müəssisələrində rəhbər vəzifələrə azərbaycanlı kadrların təyin edilməsinə nail olmuşdu. Onun Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Bakı, Culfa və Astara gömrükxanalarının rəis heyətində azərbaycanlı məmurların sayı artmaqda idi.

Naxçıvan sərhəd dəstəsinin yaradıldığı vaxtdan başlayaraq İranla sərhəddə müvəqqəti və daimi sərhəd buraxılış məntəqələri fəaliyyət göstərmişdir. 1924-cü ildə Naxçıvan sərhəd dəstəsinin tərkibinə 8 nömrəli "Şahtaxtı" və 9 nömrəli "Culfa" nəzarət-buraxılış məntəqələri daxil idi. 1938-ci ildə "Culfa" nəzarət-buraxılış məntəqəsinin heyətinə 6 ştat vahidi əlavə olundu. 1942-ci ildə isə hərbi vəziyyət nəzərə alınaraq "Culfa" nəzarət-buraxılış məntəqəsi 1-ci kateqoriyaya keçirilərək şəxsi heyətinin sayı 16 nəfər, 1943-cü ildə daha 17 nəfər artırıldı. 1968-ci ildə sərhədə dəstəsinin tərkibində 28 nəfər şəxsi heyətə malik "Qızıl Vəng" nəzarət

postu, 1990-cı ildə isə Nehrəm sərhəd nəzarəti bölməsi yaradıldı [225]. Heydər Əliyev 1980-ci ildə Azərbaycanın bütün cənub dövlət sərhədi boyu yerləşən sərhəd və gömrük-buraxılış məntəqələrinə etdiyi səfərində sərhədçilərlə yanaşı gömrükçülərin də iş şəraiti və məntəqələrin maddi-texniki vəziyyəti ilə yaxından tanış olmuşdu. Naxçıvan MR-in Culfa rayonunda sərhəd xidmətinin hərb qulluqçuları və gömrük əməkdaşları ilə görüşündə onu general-mayor Mustafa Nəsirov və Azərbaycan KP Culfa rayon Komitəsinin birinci katibi Fəttah Heydərov müşayiət etmişdi. Bu səfərin görüntülərini əks etdirən foto şəkillər Azərbaycan Respublikası Kino-Foto sənədlər arxivində saxlanılır [116].

Azərbaycan KP MK-nın xarici əlaqələr şöbəsi Bakı gömrükxanasının 175 illiyi münasibətilə yubiley tədbirinin keçirilməsi haqqında gömrükxana rəhbərliyinin təşəbbüsünü müdafiə etmiş və müvafiq qərar layihəsi hazırlanaraq baxılması üçün Azərbaycan KP MK-nın Büro yığıncağına təqdim etmişdi [133, 54-55].

SSRİ Xarici Ticarət Nazirliyi Baş Gömrük İdarəsi Bakı Gömrük İdarəsinin rəisi, 3-cü dərəcəli gömrük xidməti müşaviri E.M.Zülfüqarzadə 1981-ci il 17 fevralında Bakıda gömrükxana yaradılmasının 175 illiyi münasibətilə Azərbaycan KP MK-ya müraciət etmişdi. Azərbaycan KP MK-da hazırlanan 1981-ci il 25 mart tarixli arayışda Bakı gömrükxanasının tarixi inkişaf yolu təhlil olunurdu. Arayışda göstərilirdi ki, Bakı gömrükxanasının təşkili Azərbaycanın və Bakı şəhərinin əhəmiyyətinin artması, xüsusilə Yaxın və Orta Şərq ölkələri ilə ticarət mərkəzinə çevrilməsi ilə bağlı olmuşdur. Rusiya imperiyası dövründə Bakı liman və sərhəd gömrüyü adlandırılmış, 1847-ci ilin mayında Bakı karantin-gömrük idarəsi adı ilə yenidən təşkil edilərək Cənubi Qafqaz karantin-gömrük dairəsinin tərkibinə daxil edilmişdi. 1897-ci ildən isə Bakı gömrükxanası kimi formalaşmışdı. 1941-1945-ci illərdə Bakı gömrükxanasında İrandan gətirilən hərbi yüklərin və sursatın vaxtında buraxılmasına nəzarət edilirdi. Sonrakı illərdə Bakı gömrükxanası bir çox sahələr üzrə nəzarət funksiyasını həyata keçirirdi. Əməkdaşlar (1981-ci ildə cəmi 20 nəfər) İrana gedən qatar və avtomobillərə, xaricə gedən gəmilərə və onlarda daşınan yüklərə, Bakı limanında və aeroportda, Bakı, Biləcəri və Keşlə dəmir yolu stansiyalarında xarici ticarət mallarının boşaldılması və mühafizəsi işinin keyfiyyətinə nəzarət edir, onların xarab olması və zədə almasının qarşısını alır, yüklərin ünvanlarına vaxtında göndərilməsi üçün tədbirlər görürdü. Bakıda keçirilən bütün beynəlxalq sərgilər, onların qurulmasından başlayaraq bağlanmasına qədər gömrük nəzarətində olurdu [112, 56-57].

Azərbaycan KP MK-nın Bürosu Azərbaycanın xarici iqtisadi əlaqələrində Bakı gömrükxanasının mühüm əhəmiyyət daşıdığını nəzərə alaraq, 1981-ci il martın 31-də, Heydər Əliyevin imzası ilə *"Bakı gömrükxanasının 175-ci ildönümü ilə əlaqədar tədbirlər haqqında"* qərar qəbul etdi. Qərarda

Azərbaycan KP Bakı şəhər komitəsinə təntənəli yubiley mərasiminin hazırlanması tapşırılırdı. Gömrükxana üçün yeni inzibati binanın tikilməsi ilə yanaşı aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu:

- Azərbaycan KP Bakı şəhər komitəsinə təntənəli yubiley mərasiminin təşkil edilməsi;
- gömrükxananın inzibati binasına xatirə lövhəsinin vurulması;
- xidmətdə fərqlənən gömrükxana əməkdaşlarının təltif edilməsi;
- Bakı gömrükxanasının fəaliyyətini əks etdirən kitabçanın nəşr edilməsi;
- kütləvi informasiya vasitələrində gömrükxananın işinin təbliğ edilməsi və s.

Yubiley tədbirinin keçirilməsi ilə bağlı maliyyə və təsərrüfat məsələlərinin həll edilməsi Azərbaycan SSR Nazirlər Sovetinə tapşırıldı [109, 52].

Azərbaycan SSR-in ölkəmizdə və ya xarici ölkələrdə keçirilən beynəlxalq sərgi və yarmarkalarda iştirakı gömrük nəzarətinin əsas fəaliyyət sahəsinə daxil idi. Sərgi və yarmarkalarda respublikanın iştirakını təşkilati cəhətdən Azərbaycan Ticarət-Sənaye Palatası hazırlayır, xarici ölkəyə göndərilən məhsullara və yüklərə gömrük baxışı Bakı gömrükxanasında həyata keçirilirdi. Bakıda keçirilən bütün xarici və beynəlxalq sərgilərin bütün fəaliyyət prosesi, onların qurulmasından başlayaraq, bağlanmasına qədər gömrük nəzarətində olurdu. Bakı gömrükxanası bu işləri Mədəniyyət Nazirliyi, Azərbaycanın xarici ölkələrlə dostluq və mədəni əlaqələr Cəmiyyəti və bir sıra yaradıcı ittifaqlarla birgə əməkdaşlıq şəraitində həyata keçirirdi. Xaricə göndərilən bütün rekvizit və yüklər, qiymətli bədii sənət nümunələri gömrükxanada qeydə alınırdı. Gömrükçülər xarici ölkələrdən daxil olan və göndərilən beynəlxalq poçt göndərişlərinə (bağlama, banderol, paket) gömrük baxışında keçirilirdi. Aşağıdakı cədvəldən göründüyü kimi təkcə 1982-ci ildə Bakı gömrükxanası üzrə plandan kənar gömrük yığımlarının həcmi 321, 8 min manatdan çox olmuşdu.

Cədvəl 3.10

**1982-cü ildə Bakı gömrükxanası üzrə plandan kənar gömrük yığımları haqqında məlumat (manatla)**

| s/s | Gömrük rüsumları və digər yığımlar | 1 yanvar 1981-ci ilə olan qalıq | Müsadirə edilən malların dəyəri | Qaytarılan malların dəyəri | Büdcəyə köçürülüb | 1 yanvar 1982-ci ilə olan qalıq |
|---|---|---|---|---|---|---|
| 1. | SSRİ-yə gətirilən plandankənar yüklərə görə | 4485 | 48833 | 13509 | 33375 | 6434 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2. | SSRİ-yə daxil olan poçt bağlamalarına görə | - | 262542 | 1899 | 260643 | - |
| 3. | Müsadirə olunan malların satışından | 734 | 20548 | - | 20239 | 1093 |
| 4. | Qiymətli əşyaların və valyutanın satışından | 5971 | 35304 | 30155 | 7521 | 3599 |
| 5. | Plandankənar daxil olan yüklərin mühafizəsinə görə | - | 74 | - | 74 | - |
| | **Cəmi** | **11240** | **367301** | **45563** | **321852** | **11126** |

Hesablanıb: ARDA Bakı filialı, f. 126, siy. 2, iş 51, v. 1.

Gömrükxananın başlıca vəzifələrindən biri "qaçaqmalçılıqla və sosialist quruluşuna zərərli ideoloji materialların ölkəmizə gətirilməsinə qarşı mübarizə" aparmaq idi. Təkcə 1978-1980-ci illərdə gömrükxana tərəfindən ümumilikdə 114,2 min manatlıq qaçaqmalın aşkar edilməsinə görə 103 cinayət işi açılmışdı. Həmin müddət ərzində gömrükxana tərəfindən ideoloji cəhətdən zərərli 4655 nüsxə material saxlanılmışdı. Gömrük xidmətindən dövlət büdcəsinə daxil olan gəlirlər də artırdı. 1978-1980-ci illərdə dövlət büdcəsinə 687,5 min manat köçürülmüşdü. Bütövlükdə, xarici ticarət fəaliyyətinin gömrük rəsmiləşdirilməsindən daxil olan gəlirlər gömrükxananın idarə aparatına çəkilən xərclərdən 4,9 dəfə çox olmuşdu [97, 54-55].

Bütün bu işlər zəif texniki təchizat şəraitində həyata keçirilirdi. Qeyd edilməlidir ki, sovet gömrük orqanlarının texniki təchizatı beynəlxalq standartlara uyğun deyildi. Həmin dövrdə Bakı gömrükxanasının da maddi-texniki resursları arzu olunan səviyyədə deyildi. Qaçaqmalçılıq hərəkətlərinə qarşı mübarizənin təşkili gömrükxananın texniki imkanları çox aşağı səviyyədə idi. Əməkdaşların istifadəsində metalaxtaran cihaz yox idi. Baxış alətləri cəmi bir neçə vintaçan, yüklərin və gəmi anbarına baxış keçirilməsi üçün 2 ədəd elektroşup (kiçik lampalı elektrik fənəri qoşulmuş metal çubuq), 7 metrlik metal şiş, biz, çilingər alətləri dəsti və c. kimi sadə vasitələrdən ibarət idi.

Statistik rəqəmlər göstərir ki, 1970-1980-ci illərdə respublikamıza gələn xarici turistlərin sayı və gömrük xidmətinin xarici turizmdən əldə etdiyi gəlirin həcmi müxtəlif olmuşdur. 1980-ci illərdə Bakı gömrükxanasının əsas fəaliyyəti üzrə daxil olan gömrük rüsum və gəlirlərinin həcmi sabit deyildi və gəlirlərin proqnozlaşdırılması mümkün deyildi. Məsələn, 1981-ci ildə Bakı gömrükxanasında yüklərin və sərnişinlərin əl yüklərindən 71823 manat, poçt bağlamalarının gömrük rəsmiləşdirilməsindən 244464 manat gömrük rüsumu daxil olmuşdu. Əgər müsadirə olunmuş malların,

qiymətli əşya və valyutaların reallaşdırılmasından isə dövlət büdcəsinə 32707 manat köçürülmüşdüsə, 1985-ci bu göstəricilər artaraq yüklərin və sərnişinlərin əl yüklərinə görə 128653 manat, poçt bağlamalarının gömrük rəsmiləşdirilməsinə görə 253100 manat təşkil etmiş, müsadirə olunmuş malların, qiymətli əşya və valyutaların reallaşdırılmasından isə büdcəyə 153237 manat köçürülmüşdü [130[A], 1].

SSRİ Nazirlər Sovetinin 1981-ci il 27 aprel tarixli qərarı ilə təsdiq edilən yeni Gömrük tarifində ölkəyə idxal olunan rüsumsuz malların siyahısının əhəmiyyətli dərəcədə artırılması xarici ölkələrlə ticarət-siyasi əlaqələrinin inkişafına əlavə stimul verdi. Yeni Gömrük tarifi malların preferensial olaraq (imtiyazlı) və gömrük rüsumuna cəlb edilmədən ixracını genişləndirdi, eyni zamanda ölkəyə narkotik və psixotrop maddələrin gətirilməsi qaydalarını sərtləşdirdi. Xarici ticarət dövriyyəsinin artması, sərnişin və turist axınının çoxalması gömrük orqanlarının işinin həcmini artırdı. Bununla yanaşı, 1981-ci il tarifi bir sıra səbəblərə görə xarici iqtisadi fəaliyyəti iqtisadi cəhətdən stimullaşdıra bilmədi. Sovet Gömrük tarifində cəmi üç yüzdən bir qədər çox mal kodu qəbul edilmişdi, halbuki bir çox inkişaf etmiş ölkələrinin gömrük tarifində bunların sayı 5-7 minə, ABŞ və Yaponiyanın tariflərində isə 10-12 minə çatırdı. 1981-ci il tarifində gömrük rüsumlarının həcmi bir çox hallarda malların daxili və xarici bazardakı qiymətləri ilə uzlaşmırdı. Maşın və mexanizmlərə tətbiq edilən gömrük rüsumlarının həcmi 5-10 faiz, yanacaq məhsullarına -10-12 faiz, metallara – 15 faizə qədər, kimya məhsullarına görə 5-10 faiz təşkil edirdi. *"Gömrük rüsumu"* anlayışı əslində *"gömrük gəlirləri"* anlayışı ilə əvəz edilmişdi. Mal ixrac edən müəssisə və təşkilatlar dövlət büdcəsinə gömrük rüsumu əvəzinə malın xarici bazar qiyməti ilə daxili bazar qiymətinin fərqini köçürürdülər. Xarici ticarətin sərt mərkəzləşdirilməsi dövründə bu vəziyyət tamamilə normal sayılırdı. Xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsinin inzibati-komanda metodları ilə idarə edilməsi təcrübəsi 80-ci illərin ortalarına qədər davam etmişdi.

Gömrük müəssisələrinin statusunu müəyyən edən əsas normativ aktlardan biri Baş Gömrük idarəsinin 9 sentyabr 1982-ci il tarixli əmri ilə təsdiq edilən *"Gömrükxana və gömrük postları haqqında Əsasnamə"* oldu. Yerlərdəki gömrükxanaların tərkibinə əməliyyat, sərnişin, poçt yükləri, diplomatik yüklər, xarici sərgilərin yüklərinə nəzarət, sovet sərgilərinin yüklərinə nəzarət, xarici şirkətlərin yüklərinə nəzarət, nəzarətin texniki vasitələri, qaçaqmalçılıqla mübarizə, texniki təchizat və başqa şöbələr daxil idi. Gömrükxana və gömrük postları dislokasiyasına görə sərhəd və daxili gömrük müəssisələrinə ayrılırdı. Yerlərdə gömrük müəssisələri fəaliyyətlərinin xüsusiyyətlərinə görə quru, hava və dəniz (çay) gömrükxana və gömrük postlarına bölünürdü. Gömrükçü kadrların nəzəri və peşə hazırlığının forma və metodları təkmilləşdirildi.

1982-ci ildə Bakı gömrükxanasında 86 dövləti əhatə edən poçt göndərişləri ilə qəbul edilən 13602 bağlama, xarici ölkələrə göndərilən 2214 bağlama və 3504 ədəd tranzit iri həcmli bağlamalar qeydə alınaraq 262542 manat gömrük rüsumu toplanmışdı.

Aşağıdakı cədvəl beynəlxalq poçt göndərişlərinə gömrük baxışının həcmini və əlaqələrin coğrafiyasını göstərir:

Cədvəl 3.11

**1982-ci ildə Bakı gömrükxanasında ayrı-ayrı ölkələr üzrə beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti**

| s/s | Ölkələr | bağlama və göndərişlər | idxal | | | İxrac | |
|---|---|---|---|---|---|---|---|
| | | | cəmi | rüsumlu | rüsumsuz | cəmi | vətəndaşlar |
| | Cəmi 86 ölkə, o cümlədən | 15816 | 13514 | 10442 | 2969 | 5718 | 5711 |
| 1. | İran | 1301 | 344 | 258 | 86 | 800 | 795 |
| 2. | Türkiyə | 49 | 23 | 19 | 4 | 20 | 20 |
| 3. | Kanada | 380 | 349 | 329 | 20 | - | - |
| 4. | İtaliya | 184 | 170 | 149 | 21 | 14 | 14 |
| 5. | Yunanıstan | 600 | 552 | 491 | 61 | 48 | 48 |
| 6. | Hollandiya | 69 | 65 | 52 | 13 | 4 | 4 |
| 7. | İsrail | 161 | 148 | 130 | 18 | 13 | 13 |
| 8. | İraq | 22 | 19 | 9 | 10 | 3 | 1 |
| 9. | İspaniya | 49 | 43 | 25 | 18 | 5 | 5 |
| 10 | Küveyt | 13 | 11 | 5 | 6 | 2 | 2 |
| 11. | Kosta-Rika | 41 | 36 | 18 | 18 | 5 | 5 |
| 12. | Laos | 1029 | 901 | 162 | 739 | 128 | 128 |
| 13. | Mərakeş | 25 | 23 | 20 | 3 | 2 | 2 |
| 14. | Suriya | 75 | 63 | 53 | 10 | 8 | 8 |
| 15. | İsveçrə | 85 | 77 | 56 | 21 | 8 | 8 |
| 16. | İsveç | 26 | 21 | 19 | 2 | 4 | 4 |
| 17. | ÇSSR | 201 | 198 | 95 | 103 | 3 | 3 |
| 18. | Həbəşistan | 173 | 152 | 37 | 115 | 21 | 21 |
| 19. | Yuqoslaviya | 60 | 52 | 32 | 20 | 8 | 6 |
| 20. | Yaponiya | 24 | 20 | 10 | 10 | 4 | 4 |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 1, iş 81, v. 9-13.

Bakı gömrükxanasının rəisi, 3-cü dərəcəli gömrük müşaviri E.Zülfüqarzadənin SSRİ Nazirlər Soveti yanında Baş Gömrük İdarəsinə

hesabatından aydın olur ki, 1985-1986-cı illərdə gömrükxanaya 84 xarici dövlətdən daxil olan 12077 ədəd bağlamaya gömrük baxışı keçirilib və 473 min manat gömrük rüsumu yığılıb. Bundan əlavə, 8615 ədəd tranzit beynəlxalq poçt bağlamaları qəbul edilib və xarici ölkələrə göndərilən 3452 ədəd bağlamaya baxış keçirilib[113, 2-6, 16-22]. Bakı gömrükxanasının 1987-ci ilə aid maliyyə hesabatında gömrük rəsmiləşdirilməsindən 205,6 min manat gəlir daxil olması göstərilirdi. Bu məbləğ gömrükxanaya ayrılan maliyyə vəsaitindən 2,5 dəfə çox idi.

Cədvəl 3.12

**Bakı gömrükxanasında görə saxlanılan qadağan olunmuş malların, dini xarakterli və ideoloji cəhətdən zərərli əşyaların miqdarı haqqında məlumat**

| Qaçaqmalçılıq halları | 1978 | 1979 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|---|
| 1. Dini ədəbiyyat | 324 | 226 | 364 | 41 | 395 |
| 2. Dini sitayiş əşyaları | 762 | 642 | 723 | 259 | 497 |
| 3. Antisovet ədəbiyyat | - | 56 | 1 | - | 25 |
| 4. Pornoqrafiya | 462 | 1162 | 45 | 384 | 326 |
| 5. Narkotik maddələr | 3,0 qr | 0,79 qr | - | - | 1,25 qr |
| 6. Silahlar | - | - | 832 | 161 | 25 |
| 7. İdeoloji cəhətdən zərərli əşyalar | 39 | 409 | 102 | 10 | - |
| Hüquqpozmaların sayı | 58 | 206 | 129 | 64 | 89 |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 2, iş 69, v. 2-6; iş 47, v.1.

Cədvəldən göründüyü kimi, 1980-ci ildə Moskva Olimpiadasının keçirildiyi müddətdə ölkəyə xarici turist axınının artması ilə əlaqədar Bakı gömrükxanasından qadağan olunmuş malların keçirilməsinə cəhd halları da çoxalmışdı. Həmin dövrdə Bakı gömrükxanasının şəxsi heyəti yüksək peşəkarlıq səviyyəsi ilə fərqlənmişdi.

Bakı gömrükxanası əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi işinə tədris-metodiki komissiya istiqamət verirdi. Komissiyanın hazırladığı illik tədbirlər planı əsasında gömrük inspektorları 6 aylıq proqram üzrə keçirilən kurslarda təhsil alaraq ixtisas dərəcələrini artırırdı. Bakı gömrükxanasının, Astara və Krasnovodsk gömrük məntəqələrinin şəxsi heyəti ilə gömrük nəzarətinin təkmilləşdirilməsi mövzuları üzrə məşğələlər aparılırdı. 1978-ci ildə tədris-metodiki komissiya 1980-ci il Moskva Olimpiadasına gömrük nəzarətinin səmərəli təşkili haqqında təkliflər hazırlayaraq Baş Gömrük Nəzarəti İdarəsinə təqdim etmişdi. Bakı gömrükxanasının əməkdaşları 1980-1981-ci tədris ilində təcrübəli mütəxəssislərin "Qaçaqmalların qeydiyyatının hüquqi məsələləri", "SSRİ dövlət

sərhədini şəxsi avtomobilləri ilə keçən şəxslərin avtomobillərinə gömrük nəzarətinin qaydaları haqqında təlimat", "Xarici gəmilərdə qaçaqmalçılıq əşyalarının saxlanılması məsələləri haqqında Baş Gömrük İdarəsinin materiallarının xülasəsi", "SSRİ-nin dövlət sərhədindən silah, odlu silah patronları, barıt və güclü təsirə malik zəhərli maddələrin buraxılması qaydaları" və "Mədəni sərvətlərin SSRİ-dən daşınmasına nəzarət qaydaları haqqında SSRİ Mədəniyyət nazirliyinin təlimatı" mövzusunda mühazirələr dinləmişdilər. Kursların dinləyiciləri dəniz limanlarında idxal-ixrac yüklərinin qəbulu və təhvil verilməsi şərtləri, qiymətli daşlar və metalların, parçalar və üst trikotaj mallarının əmtəəşünaslığı, narkotik maddələrin sürətli analiz üsulu ilə təyin edilməsi və s. mövzular üzrə praktik məşğələlər aparılmışdı. Əməliyyatçılara xüsusi plan əsasında axtarış-müayinəedici cihazlardan istifadə edilməsi qaydaları və vərdişləri mənimsədilirdi. İxtisasartırma kursları, bir qayda olaraq imtahanla yekunlaşırdı. Gömrükxananın 7 nəfər əməkdaşı Azərbaycan Xalça Muzeyində fəaliyyət göstərən xalq universitetinin "Azərbaycanın xalq tətbiqi sənətləri" fakültəsində təhsil alırdı. 1982-1983-cü ilin tədris planında tədris mövzuları əsasən idxal-ixrac yüklərinin, valyuta və valyuta sərvətlərinin dövlət sərhədindən buraxılmasına gömrük nəzarətinin təşkili, xaricə üzən gəmilərdə axtarış işlərinin texnologiyası və gömrük sənədlərinin düzgün tərtib edilməsində ayrı-ayrı gömrükxanaların təcrübəsinin araşdırılmasına həsr edilmişdi. Gömrükxananın rəis müavini V.Fyodorov dinləyicilər qarşısında "Sovet gömrük xidmətinin təşəkkülü. Bakı gömrükxanasının tarixi" mövzusunda mühazirə oxumuşdu [102, 1-5].

# IV FƏSİL. SOVET DÖVLƏTİNİN GÖMRÜK SİYASƏTİNDƏ "YUMŞALMA" MEYLLƏRİ VƏ AZƏRBAYCAN SSR-in İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİ (1985-1991-ci illər)

## *4.1. SSRİ-nin süqutuna qədər olan dövrdə Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələri*

1980-ci illərin sonunda keçmiş sovet dövləti xarici ticarət əlaqələrinin liberallaşdırılması istiqamətində bir sıra qanun, qərar və əsasnamələr qəbul etdi. Bu müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda xarici iqtisadi fəaliyyət subyektlərinin beynəlxalq ticarət əlaqələrinin xeyli genişlənməsinə səbəb oldu. Öz növbəsində gömrük xidmətinin işinin bir qədər canlanmasına təkan verdi. İnkişaf etmiş ölkələrin təcrübəsi də təsdiq edirdi ki, xarici iqtisadi fəaliyyətdən daxil olan gömrük gəlirləri dövlət büdcəsinin formalaşmasında mühüm yer tutur. Siyasi hakimiyyətin hər hansı bir formada olmasından asılı olmayaraq dövlətin iqtisadi siyasətinin mərkəzində xarici ticarətin inkişaf etdirilməsi və durmadan genişləndirilməsi, digər ölkələrlə əlaqələrin mexanizminin təkmilləşdirilməsi məsələləri durmalıdır.

80-ci illərin ortalarında xarici iqtisadi fəaliyyət sahəsində sovet cəmiyyətində aparılan islahatlar keçmiş SSRİ-də başlanan dəyişikliklərin tərkib hissələrindən biri idi. Məsələn, SSRİ Nazirlər Sovetinin *"Xarici iqtisadi əlaqələrin idarə edilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında"* 1986-cı il 19 avqust tarixli 991 nömrəli qərarı imkan verirdi ki, bu sahədə icazəsi olan hər hansı bir təşkilat və ölkə vətəndaşı xarici ölkədə ticarət fəaliyyətinin iştirakçısı ola bilərdi. Xarici iqtisadi fəaliyyət sahəsində islahatlar 80-ci illərin ortalarında keçmiş SSRİ-də başlanan dəyişikliklərin tərkib hissələrindən biri idi. Bu sahədə islahatlara Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1986-cı il avqustunda qəbul etdiyi "Xarici iqtisadi əlaqələrin idarə edilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Sosialist ölkələri ilə iqtisadi və elmi-texniki əməkdaşlığın idarə edilməsinin təkmilləşdirilməsi haqqında" qərarlarla başlanıldı. SSRİ üzrə 20-dən çox nazirlik və komitəyə, o cümlədən 70-ə yaxın iri birlik, müəssisə və təşkilatlara idxal-ixrac əməliyyatlarını sərbəst qurmaq hüququ verildi. Xarici ölkə bazarlarına çıxış imkanı qazanan elmi-istehsalat və sənaye birliklərinin tərkibində xarici ticarət şirkətləri yaradıldı. 1986-1991-ci illər azad bazar

iqtisadiyyatı və demokratik rejim şəraitində gömrük xidmətinin yeni idarəçilik strukturuna transformasiya etmək cəhdləri sovet gömrük sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Bu dövrün məntiqi nəticəsi olaraq, SSRİ-nin yeni Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" qanunu göstərmək olar. Yeni qəbul edilən qanunverici aktlar bu sahədə radikal dəyişiklikləri təsbit etsə də, real həyatda yeniləşmiş gömrük sisteminin yaradılması mümkün olmadı.

Azərbaycan KP MK Bürosunun *"Xarici iqtisadi fəaliyyətin daha da təkmilləşdirilməsi tədbirləri haqqında"* 1986-cı il 28 oktyabr tarixli qərarında bu sahədə yol verilən geriliyin səbəbləri araşdırılmışdı. Qərarda qeyd olunurdu ki, emal müəssisələri və birliklərinin rəhbərləri çox zaman xarici bazarın tələbatını və satış şərtlərini öncədən təhlil etmədən sövdələşmə sazişi bağlayır, bu isə öz növbəsində ixrac mallarının dəyərindən ucuz satılmasına gətirib çıxarır. Məsələn, qərarda belə bir fakt göstərilirdi ki, Bakı kondisionerlərinin Livan şirkətinə satılması haqqında sövdələşmə sazişində 1 ədədinin satış qiyməti 140 ABŞ dolları göstərildiyi halda, xarici firma bazarda kondisionerin bir ədədini üçqat qiymətinə reallaşdırmışdı. Respublikadan ixrac edilən məhsulların 55 faizi əsas etibarilə xammaldan, daha doğrusu pambıq, neft və neft məhsullarından ibarət idi. Qərarda kənd təsərrüfatı məhsullarının emal edilərək xarici bazara çıxarılması sahəsində işlərin gücləndirilməsi tələb olunurdu [143, 33-34].

1980-ci illərdə Azərbaycan SSR-nin Polşa Xalq Respublikası ilə kommersiya əlaqələri genişlənmişdi. "İnter-Polkom" xarici ticarət Palatası müxtəlif istehlak mallarının, o cümlədən məişət kimyası mallarının istehsalı üzrə kooperasiya əlaqələri yaratmaq təklifi ilə respublika hökumətinə müraciət etmişdi. 1988-ci ildə Brestdə Polşa ilə sərhədyanı ticarətin inkişaf etdirilməsi məqsədi ilə keçirilən yarmarkada Azərbaycanı təmsil edən Mərkəzi Univermaqla Polşanın "Mireks" şirkəti arasında 14,7 mln. manat həcmində alqı-satqı razılaşması imzalandı. Yarmarkanın gedişində Polşaya 7,3 mln. manatlıq müxtəlif mallar, o cümlədən Şəki ipək kombinatında istehsal olunan 500 min metr ipək parça və 300 min ədəd kəlağayı satılmışdı. Bunun əvəzində respublikada istehsal edilməyən 238 adda ərzaq və kütləvi istehlak malları alınmışdı. "Bakı kondisioneri" istehsalat birliyi ilə İtaliyanın "Merloni Procetti" şirkəti arasında elektrik məişət cihazları istehsal edəcək "Bakmil" birgə müəssisəsinin yaradılması haqqında müqavilə imzalandı. Ticarət-sənaye Palatası Qərbi Almaniyanın "Berstorff, "Pfaff", "Babcoc BCH AG" və "Mauel" şirkətləri ilə Azərbaycanın yerli sənaye müəssisələri və "Azərelektromaş" arasında birgə müəssisələrin təşkili haqqında danışıqlar aparılırdı. "Azərittifaq"ın xətti ilə ticarət əməliyyatları əsasən mübadilə yolu ilə aparılırdı. Təkcə 1987-ci ildə kooperatorlar 14 xarici ölkəyə 32,3 mln. manatlıq xammal və hazır məhsul

göndərmiş, əvəzində ölkəyə 69,5 mln. manat həcmində qeyri-ərzaq malları gətirilmişdi [142, 8-9 ].

Azərbaycanın xarici iqtisadi siyasət konsepsiyasının formalaşdırılmasına təşəbbüslər əsasən bu istiqamətlərdə aparılırdı: a) iri istehsal müəssisələrinin birbaşa xarici ticarət əlaqələrinə cəlb edilməsi və b) xarici bazara təkcə xammal deyil, həmçinin hazır məhsulların çıxarılması. Respublika Hökumətinin *"Yeni təsərrüfatçılıq şəraitində xarici əlaqələrin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında"* 1987-ci il 2 dekabr tarixli qərarı müəssisə və təşkilatlara həmin sahədə geniş fəaliyyət azadlığı verdi [214, 62].

SSRİ Nazirlər Sovetinin *"SSRİ ərazisində sovet təşkilatları ilə kapitalist və inkişaf etməkdə olan ölkələrin şirkətləri ilə birgə müəssisələrin təşkili və fəaliyyəti qaydaları haqqında"* 1987-ci il 13 yanvar tarixli qərarı xarici iqtisadi fəaliyyətin bir qədər canlanmasına səbəb oldu. "Silikatbeton" elm-istehsalat birliyi ilə Avstraliyanın "A.Camirze famili interprayz" şirkətinin qarşılıqlı razılaşması əsasında "İnkişaf" birgə müəssisəsi yaradıldı. Müəssisənin biostimulyatorlar, gübrə, maye və qazların təmizlənməsi üçün istifadə edilən materialların və məsaməli betonun ixracından daxil olacaq valyuta gəlirləri hesabına xaricdən müasir texnoloji xətlərin və avadanlıqların alınması nəzərdə tutulurdu. "Bakı kondisioneri" istehsal birliyi ilə İtaliyanın "Merloni Procetti" şirkəti "Bakmil" birgə müəssisəsini yaratdılar. Qərbi Almaniyanın "Berstorff", "Pfaff", "Babkok BSX AG" və "Mauel" şirkətləri ilə "Azərelektromaş" istehsalat birliyi arasında birgə müəssisələr yaratmaq haqqında danışıqlar aparılırdı [142, 9-10].

1987-ci il Azərbaycanın xarici iqtisadi əlaqələrində daha sabit il olmuşdu. Xarici iqtisadi əlaqələr dünyanın 87 ölkəsini əhatə edirdi, bunlardan 50 dövlətlə əlaqələr ikitərəfli xarakter daşıyırdı, 28 ölkəyə yalnız müxtəlif mallar ixrac edilir, 9 ölkədən isə idxal malları daşınırdı. Həmin ildə Azərbaycana 6230 mln. manatlıq (həmin dövrün qiymətləri ilə) müxtəlif mallar gətirilmiş, 8524 mln. manatlıq mallar aparılmışdı. Xarici ticarət əməliyyatlarının 18 faizi xarici dövlətlərlə, 82 faizi isə müttəfiq respublikalarla aparılmışdı. İxracın 29 faizi yüngül, 24,5 faizi yeyinti, 15,1 faizi maşınqayırma və metal emalı, 12,9 faizi isə yanacaq-energetika sənayesinin payına düşürdü. İdxalın strukturunda isə maşınqayırma (25,5 faiz), yüngül sənaye (17,2 faiz) və yeyinti sənayesi (15,8 faiz) məhsulları üstünlük təşkil edirdi.

Azərbaycan SSR-də istehsal olunan sənaye məhsulunun 41 faizi, o cümlədən qara metallurgiyanın 80 faizi, kimya və neft kimyası məhsullarının 64 faizi ixraca yönəldilirdi. Eyni zamanda, qara metallurgiya müəssisələrinin xammala olan tələbatının 90 faizi idxalın hesabına ödənilirdi. İdxaldan asılılıq kimya və neft kimyası sənayesində 66 faiz, yüngül və ağac emalı sahəsində 48,5 faiz, əlvan metallurgiyada 41,2 faiz təşkil edirdi.

Azərbaycan iqtisadiyyatının xammal tələbatının 32,8 faizi idxal hesabına ödənilirdi. Rusiya Federasiyası Azərbaycanın ticarət tərəfdaşları içərisində əsas yeri tuturdu. Belə ki, idxalın 56,3 faizi, ixracın isə 59,9 faizi bu respublikanın payına düşürdü. Respublikamızın xarici ticarət əlaqələrində dövriyyəsində ikinci yer Ukraynaya (12 faiz). Sonrakı yerlər Belarus, Qazaxıstan və Özbəkistana məxsus idi. Bütövlükdə, Azərbaycan keçmiş SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikalar arasında ticarət dövriyyəsində RSFSR-lə (1269,9 mln. manat), Gürcüstanla (228,4 mln. manat), Türkmənistanla (204,1 mln. manat), Tacikistanla (60,1 mln. Manat), Qazaxıstanla (53,2 mln manat), Özbəkistanla (53,0 mln. manat) və Qırğızıstanla (20,3 mln manat) müsbət saldoya malik idi. Azərbaycandan Ermənistana, Gürcüstana və Türkmənistana göndərilən malların dəyəri bu respublikalardan gətirilən malların dəyərindən müvafiq olaraq 3, 2,5 və 20 dəfə çox olmuşdu [182, 87-88].

Azərbaycan SSR Ticarət Nazirliyi 1987-ci ildə "Sənaye idxal-ticarət" ümumittifaq birliyinin xətti ilə xarici ölkələrə 29,4 mln. metr bez parça (cod və yumşaq), 28 min metr krepdeşin, 500 ton sintetik yuyucu vasitələr, 672 kv. metr əllə toxunmuş xalçalar, 5 ton superfosfat, 3 min ədəd "Çinar" soyuducusu, 20 min dekalitr şampan şərabı və 1200 ton kalium-sulfat satmışdı. Əvəzinə respublikaya 29,9 mln. manat həcmində ərzaq və qeyri-ərzaq malları, o cümlədən keçmiş Yuqoslaviyadan 8,4 mln., Çexoslovakiyadan 6,4 mln., Polşadan 3,7 mln., Macarıstandan 2,3 mln., Rumıniyadan 190 min, KXDR-dən 3190 min manatlıq müxtəlif kütləvi istehsal malları alınmışdı [142, 16].

1988-ci ildə Qarabağ konflikti ətrafında baş verən siyasi hadisələr, iqtisadiyyatın ritmik inkişafına müəyyən təsiri olsa da, xarici iqtisadi əlaqələr nisbətən sabitliyini qoruyub saxlaya bilmişdi. SSRİ Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 1988-ci ildə Respublikanın idxalı 4,3 mlrd. manat, ixracı isə 6,4 mlrd. manat təşkil etmişdi. Müttəfiq respublikalardan yalnız Belorus və Azərbaycan xarici iqtisadi əlaqələrdə müsbət saldoya malik idi. Lakin 1989-1990-cı illərdə xarici iqtisadi əlaqələrin ittifaq çərçivəsində balansının tədricən pozulması meyli müşahidə olunurdu. Belə ki, 1990-cı ildə Azərbaycanın bütün xarici ticarət dövriyyəsinin 60 faizi RSFSR-in payına düşürdü. Xarici dövlətlərlə aparılan ticarət əməliyyatlarında idxalın həcmi ixracı 3,8 dəfə üstələyirdi (müvafiq olaraq 693,8 mln. və 182,2 mln. manat) 1991-1993-cü illəri iqtisadi şəraitin pisləşməsi və iqtisadi inkişaf göstəricilərinin aşağı düşməsi ilə səciyyələnir. Xüsusilə, xarici iqtisadi-ticarət əlaqələrinin həm coğrafiyasında, həm də strukturunda hökm sürən sistem dağılmaqda idi. Azərbaycanın keçmiş ittifaq respublikaları ilə ticarət dövriyyəsi ümumi xarici ticarət balansının 1991-ci ildəki 87,4 faizdən 1992-ci ildə 46,5 faizə düşmüşdü. Bu meylin başlıca səbəbi postsovet məkanında neftin, pambığın və digər ixrac

mallarının uzaq xarici dövlətlərlə müqayisədə satış qiymətlərindən dəfələrlə aşağı düşməsi idi [187, 1993, № 1-3, 8-11].

1988-ci ilin martında fəaliyyətə başlayan Azərbaycan SSR Nazirlər Soveti yanında "Azərxariciticarət" birliyi xarici ticarət əməliyyatlarında yerli və xarici şirkətlər arasında vasitəçilik və xarici turizmin inkişaf etdirilməsi məqsədi ilə yaradılmışdı. "Azərxariciticarət" birliyinin tərkibinə təsərrüfathesablı "Buta", "Xəzər" və "Azərxaricixidmət" şirkətləri daxil idi. "Buta" bir çox kütləvi istehlak mallarının, milli kustar sənət nümunələri və aqrar-sənaye kompleksi məhsullarının idxal və ixracı, "Xəzər" şirkəti maşınqayırma sənayesi məhsullarının idxal və ixracı, həmçinin istehsal tullantılarının ixracı ilə məşğul idi. "Azərxaricixidmət" respublikaya gələn xarici turistlərə pullu xidməti həyata keçirirdi.

"Sovtransavto" nəqliyyat birliyi və Xəzər Dəniz Gəmiçiliyi idarəsinin daşıdığı yüklər Bakı gömrükxanasının nəzarəti altında həyat keçirilirdi. Birliyinin Bakı şöbəsinin xətti ilə 1988-ci ildə 8 min tondan çox yük daşınaraq 944, 9 min manat gəlir əldə edilmişdi. Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq yüklərin nəqlində rolu artmaqda idi. Əgər 1970-ci ildə Azərbaycan gəmiləri xarici ölkələrə cəmi 581, 5 min yük daşımış və gəlir 3445 min manat xarici valyuta manat olmuşdusa, 1978-ci ildə 666 min ton yük daşımaqla gəlir 5605 min manat, 1984-cü ildə 671 min ton yükə qarşı gəlir 7890 min manat, 1987-ci ildə isə 1267, 3 min tona qarşı gəlir 32233 min manat olmuşdu. Həmin dövrdə Xəzər Dəniz Gəmiçiliyinin quru yük gəmiləri və tankerləri 14 ölkəyə müxtəlif yüklər daşıyırdı [214, 50-51].

Xarici bazara çıxmaq hüququ alan müəssisələrin sayı 200-ü ötüb keçdi. 1989-cu il aprelin 1-dən bu hüquq yalnız öz istehsal etdikləri məhsulları ilə ticarət etmək şərti ilə bütün müəssisələrə, birliklərə, istehsal kooperativlərinə, konsorsiumlara və ticarət evlərinə şamil edildi. Xarici iqtisadi əlaqələrin yeni formalarının tətbiqi (azad iqtisadi zonalar, xarici kapital qoyuluşu, birgə müəssisələrin yaradılması və s.) mütərəqqi xarici texnologiyaların və idarəetmə təcrübəsindən istifadəsinə, ixrac potensialının inkişafına, iqtisadiyyatın maliyyə bazasının genişlənməsinə imkan yaradırdı. Müəssisələr ixrac gəlirlərindən öz valyuta fondlarını yaratmaq hüququ əldə etdi.

80-ci illərin sonlarında ixracın strukturunda yanacaq və xammal, idxal da isə istehlak malları üstün mövqe tutdu. İqtisadi böhran halları xarici iqtisadi fəaliyyətə də öz təsirini göstərdi. Sovet hökumətinin xarici ticarətdə vəziyyəti qaydaya salmaq səyləri gözlənilən nəticələri vermədi. Artıq 1989-cu ildən başlayaraq Azərbaycanın ixrac mallarının dəyəri artsa da, əksinə kəmiyyət göstəricisi azalmışdı. İstehsal səviyyəsinin aşağı düşməsi, sosialist ölkələri və keçmiş SSRİ-nin müttəfiq respublikaları ilə təsərrüfat əlaqələrinin qırılması ticarət dövriyyəsinin ixtisara düşməsinə səbəb oldu.

Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin 1988-ci il 29 mart tarixli B-70/9 saylı qərarında reklam işi ölkənin xarici iqtisadi fəaliyyət kompleksi üçün mühüm əhəmiyyət daşıyan reklam işinin yenidən qurulması, daha perspektivli sahələri stimullaşdırmaq üçün vəsait ayrılması nəzərdə tutulurdu. Qərarda göstərilirdi ki, əlaqədar təşkilatlar xarici bazarlarda Azərbaycanın ixrac mallarının tanınmasına xüsusi diqqət ayırmalıdır [140, 161-177].

1988-ci ilin martında Azərbaycan SSR Nazirlər Soveti yanında "Azərxariciticarət" adlı respublika birliyi yaradıldı. Qurumun əsas vəzifəsi xarici ticarət əməliyyatlarının aparılmasında vasitəçilik etmək və ölkədə xarici turizmin inkişaf etdirilməsinə kömək etmək idi. Birliyin fəaliyyəti əsasən Azərbaycan SSR-nin İran İslam Respublikası (İİR) ilə sərhədyanı ticarət əlaqələrinin bərpa edilməsinə yönəldilmişdi. Azərbaycanla ticarət əlaqələrində qonşu dövlətin Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Xorasan ostanları (vilayətləri) daha fəal iştirak edirdi. 1989-cu il oktyabrın 1-12-də Azərbaycanın Ticarət-Sənaye Palatası və İran ixracının İnkişaf Mərkəzinin təşkil etdiyi sərgidə "Azərbxariciticarət" birliyi və respublikanın istehsal müəssisəsi İran şirkətləri ilə 40-a qədər protokol imzalamış, birgə müəssisələrin yaradılması, birbaşa əmtəə mübadiləsi və barter əməliyyatları aparılması haqqında 200-dən çox niyyət protokolu imzalanmışdı. Respublika Ticarət-Sənaye Palatası tam təsərrüfat hesabı prinsipi əsasında işləməyə başlamışdı. Xarici ölkələrdə keçirilən yarmarka və sərgilərdə respublika təşkilatlarının kommersiya işlərini "Azərbxariciticarət" birliyi yerinə yetirirdi.

SSRİ Nazirlər Sovetinin 1989-cu il 7 mart tarixli 203 saylı qərarı əsasında Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi *"Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi tədbirləri haqqında"* 1989-cu il 31 mart tarixli 148 saylı qərarda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sistemi aşağıdakı məsələləri əhatə edirdi:

- xarici iqtisadi əlaqələrin iştirakçılarının qeydiyyata alınması;
- dövlət sərhədindən keçirilən malların və digər mülkiyyətin bəyan edilməsi;
- strateji əhəmiyyətli bir sıra malların idxal və ixrac qaydalarının hazırlanması;
- xarici iqtisadi əlaqələrin çevik gömrük nizamlanması tədbirlərinin həyata keçirilməsi.

Bu sistem xarici iqtisadi fəaliyyətin bütün növlərinə, o cümlədən birbaşa istehsal və elmi-texniki əlaqələr, sərhədyanı ticarət əlaqələri və mal mübadiləsi əməliyyatlarına, xarici iqtisadi fəaliyyətin bütün iştirakçılarına şamil edilirdi. Xarici iqtisadi fəaliyyət iştirakçıları qrupuna müəssisələr, birliklər, istehsal kooperativləri və bilavasitə xarici iqtisadi fəaliyyətin iştirakçısı olan digər təşkilatlar, konsorsiumlar, aksioner cəmiyyətləri, ticarət

evləri, birgə müəssisələr, beynəlxalq birlik və təşkilatlar daxil idi. Qərarın 4-6-cı maddələri bilavasitə dövlət sərhədindən keçirilən malların və digər mülkiyyətin dövlət gömrük nəzarəti orqanlarına müvafiq bəyannamənin təqdim edilməsini nəzərdə tuturdu. Yük bəyannamələri xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən müstəqil şəkildə, müqavilə əsasında "Soyuzvneştrans" birliyi və ya dövlət gömrük nəzarəti orqanının müəyyən etdiyi digər təşkilatlar tərəfindən təqdim oluna bilərdi. Yüklər barəsində gömrük bəyannaməsi olmadıqda və ya müəyyən edilmiş qaydalar üzrə bəyannamə düzgün tərtib edilmədikdə, dövlət sərhədindən buraxılmırdı. Qanunvericiliyə uyğun olaraq Gömrük bəyannaməsində bilərəkdən yalan məlumatları daxil edən şəxslər məsuliyyətə cəlb olunurdu. Dövlət gömrük orqanları gömrük rəsmiləşdirilməsi əməliyyatlarının keçirilməsinə görə Baş Dövlət Gömrük Nəzarəti İdarəsinin müəyyən etdiyi miqdarda ödəniş tutulurdu. Bu vəsaitdən dövlət gömrük xidmətinin inkişafı və əmək kollektivinin sosial ehtiyaclarına sərf edilməsinə icazə verilirdi. Yük gömrük bəyannaməsindəki məlumatlar xarici iqtisadi fəaliyyətin dövlət statistikasının aparılmasında əsas rəsmi göstəricilər sayılırdı. Qərarın 14-cü maddəsində respublikanın müvafiq nazirlik və təşkilatlarına tapşırılırdı ki, *"qüvvədə olan qanunvericilik əsasında xarici iqtisadi fəaliyyət, o cümlədən birbaşa istehsal və elmi-texniki əlaqələr, sərhədyanı ticarət və mal mübadiləsi aparmağa səlahiyyəti olan müəssisələrin, birliklərin, istehsal kooperativləri və digər təşkilatların, respublika ərazisində yaradılan birgə müəssisələrin, beynəlxalq birlik və şirkətlərin qeydiyyata alınması üçün SSRİ Xarici iqtisadi əlaqələr Nazirliyinin Azərbaycan SSR Nazirlər Soveti yanında Müvəkkili idarəsinə hərtərəfli köməklik göstərilsin"* [214, 149-155].

Respublika Hökumətinin 1989-cu il 5 yanvar tarixli qərarı ilə icra hakimiyyəti orqanlarına xarici ticarət iştirakçıları olan müəssisə və təşkilatlara tam iqtisadi və təşkilati şəraitin yaradılması vəzifəsi qoyuldu. Bu sahədə görülən tədbirlərin nəticəsi olaraq 1989-cu il sentyabrın 1-10-da Bakıda "Azərbaycanın ixracı" adlı ilk beynəlxalq kommersiya sərgisi keçirildi. Sərginin işində 15 ölkəni təmsil edən 200-ə qədər xarici şirkətlə bərabər respublikanı təmsil edən 86 müəssisə öz məhsullarını nümayiş etdirdi [214, 62; 161, 1982, 2 sentyabr].

Azərbaycan SSR Nazirlər Sovetinin 1990-cı il 1 iyun tarixli 237 nömrəli qərarı ilə Bakıda Azərbaycanla iqtisadi əlaqələr qurmaqda maraqlı olan xarici işgüzar dairələrin nümayəndələrinin iştirakı ilə I Beynəlxalq konqres (1990-cı il 16-20 oktyabr) keçirildi. Konqresin işində 44 ölkəni təmsil edən 450 şirkətin 750 nümayəndə iştirak etmişdi. Xarici biznesmenlərin Azərbaycanın 30-dan çox rayon və şəhərində, o cümlədən, Naxçıvan, Gəncə, Sumqayıt, Ağdaş, Kürdəmir, Bərdə, Saatlı, Ağdam, Quba, Şamaxı və b. yerlərdə görüşlər keçirmişdi. Ticarət-iqtisadi əməkdaşlığın müxtəlif

sahələri üzrə 931 mln. ABŞ dolları həcmində 49 müqavilə imzalanmışdı [84, 159-162].

80-ci illərin sonlarında başlayaraq keçmiş SSRİ-nin Türkiyə Cümhuriyyəti ilə iqtisadi əlaqələrinin genişlənməsi Azərbaycan SSR-in qonşu dövlətlə xarici ticarət dövriyyəsinin artmasına gətirib çıxardı. 1988-1990-cı illərdə SSRİ-nin Türkiyə ilə ticarət dövriyyəsinin 700 mln. ABŞ dollarından 1,9 mlrd. ABŞ dollarına yüksəlməsində Azərbaycanın payı az deyildi. 1990-cı ilin yanvarında Bakıda Azərbaycanla Türkiyə arasında iqtisadi-ticarət əlaqələri haqqında protokol, sentyabr ayında isə Ankarada Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi və iki ölkənin sərhədində gömrük nəzarəti məntəqəsinin yaradılması haqqında saziş imzalandı. 1990-cı il dekabrın 14-də SSRİ Xarici ticarət bankı ilə "Eksimbank" arasında imzalanan sazişə əsasən SSRİ-yə göndərilən ərzaq və ilkin tələbat mallarının maliyyələşməsinə 300 mln., buğda, un və makaron məhsullarının alınmasına 200 mln. ABŞ dolları həcmində kredit ayrıldı. 1991-ci ilin martında Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın SSRİ-yə rəsmi səfəri hər iki ölkə arasında siyasi və iqtisad-ticarət əlaqələrinin yeni səviyyəyə qalxmasına şərait yaratdı. Sumqayıt Üzvi Sintez İstehsalat Birliyi ilə ABŞ və Türkiyənin bir sıra şirkətləri, o cümlədən Almaniyanın "İnterkar", İtaliyanın "Belyoni", İngiltərənin "Kaymankarven" şirkətləri ilə yeni texnoloji avadanlıqların alınıb quraşdırılması haqqında müqavilələr imzalanmışdı [172, 1991, 12 aprel].

Azərbaycan KP MK Bürosunun *"Nümayəndə heyətlərinin və mütəxəssislərin xaricə ezamiyyətinin təşkilində ciddi nöqsanlar haqqında"* adlı 1990-cı il 22 yanvar tarixli qərarı xarici iqtisadi-ticarət və elmi-texniki əlaqələrin təşkilində ciddi nöqsanların olduğunu göstərirdi. Qərarda qeyd olunurdu ki, "dövlət müəssisələri, kooperativlər və digər təşkilatların geniş dairəsinə xarici bazara müstəqil çıxmaq hüququ verilmiş, elmi-texniki və mədəni sahələrdə mübadilə çərçivəsi genişləndirilsə də, bəzi nazirlik və baş idarələr ixrac edilən məhsulların nomenklaturunun genişləndirilməsi və valyuta gəlirlərinin artırılması kimi məsələlərin həllində passivlik göstərir. Sənəddə göstərilirdi ki, *"əvvəllər olduğu kimi yenə də ixrac edilən məhsulların strukturunda pambıq və neft üstünlük təşkil edir. Onların xüsusi çəkisi 55 faizdən çoxdur. Bəzən müəssisə, birlik və təşkilatların rəhbərləri əvvəlcədən bazarın konyunkturasını, satış şərtlərini öyrənmədən xaricə gedirlər, onların qiymətlər haqqında təsəvvürü olmur. Məsələn, Bakıda istehsal olunmuş kondisionerin birini Livan firması 140 dollara alıb, üçqat baha qiymətə satmışdır. Respublikada bəzi kənd təsərrüfatı məhsulları itkisinin 20-30 faizə çatdığına baxmayaraq, Dövlət Aqrar-Sənaye Komitəsi qabaqcıl xarici firmalar ilə əməkdaşlıq və onların nailiyyətlərindən istifadə sahəsində öz imkanlarından hələ də zəif istifadə edir. Çox vaxt xaricə gedən nümayəndə heyətlərinin səviyyəsi, say tərkibi və xaricdə qalmaq müddətləri*

*süni surətdə artırılır. Məsələn, 1989-cu ilin mayında respublika Yüngül Sənaye nazirliyinin 5 nəfərdən ibarət, o cümlədən nazir, "Azərxariciticarət" birliyinin direktorundan, onun müavinindən, birliyin idarə müdirindən və yalnız bir mütəxəssisdən ibarət nümayəndə heyəti baramasarıyan avadanlıq almaq üçün danışıqları davam etdirmək məqsədilə Yaponiyaya getmişdi. Respublika Meliorasiya və su təsərrüfatı naziri və xüsusi ehtiyac duyulmadan onun müavini qaçqınlar üçün quraşdırma evlər almaq məsələsini həll etmək üçün ÇSSR-də olmuşlar. Xarici dilləri bilməyən alimlərin respublikadan elmi ezamiyyətlərə göndərilməsi faktları da vardır ...Bu, keçən il Vaşinqtonda keçirilmiş Beynəlxalq geoloji konfransın iştirakçılarına aiddir"* [143, 33-35].

Qərarda qeyd olunurdu ki, Azərbaycan KP vilayət, şəhər və rayon komitələri *"Xarici iqtisadi fəaliyyətin əsaslı surətdə təkmilləşdirilmək tədbirləri haqqında"* Azərbaycan KP MK-nın 1986-cı il 28 sentyabr tarixli qərarında nəzərdə tutulmuş tədbirlər həyata keçirilməli, valyuta vəsaitinin lazımsız xərclənməsinin qarşısı alınmalıdır. Əslində, V.Polyaniçkonun imza etdiyi və xarici iqtisadi əlaqələrin gücləndirilməsində mütərəqqi iqtisadi metodların tətbiq edilməsi əvəzinə inzibati metodlara üstünlük verilməsini tövsiyə edən qərarın məzmunu respublika rəhbərliyinin yaranmış vəziyyəti dərindən araşdırmadığını sübut edirdi.

Cədvəl 4.1

**Müttəfiq respublikalara sərhədyanı ticarət çərçivəsində mal mübadiləsi və birbaşa əlaqələrlə həyata keçirilən əməliyyatlarda istehlak mallarının ixracına ayrılan kvotalar**

(1990-cı ilin pərakəndə satış qiymətləri ilə, mln. manat)

| s/s | Müttəfiq respublikalar | Dövlət ticarəti fondu | İstehlak kooperasiyası fondu | Cəmi |
|---|---|---|---|---|
| 1. | RSFSR | 286,2 | 137 | 423,2 |
| 2. | Ukrayna SSR | 113,6 | 27,5 | 141,1 |
| 3. | Belorus SSR | 34,2 | 5,2 | 39,4 |
| 4. | Özbəkistan SSR | 6,6 | 66,8 | 73,4 |
| 5. | Qazaxıstan SSR | 4.8 | 5 | 9,8 |
| 6. | Gürcüstan SSR | 7 | 30,5 | 37,5 |
| 7. | Azərbaycan SSR | 1,7 | 2,2 | 3,9 |
| 8. | Ermənistan SSR | 0,5 | 4,5 | 5,0 |
| 9. | Tacikistan SSR | 0,5 | 0,5 | 1,0 |
| 10. | Qırğızıstan SSR | 0,8 | 1,2 | 2,0 |
| 11. | Türkmənistan SSR | 1,4 | 13,2 | 14,6 |

| | | | | |
|---|---|---|---|---|
| **12.** | Moldova SSR | 10 | 5 | 15,0 |
| **13.** | Latviya SSR | 2,5 | 13,5 | 16,0 |
| **14.** | Litva SSR | 13,5 | 7,5 | 21,0 |
| **15.** | Estoniya SSR | 5 | 11,2 | 16,2 |
| **1-15.** | **İttifaq üzrə cəmi** | **488,3** | **331,5** | **819,8** |

Hesablanıb: SSRİ Nazirlər Sovetinin 1989-cu il 11 dekabr tarixli 1104 nömrəli qərarına əlavə №3 //Сборник нормативных актов к первому международному конгрессу представителей зарубежных деловых кругов, заинтересованных в экономических связях с Азербайджанской ССР. Баку: "Азернешр", 1990, – 219 с. с.179.

Azərbaycan SSR Nazirlər Soveti "Azneft" istehsalat birliyinin təklifini nəzərə alaraq *"Azərbaycan SSR-də tikinti materialları və konstruksiyaları istehsal edən sovet-İtaliya birgə müəssisəsinin yaradılması haqqında"* 1990-cı il 19 noyabr tarixli 527 nömrəli qərar qəbul etdi. Müəssisədə divar və arakəsmə blokları, keramik plitə və sanitar-texniki məmulatların, dəmir-beton konstruksiyaların, alüminium qapı və pəncərələrin istehsalı həyata keçirilməli idi [84, 2-3].

1990-cı ildə Azərbaycanda xarici iqtisadi fəaliyyət iştirakçısı olan 236 istehsal müəssisəsinin iqtisadi əlaqələri 100-də çox ölkəni əhatə edirdi. İxracın mal nomenklaturasına 400-dən çox adda mallar daxil idi [161, 1991, 10 aprel]. Lakin keçmiş SSRİ-də müttəfiq respublikalara sərhədyanı ticarət çərçivəsində mal mübadiləsi və birbaşa əlaqələrlə həyata keçirilən əməliyyatlarda istehlak mallarının ixracına ayrılan kvotaların təhlili göstərir ki, xarici iqtisadi əlaqələrin qurulması sahəsində Azərbaycanın nə iqtisadi-coğrafi, nə də əhali resursları nəzərə alınmırdı. Aşağıdakı cədvəldən göründüyü kimi, strateji iqtisadi potensialına və demoqrafik göstəricilərinə görə Azərbaycandan geridə olan Baltik ətrafı respublikalara, Ermənistan, Gürcüstan, Türkmənistan və Moldovaya ayrılan ixrac kvotaların həcmi, xüsusilə istehlak kooperasiyası xətti ilə ayrılan kvotalar dəfələrlə çox olmuşdur.

Göründüyü kimi, 1990-cı il üçün dövlət ticarəti üzrə ayrılan ixrac kvotasının həcminə görə Azərbaycan SSR digər müttəfiq respublikalar sırasında 11-ci, istehlak kooperasiyası fondu üzrə isə Tacikistan SSR və Qırğızıstan SSR-dən sonra sonuncu yerdə idi. Respublikanın xarici ölkələrlə iqtisadi-ticarət, maliyyə və pul-tədavül, elmi-texniki əlaqələrdə iştirak edən dövlət, kooperativ və ictimai təşkilatların fəaliyyətinin nizamlanması məqsədi ilə xüsusi komissiya təşkil edilmişdi.

Respublikanın xarici iqtisadi əlaqələrinin gələcək inkişaf perspektivləri xarici tərəfdaşlarla birgə fəaliyyət üçün əlverişli informasiya mühitinin yaradılmasını da tələb edirdi. Azərbaycan SSR Nazirlər Sovetinin

*"Azərbaycan SSR-nin iqtisadi potensialının İnformasiya bankının yaradılması haqqında"* 1990-cı il 5 iyun tarixli 243 nömrəli qərarı ilə 1990-cı il sentyabrın 15-dək İnformasiya bankının fəaliyyət göstərməsini nəzərdə tuturdu. Qəbul edilən qərara görə, respublikanın idxal və ixrac imkanlarına aid göstəricilər, qanunvericilik bazası və ayrı-ayrı müəssisə və şirkətlərin xarici iqtisadi fəaliyyət haqqında zəruri məlumatlar toplanan fond yaradılmalı idi.

Azərbaycan SSR Nazirlər Sovetinin 1990-cı il 19 iyun tarixli 260 saylı qərarı ilə təsdiq edilən Əsasnamədə qeyd olunurdu ki, komissiya öz fəaliyyətini Azərbaycan SSR Konstitusiyasına, ittifaqın digər qanun və hüquqi aktlarına və bu Əsasnaməyə görə qurur. Komissiyanın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu:

- Azərbaycan SSR-in xarici ölkələrlə xarici iqtisadi və elmi-texniki əlaqələrinin inkişaf proqramının işlənilib hazırlanması, idxal və ixrac mallarının strukturunun təkmilləşdirilməsi, valyuta ehtiyatından səmərəli istifadə edilməsi;
- xarici iqtisadi fəaliyyətin əsaslı surətdə yaxşılaşdırılması və səmərəliyinin artırılması üçün tədbirlərin həyata keçirilməsi, xarici ölkələrlə ticarət-iqtisadi, valyuta-maliyyə və elmi-texniki əlaqələrin daha da təkmilləşdirilməsi və yaxşılaşdırılması;
- respublikanın ixrac potensialının genişləndirilməsi, malların keyfiyyəti və rəqabət qabiliyyətinin, valyuta daxil olmalarının artırılması;
- qonşu dövlətlərlə - İran və Türkiyə ilə birbaşa əlaqələrin, birgə istehsalatın və sərhədyanı ticarətin inkişaf istiqamətlərinin, xarici ölkə şirkətləri və təşkilatları ilə birgə müəssisələrin yaradılması sahəsində təklif və tövsiyələrin işlənib hazırlanması;
- respublikanın xarici iqtisadi fəaliyyətlə məşğul olan nazirliklər, təşkilatlar, dövlət, kooperativ və digər ictimai birliklər tərəfindən mövcud qanunvericiliyə əməl edilməsinə nəzarət edilməsi;
- xarici iqtisadi əlaqələrin idarə edilməsində valyuta daxilolmalarının artımına istiqamətlənmiş iqtisadi metodların, o cümlədən təsərrüfat hesabı, müqavilə münasibətləri, dönər valyuta ilə özünümaliyyələşdirmənin geniş tətbiq edilməsi;
- Azərbaycan SSR-in xarici iqtisadi öhdəliklərinin təmin edilməsi, respublika nazirlikləri və təşkilatlarının xarici iqtisadi əlaqələr sahəsində qərarların yerinə yetirilməsi işinə nəzarət edilməsi;
- xarici iqtisadi əlaqələr sahəsində dövlət intizamının hərtərəfli yüksəldilməsi;
- Azərbaycan SSR-nin xaricdə keçirilən beynəlxalq sərgi, yarmarka, simpozium, elmi-texniki konfranslarda, həmçinin Azərbaycan SSR-də xarici təşkilat və şirkətlərin iştirakı ilə keçirilən analoji tədbirlərdə iştirakı məsələlərinə baxılması.

Əsasnamənin 4-cü maddəsində komissiya öz fəaliyyətində aşağıdakı vəzifələri həll etməli idi:

- Azərbaycan ərazisində fəaliyyət göstərən bütün xarici iqtisadi əlaqələr iştirakçılarının, o cümlədən təsərrüfathesablı Xarici turizm idarəsinin xarici ölkələrlə əməkdaşlığını əlaqələndirməli;
- ticarət-iqtisadi, valyuta və qiymət siyasətinin həyata keçirilməsinə nəzarət etməli, dünya əmtəə bazarlarında konyukturanın öyrənilməsi və istifadəsinə nail olmalı;
- Azərbaycan SSR-nin ticarət-iqtisadi, elmi-texniki və istehsal sahəsində əməkdaşlıq məsələləri üzrə bağlanılacaq beynəlxalq müqavilələrin hazırlanmasını koordinasiyası;
- xarici ölkələrlə kredit və hesablaşmanın vəziyyəti, kreditlərin təklif olunması və verilməsi şərtləri, həmçinin nazirlik və müəssisələrin valyuta fondlarından ayırmalardan düzgün istifadə edilməsi işinə nəzarəti həyata keçirməli;
- Nazirlər Sovetinin tapşırığı ilə respublika ərazisində birgə müəssisələrin və xarici ticarət birliklərinin yaradılmasına, həmçinin Azərbaycan SSR təşkilatlarının digər ölkələrin ərazisində müvafiq qaydalar əsasında təşkil edilən birgə və qarışıq cəmiyyətlərdə iştirakının məqsədəuyğunluğu və lisenziya haqqında rəy verməli;
- xarici dövlətlərlə iqtisadi və elmi-texniki əməkdaşlığı həyata keçirən nazirlik və idarələrdə çalışan kadrların peşə hazırlığı və ixtisas səviyyəsinin artırılması üçün təkliflər hazırlamalı;

Komissiya öz funksiyalarını həyata keçirərkən nazirlik, idarə, müəssisə, birlik və təşkilatların operativ fəaliyyətinə müdaxilə etməməli idi.

Komissiyanın hüquqları aşağıdakılar idi:

- malların idxal və ixracına aid illik planların həyata keçirilməsi gedişində nazirlik və idarələrin idxal-ixrac və valyuta-maliyyə əməliyyatları üzrə təkliflərini nəzərdən keçirir və tövsiyələrini verir. Zərurət yarandıqda, sözü gedən təkliflərlə Azərbaycan SSR Nazirlər Sovetinə müraciət edir;
- zərurət olduqda, xarici iqtisadi əlaqələrin mühüm problemləri üzrə təkliflərin hazırlanması, həmçinin irimiqyaslı iqtisadi və elmi-texniki əməkdaşlıq layihələrinin iqtisadi səmərəliliyi və məqsədəuyğunluğunun təyin edilməsi, yeni ixrac yönümlü istehsalatın inkişafı və avadanlıq alınması üçün mütəxəssislərdən ibarət müvəqqəti işçi qrupu yaradılır [214, 193-196].

Beləliklə, Azərbaycan SSR-in xarici iqtisadi-ticarət əlaqələri və ixrac potensialı sovet gömrük siyasətinin özünəməxsus xüsusiyyətlərinin təsiri ilə formalaşırdı. Xarici ticarət ciddi surətdə aparılan makro planlaşdırmanın əhatə dairəsində idi və respublikanın idxal-ixrac əməliyyatları ittifaq dövlətinin mənafelərinə xidmət edirdi. Sovet dövlətinin iqtisadi siyasətində xarici ticarətin həcminin azaldılması və gələcəkdə ondan müəyyən mənada imtina etmək meylləri də üstünlük təşkil edirdi.

Cədvəl 4.2

**Bakı gömrükxanasının idarə aparatının saxlanılmasına çəkilən xərclər (manatla)**

| s/s | Xərclər | 1987-ci il | 1988-ci il | 1989-cu il |
|---|---|---|---|---|
| 1. | Əməkdaşların sayı | 33 | 36 | 36 |
| | Əmək haqqı, | 75310 | 82700 | 85300 |
| | o cümlədən | 56730 | 62380 | 62950 |
| | - əsas əmək haqqı | 5591 | 5650 | 6300 |
| | - xidmət illərinə görə əlavə | 8563 | 10320 | 11350 |
| | - xüsusi əlavələr | 3938 | 3650 | 4000 |
| | - xarici dilə görə | 488 | 700 | 700 |
| | - bayram günlərində işə çıxmağa görə | 5272 | 5800 | 5970 |
| 2. | Əmək haqqına 7 faizlik əlavə | 2928 | 4000 | 5900 |
| 3. | Təsərrüfat xərcləri, o cümlədən | 714 | 700 | 1500 |
| | a) dəftərxana xərcləri | 1124 | 2100 | 1700 |
| | b) bina və tikililərin saxlanılmasına | 1090 | 1200 | 2700 |
| 4. | c) xüsusi avtomobilin saxlanılması | 820 | 700 | 1400 |
| 5. | Ezamiyyə və nəqliyyat xərcləri | 3026 | 700 | 1330 |
| 6. | Avadanlıq və əşya alınmasına | 1283 | - | - |
| **7.** | Geyim formasının alınmasına | 3245 | 19600 | 26670 |
| **1-7** | Cəmi xərclər | 91884 | 113500 | 128940 |

Mənbə: ARDA Bakı filialı, f. 126, siy. 2, iş 66, v. 20-24.

Cədvəldən göründüyü kimi, 1987-1989-cu illərdə Bakı gömrükxanası əməkdaşlarının sayında və idarə aparatının saxlanılmasına ayrılan vəsaitin miqdarında nəzərə çarpacaq dəyişiklik olmamışdı. Əgər 1987-ci ildə bir gömrükxana əməkdaşının orta illik əmək haqqı 2442 manat (əlavələrlə birlikdə) təşkil edirdisə, 1989-cu ildə bu göstərici 2535 manat olmuşdu.

Gömrükxananın 33 nəfərdən ibarət şəxsi heyəti öz funksiyalarını Bakıda yerləşən 13 məntəqədə, bir çox hallarda isə Sumqayıtda və respublikanın hüdudlarından kənarda – Dərbənddə (Dağıstan MSSR), Həştərxanda (RSFSR) və Krasnovodskda (Türkmənistan SSR) yerinə yetirirdilər. İranla ticarət əlaqələrinin genişlənməsi ilə əlaqədar və Bakı-Ənzəli xətti ilə sərnişin daşımalarının bərpa olunması, bundan əlavə Azərbaycandan QİYŞ üzvü ölkələrinə təyyarə reyslərinin açılması gömrükxanada işin həcmini xeyli artırmışdı. Bu isə öz növbəsində nəzarətçilərin sayının artırılmasını

tələb edirdi. Lakin Bakı gömrükxanasına ayrılan vəsaitin olduğu kimi saxlanılması şəxsi heyətin sayını artırmağa imkan vermirdi. Belə ki, 1987-ci ilin dövlət büdcəsində Bakı gömrükxanasına 88800 manat, o cümlədən əmək haqqının ödənilməsinə cəmi 75309 manat vəsait ayrılması nəzərdə tutulmuşdu. Bütün bunlar nəzərə alınaraq SSRİ Baş Gömrük İdarəsinin 1988-ci il 1 avqust tarixli 107 saylı əmri ilə Bakı gömrükxanasının tərkibində əlavə 3 əməliyyat şöbəsi yaradıldı [99, 8-9].

1980-ci illərdə SSRİ-nin yürütdüyü xarici iqtisadi siyasətinin hüquqi tənzimlənməsində bəzi islahatlar həyata keçirildi. Maraqlıdır ki, həmin sənədlərin bir çoxunda müttəfiq respublikaların xarici ticarət əməliyyatlarında hüquq və səlahiyyətlərinin genişləndirilməsi, müəssisələrin valyuta ilə öz xərclərini ödəməsi, təsərrüfat müstəqilliyinin artırılması nəzərdə tutulurdu. 1986-cı ildən sovet gömrük sistemində aparılan islahatların ən radikal mərhələsi başladı. SSRİ yarandığı gündən bəri xarici ticarət nazirliyinin tərkibində mövcud olmuş Baş Gömrük İdarəsi ləğv edilərək əvəzində Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş İdarəsi təsis edildi. Əslində, bu andan etibarən sovet gömrüyü tarixində ilk dəfə olaraq müstəqil təşkilata çevrildi. 1987-ci ildən SSRİ gömrük orqanlarının şəxsi heyətinin geyim forması dəyişdirildi və yeni fərqləndirici nişanlar tətbiq edildi.

SSRİ-də xarici iqtisadi fəaliyyətin bir qədər liberallaşdırılması hüquqi və fiziki şəxslərin dövlət sərhədindən külli miqdarda qiymətli mal və materialların daşınmasına şərait yaratdı. Bununla bərabər, liberallaşdırma siyasəti özü ilə bərabər xarici ticarətin strukturunda mənfi meyllərə, bu sahənin kriminallaşmasına, qaçaqmalçılıq hallarının geniş yayılmasına əlverişli mühit yaratdı. Təkcə 1986-1988-ci illərdə sovet gömrük orqanları tərəfindən sərhəddən qanunsuz keçirilməsinə cəhd edilən 76 mln. manatlıq mallar (narkotiklər, silah və döyüş sursatları hesaba alınmadan) saxlanılmışdı. Həmin dövrdə gömrükçülər 6,5 ton qara kürü və 30 min ədəd antik əşya və incəsənət nümunələrinin qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısı alınmışdı [198, 1989, 4 sentyabr].

## *4.2. Sovet gömrük sistemində islahatlar və Respublika Gömrük İdarəsinin yaradılması*

Həmin dövrdə sovet gömrük xidməti ilə beynəlxalq gömrük təşkilatları və ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə əməkdaşlığa başladı. narkobizneslə mübarizəsinin güclənməsində Avropa gömrük xidməti orqanları rəhbərlərinin gömrük əməkdaşlığı Şurasının sonuncu iclasında razılaşmanın mühüm rolu oldu. Qısa müddətdə ABŞ, Fransa, AFR və Kanadanın gömrük xidmətləri ilə əməkdaşlıq haqqında sazişlər imzalandı. Narkotiklərdən kollektiv müdafiə sisteminin yaradılması təklif olunmuşdu. Bu dövrdən başlayaraq xarici ölkə xidmətlərinin SSRİ-nin gömrük

orqanlarına münasibəti müsbətə doğru dəyişdi. SSRİ-yə ixrac edilən çap məhsullarının, audiovizual vasitələrin və digər informasiya materiallarının, o cümlədən dini məzmunlu ədəbiyyatın gətirilməsinə məhdudiyyətlər aradan qaldırıldı. Lakin 1989-cu ilin cəmi yeddi ayı ərzində xarici ölkələrdən dini təşkilatların ünvanına təqribən iki milyon nüsxə müxtəlif dini kitablar göndərilmişdi. 1989-cu il avqustun 15-də qüvvəyə minən yeni gömrük qaydalarına görə ayrı-ayrı vətəndaşların ölkəyə dini ədəbiyyatın gətirməsinə şəxsi tələbata görə məhdudiyyət qoyuldu.

SSRİ Nazirlər Sovetinin Xarici iqtisadi əlaqələr Komissiyası gömrük təşkilatının digər dövlət orqanları ilə fəaliyyətini istiqamətləndirir və gömrük işinə operativ rəhbərliyi təmin edirdi. SSRİ Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş İdarəsi (DGNBİ) mərkəzi gömrük orqanı idi. Nazirlər Sovetinin 13 iyul 1987-ci il tarixli 775 saylı qərarı ilə idarənin Əsasnaməsi təsdiq edilmişdi. Əsasnamədə göstərilirdi ki, "dövlət gömrük nəzarəti ölkənin siyasi və iqtisadi mənafeyinin, əhalinin sağlamlığı və mənəviyyatının müdafiəsi məqsədi ilə həyata keçirilir", həmçinin Əsasnamədə DGNBİ-nin SSRİ Nazirlər Sovetinin xarici iqtisadi əlaqələr Komissiyasının rəhbərliyi ilə fəaliyyət göstərdiyi qeyd olunurdu. Bu maddə dövlət idarəçiliyi strukturunda gömrük sisteminin mövqeyinin gücləndirilməsini təsbit edirdi. DGNBİ gömrük nəzarətinə, qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə aparılmasına, gömrük tarifinin səmərəli tətbiq edilməsinə cavabdeh idi. Əsasnaməyə görə, DGNBİ-nin vəzifələri aşağıdakılar idi:

- dövlət gömrük nəzarətinin təkmilləşdirilməsi üçün təkliflər vermək və zəruri tədbirlər görmək;
- Gömrük məcəlləsinə və digər qanunvericilik aktlarına müvafiq olaraq əşyaların dövlət sərhədindən buraxılması, onların rəsmiləşdirilməsi və yoxlanılması, sərhədi keçən fiziki şəxslərə baxışın keçirilməsi və digər gömrük əməliyyatlarının qaydalarını təyin etmək;
- qaçaqmalçılıqla və gömrük qaydalarının pozulması ilə mübarizə tədbirlərinin işlənilib - hazırlanması və həyata keçirilməsi;
- mallara gömrük tarifinin işlənilib-hazırlanmasında iştirak etmək;
- şəxsi istehlak əşyalarına tətbiq edilən gömrük rüsumlarının həcmini müəyyən etmək.

DGNBİ-nin hüquqlarına daxil idi:

- dövlət sərhədində, avtomobil, dəniz, çay, hava və digər nəqliyyatın hərəkət etdiyi yerlərdə buraxılış məntəqələrinin təşkili haqqında təkliflərin hazırlanmasında iştirak etmək;
- xarici ticarət əməliyyatlarının predmeti olmayan əşyaların daşınmasına icazə vermək;
- müəyyən edilmiş qaydalar üzrə gömrük müəssisələri yaratmaq, yenidən təşkil etmək və ləğv etmək.

Təkcə 1985-1988-ci illərdə bu sahədə 30-a yaxın hüquqi sənəd – qərarlar, normativ aktlar və təlimatlar qəbul edildi. 1989-cu ilin yanvarında Moskvada gömrük müəssisələri əməkdaşlarının ixtisasının artırılması və yenidən hazırlanması İnstitutu fəaliyyətə başladı.

Bakı gömrükxanasının şəxsi heyəti sovet gömrük nəzarəti qaydalarının təkmilləşdirilməsində fəal iştirak edirdi. Bakının gömrük mütəxəssisləri *"1981-1985-ci illərdə və 1990-cı ilə qədər olan dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətləri"* layihəsinin 25 dekabr 1980-ci ildə keçirilən kollektiv müzakirəsində gömrük işinin daha səmərəli qurulması üçün bir neçə təkliflər irəli sürmüşdü. İrəli sürülən təkliflərdə həm gömrük tarifində və malların gömrük rəsmiləşdirilməsi qaydalarında müvafiq düzəlişlər aparılması, həm də əməkdaşların xidməti fəaliyyəti və sosial vəziyyətində dəyişikliklər edilməsi nəzərdə tutulurdu:

- qonaq vizası ilə Sovet ittifaqına gələn şəxslərin (həm sovet, həm də xarici vətəndaşların) gömrükxana tərəfindən saxlanılan əşyalarının mühafizəsinə görə alınan rüsum 500 manatadək artırılsın;

- xaricə üzən gəmilərin heyət üzvlərinin fərdi bəyannamə tərtib etməsini ləğv edilməli, belə ki, bu qaya xaricə səfər edən gəmilərə baxış keçirilməsi müddətini artırmaqla gömrük nəzarətçilərinin diqqətini əsas axtarış işindən yayındırır. Təklif olunur ki, gömrük bəyannaməsinin əvəzinə, hər bir dənizçiyə digər nəqliyyat vasitələrində tətbiq olunduğu kimi nağd valyutanın qeydiyyatı kitabçası açılsın;

- Gömrük tarifində bəzi gömrük rüsumlarının həcmində dəyişikliklər edilməli idi, belə ki, 166-cı maddəyə görə 1 kq dənəvər kofeyə görə 2 manat 50 qəpik, 167.4 maddəsində isə 1 kq üyüdülmüş kofeyə 1 manat rüsum tutulduğu halda, pərakəndə satış qiymətləri müvafiq olaraq 20 və 30 manat müəyyən olunmuşdu;

- gömrük xidmətinin rəis heyətinə verilən xüsusi geyim formasının dəyərinin 50 faizinin əmək haqqından tutulması qaydası ləğv olunsun;

- prokurorluq orqanlarında əməkdaşların əmək haqlarına fəxri adlara görə əlavələr verilməsi haqqında Əsasnamənin müddəaları gömrük əməkdaşlarına da şamil edilsin [101, 4-5, 8-10; 206, 19-20].

Neft məhsullarının topdansatışını həyata keçirən Dövlət Yanacaq Komitəsi Gömrük idarəsinə İrana dizel yanacağı daşıyan tankerlərə gömrük baxışının gömrükxanadan 7 km məsafədə yerləşən 20 saylı körpüdə deyil, 47 km məsafədə olan Abşeron limanına köçürülməsini təklif etmişdi. Hesablamaya görə, bu hər ay neftdaşıyan tankerlərə yüklənən ixrac neftinin iki dəfə artırılaraq 140 min tona çatdırılmasına imkan verərdi. Xəzər Dəniz Gəmiçiliyi limanda fəaliyyət göstərən və 10 əməkdaşdan ibarət yeni gömrük postu üçün müvafiq yer ayırmışdı.

Respublikanın Bakıdan sonra ən böyük şəhərləri olan Gəncə və Sumqayıtda gömrük məntəqələrinin açılması məqsədəuyğun sayılırdı. Çünki

Gəncə və Sumqayıt regionundan xaricə göndərilən yüklər Azərbaycanın gömrük xidməti nəzarət etmirdi. Gəncə və ətrafında yerləşən Yevlax, Mingəçevir və Bərdə şəhərlərində idxal-ixrac əməliyyatlarını həyata keçirən onlarla sənaye müəssisəsinin olması bu regionda gömrük xidmətinin təşkilini zəruri edirdi. Regionun aqrar-sənaye birlikləri və "Azərittifaq"ın tabeçiliyində olan müəssisələrində bir il ərzində xaricə göndərilməsi nəzərdə tutulan 130-140 mln. manat həcmində məhsul istehsal etmişdi. 1988-ci ildə Sumqayıtın sənaye müəssisələrində 30 mln. manat həcmində ixrac məhsulları istehsal olunmuşdu. Şəhərin sənaye müəssisələrinin gömrük nəzarəti zonasına daxil edilməsinə və 4 əməkdaşdan (rəis, baş nəzarətçi və 2 nəfər nəzarətçi) ibarət gömrük postunun yaradılmasına ehtiyac var idi.

1988-ci ilin iyulundan Azərbaycan Gömrük İdarəsinin əməkdaşları "Koray Baytur" (Türkiyə) inşaat şirkətinin ünvanına göndərilən tikinti texnikası və materiallarına gömrük baxışını aparmaq üçün Mahaç-Qalaya (Dağıstan MSSR) ezam edilirdi. Bununla bərabər, gömrükçülər Dağıstanın müxtəlif nazirlik və təşkilatlarının xaricə göndərdikləri yüklərin rəsmiləşdirilməsini həyata keçirirdi. Məsələn, təkcə 1988-ci ilin dekabrından 1989-cu ilin aprel ayınadək Dağıstan Kooperativlər ittifaqının Polşanın müvafiq təşkilatı ilə birbaşa əlaqələri çərçivəsində 9 rəsmiləşdirmə aparılmışdı. Ümumiyyətlə, Dağıstan MSSR-in 6 şəhərini təmsil edən 22 müəssisənin xarici dövlətlərlə illik aktiv ticarət dövriyyəsi 18 mln. manatdan çox idi. Azərbaycan tərəfi yeni yaradılacaq Mahaç-Qalada gömrük postu üçün inzibati binanın ayrılması və yerli sakinlərdən ibarət kadr ehtiyatının hazırlanması məsələlərini Dağıstan MSSR Nazirlər Soveti ilə razılaşdırmışdı.

SSRİ Baş Gömrük idarəsinin 1988-ci il dekabrın 14-dən Ermənistana ünvanlanan bütün poçt bağlamalarının gömrük rüsumu tutulmadan buraxılması haqqında göstəriş verilmişdi. Azərbaycan gömrükçülərinin apardığı müşahidələrə görə, son 5 ay ərzində aparılan gömrük baxışı zamanı beynəlxalq poçt vasitəsilə göndərilən bağlamaların zəlzələdən ziyan çəkən şəhərlərə deyil İrəvana ünvanlanırdı. Bağlamalar gömrük baxışından keçirilərkən ilkin tələbat malları əvəzinə, əsasən bahalı tikiş və trikotaj məmulatları, gecə köynəkləri aşkar edilirdi. Bunu nəzərə alaraq, Ermənistana göndərilən poçt bağlamalarının rüsumsuz buraxılması qaydasının ləğv edilməsi tələb edilirdi.

Beləliklə, 1986-1990-cı illərdə sovet gömrük sisteminin təşkilati-hüquqi cəhətdən inkişafı baş verdi. Bütün bunlarla bərabər, xarici ticarət üzərində dövlət inhisarının qaldırılması prinsipi elan edilsə də, xarici ticarətin tənzimlənməsinin yeni mexanizmləri təsirsiz qaldı. Gömrük işi sahəsində aparılmalı olan islahatların qanunvericilik bazası işlənilib hazırlanmadı.

Sovet gömrük sistemi öz mövcudluğunun son mərhələsində aşağıdakı inkişaf xüsusiyyətlərinə malik idi:

Birincisi, 1986-1990-cı illərdə gömrük xidməti müstəqil dövlət orqanı olmasına baxmayaraq, vəzifə funksiyaları faktiki olaraq əvvəlki kimi qalmaqda idi. Keçmişdə olduğu kimi gömrükxanaların əsas vəzifəsi xarici ticarət üzərində dövlət inhisarının qorunmasına nəzarət etmək idi. Qeyd edilən dövrdə gömrük sistemi təşkilati-hüquqi cəhətdən təkmilləşdirildi. İnkişafın hüquqi tərəfini gömrük sisteminin hüquqi statusunu və fəaliyyət qaydalarını müəyyən edən bir sıra hüquqi aktların işlənilib hazırlanması təşkil edirdi. Məsələn, SSRİ Nazirlər Soveti *"Dövlət Gömrük Nəzarəti Baş İdarəsi haqqında Əsasnamə"* və *"Dövlət Gömrük Nəzarəti Baş İdarəsinin normativ aktlarının hazırlanması qaydaları haqqında Təlimat"* hazırlamışdı. Təşkilati planda görülən tədbirlərdən ən mühümü yerlərdə gömrük müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. SSRİ Nazirlər Sovetinin 1989-cu il 28 fevral tarixli 191 saylı qərarı xarici ticarətdə dövlət inhisarından imtina edilməsini hüquqi cəhətdən təsbit etdi. Bununla da, sonrakı dövr üçün yeni gömrük siyasəti və gömrük nəzarəti mexanizmi formalaşdırılması sahəsində vəzifələr müəyyən edildi [185, 1992, № 10].

İkincisi, 1989-cu ildən sonra xarici ticarətin yenilənmiş idarəçilik formasına keçdiyindən gömrük orqanlarının funksiyaları tədricən dəyişməli idi. Lakin gömrük orqanlarının hüquqi cəhətdən təsbit olunmuş yeni funksiyaları, xüsusilə gömrük-tarif tənzimlənməsi ilə bağlı funksiyaları deklarativ xarakter daşıdığından xarici iqtisadi əlaqələrin tənzimlənməsinin yeni üsulları təcrübədə özünü doğrultmadı.

Üçüncüsü, gömrük işinin əsaslı surətdə yenidən qurulmasına gətirib çıxaracaq qanunvericilik bazası yaradılmamışdı. İnzibati-amirlik sistemin tələblərinə uyğun olan 1964-cü il Gömrük Məcəlləsi mövcud reallıqlarla ayaqlaşmır, əksinə nazirlik və təşkilatların qəbul etdikləri normativ sənədlərlə uzlaşmırdı. 1991-ci ilə qədər gömrük işinin hüquqi əsaslarının müəyyən edilməsi, gömrük məsələlərinə ümumi rəhbərlik və sistemin inkişafının əsas istiqamətləri SSRİ Nazirlər Sovetinin qərarları və rəhbərliyi ilə həyata keçirilirdi.

SSRİ DGNBİ struktur vahidləri idarə və şöbələr idi. Mərkəzi gömrük aparatının tərkibinə Gömrük nəzarətinin təşkili Baş idarəsi, Qaçaqmalçılığa və gömrük qaydalarının pozulmasına qarşı mübarizə idarəsi, Texniki idarə, Kadrlar və təhsil müəssisələri idarəsi, Gömrük hüququ idarəsi, Gömrük siyasəti və xarici əlaqələr idarəsi, İqtisadiyyat idarəsi, Çap və audiovizual materiallarına nəzarət şöbəsi daxil idi. DGNBİ-nin tərkibində bir neçə inzibati-təsərrüfat bölmələri: İşlər idarəsi, Maddi-texniki təchizat və sosial inkişaf idarəsi, Nəzarət-buraxılış məntəqələrinin istismarı idarəsi fəaliyyət göstərirdi. Bütün bunlarla bərabər, təsərrüfat mexanizminin yenidən qurulması, o cümlədən xarici ticarət sahəsində müəssisə və təşkilatlara xarici tərəfdaşlarla birbaşa əlaqə saxlamaq hüququ verilməsi elə şərait yaradırdı ki, dövlət maraqlarının tənzimlənməsində köhnəlmiş formalar işə yaramırdı.

Hər şeydən əvvəl, dövlət xarici ticarət əməliyyatlarının vəziyyəti, xüsusilə onun yeni formaları haqqında (birbaşa əlaqələr, birgə müəssisələr və s.) dəqiq və hərtərəfli informasiyadan məhrum olmuşdu. Sözsüz ki, bu məlumatlar olmadan vəziyyəti düzgün qiymətləndirib əsaslandırılmış qərarlar qəbul etmək mümkün olmazdı. Buna görə də, 1988-ci ildən xüsusi olaraq yaradılmış gömrük nəzarəti zonalarında mallara bəyannamə tərtib edilməsi məcburi xarakter aldı.

Sovet gömrüyünün başlıca vəzifələrindən biri beynəlxalq və milli tarif dərəcələri əsasında malların təsviri və kodlaşdırılmasının Harmonikləşdirilmiş sisteminə keçilməsi idi. Bunsuz beynəlxalq ticarət qaydalarının tətbiq edilməsi mümkün olmazdı. DGNBİ sovet gömrük sisteminin Harmonikləşdirilmiş sistemə qoşulmasının ilk təşəbbüsçülərindən biri oldu. Yeni mal nomenklaturasının tətbiqi xarici iqtisadi fəaliyyətin dövlətlərarası gömrük qaydalarının yaxınlaşması və unifikasiyasına, 1991-ci ilin iyununda isə SSRİ-nin Gömrük Əməkdaşlığı Şurasına (indiki – Dünya Gömrük Təşkilatına) üzv qəbul edilməsində əsas şərtlərdən biri oldu. 1989-cu ilin aprelin 1-dən sərhəddən daşınan yüklərə görə bəyannamənin xüsusi formasından istifadə edilirdi. Bəyannamə formasının tərtibində Gömrük Əməkdaşlığı Şurasının tövsiyələri və beynəlxalq təcrübə nəzərə alınmışdı. Nəticədə, tətbiq edilən bəyannamə vərəqi forma və məzmununa görə Avropa İqtisadi Əməkdaşlıq Şurasının qəbul etdiyi gömrük bəyannaməsinə uyğun idi. Gömrükxana və gömrük postlarının buraxılış qabiliyyətini artırmaq və yüklərin qəbulunda yerli gömrük müəssisələrinin işinin həcmini azaltmaq üçün bilavasitə xarici ticarət fəaliyyəti iştirakçısının yerləşdiyi ərazidə gömrük baxışı və yüklərin rəsmiləşdirilməsinin mümkünlüyü nəzərə alınırdı. Bunun üçün maraqlı təşkilat gömrük baxışı keçirilməsi üçün komissiyanın yaradılması haqqında və ya öz vəsaiti hesabına daimi gömrük müvəkkili təyin edilməsi üçün gömrük idarəsinə müraciət edə bilərdi. Baxış komissiyasının yaradılması və gömrük müvəkkili təyin edilməsi qaydaları DGNBİ-nin 29 yanvar 1988-ci il tarixli əmri ilə təsdiq edilmişdi. Gömrük müfəttişləri gömrük orqanlarını idxal-ixrac əməliyyatlarını müntəzəm həyata keçirən təşkilatlarda təmsil edirdilər. Baxış komissiyalarından fərqli olaraq, gömrük nəzarəti orqanlarının yerlərdə rəsmi nümayəndələri olaraq gömrükxana və gömrük postları ilə bərabər, DGNBİ-nin vahid sisteminə daxil idilər. Bütövlükdə, gömrük baxışı keçirən komissiyalar yaradılması təcrübəsi geniş yayılmadı. 1991-ci il Gömrük Məcəlləsində komissiyaların yaradılması nəzərdə tutulmurdu. Yeni Gömrük Məcəlləsinin və "Gömrük tarifi haqqında" (1991-ci il) SSRİ Qanununun qəbul edilməsi və bunların əsasında əvvəlki təlimat və qaydalara yenidən baxılaraq dəyişdirilməsi 1986-1990-cı illərdə xarici iqtisadi əlaqələrdəki islahatlar mərhələsinin başa çatması, keyfiyyətcə yeni dövrün başlanğıcı idi.

Sovet dövlət aparatında aparılan yenidənqurma işləri ilə əlaqədar Bakı gömrükxanasının bazasında SSRİ Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş gömrük idarəsinin 27 yanvar 1989-cu il tarixli 17 saylı əmri ilə Azərbaycan Respublika Gömrük İdarəsi təsis edildi (27 yanvar 1989 - 29 may - 1992-ci il).Onun əsas funksiyası Azərbaycan SSR ərazisində yerləşən bütün gömrük müəssisələrinin fəaliyyətində çevikliyi təmin etmək idi. 1989-cu ildə Azərbaycan Respublikası Gömrük idarəsi aşağıdakı idarəetmə quruluşuna malik idi: 1) Rəhbərlik; 2) Kadrlar şöbəsi; 3) Mühasibatlıq; 4) Qaçaqmalçılıqla mübarizə şöbəsi; 5) 1, 2 və 3 saylı Əməliyyat şöbələri.

Həmin dövrdə yerlərdə gömrük müəssisələri şəbəkəsinin fəaliyyəti əvvəllər olduğu kimi ərazi prinsipi ilə deyil, federativ əsasda quruldu. Belə ki, bəzi iri gömrükxanaların fəaliyyət zonası müttəfiq respublikaların ərazisi ilə üst-üstə düşürdü. Buna görə də, həmin gömrükxanaların statusu dəyişdirildi: Azərbaycan, Gürcüstan, Tacikistan, Özbəkistan, Qazaxıstan, Ermənistan, Latviya, Litva, Estoniyada respublika tabeçiliyində gömrük idarələri yaradıldı.

Respublika hökuməti xarici ticarət əlaqələrinin yeni qaydalar əsasında qurulması üçün müəyyən tədbirlər görürdü. Məsələn, Azərbaycan SSR Nazirlər Soveti *"Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi tədbirləri haqqında"* 1989-cu il 31 mart tarixli 148 nömrəli Qərarı ilə SSRİ Nazirlər Sovetinin xarici iqtisadi fəaliyyət iştirakçılarına geniş təsərrüfat səlahiyyəti verilməsini nəzərdə tutan 1989-cu il 7 mart tarixli 203 nömrəli Qərarını rəsmiləşdirdi. Həmin qərarlara görə, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin aşağıdakı sistemi müəyyən edilirdi: xarici iqtisadi fəaliyyət iştirakçılarının qeydiyyata alınması; dövlət sərhədindən keçirilən malların və digər əmlakın qeydiyyatı; ümumdövlət əhəmiyyətli bəzi malların idxal-ixrac qaydalarında dəyişikliklər edilməsi; xarici iqtisadi əlaqələrin çevik nizamlanma tədbirlərinin görülməsi və s.

1989-cu ildən başlayaraq Respublika Gömrük İdarəsinin fəaliyyət zonasına Azərbaycan SSR və Dağıstan MSSR ərazisi daxil edildi. Dövlət Plan Komitəsinin məlumatına görə, 1989-cu ildə Respublika ərazisindəki 110 istehsal müəssisəsi dünyanın 90 ölkəsinə 500 mln. manat həcmində məhsul göndərirdi. Onlardan yarıdan çoxu - 60 müəssisə və təşkilat Bakı şəhərində yerləşirdi. Gömrük fəaliyyətinin səmərəli təşkil edilməsi üçün yerləşdikləri ərazi, istehsal olunan malların eyni növdə olması və ixraca göndərilən malların yüklənməsi vaxtının uyğunluğu nəzərə alınaraq, xarici iqtisadi fəaliyyət iştirakçısı olan müəssisə və təşkilatlar ayrı-ayrı qruplara bölünmüşdü. İxrac mallarının bütün sutka boyu yükləndiyi Bakı elektrik cihazları və Bakı kondisioner zavodlarına, malların hər gün yükləndiyi "Azərelektroterm" və "Şampan şərabları" zavoduna 5 nəfər, 9 qrupa ayrılan digər 56 müəssisəyə isə 9 nəfər gömrük müvəkkilinin ayrılması tələb olunurdu.

Azərbaycan SSR Nazirlər Sovetinin 1989-cu il 30 iyun tarixli 211 p nömrəli sərəncamı ilə ayrı-ayrı nazirliklərin tabeliyində olan müəssisə, birlik və təşkilatlara 1989-1990-cı illərdə xarici şirkətlərlə barter əməliyyatları aparmalarına icazə verildi [114, 18-19, 54].

1989-cu ilin aprelində Azərbaycan Gömrük İdarəsinə Baş Dövlət Gömrük Nəzarəti İdarəsindən alınan 2 ədəd kompüter Azərbaycan Elmlər Akademiyası Kibernetika İnstitutunun mütəxəssisləri tərəfindən quraşdırılmışdı. Bununla da Gömrük İdarəsinin "Avtomatlaşdırılmış idarə sistemləri və gömrük məlumatlarının təhlili, nəzarətin texniki vasitələri, kinoloji xidmət və qaçaqmalçılıqla mübarizə işləri" şöbəsinin ştat cədvəlinin 3 vahid, "Planlaşdırma, maliyyə, mühasibat uçotu və nəzarəti" şöbəsinin 4 ştat vahidi artırılması nəzərdə tutulurdu. Xarici iqtisadi fəaliyyətin və xarici turizm əlaqələrinin genişləndirilməsi ilə əlaqədar bütövlükdə Azərbaycan Gömrük İdarəsinin şəxsi heyətinin 1 yanvar 1989-cu ilə 57,5 ştat vahidi qədər artırılması məqsədəuyğun sayılırdı.

1989-cu ildə Azərbaycan Respublika Gömrük İdarəsi aşağıdakı struktura malik idi: 1) rəhbərlik; 2) "SSRİ-nin dövlət sərhədini keçən şəxslərin əl yükü və baqajlarına gömrük nəzarəti" şöbəsi (9 nəfər əməkdaş); 3) "İdxal-ixrac, diplomatik, sərgi yüklərinə və avtomobillərə gömrük nəzarəti" şöbəsi (13 nəfər əməkdaş); 4) "Hava və dəniz nəqliyyatında gömrük nəzarəti" şöbəsi (14 nəfər əməkdaş); 5) "Qaçaqmalçılıqla mübarizə" şöbəsi (4 nəfər əməkdaş); 6) "Avtomatlaşdırılmış İdarə sistemləri, gömrük məlumatlarının təhlili, poçt göndərişlərinə nəzarət və kadrlarla iş" şöbəsi (12 nəfər əməkdaş); 7) "Mühasibat uçotu və nəzarəti" şöbəsi (4 nəfər əməkdaş) şöbələrindən və "Təsərrüfat-nəqliyyat qrupu" (4 nəfər əməkdaş). Respublika Gömrük İdarəsinin "İdxal-ixrac, diplomatik, sərgi yüklərinə və avtomobillərə gömrük nəzarəti" şöbəsi aşağıdakı funksiyalarını həyata keçirirdi: 1) Bakı şəhərinin təhsil müəssisələrində alan və ya respublika ərazisində işləyən xarici ölkə vətəndaşlarının əl yüklərinə və xarici ölkəyə daimi yaşamağa köçən vətəndaşların əl yüklərinə; sovet vətəndaşlarının, hərbi qulluqçularının və onların ailə üzvlərinin əl yüklərinə gömrük baxışın keçirilməsi baxışının həyata keçirilməsi; 2) beynəlxalq sərgi və diplomatik korpusun yüklərinin daşınmasına nəzarət; 3) Bakı-Ənzəli-Bakı xəttində üzən iki gəmidə sərnişin daşınmasına və 4) dəmir yolunun beynəlxalq post məntəqəsində poçt göndərişlərinə nəzarət edilməsi. Sərnişin və yüklərə gömrük baxışı cəmi 25 nəfər gömrük nəzarətçisi tərəfindən Azərbaycan dəmir yolunun Biləcəri, Keşlə-konteyner, Keşlə yük həyəti, Bakı sərnişin və Bakı dəniz vağzalında və poçt məntəqəsində həyata keçirilirdi. "Hava və dəniz nəqliyyatında gömrük nəzarəti" şöbəsinin funksiyalarına daxil idi: 1) Bakı-Ənzəli-Bakı xəttində 45 mln. ton xam neftin və 0,5 mln. ton dizel yanacağının 2) Xəzər gəmiçiliyinin və digər ölkələrin gəmiçilik xidmətlərinin daşıdıqları 1 mln. ton həcmində yüklərə gömrük nəzarətinin və 3)

hava nəqliyyatının gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi. Şöbənin şəxsi heyətinin 16 nəfər əməkdaşı sutkalıq rejimdə (8+8), 5 əməkdaşı isə 5 günlük iş həftəsi rejimində, 2 nəfər regionun digər limanlarında işləməsi nəzərdə tutulurdu.

Cədvəl 4.3

**1990-cı il üçün Azərbaycan Respublika Gömrük İdarəsinin ştat cədvəli**

| **s/s** | **Vəzifələrin adı** | **Ştat vahidi** | **Vəzifə maaşı** | **Cəmi əmək haqqı** |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | **Rəhbərlik** | | | |
| | Rəis | 1 | 270 | 270 |
| | Rəis müavini | 2 | 220 | 440 |
| | Rəis müavini | 1 | 210 | 210 |
| | Cəmi | 4 | 700 | 920 |
| 2. | **“Müəssisə, təşkilat, kooperativlərin idxal-ixrac yüklərinə və digər yüklərə gömrük nəzarəti” şöbəsi** | | | |
| | Şöbə rəisi | 1 | 200 | 200 |
| | Şöbə rəisinin müavini | 1 | 180 | 180 |
| | Baş inspektor | 8 | 170 | 1360 |
| | İnspektor | 6 | 150 | 900 |
| | İnspektor | 4 | 140 | 560 |
| | Cəmi | 20 | 840 | 3200 |
| 3 | **“Vətəndaşların şəxsi əşyaları və avtomobillərinə, sərgi və diplomatik yüklərə, poçt göndərişlərinə gömrük nəzarəti” şöbəsi** | | | |
| | Şöbə rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 1 | 180 | 180 |
| | Baş inspektor | 5 | 170 | 850 |
| | İnspektor | 3 | 150 | 50 |
| | İnspektor | 3 | 140 | 420 |
| | Cəmi | 13 | 840 | 2100 |
| 4. | **“Dəniz nəqliyyatında gömrük nəzarəti” şöbəsi** | | | |
| | Şöbə rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 5 | 170 | 850 |

| | | | | |
|---|---|---|---|---|
| | İnspektor | 3 | 150 | 450 |
| | İnspektor | 2 | 140 | 280 |
| | Cəmi | 11 | 760 | 1730 |
| 5. | **“Avtomatlaşdırılmış idarə sistemləri və gömrük məlumatlarının təhlili, nəzarətin texniki vasitələri, kinoloji xidmət və qaçaqmalçılıqla mübarizə işləri” şöbəsi** | | | |
| | Şöbə rəisi | 1 | 200 | 200 |
| | Şöbə rəisinin müavini | 1 | 180 | 180 |
| | Baş inspektor | 1 | 180 | 180 |
| | Baş inspektor | 3 | 170 | 510 |
| | İnspektor | 2 | 150 | 300 |
| | İnspektor | 3 | 140 | 420 |
| | Cəmi | 11 | 1020 | 1790 |
| 6. | **“Planlaşdırma, maliyyə, mühasibat uçotu və nəzarəti” şöbəsi** | | | |
| | Şöbə rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 2 | 170 | 340 |
| | İnspektor | 1 | 140 | 140 |
| | Cəmi | 4 | 510 | 680 |
| 7. | **Kadrlara nəzarət müfəttişliyi qrupu** | | | |
| | Baş inspektor | 1 | 170 | 170 |
| | İnspektor | 1 | 150 | 150 |
| | Cəmi | 2 | 320 | 320 |
| 8. | **Abşeron gömrük postu** | | | |
| | Post rəisi | 1 | 200 | 200 |
| | Post rəisinin müavini | 1 | 180 | 180 |
| | Baş inspektor | 3 | 170 | 510 |
| | İnspektor | 3 | 150 | 450 |
| | İnspektor | 2 | 140 | 280 |
| | Cəmi | 10 | 840 | 1620 |
| 9. | **Gəncə (Kirovabad) gömrük postu** | | | |
| | Post rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 2 | 170 | 340 |
| | İnspektor | 1 | 150 | 150 |
| | İnspektor | 2 | 140 | 280 |
| | Cəmi | 6 | 660 | 970 |
| 10 | **Sumqayıt gömrük postu** | | | |

| | | | | |
|---|---|---|---|---|
| | Post rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 1 | 170 | 170 |
| | İnspektor | 1 | 150 | 150 |
| | İnspektor | 1 | 140 | 140 |
| | Cəmi | 4 | 660 | 660 |
| 11. | **Mahaç-Qala gömrük postu** | | | |
| | Postun rəisi | 1 | 200 | 200 |
| | Baş inspektor | 1 | 170 | 170 |
| | İnspektor | 1 | 150 | 150 |
| | İnspektor | 1 | 140 | 140 |
| | Cəmi | 4 | 660 | 660 |
| 12. | **Binə aeroport gömrük postu** | | | |
| | Postun rəisi | 1 | 200 | 200 |
| | Postun rəisinin müavini | 1 | 180 | 180 |
| | Baş inspektor | 4 | 170 | 680 |
| | İnspektor | 2 | 150 | 300 |
| | İnspektor | 2 | 140 | 280 |
| | Cəmi | 10 | 840 | 1640 |
| **1-12** | | **99** | **8650** | **16340** |

Mənbə: ARDA-nın Bakı filialı, f. 126, siy. 2, iş 68, v. 7-9.

Cədvəldən göründüyü kimi, Azərbaycan Respublika Gömrük idarəsinin strukturuna 99 nəfərdən ibarət şəxsi heyəti əhatə edən idarə aparatı (rəis və 2 müavin, “Müəssisə, təşkilat, kooperativlərin idxal-ixrac yüklərinə və digər yüklərə gömrük nəzarəti” şöbəsi, “Vətəndaşların şəxsi əşyaları və avtomobillərinə, sərgi və diplomatik yüklərə, poçt göndərişlərinə gömrük nəzarəti” şöbəsi, “Dəniz nəqliyyatında gömrük nəzarəti” şöbəsi, “Avtomatlaşdırılmış idarə sistemləri və gömrük məlumatlarının təhlili, nəzarətin texniki vasitələri, kinoloji xidmət və qaçaqmalçılıqla mübarizə işləri” şöbəsi, “Planlaşdırma, maliyyə, mühasibat uçotu və nəzarəti” şöbəsi və “Kadrlara nəzarət müfəttişliyi” qrupu, 4 gömrük postu (Gəncə (Kirovabad), Sumqayıt, Mahaç-Qala və Binə) daxil idi.

“AİS və gömrük məlumatlarının təhlili, poçt göndərişlərinə nəzarət və kadrlarla iş” şöbəsinin heyəti “AİS və texniki nəzarət vasitələri” (7 nəfər), Kinoloji (2 nəfər) və “Kadrlara nəzarət və təftiş” (2 nəfər) qruplarından ibarət idi. Planlaşdırma, mühasibat uçotu və nəzarəti şöbəsinə 4 nəfər əməkdaş çalışırdı.

1989-cu ilin dekabrında SSRİ Nazirlər Soveti xarici ticarət sahəsində yeni qayda və qanunların müəyyən olunması haqqında qərar verdi və bununla da ölkədə 70 ilə kimi bu sahədə mövcud olmuş xarici ticarətdə dövlət monopoliyasına son qoydu.

Təxmini hesablamalara görə, 1989-cu ildə Azərbaycan Respublika Gömrük İdarəsi tərəfindən Bakıda yerləşən 26 sənaye müəssisəsində 85 mln. manat; aqrar-sənaye müəssisələrində 50 mln. manat; "Azərittifaq"ın yerli təşkilatlarında 35 mln. manat və Gəncə, Sumqayıt, Mingəçevir və digər sənaye şəhərlərinin sənaye müəssisələrində 20 mln. manat həcmində ixrac malları gömrük baxışından keçirilmişdi. 1991-1992-ci illərin proqnoz rəqəmlərinə görə respublikadan ixrac edilən sənaye mallarının ümumi həcmi orta hesabla 550-600 mln. manata çatması gözlənilirdi [83, 2-5].

Azərbaycan Respublika Gömrük İdarəsinin tabeçiliyində olan Mahaç-Qala gömrük postunun 3 nəfər əməkdaşı Dağıstan MSSR-nin ərazisində yerləşən müəssislərdə istehsal olunan 18 mln. manat həcmində ixrac mallarının və 1988-1990-cı illərdə Türkiyənin "Koray-Baynur" şirkətinin sifarişi ilə daşınan tikinti materialları və avadanlıqların gömrük rəsmiləşdirməsini həyata keçirirdi. 1989-cu ildə Azərbaycan Respublika Gömrük İdarəsinin əmək haqqı fondu 218 min manat olmuşdu.

Respublika Gömrük İdarəsində qaçaqmalçılıqla və gömrük qaydalarının pozulmasına qarşı mübarizənin gücləndirməsi üçün bir sıra təşkilati və inzibati tədbirlər görülürdü. Bu məqsədlə Respublika Gömrük İdarəsinin rəis müavini L.Prudkovun rəhbərliyi ilə üç nəfərdən ibarət (M.Troyanov, Ə.Əzimov və A.Mikayılov) nəzarət-təftiş qrupu yaradılmışdı. Qrupun əsas vəzifəsi Gömrük Məcəlləsi və SSRİ BDGNK-nın normativ sənədlərinin tələblərinin pozulduğu hallarda xidməti yoxlamalar aparmaqdan ibarət idi. Respublikanın xarici ticarət fəaliyyətinin genişlənməsi ilə əlaqədar olaraq Azərbaycanda yerləşən gömrük müəssisələrinin kadr potensialının artırılmasına ehtiyac var idi. Azərbaycan Respublikası Gömrük İdarəsinin rəisi, 1-ci dərəcəli gömrük xidməti müşaviri N.Məmmədovun 1989-cu il 5 aprel tarixli məktubunda göstərilirdi ki, gömrük əməkdaşlarının sayı 1989-cu ildə 36 nəfər, 1990-cı ildə isə daha 15 nəfər artırılmalıdır. 1990-cı ildən Binə aeroportunda beynəlxalq aviareyslərin sayının artması burada da gömrük postunun yaradılmasını zəruri edirdi.

Gömrük xidmətində yeni kadrların işə qəbulu əsasən iki istiqamətdə aparılırdı: 1) gömrük nəzarəti sistemində işləmək üçün yeni kadrların seçilməsi və 2) ehtiyat kadrların seçilməsi və onlarla müvafiq işlərin aparılması. 1989-cu ildə gömrük xidmətində qulluğa qəbul edilən 22 nəfərdən 19 nəfəri ali təhsilli, 70 faizini 30 yaşına qədər olan gənclər təşkil etmişdi. Müsahibə yolu ilə yeni işə qəbul edilənlərin əksəriyyətinə ictimai təşkilatlar və hüquq-mühafizə orqanları tərəfindən təqdim edilənlər, 3 nəfəri isə Əfqanıstandakı sovet qoşunları kontingentinin tərkibində hərbi tərcüməçi kimi xidmət edənlər idi. Kadr potensialı əsasən respublika ali məktəblərinin məzunları hesabına artırılırdı. Bundan əlavə, Azərbaycan Dövlət Universiteti, hüquqşünaslıq, iqtisadiyyat, mühəndis ixtisasları üzrə mütəxəssis hazırlayan digər ali məktəblərlə əlaqələr yaradılmışdı. Ali məktəblərin 12 nəfər tələbəsi

xüsusi proqram əsasında həftədə bir dəfə keçirilən məşğələlərdə gömrükxanaların praktik fəaliyyəti ilə tanış olurdu. 1990-1995-ci illərdə ADU ilə Respublika Gömrüyü İdarəsi arasında yeni açılan "Beynəlxalq münasibətlər" fakültəsində mütəxəssis hazırlanması haqqında müqavilə imzalanmışdı [115, 5-35].

Azərbaycan Respublika Gömrük İdarəsi rəisinin 1989-cu il 3 aprel tarixli 80 saylı əmri ilə SSRİ-nin dövlət sərhədindən nəqliyyat vasitələri, malların və digər əşyaların, habelə vətəndaşların şəxsi əşyaların daşınmasına gömrük nəzarətini təmin etmək məqsədilə Lənkəran, Lerik, Yardımlı, Cəlilabad, Neftçala, Puşkin və Salyan rayonlarını Astara gömrükxanasının fəaliyyət zonasına daxil edildi [115, 1]. Respublika Gömrüyünün rəisi N.Məmmədovun 1989-cu il 6 iyul tarixli 123 saylı əmri ilə idarənin fəaliyyət zonasına daxil olan gömrük müəssisələrində, o cümlədən Astara və Culfa gömrükxanalarında gömrük baxışı və nəzarətinə sərf edilən iş vaxtının ölçülməsinə, zəruri normaların müəyyən edilməsi üçün müvafiq komissiyaların yaradılmasına göstəriş verilmişdi. Əmrdə ayrı-ayrı gömrükxanalar üzrə müşahidələrin nəticələrini və irəli sürülən təklifləri iki ay müddətində təqdim olunması tapşırılırdı [103,14].

Gömrük əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması üçün müxtəlif kurslar təşkil olunurdu. Azərbaycan Respublika Gömrüyü rəisinin müvafiq əmrləri ilə rəis müavini F.Ağamalıyev və şöbə rəisi K.Bayramov fars dilindən, Culfa gömrükxanasının inspektorları T.Kərimov, F.İbrahimov və Ə.Nəzərov SSRİ Xarici iqtisadi əlaqələr nazirliyinin Ali kurs proqramı üzrə türk dilindən (şifahi və yazılı) imtahan vermişdilər. SSRİ BDGNK-nın 13 sentyabr 1989-cu il tarixli əmri ilə Azərbaycan Respublika Gömrüyünün 15 nəfər əməkdaşı türk dili kursuna, o cümlədən Bakı gömrükxanasının 9 əməkdaşı xarici dil kurslarına cəlb olunmuşdu. 1989-cu ilə nisbətən 1991-ci ilin ştat cədvəlində gömrük əməkdaşlarının ümumi sayının 100,5 vahiddən 123-125 vahidə çatdırılması nəzərdə tutulurdu [98,21; 103,16; 104, 2-5].

Azərbaycanın sovet dövrü gömrük tarixində əlamətdar hadisələrdən biri 1989-cu ilin 1-2 iyulunda SSRİ Xarici İqtisadi Əlaqələr Nazirliyinin dəvəti ilə işgüzar görüşə dəvət olunan Türkiyənin Maliyyə və gömrük naziri E.Pakdəmirlinin Bakıya işgüzar səfəri ilə bağlıdır. SSRİ Nairlər Sovetinin sərəncamı ilə sovet-Türkiyə hökumətlərarası iqtisadi əməkdaşlıq Komissiyanın Türkiyə üzrə sədri E.Pakdəmirli və onu müşayiət edən şəxslərin Bakıda yüksək səviyyədə qarşılanması Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılmışdı [103, 177].

1990-cı ildə Azərbaycan Respublika Gömrüyü üzrə gömrük yığımlarının həcmi 2450779 manat təşkil etmişdi. Gömrük gəlirlərinin strukturunda əsas yeri ölkəyə gətirilən yüklər və sərnişinlərin əl yüklərində keçirilən əşyalara görə alınan gömrük rüsumları 1088175 manat (44,4 faiz), poçt göndərişlərinə görə 78064 manat (3,1 faiz) tutulmuşdu. Mühafizə vaxtı

ötmüş malların satışından 1249872 manat (50,3 faiz), müsadirə edilən qaçaq malların satışından isə 33229 manat (1,5 faiz) və 1438 manat (0,07 faiz) digər gəlirlər daxil olmuşdu [82, 59].

Yuxarıda adları qeyd edilən sənədlər – SSRİ-nin 1991-ci il Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" Qanun təsdiq edilməmişdən öncə Gömrük Əməkdaşlığı Şurasında (GƏŞ), Tarif və Ticarət haqqında Baş Sazişin (GATT) mənzil-qərargahında baxılmışdı. Bu qanun layihələri gömrük işinin beynəlxalq təcrübədə qəbul edilən ümumi prinsiplərinə uyğun olduğuna görə müsbət qiymətləndirilmişdi. Bu sənədlər öz dövründə ölkədə gömrük işinin təşkili sahəsində qismən də olsa, islahatlar aparmağa imkan verdi. Yeni Məcəllə gömrük sistemində üçpilləli idarəçiliyi qanuniləşdirdi: mərkəzi gömrük orqanı – regional gömrük idarələri – gömrükxanalar.

DGNBİ-ni əvəz edən yeni mərkəzi orqan Gömrük Komitəsi oldu. SSRİ Prezidentinin 15 iyun 1991-ci il fərmanı ilə Komitənin Əsasnaməsi təsdiq edildi. Yeni Gömrük Məcəlləsində iki orqanın – Gömrük-tarif Şurası və narkotik vasitələr və psixotrop maddələrin beynəlxalq qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə koordinasiya Şurasının yaradılması nəzərdə tutulurdu. Lakin, 1991-ci ilin Gömrük Məcəlləsi və Gömrük tarifi haqqında Qanun nisbətən mütərəqqi sənədlər olsalar da, hər halda iqtisadiyyatın, xarici iqtisadi əlaqələrin və gömrük işinin idarə edilməsinə inzibati-amirlik metodları ilə yanaşmanın təsiri yetərincə hiss olunurdu.

1991-ci ildə yeni və son sovet Gömrük Məcəlləsi və Gömrük Tarifi qəbul edildi. Məcəllə gömrük sisteminə müasir yanaşma ilə fərqlənirdi. Həmin sənədə əsasən yerlərdə gömrük sisteminin yeni qurumlarının və təşkilatlarının yaradılmasına başlanıldı. Bakı gömrükxanasının bazasında Respublika Gömrük İdarəsi təşkil olundu. Gömrük xidmətinin fəaliyyətini stimullaşdırmaq məqsədi ilə Nazirlər Kabineti *"Gömrük fəaliyyətinin bəzi növlərindən daxil olan vəsaitlərin istifadə olunması haqqında"* 1991-ci il 6 sentyabr tarixli 304 nömrəli qərarı oldu. Azərbaycanın fəaliyyətdə olan Bakı, Astara və Culfa gömrükxanalarının siyahısına həmin il daha 4 gömrükxana – Gəncə, Binə, Xudafərin və Sədərək gömrükxanaları əlavə edildi. 1992-ci ilin yanvarında, SSRİ dağıldıqdan az sonra Azərbaycanda bu sahə üzrə idarəetmənin yeni strukturu – Dövlət Gömrük Komitəsi yaradıldı. Azərbaycanın gömrük xidməti həmin dövrdə cəmi 150 nəfər şəxsi heyətə, 7 gömrükxana, 3 gömrük postuna və çox məhdud yük və sərnişin dövriyyəsinə malik idi.

1991-ci ildən başlayaraq xarici ticarətdə liberallaşdırma prinsipinin elan edilməsi xarici iqtisadi fəaliyyətlə məşğul olanların sayını kütləvi surətdə artırdı. Bütün bunlarla bərabər, təsərrüfat mexanizminin yenidən qurulması, o cümlədən xarici ticarət sahəsində müəssisə və təşkilatlara xarici tərəfdaşlarla birbaşa əlaqə saxlamaq hüququ verilsə də, dövlət maraqlarının tənzimlənməsində köhnəlmiş formalar işə yaramırdı.

Digər tərəfdən, gömrük tənzimlənməsinin çox məhdud vasitələrə malik olması xarici ticarət münasibətlərində kontragentlərlə əlaqələrin formalaşmasında ciddi maneə idi. Real vəziyyət xarici iqtisadi əlaqələr və gömrük tənzimlənməsinin daha müasir, dinamik və çevik metodlarla idarə edilməsini, gömrük orqanlarının funksiya genişləndirilməsini tələb edirdi.

SSRİ-nin yeni Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" qanunu sovet dövrünün əvvəlki gömrük qanunvericilik aktlarından daha mütərəqqi və radikal olmasına baxmayaraq, real həyatda yeni tipli gömrük sisteminin yaradılması mümkün olmadı. SSRİ süqut etdikdən sonra, Rusiyada, MDB üzvü olan digər respublikalarda, o cümlədən Azərbaycanda milli gömrük xidmətləri təşkil edildi. Keçmiş SSRİ ərazisində fəaliyyətdə olan gömrükxanaların 5 faizi və onların əmlakı Azərbaycanda qaldı.

# NƏTİCƏ

Sovet dövlət aparatının yaradıldığı ilk illərdə gömrük mühafizəsinin tarixən formalaşmış xidməti vəzifələrini həyata keçirən orqan kimi yox, daha çox sərhəddə dövlət maraqlarını qoruyan siyasi orqan kimi baxılırdı. Azərbaycan İnqilab Komitəsi və Azərbaycan SSR XXTK-nin təsdiq etdikləri Əsasnaməyə görə, gömrük və sərhəd mühafizəsi arasında malların gizli daşınması və qaçaqmalçılığın qarşısının alınması sahəsində funksiyalar bölüşdürüldü. Azərbaycan sovet hökumətinin gömrük işinin müxtəlif sahələrinə aid qəbul etdiyi bir sıra qərarlar respublikanın xarici ticarət və gömrük-tarif siyasətinin formalaşmasına təsir etdi.

1920-1921-ci illərdə Azərbaycan XKS-nin birbaşa nəzarətində olan gömrükxanalarda Azərbaycanın nəfinə gömrük rüsumlarının yığılması RSFSR hökumətini narahat etməyə bilməzdi. sovet dövlət quruculuğunun ilk illərində Azərbaycan İnqilab Komitəsinin xarici ticarətin milliləşdirilməsi və mal mübadiləsi aparılmasında müstəsna səlahiyyətin respublika Xarici Ticarət Komissarlığına verilməsi haqqında dekreti bu sahədə müstəqil siyasət yeritmək cəhdi idi. Qısa vaxt ərzində olsa da, xarici dövlətlərlə ticarət münasibətlərinin qurulması sahəsində danışıqların aparılması, ictimai təşkilat və fiziki şəxslərlə ticarət sövdələşmələrinə rəhbərlik edilməsi yalnız bu komissarlığa tapşırıldı;

Sovet Rusiyası Azərbaycanda maraqlarının siyasi, hüquqi və iqtisadi təminatının yaradılmasına can atırdı. Azərbaycan Rusiyaya hər şeydən əvvəl yanacaq təchizatçısı, rus mallarının satış bazarı və güclü dəniz nəqliyyatı qovşağı kimi lazım idi. Azərbaycan SSR-nin gömrük xidmətinin idarə edilməsinin Moskvaya tabe edilməsinin də kökündə bu maraqlar dururdu. Rusiya Azərbaycanın xarici dövlətlərlə iqtisadi əlaqələrinə mane olmaqla ixrac potensialımızdan digər dövlətlərə qarşı təsir vasitəsi kimi istifadə edirdi. Neft sənayesini və balıq vətəgələrini xarici dövlətlərə konsessiyaya verməklə, normal idxal-ixrac tarifi və gömrük vergiləri tətbiq etməklə respublikamız böyük mənfəət əldə edə bilərdi. Əksinə, xeyli miqdarda nefti və digər strateji xammallar digər sovet respublikalarına əvəzi ödənilmədən daşınırdı.

ZSFSR İttifaq Soveti sovet respublikaları arasında ticarəti sərbəst elan edərək bütün gömrük məhdudiyyətlərinin ləğv edilməsini nəzərdə tutan qərar qəbul etdi. "Zaqafqaziya Sovet Respublikası Gömrük İdarəsinin təşkili haqqında" 1922-ci il 24 sentyabr tarixli dekreti ilə gömrük nəzarəti Azərbaycanın tabeçiliyindən çıxarıldı.

Azərbaycan SSR-nin müstəqil gömrük-tarif siyasəti yeritmək cəhdlərinə imkan verilmədi. Gömrük orqanları xarici ticarətin tənzimlənməsi işindən demək olar ki, kənar edilmişdi. Sovet hökuməti dövlət sərhədinin gömrük baxımından mühafizəsinin gücləndirilməsi üçün əlavə tədbirlər görürdü. Lakin Azərbaycan SSR-in birbaşa nəzarətində olan gömrükxanalarda rüsum və vergilərin yığılması RSFSR hökumətini narahat etdiyindən ZSSFR İttifaq Soveti sovet respublikaları arasında ticarəti sərbəst elan edərək bütün gömrük məhdudiyyətlərinin ləğv edilməsi haqqında qərar qəbul etdi. Bunun əksinə olaraq, cənub sərhədində yeni gömrük məntəqələrinin açılmasına təşəbbüs edilirdi. RSFSR XKS-nin 1922-ci il 30 dekabr tarixli dekretinə əsasən Cənubi Qafqaz ərazisi üç gömrük dairələrinə bölünmüşdü: 1) Gürcüstan və Abxaziya; 2) Azərbaycan; 3) Ermənistan və Naxçıvan ölkəsi. Azərbaycan SSR-in inzibati sərhədləri daxilində fəaliyyət göstərən Naxçıvan gömrük ərazisi heç bir zərurət olmadan süni olaraq yeni yaradılan Erməni-Naxçıvan gömrük inspektorluğunun tərkibinə daxil edilmişdi. Hər bir gömrük dairəsinə gömrük müfəttişi rəhbərlik edirdi.

1922-ci ildə SSRİ-nin yaradılması ilə bir dövlət halında birləşdirilən sovet respublikalarının xarici ticarətinin vahid mərkəzdən idarə edilməsinə başlanıldı. Respublikamızın xarici iqtisadi əlaqələri mərkəzi idarəetmə orqanlarına tabe edildi. Xarici ticarət bütünlüklə sovet dövlətinin inhisarında idi. Gömrük əməliyyatları ittifaq hökuməti tərəfindən həyata keçirilirdi. SSRİ-də gömrük işinin təşəkkülü və inkişafı mürəkkəb və ziddiyyətli xarakter daşıyan mərhələlərdən keçdi.

1922-1930-cu illərdə SSRİ-nin bütün gömrük təşkilatları kimi Azərbaycan ərazisində yerləşən gömrükxanalar həddindən artıq məhdud hüquqlara malik idi. Sözsüz ki, sovet rejimi dövründə gömrük xidməti orqanları xalqımızın Azərbaycanın milli maraqlarına xidmət etmirdi. Gömrük əməliyyatlarından daxil olan pul gəlirləri sovet dövlətinin xəzinəsinə axıb gedirdi. Gömrük orqanları daxilində milli mənsubiyyətin əsas götürüldüyü "kadr təmizliyi" aparılırdı. Bu işi gömrükxanaların yerləşdiyi rayonların qəza komitələrində yaradılan komissiyalar həyata keçirirdi. Digər hüquq-mühafizə orqanlarında olduğu kimi, gömrük xidmətində də rəhbər vəzifələrə başlıca olaraq qeyri-azərbaycanlılar təyin edilirdi. Xarici ticarət və gömrüyün idarəetmə aparatının məsul işçiləri sırasında qeyri-azərbaycanlılar, xüsusi ilə rus, erməni, gürcü və digər millətlərin nümayəndələri əksəriyyət təşkil edirdi. Sovet dövlət quruculuğunun ilk mərhələsində Azərbaycan dilində yazılan gömrük rəsmiləşdirilməsi sənədləri və statistik hesabatların tərtibi 1922-ci ilin sonundan başlayaraq tamamilə rus dilində aparılırdı.

Sovet gömrük siyasətinin xarakteri və məzmunundan asılı olaraq aşağıdakı meyllər müşahidə olunurdu: yerli fabrik qiymətləri ilə xaricdə istehsal edilən malların qiymət fərqi nəzərə alınaraq yüksək idxal rüsumlarının

tətbiqi; sənaye xammalı, yarım fabrikatlar, ölkədə istehsal edilməyən və milli sənayenin inkişafına gərəkli olan maşınqayırma avadanlıqlarının rüsumsuz idxalı; ölkədə zəruri miqdarda istehsal edilən eyni adda malların idxalına yüksək rüsumların və qadağanedici tədbirlərin tətbiqi; pambıq və yun mahlıcına mütərəqqi rüsumların tətbiqi; yerli sənayenin istehsalı olan qənd, spirt, neft və toxuculuq məhsullarının rüsumsuz idxalı həyata keçirilirdi. Gömrük xidməti qarşısında yeni vəzifə qoyuldu - rüsum və vergi yığılması funksiyası arxa plana keçirilir, gömrükxanaların fəaliyyətində əsas yeri xidmətin nəzarətçi funksiyası, xüsusilə qaçaqmalçılığa qarşı mübarizə tuturdu.

Araşdırmalar təsdiq edir ki, ikinci dünya müharibəsi illərində Azərbaycan SSR ərazisindəki gömrükxanalar iqtisadi əlaqələrin hərbi qaydada yenidən qurulmasında fəal iştirak etmişdir. Qonşu ölkələrdən quru və dəniz yolu ilə daşınan müxtəlif təyinatlı hərbi-strateji yüklər Azərbaycan ərazisindəki gömrükxanalarda ciddi surətdə yoxlanılırdı. Lend-liz üzrə SSRİ-yə gətirilən strateji malların bir hissəsi İran körfəzindən keçməklə Culfa gömrükxanasında, digər hissəsi isə və Bakı gömrükxanasında qeydə alınırdı. Azərbaycan SSR ərazisindəki gömrükxanalar təsərrüfatın hərbi qaydada yenidən qurulmasında fəal iştirak edirdi. Respublikanın neft sənayesi, ağır və yüngül sənayesi ilə yanaşı, mövcud nəqliyyat qovşağı, dəmiryolu və Xəzər dəniz nəqliyyatının ilə yanaşı Azərbaycan SSR ərazisindəki gömrük müəssisələrinin mühüm rolu oldu.

Öz sıralarının yarısından çoxunu itirmiş olan Bakı, Culfa gömrükxanaları və Astara gömrük postu xaricdən Qırmızı Xaç və Aypara Cəmiyyətinin xətti ilə ölkəyə gələn böyük həcmdə yüklərin vaxtında buraxılmasını təmin etməklə gömrük sərhədində sayıqlıqlarını da əldən vermirdilər.

Müharibədən sonrakı dövrdə SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalar kimi Azərbaycana da müstəqil xarici iqtisadi əlaqələr yaratmaq imkanı verilmirdi. Respublikamızın xarici ticarət dövriyyəsinin əsas hissəsini Sovet İttifaqına daxil olan respublikalar və QİYŞ üzvü ölkələri ilə mal mübadiləsi təşkil edirdi.

Bir sıra sosialist ölkələri arasında gömrük əməkdaşlığı, gömrük işi sahəsində qarşılıqlı yardımın yeni forma və metodlarının tətbiqi əsas etibarı ilə xarici ticarət və valyuta üzərində dövlət inhisarının təmin edilməsi ilə yanaşı gömrük qaydalarının sadələşdirilməsinə də səbəb olurdu. Azərbaycan SSR 1970-ci illərdən başlayaraq, həmin ölkələrlə iqtisadi-ticarət və turizm əlaqələrinin inkişaf etdirilməsindən faydalana bildi. Həmin illərdə Azərbaycan SSR-nin ölkəmizdə və ya xarici ölkələrdə keçirilən beynəlxalq sərgi və yarmarkalarda iştirakı gömrük nəzarətinin əsas fəaliyyət sahəsinə daxil idi.

Sözsüz ki, o dövrdə Azərbaycan müstəqil dövlət olmasa da, Ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi

sayəsində Azərbaycanın xarici iqtisadi əlaqələrində keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyuldu. Respublikamızın ixrac potensialının artmasına istiqamətlənən siyasi qərarlar qəbul edildi, bu sahədə daha geniş təşkilati işlər aparıldı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkənin ixrac potensialının fundamental əsaslarının yaradılması və xarici ticarət fəaliyyətin səmərəli idarə edilməsi sahəsində zəngin təcrübə qazanıldı. Gömrük sənədləri təsdiq edir ki, xarici iqtisadi əlaqələr nisbətən geniş xarakter almışdır. Həmin dövrdə Azərbaycan SSR-nin xarici ölkələrlə iqtisadi əlaqələrinin əsas formalarını təşkil edən xarici ticarət və xarici ölkələrin ərazisində tikinti işlərinin aparılması sahəsində fəaliyyət, beynəlxalq yük daşımaları, beynəlxalq yarmarka və sərgilərdə iştirak, mütəxəssis mübadiləsi və beynəlxalq turizm və birbaşa iqtisadi əlaqələr gömrük işinin də bir qədər canlanmasına səbəb oldu.

1991-ci ildən başlayaraq xarici ticarətdə liberallaşdırma prinsipinin elan edilməsi xarici iqtisadi fəaliyyətlə məşğul olanların sayını kütləvi surətdə artırdı. Bununla yanaşı gömrük orqanlarının qarşısında duran funksiya və vəzifələri də xeyli genişləndi. 1991-ci ilin son sovet Gömrük Məcəlləsi və Gömrük Tarifi gömrük sisteminin müasirləşdirilməsi ilə fərqlənirdi. Həmin sənədlərə əsasən müttəfiq respublikalarda yeni gömrük qurumları və təşkilatlarının yaradılmasına başlanıldı. SSRİ-də hökm sürmüş inzibati-əmrlik sistemi dövlət quruculuğunun bütün sahələrində olduğu kimi gömrük işinin inkişafını da ləngidirdi. Respublikanın idxal-ixrac əməliyyatları bütünlüklə sovet dövlətinin inhisarına alınmışdı və gömrük rəsmiləşdirilməsi, gömrük gəlirləri ittifaq hökumətinin nəzarəti altında idi. Məhz buna görə də, Azərbaycan SSR-in ixrac potensialı sovet gömrük siyasətinin özünəməxsus xüsusiyyətlərinin təsiri ilə formalaşırdı. Müttəfiq respublikalarda gömrük xidmətinin yerli tabeçiliyə keçməsi, milli gömrük təşkilatlarının yaradılması, xarici iqtisadi əlaqələrin daha səmərəli idarə olunmasına imkan yaratdı.

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də müstəqilliyinə qovuşdu və öz iqtisadiyyatını milli maraqlara uyğun inkişaf etdirmək fürsəti qazandı. Azərbaycan Respublikasında milli gömrük xidmətinin təşəkkülü və inkişafına başlanıldı. Dövlət sərhədinin gömrük baxımından mühafizəsinin gücləndirilməsi üçün əlavə tədbirlər görüldü. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Gömrük xidməti milli təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi sahəsində dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsinə çevrildi.

## İstifadə edilmiş mənbələr və ədəbiyyat:


1. Azərbaycanda sovet hakimiyyəti orqanlarının yaradılması və fəaliyyəti. Bakı: ADU nəşriyyatı, 1984, 96 s.
2. Azərbaycanda sovet hakimiyyəti orqanlarının yaradılması və fəaliyyəti. Bakı: ADU nəşriyyatı, 1984, 96 s.
3. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 75, siy. 1, iş 6.
4. ARDA, f. 84, siy. 1, iş 356.
5. ARDA, f. 84, siy. 1, iş 375.
6. ARDA, f. 85, siy. 3, iş 155.
7. ARDA, f. 85, siy. 3, iş 160.
8. ARDA, f. 85, siy. 3, iş 164.
9. ARDA, f. 85, siy. 3, iş 166.
10. ARDA, f. 85, siy. 3, iş 169.
11. ARDA, f. 130, siy. 1, iş 68.
12. ARDA, f. 363, siy. 1, iş 4.
13. ARDA, f. 363, siy.1, iş 46.
14. ARDA, f. 363, siy. 1, iş 47.
15. ARDA, f. 363, siy. 1, iş 89.
16. ARDA, f. 363, siy. 1, iş 92.
17. ARDA, f. 363, siy. 1, iş 171.
18. ARDA, f. 363, siy. 1, iş 186.
19. ARDA, f. 363, siy. 1, iş 228.
20. ARDA, f. 363, siy. 1, iş 656.
21. ARDA, f. 363, siy. 1, iş 756.
22. ARDA, f. 363, siy. 1, iş 757.
23. ARDA, f. 363, siy. 1, iş 762.
24. ARDA, f. 363, siy. 1, iş 764.
25. ARDA, f. 363, siy. 1, iş 765.
26. ARDA, f. 363, siy. 1, iş 771.
27. ARDA, f. 363, siy. 1, iş 777.
28. ARDA, f. 363, siy. 1, iş 778.
29. ARDA, f. 363, siy. 1, iş 837.
30. ARDA, f. 363, siy. 1, iş 838.
31. ARDA, f. 363, siy. 1, iş 839.
32. ARDA, f. 363, siy. 1, iş 1062.
33. ARDA, f. 363, siy. 3, iş 1.
34. ARDA, f. 363, siy. 3, iş 27.
35. ARDA, f. 363, siy. 3, iş 34.
36. ARDA, f. 363, siy. 3, iş 60.
37. ARDA, f. 363, siy. 3, iş 286.
38. ARDA, f. 363, siy. 4, iş 665.

39. ARDA, f. 363, siy. 5, iş 20.
40. ARDA, f. 363, siy. 10, iş 290.
41. ARDA, f. 411, siy. 1, iş 49.
42. ARDA, f. 411, siy. 1, iş 129.
43. ARDA, f. 411, siy. 3, iş 423.
44. ARDA, f. 411, siy. 3, iş 424.
45. ARDA, f. 411, siy. 4, iş 27.
46. ARDA, f. 411, siy. 4, iş 49.
47. ARDA, f. 411, siy. 4, iş 95.
48. ARDA, f. 411, siy. 5, iş 96.
49. ARDA, f. 411, siy. 5, iş 338.
50. ARDA, f. 411, siy. 5, iş 629.
51. ARDA, f. 411, siy. 12, iş 201.
52. ARDA, f. 411, siy. 13, iş 14.
53. ARDA, f. 710, siy. 1, iş 4.
54. ARDA, f. 710, siy. 1, iş 24.
55. ARDA, f. 710, siy. 1, iş 25.
56. ARDA, f. 710, siy. 1, iş 48.
57. ARDA, f. 710, siy. 1, iş 50.
58. ARDA, f. 710, siy. 1, iş 60.
59. ARDA, f. 710, siy. 1, iş 66.
60. ARDA, f. 710, siy. 1, iş 70.
61. ARDA, f. 710, siy. 1, iş 105.
62. ARDA, f. 710, siy. 6, iş 9.
63. ARDA, f. 713, siy. 1, iş 60.
64. ARDA, f. 713, siy. 1, iş 79.
65. ARDA, f. 796, siy. 1, iş 8.
66. ARDA, f. 796, siy. 6, iş 9.
67. ARDA, f. 1610, siy. 1, iş 89.
68. ARDA, f. 1610, siy. 1, iş 98.
69. ARDA, f. 1698, siy. 1, iş 1.
70. ARDA, f. 1698, siy. 1, iş 2.
71. ARDA, f. 1698, siy. 1, iş 61.
72. ARDA, f. 1698, siy. 1, iş $68^A$
73. ARDA, f. 1698, siy. 1, iş 89.
74. ARDA, f. 1698, siy. 1, iş 91.
75. ARDA, f. 1698, siy. 2, iş 3.
76. ARDA, f. 2511, siy. 1, iş 103.
77. ARDA, f. 2511, siy. 5, iş 18.
78. ARDA, f. 2511, siy. 5, iş 33.
79. ARDA, f. 2511, siy. 5, iş 57.
80. ARDA, f. 2511, siy. 5, iş 103.

81. ARDA, f. 2920, siy. 2, iş 1.
82. ARDA, f. 3034, siy. 1, iş 503.
83. ARDA, f. 3034, siy. 1, iş 504.
85. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 2.
86. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 14.
87. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 18.
88. ARDA Bakı filialı, f. 126, siy.1, iş 19.
89. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 24[a].
90. ARDA Bakı filialı, f. 1, siy. 1, iş 26.
91. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 21.
92. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 22.
93. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 27.
94. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 37.
95. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 38.
96. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 51.
97. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 62.
98. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 66.
99. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 67.
100. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 71.
101. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 77.
102. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 91.
103. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 101.
104. ARDA Bakı filialı, f. 126, siy. 1, iş 102.
105. ARDA Bakı filialı, f. 126, siy 2, iş 3.
106. ARDA Bakı filialı, f. 126, siy 2, iş 6.
106. ARDA Bakı filialı, f. 126, siy 2, iş 6.
107. ARDA Bakı filialı, f. 126, siy 2, iş 11.
108. ARDA Bakı filialı, f. 126, siy 2, iş 12.
109. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 31
110. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 39.
111. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 41.
112. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 53.
113. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 57.
114. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 63.
115. ARDA Bakı filialı, f. 126, siy. 2, iş 69.
116. Azərbaycan Respublikası Kini-Foto sənədlər Arxivi.
117. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 57, iş 140.
118. ARPİİSSA, f. 1, siy. 1, iş. 39.
119. ARPİİSSA, f. 1, siy. 1, iş 100.
123. ARPİİSSA, f. 1, siy. 58, iş 196.
124. ARPİİSSA, f. 1, siy. 59, iş 150.

125. ARPİİSSA, f. 1, siy. 60, iş 28.
126. ARPİİSSA, f. 1, siy. 60, iş 31.
127. ARPİİSSPA, f. 1, siy. 60, iş 59.
128. ARPİİSSA, f. 1, siy. 60, iş 77.
129. ARPİİSSA, f. 1, siy. 61, iş 59.
130[A]. ARPİİSSA, f. 1, siy. 61, iş 155.
130. ARPİİSSA, f. 1, siy. 64, iş 134.
131. ARPİİSSA, f. 1, siy. 66, iş 177.
132. ARPİİSSA, f. 1, siy 67, iş 185.
133. ARPİİSSA, f. 1, siy. 68, iş 62.
134. ARPİİSSA, f. 1, siy. 68, iş 77.
135. ARPİİSSA, f. 1, siy. 68, iş 103.
136. ARPİİSSA, f. 1, siy. 72, iş 471.
137. ARPİİSSA, f. 1, siy. 70, iş 22.
138. ARPİİSSA, f. 1, siy. 70, iş 46.
139. ARPİİSSA, f.1, siy. 72, iş 100.
140. ARPİİSSA, f.1, siy. 83, iş 44.
141. ARPİİSSA, f. 1, siy. 83, iş 202.
142. ARPİİSSA, f. 1, siy. 83, iş 202.
143. ARPİİSSA, f. 1, siy. 85, iş 53.
144. Azərbaycan tarixi: 3 cilddə, III c., Bakı: Elm, 1973, 548 s.
145. Babayev L.Ş. Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd mühafizəsi tarixi (1918-1920-ci illər): Tarix elm. nam. ... dis. Bakı: 2005, 157 s.
146. "Bakı" qəz., Bakı, 1969-1975-ci illər.
147. Bəydəmirova B.C. Azərbaycan SSR-nin ölkənin daxili və xarici iqtisadi əlaqələrində rolu. Bakı: Elm, 1990, 84 s.
148. Baxışov M.Ə. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri (70-80-ci illər). Tarix elm. nam. alimlik elmi dər. alm. üçün təq. ed. dis. avtoreferatı. Bakı: 1992. - 26 s.
149. Bije Ə. Sovet Türkiyə münasibətləri. 1923-1939-cu illər. Bakı: Azərnəşr, 136 s.
150. Brejnev L.İ. Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevə Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının "Oraq və çəkic" qızıl medalının Kremldə təqdim edilməsi mərasimində nitqi // "Azərbaycan Kommunisti", 1979, № 1.
151. Bünyadov Q.H. Bərpa dövründə Azərbaycanda sovet ticarətin yaranması və inkişafı (1921-1925-ci illər). Elm: Bakı. - 130 s.
152. Bünyadov Q. Xalq təsərrüfatının bərpası dövründə Azərbaycanın xarici ticarəti //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, iqtisadiyyat seriyası, 1967, № 1
153. Cəfərov İ. Gömrük tarixinə dair bəzi qeydlər. "Gömrük xəbərləri" qəz., Bakı, 1998, 25 may, № 9 (61).

154. Dadaşova Ramilə. Azərbaycanın Avropa dövlətləri ilə münasibətləri (1920-1922-ci illər): Tarix elm. nam. … dis. Bakı: 2003. – 170 s.
155. "Elm və həyat", 1971, № 2.
156. Əhmədov Ə. 1918-1925-ci illərdə Azərbaycanda milli hərəkat və ictimai xadimlər şahid gözü ilə (rus dilində). Bakı: Nurlan, 2006. - 112 s.
157. Əliyev H.Ə. Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyasının 60 illiyi. Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyasının altmış illiyinə həsr edilmiş təntənəli yığıncağında məruzə. 25 sentyabr 1980-ci il. Bakı: Azərnəşr, 1980, 52 s.
158. Əliyev Heydər. Sovet Azərbaycanı 50 ildə. Bakı: "Bilik" Cəmiyyəti, 1970, 82 s.
159. Əliyev Heydər. 1982-ci il yanvarın 19-da Respublikanın partiya-təsərrüfat fəalları yığıncağında məruzə //"Azərbaycan kommunisti", 1982, № 3.
160. Hacıyev H. Beynəlmiləl borcumuzu yerinə yetiririk. Bakı: Azərnəşr, 1971, 54 s.
161. "Kommunist" qəzeti, Bakı, 1982-1991-ci illər.
162. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 53-cü cild.
163. Məmmədov A. Bakı yarmarkalarının Azərbaycanın beynəlxalq ticarət-iqtisadi əlaqələrində rolu (20-ci illər) /Azərbaycanın beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. "Yunokal Xəzər limited". Azərbaycan MEA. Bakı şəhər icra hakimiyyəti. Bakı: Elm, 1997, 316 s.
164. Nadirov A.A, Ələsgərov A.K. Ölkənin vahid xalq təsərrüfatı kompleksində Azərbaycan SSR-in iqtisadiyyatı //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, 1982, № 3.
165. Naxçıvan MR Dövlət Arxivi, f. 2, siy. 1, iş 6.
166. Naxçıvan MR Dövlət Arxivi, f. 2, siy. 1, iş 7.
167. Naxçıvan MR Dövlət Arxivi, f. 2, siy. 1, iş 10.
168. Naxçıvan MR Dövlət Arxivi, f. 2, siy. 1, iş 20.
169. Naxçıvan MR Dövlət Arxivi, f. 2, siy. 9, iş 3.
170. Rasizadə A. Maşınqayırma kompleksində səmərəliliyin artırılmasının tərkib hissələri // "Azərbaycan kommunisti", 1984, № 2.
171. Seyidova S. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin tarixinə dair /Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçılarının üçüncü respublika elmi konfransının məruzələr məcmuəsi. Bakı: "Azərbaycan" nəşriyyatı: Bakı, 1995, s.89-91.
172. Üzvi sintez"in Avropalı partnyorları. "Azərbaycan" qəz., Bakı, 1991, 12 aprel.

**Rus dilində:**

173. Адрес-Календарь Азербайджанской Республики на 1920 год. Баку:

1919. - 30 с.
174. Азербайджан за рубежом. Реферативный сборник. Баку: Елм, 1972. - 102 с.
175. Азербайджанской ССР в период Великой Отечественной Войны (1941-1945 гг). В 2-х т. Том 1, Баку: Азербайджанское Государственное Издательство, 1977. - 376 с.
176. Алибекова Н. Развитие экономики Азербайджана в 60-80-ые годы во взаимосвязи с союзными республиками / Сборник докладов третьей республиканской научной конференции молодых исследователей проблем истории Азербайджана. Bakı: Azərbaycan nəşriyyatı, 1995, 304 s.
177. Бабаева С. Куда исчезла Бакинская ярмарка. Газ. «Молодеж Азербайджана», 1990, 18 декабря.
178. «Бакинский рабочий», Баку, 1922, 3 ноября.
179. Борисова И.Д. Правовое обеспечение национальных государственных интересов Советской России и СССР в Центрально-Азиатском и Кавказском регионах в 1917-1929 гг.: историко-правовое исследование. Автореф. дис. док.юрид. -наук Владимир: 2006. - 346 с.
180. Бюллетень НКВД, 1923, 20 мая, № 19-20.
181. Векилов Дж.М. Участие Азербайджанской ССР в развитии советско-иранских торгово-экономических и культурных связей в 20-30 годах //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1986, №1, s. 36-42.
182. Велиев Н.Т. Внешнеэкономические связи и их роль в развитии экономики Азербайджана на современном этапе. Дис. … канд. экон. -наук. Баку: 1996. - 176 с.
183. «Весть Баку» (справочник), 1927.
184. «Внешняя торговля». Жн.: народного Комиссариата Внешней Торговли, 1941, № 4.
185. Габричидзе Б.Н., Полежаев Д.М. Становление и развитие таможенной службы в Советском государстве (1917-1991 гг.) // Го-сударство и право, 1992, № 10.
186. Гаджинский М.Г. Роль Закавказья в торговле СССР со странами Ближнего и Среднего Востока // “Советская торговля”,1928, т. 32.
187. Гасанов Р.Т. Экономические связи Азербайджана в преддверии перехода к рынку //”Экономика и жизнь”, 1993, № 1-3.
188. Головин В. В. История Мурманской таможни. 1919-2005. Мурманск: Мурм. таможня, 2006.- 295 с.
189. Гусейнов Г. Внешняя торговля Ирана //«Внешняя торговля», 1941, № 6.

190. Декрет о порядке получения грузов с таможен республик, а равно со складов железных дорог и пароходов. Газ. «Коммунист», Баку, 1920, 5 июня.
191. Декреты Азревкома. Сборник документов (1920-1921 гг.). Баку: Азернешр, 1988, 519 с.
192. Декреты Советской власти. Т. 2, Москва: 1959. – 526 с.
193. Дмитриев С.С. Возникновение и развитие советской таможенной системы // Социалистический таможенный контроль, 1967, № 3-4, С.6-10.
194. Договор России и Азербайджана о военно-экономическом союзе обеих республик. 30 сентября 1920 г. Документы внешней политики СССР. Т. 3. М.: Политиздат, 1959, с. 222-223.
195. Журавский П. Таможни Советского Союза // «Внешняя торговля», 1941, № 8.
196. «Заря Востока», Баку, 1922,12 октября, № 97.
197. «Известия», 1920, 11 июня.
198. Интервью начальника ГУГТК СССР В.К. Боярова корреспонденту газеты «Правда». Газ. «Правда», Москва, 1989, 4 сентября.
199. Калантаров В. Советская таможенная система //Внешняя торговля, 1966, №9. С. 14-21.
200. Кисловский Ю. Г. История таможенного дела и таможенной политики России: Учебник для вузов. М.: Русина-пресс, 2004, 585 с.
201. Коган. Советские автомобили в Иране // «Внешняя торговля», 1935, № 7.
202. «Коммунист», Баку, 1920 г.
203. Кулиев Г.М. Азербайджанская ССР во внешнеэкономических связях Советского Союза. Баку: Азернешр, 1967. - 170 с.
204. Лазаревский Л. Товарооборот СССР с Востоком в 1935 г. // «Внешняя торговля», 1935, № 8.
205. Макеев Д.А. СССР и страны Ближнего и Среднего Востока. Из истории внешнеэкономических связей 1921-1928 гг. Владимир: ВГПИ, 1990, 92 с.
206. Марков Л. Н. Очерки по истории таможенной службы. Иркутск: Изд-во Иркут.ун-та, 1987. - 156 с.
207. Морозов А., Смирнов В. Сотрудничество таможенных учреждений социалистических стран //«Внешняя торговля», 1961, № 12.
208. Народное хозяйство Азербайджанской ССР в 1980 году. Статистический сборник. Ваку: Азернешр, 1981. - 291 с.
209. «Нефтяное хозяйство Азербайджана», Баку, 1926, № 3.
210. Отчет о работе Правления Азериттифака и задачах по дальнейшему развитию потребительской кооперации Азербайджанской ССР в свете решений XXVI съезда КПСС, XXX съезда КП

Азербайджана и последующих пленумов ЦК КПСС и ЦК КП Азербайджана. Делегату XVI съезда потребительской кооперации Азербайджана. Баку: Препринт. kоп., 1978, 164 с.
211. Павлов К.П. Роль государственной монополии внешней торговли в построении социализма в СССР (1918-1937 гг.). М.: Издание социально-экономической литературы. 1960. - 184 с.
212. Приказ о воспрещение вмешательства в торговые операции Азвнешторга и действия таможенного контроля . Газ. «Коммунист», Баку, 1921, 18 марта.
213. Сборник нормативных материалов по вопросам торговли СССР. Выпуск 1. Москва: “Международные отношения”, 1970. - 584 с.
214. Сборник нормативных актов к первому международному конгрессу представителей зарубежных деловых кругов, заинтересованных в экономических связях с Азербайджанской ССР. Баку: Азернешр, 1990, 138 с.
215. Свод узаконений РСФСР, 1918-1920 гг.
216. Соглашение о сотрудничестве и взаимопомощи по таможенным вопросам, подписанное в Берлине 18 июля 1962 г. (Ратифицировано ПВС СССР 30 января 1963 г.) // Справочная правовая система “Гарант”. Версия от 5 февраля 2005 г.
217. Сонкин М.Е. Окно во внешний мир. Экономические связи Советского государства в 1917-1921 гг. М.: Мысль, 1964. - 212 с.
218. Статистический справочник по Азербайджану / под ред. В.В.Смирнова. Баку: ЦСУ Азербайджанской ССР, 1927. - 198 с.
219. Торговые договоры и соглашение СССР с иностранными государствами. М.: 1953. - 580 с.
220. Шахмалиева Ф.А. Экономическое, научно-техническое и культурное сотрудничество Азербайджана с арабскими странами (70-80-годы): Дис. ... канd. истор. - наук. Баку: 1995, 161 с.
221. «Экономический вестник Азербайджана», 1921-1924 гг.

### *İngilis dilində:*

222. Guliev R.A. Some questions on the realization trade and customs interests of Sovet Russia and the USSR in Azerbaijan (20S of the XX century) // Научная дискуссия: инновации в современном мире. Сборник трудов XI Международной заочной научно-практической конференции. Москва: Изд. «Международный центр науки и образования», 2013, с. 168-174.

223. Guliev R. The creation of the soviet customs services in Azerbaijan SSR (may-december 1920) / Azərbaycan və Azərbaycanlılar, 2012, №113-114, pp.102-106.
224. Guliev R. Azerbaijan: the organization of customs control in the years of World War II / Materials of the I international Scientific Conference Vol. I, December 17-18th, 2013, Cikaqo, USA. – pp.215-220.

## *İnternet resursu:*

225. www.pogranec.ru/showpost.php?p=1499848&postcount=49. Контрольно-пропускной пункт *"Джульфа"* Нахичеванского пограничного отряда. Müraciət edilib: 19.05.2014.

## Azərbaycan SSR-də gömrük işi tarixinin xronologiyası

***28 aprel, 1920 - 13 avqust, 1920-ci il**: Bakı gömrükxanası Xalq Maliyyə Komissarlığının Gömrük hissəsinin tabeçiliyinə keçmişdir*

***6 iyul 1920-ci il:** Azərbaycan Hərbi İnqilab Komitəsinin dekreti ilə Bakı gömrükxanası müvəqqəti olaraq Hərbi-dəniz işləri Komissarlığına tabeliyinə keçdi*

***22 may 1920-ci il:** Azərbaycan XTŞ qərarı ilə xüsusi icazə olmadan bütün gömrükxana, dəmiryolu stansiyalarına, nəqliyyat kontorlarına məxsus anbarlardan, o cümlədən ictimai və şəxsi müəssisələrdən müxtəlif növdə xam dəri, sulfat turşusu, anilin boyaq və s. malların buraxılması qadağan edildi*

***27 may 1920-ci il:** Azərbaycan SSR Xalq Ərzaq Komissarlığının "Ərzaq məhsullarının və ilkin tələbat mallarının sərbəst daşınması normaları haqqında" qərarı dərc olundu*

***3 iyun 1920-ci il:** Azərbaycan HİK-in "Respublikanın gömrükxana, dəmiryolu və gəmi anbarlarında yüklərin təhvil alınması qaydaları haqqında" adlı dekreti dərc olundu*

***19 iyul 1920-ci il:** Azərbaycan XTŞ-nin əmrinə əsasən pambıq mahlıcı, yun (yerli və ispan növlü), barama, ipək və frizonun ixracı qadağan edildi*

***19 iyul 1920-ci il:** Azərbaycan HİK dekreti ilə xarici ticarətə aid bütün məsələlərin həlli Xüsusi müvəkkilin səlahiyyətinə verildi*

***29 iyul 1920-ci il:** Azərbaycan SSR Xalq Xarici Ticarət Komissarlığı (XXTK) yaradıldı*

***14 avqust 1920-ci il:** Azərbaycan SSR Maliyyə Komissarlığı haqqında Əsasnaməyə görə Gömrük İdarəsi bütün gömrükxana və gömrük məntəqələrinin tabe olduğu Gömrük rüsumları və Sərhəd mühafizəsi şöbəsindən ibarət idi*

***1920 21 dekabr -23 sentyabr 1922-ci il:** Bakı gömrükxanası Azərbaycan SSR Maliyyə Komissarlığının "Gömrük nəzarəti şöbəsi"nin tərkibində olmuşdur*

***21 dekabr 1920-ci il:** Azərbaycan HİK Azərbaycan SSR "Gömrük Nəzarəti haqqında Əsasnamə"ni təsdiq etdi*

***23 dekabr 1920-ci il:** Azərbaycan HİK "Azərbaycan SSR-in gömrük müəssisələrinin sərhəd mühafizəsi ilə qarşılıqlı münasibətləri haqqında Təlimat"ı təsdiq etdi*

***11 iyul 1921-ci il:** Ali İqtisad Şurasının qərarı ilə sovet respublikalarının sərhədlərində yerləşən gömrük müəssisələri ləğv edildi*

***aprel 1922-ci il:** Azərbaycan SSR XKS və Xalq Maliyyə Komissarlığı "Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsasnamə"ni təsdiq etdi*

***15 iyul 1922-ci il:** Avropa üzrə ilk sovet gömrük tarifi təsdiq olundu*

***20 avqust 1922-ci il:*** *Ağstafa gömrük nəzarət məntəqəsinin ləğv edilməsi və əməkdaşlarının müsadirə edilən malları yığılan gömrük rüsumları ilə Bakıya ezam edilməsi haqqında göstəriş verildi*

***5 sentyabr 1922-ci il:*** *RSFSR hökumətinin təsiri ilə vahid Zaqafqaziya Gömrük İdarəsi yaradıldı və Rusiyanın gömrük orqanları ilə birləşdirildi*

***24 sentyabr 1922-ci il:*** *Nəriman Nərimanov "Zaqafqaziya Sovet Respublikası Gömrük İdarəsinin təşkili haqqında" Dekreti imzalamışdır*

***11 oktyabr 1922-ci il:*** *ZSFSR İttifaq Sovetinin "İdxal və ixrac vergilərinin tətbiq edilməsi haqqında" tarixli Dekreti*

***17 oktyabr 1922-ci il:*** *ZSFSR XXTK-nin 103 saylı qərarı ilə Gömrük İdarəsinin Əsasnaməsi təsdiq edildi*

***30 dekabr 1922-ci il:*** *RSFSR XKS-nin 72 nömrəli dekretinə əsasən Cənubi Qafqaz ərazisi üç gömrük dairəsinə bölündü: 1) Gürcüstan və Abxaziya; 2) Azərbaycan; 3) Ermənistan və Naxçıvan ölkəsi*

***1923-cü il:*** *SSRİ Xalq Komissarları Şurası tərəfindən müttəfiq respublikalardakı bir neçə təşkilat və birliklərə, o cümlədən "Azneft"ə sərbəst xarici bazarlara çıxmaq "hüquqları" verildi*

***9 may 1923-cü il:*** *ZSFSR XKŞ-nin "Qaçaqmalçılıqla mübarizə tədbirləri haqqında" qərarı ilə Zaqafqaziya Gömrük İdarəsində ZSFSR Maliyyə Komissarlığı və Zaqafqaziya Fövqəladə Komissiyası nümayəndələrindən ibarət qaçaqmalçılıqla mübarizə Komissiyası yaradıldı*

***8 yanvar 1924-cü il:*** *ikinci sovet Gömrük tarifi təsdiq olundu*

***1 aprel 1924-cü il:*** *Azərbaycan ərazisində 7 gömrükxana və 6 gömrük postu fəaliyyət göstərirdi*

***29 aprel 1924-cü il:*** *Bakı gömrükxanası rəisinin əmri ilə əməkdaşlara türk (Azərbaycan) dili öyrədilən kurslar təşkil edildi*

***14 dekabr 1924-cü il:*** *SSRİ MİK SSRİ-nin Gömrük Məcəlləsini təsdiq etdi, bununla SSRİ ərazisində gömrük işinin həyata keçirilməsi XXTK-nin tərkibində olan Baş Gömrük İdarəsinə verildi*

***22 dekabr 1924-cü il:*** *Zaqafqaziya Gömrük İdarəsinin statusu dəyişdirilərək SSRİ XXTK Baş Gömrük İdarəsinin Zaqafqaziya bölməsi adlandırıldı*

***1 yanvar 1925-ci il:*** *Zaqafqaziya Gömrük müfəttişliyi, o cümlədən Azərbaycan rayon Gömrük müfəttişliyi ləğv edildi. SSRİ Baş Gömrük İdarəsinin Belorus SSR, Ukrayna SSR, ZSFSR, Orta Asiya bölmələri və 11 Rayon gömrük müfəttişliyi yaradıldı*

***24 yanvar 1925-ci il:*** *SSRİ Baş Gömrük İdarəsinin "Xəzər dənizində üzən kabotaj gəmilərinə baxışın keçirilməsi qaydasının tətbiq edilməsi haqqında" təlimatı Bakı gömrükxanasının fəaliyyət dairəsini genişləndirdi*

***5 may 1925-ci il:*** *gömrük müəssisələrinin işçi orqanı olan texniki müşavirələr haqqında Əsasnamə təsdiq edildi*

***5 iyun 1925-ci il:*** *SSRİ XXTK Baş Gömrük İdarəsinin rəisi İ.Potyayevin 57 saylı əmrində 21 iri gömrükxanada, o cümlədən Bakı gömrükxanasında gömrük-əmtəə muzeyinin yaradılması nəzərdə tutulurdu*

***11 fevral 1927-ci il:*** *sayca üçüncü sovet Gömrük tarifi qəbul edildi*

***16 fevral 1927-ci il:*** *Azərbaycan SSR XKS-nin qərarı ilə Bakı şəhər Sovetinə və qəza icraiyyə komitələrin SSRİ gömrük Məcəlləsinin 275-ci maddəsinə əsasən gömrükxanalar tərəfindən təyin edilən cərimələri ödəməyənlərə inzibati cəza tətbiq edilməsi hüququ verildi*

***23 noyabr 1927-ci il:*** *Tehranda SSRİ ilə İran arasında Bakı-Tehran hava xəttinin açılması haqqında razılıq protokolu imzalandı. SSRİ Baş Gömrük İdarəsinin 1928-ci il 8 may tarixli təlimatına əsasən, SSRİ-dən İrana və əksinə baqaj və poçt bağlamaları, həmçinin yüklərin Bakı-Tehran hava xətti ilə buraxılışı Bakı gömrükxanasına tapşırıldı*

***3 may 1928-ci il:*** *Culfada SSRİ Baş Gömrük İdarəsi və Cənubi Qafqaz Baş Gömrük İdarəsinin iştirakı ilə keçirilən xüsusi müşavirədə idxal mallarının sərhəddən buraxılışı qaydalarının təkmilləşdirilməsi məsələsi müzakirə edildi*

***15 iyul 1928-ci il:*** *Azərbaycan KP (b) MK Bakı şəhər Komitəsinin keçirilən yığıncağında Bakı gömrükxanasının hesabatı dinlənilmiş və gömrükxanada partiya və dövlət intizamının möhkəmləndirilməsi haqqında qərar qəbul edilmişdir*

***30 avqust 1928-ci il****: ZSFSR XKS-nin tarixli 19 nömrəli qərarı ilə Naxçıvan və Ordubad gömrükxanalarının fəaliyyəti dayandırılmışdı*

***19 dekabr 1928-ci il:*** *ÜMİK və SSRİ XKS SSRİ-nin yeni Gömrük Məcəlləsini təsdiq etdi*

***1930-cu il:*** *Bakıda, ixrac mallarının saxlanılması üçün iri tutumlu soyuducu istifadəyə verildi*

***16 mart 1931-ci il:*** *Moskvada SSRİ ilə Türkiyə arasında ticarət və dənizçilik haqqında beş il müddətinə imzalanan 2-ci müqavilənin 17-ci maddəsində tranzit xərcləri və gömrük rüsumları qeyd olunmuşdu*

***1930-1931-ci illər:*** *İrandan Azərbaycan sərhədlərindən üçüncü ölkələrə daşınan tranzit yüklərin 74 faizi Culfa, 36 faizi isə Bakı gömrükxanasında qeydiyyata alınırdı*

***13 avqust 1935-ci il:*** *SSRİ-nin İranla bağladığı ticarət müqaviləsi iqtisadi-ticarət əlaqələrinin və gömrük əməliyyatlarının genişlənməsinə səbəb oldu*

***9-12 fevral 1936-cı il:*** *gömrük işçilərinin "SSRİ-nin ən yaxşı gömrükxanası" devizi altında keçirilən və 22 gömrükxananın iştirak etdiyi müsabiqədə Bakı gömrükxanası 2-ci yerə layiq görüldü*

***8 oktyabr 1937-ci il:*** *Ankarada "SSRİ ilə Türkiyə Cümhuriyyəti arasında ticarət və gəmiçilik haqqında" 3 il müddətinə imzalanan müqa-*

*vilənin 17-28-ci maddələri gəmiçilik, gömrük və rüsum məsələlərini əhatə edirdi*

***3 mart 1940-cı il:*** *SSRİ XXTK və Bakı Liman Gömrükxanasının 1940-cı il 10 avqust tarixli müvafiq əmrləri ilə avqustun 15-dən Biləsuvar gömrük postu ləğv edildi*

***1940-cı il:*** *bir il ərzində Bakı gömrükxanasından İrana 158,8 min ton tranzit yük buraxılmışdı*

***6 yanvar 1941-ci il:*** *Bakı gömrükxanası əməkdaşları tərəfindən İrana daşınan tranzit yüklərin içərisində 20 minə yaxın tüfəng və pulemyot lülələri, habelə həmin lülələrdə kanalların emalı üçün iki ədəd xüsusi dəzgah, həmçinin sənəddə qeyd olunmayan hərbi xarakterli əleyhqazlar aşkar edilmişdi*

***1941-ci il:*** *ümumi uzunluğu 125 km və 182 km olan Culfa-Mincivan və Osmanlı-Astara dəmiryollarının istismara verilməsi gömrükxanaların fəaliyyət dairəsini daha da genişləndirdi*

***19 mart 1941-ci il:*** *SSRİ XXTK-nin tarixli 48 saylı əmri ilə "SSRİ ərazisindən xarici malların tranzitinə icazə verilməsinə görə yığımlar haqqında" əmri ilə rüsumların həcmi yükün dəyərindən asılı olaraq hesablanırdı: 20 min manatdan yuxarı dəyəri olan mallara görə dəyərinin 0, 2 faizi qədər rüsum ödənilməli idi.*

***31 mart 1941-ci il:*** *SSRİ XXTK-nin tarixli "SSR İttifaqına malların ixracına icazələrin verilməsi qaydaları haqqında" 61 saylı əmrinə görə SSRİ ərazisinə malların ixracı müvafiq formada tərtib edilmiş icazə sənədi əsasında həyata keçirə bilərdi. Xüsusi formada tərtib edilən yol vəsiqəsi olmayan mallar gömrük məntəqəsindən buraxılmırdı*

***1942-ci il:*** *Baş Gömrük İdarəsi qaçaqmalçılığa aid işlərin aparılması haqqında yeni təlimatı təsdiq etmişdir*

***1942-ci il:*** *lend-liz üzrə SSRİ-yə gətirilən strateji malların bir hissəsi İran körfəzindəki Xürrəmşəhr və Bəndər-Şahpur limanlarından avtomobillərlə Culfa gömrükxanasında, digər hissəsi isə İranın Xəzər dənizindəki limanlarından Azərbaycana məxsus "Kaspflot" və "Kasptanker" gəmiçilik şirkətləri tərəfindən daşınaraq Bakı gömrükxanasında qeydə alınırdı*

***25 dekabr 1943-cü il:*** *SSRİ XKS yanında Dövlət Ştat Komissiyası tarixli qərarı ilə Bakı gömrükxanasının ştat cədvəlinə 25 ştat vahidi əlavə edildi*

***1943-cü il:*** *humanitar yüklərin sərhəddən gömrük rüsumu tutulmadan buraxılmasına başlanılması*

***12 avqust 1944-cü il:*** *SSRİ XTK Bakı gömrükxanasının şəxsi heyətinin sayını 10 ştat vahidi artırdı*

***1945-ci il:*** *Bakı gömrükxanasının tərkibində əlavə olaraq iki gömrük postu: Mahaç-Qala, Hacıqabul və Bakı (Abşeron) postları təşkil olundu*

***2 iyul 1945-ci il:*** *SSRİ XKS yanında Dövlət ştat komissiyasının təsdiq etdiyi yeni ştat cədvəlinə görə Bakı gömrükxanasının şəxsi heyətinin sayı iki dəfə ixtisar edildi*

***1950-ci il:*** *Bakı gömrükxanasının ştat cədvəlində əməkdaşlarının sayı azaldılaraq 9 nəfərə çatdırılmışdı*

***14 avqust 1951-ci il:*** *SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə gömrük xidmətinin rəhbər işçilərinə ilk dəfə fərdi rütbələrin verilməsi nəzərdə tutulurdu*

***1955-ci il:*** *Bakı gömrükxanasında "Gəmiçilik şöbəsi" ilə "Yük şöbəsi" birləşdirilərək "Gəmi-yük şöbəsi", "Müsadirə şöbəsi" isə "Qaçaqmalçılığa qarşı mübarizə qrupu" adlandırıldı*

***1956-cı il:*** *Bakı gömrükxanası 27 yanvar 1989-cu ilə qədər SSRİ Nazirlər Soveti yanında Gömrük Nəzarəti Komitəsi Baş gömrük idarəsinin strukturuna daxil idi*

***11 avqust 1961-ci il:*** *SSRİ Nazirlər Sovetinin 722 saylı qərarı ilə yeni (güzəştli) Gömrük tarifi 1961-ci il oktyabrın 1-də qüvvəyə mindi*

***21 dekabr 1964-cü il:*** *SSRİ Nazirlər Sovetinin 1021 saylı qərarı ilə 1965-ci il yanvarın 1-dən başlayaraq inkişaf etməkdə olan Asiya, Afrika və Latın Amerikası ölkələrindən idxal edilən mallara gömrük rüsumunun tətbiqi ləğv edildi*

***5 may 1964-cü il:*** *SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə SSR İttifaqının Gömrük Məcəlləsi təsdiq edildi*

***1968-ci il:*** *yeni yaradılan "Şərqxariciticarət" ümumittifaq Birliyinin Bakı şöbəsi vasitəsi ilə Türkmənistan və Cənubi Qafqaz respublikalarının İranla sərhədyanı ticarət əlaqələri həyata keçirilirdi*

***1970-ci il:*** *Bakı gömrükxanasının yeni inzibati binasının başlanılan tikintisinə başlanıldı (Neftçilər prospekti, 62)*

***1970-ci il:*** *Bakı gömrükxanası üzrə xaricə üzən gəmilərin sərnişinlərinin gömrük baxışından keçirilməsinə görə 48272, poçt bağlamalarına görə 3122 manat gömrük rüsumu tutulmuş, plandankənar daxilolmalar 58385 manat olmuşdu*

***1971-ci il:*** *valyuta və valyuta tutumlu qiymətli əşyaların qaçaqmalçılığına görə inzibati məsuliyyətin gücləndirilməsi*

***22 avqust 1973-cü il****: Azərbaycan KP MK Bürosunun "Azərbaycan SSR Nazirlər Soveti Rəyasət Heyətinin xarici ölkələrlə iqtisadi əlaqələr komissiyasının yaradılması haqqında" qərarı*

***1 avqust 1974-cü il:*** *Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "İxrac malları istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi haqqında" qərarı*

***1974-cü il:*** *Bakı gömrükxanası üzrə qaçaqmalçılıq faktlarının aşkar edilməsi nəticəsində 163 min manatlı müxtəlif mallar müsadirə edilmiş,*

*gömrük rüsumları hesabına dövlət büdcəsinə 105,2 min manat vəsait köçürülmüşdü*

***1975-ci il:*** *1971-ci illə müqayisədə Bakı gömrükxanası üzrə qeydə alınan xarici ticarət yüklərinin həcmi 507,9 min tondan 605,5 min tona yüksəlmişdi*

***3 aprel 1979-cu il:*** *Azərbaycan KP MK-nın "Azərbaycan SSR-dən ixrac edilən malların keyfiyyətinin yaxşılaşdırılması, istehsal həcminin daha da artırılması vəziyyəti və görülən tədbirlər haqqında" qərarı*

***1979-cu il:*** *gömrük statistikasına görə bir il ərzində Bakı gömrükxanasında 57 ölkəyə məxsus 6466 ədəd beynəlxalq poçt bağlaması və kiçik həcmli paketlər (tranzit göndərişlər istisna olmaqla) gömrük baxışından keçirilmişdi*

***31 mart 1981-ci il:*** *Azərbaycan KP MK Bürosu Azərbaycanın xarici iqtisadi əlaqələrində Bakı gömrükxanasının mühüm əhəmiyyət daşıdığını nəzərə alaraq, Heydər Əliyevin imzası ilə "Bakı gömrükxanasının 175-ci ildönümü ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul etdi*

***1982-ci il:*** *Bakı gömrükxanasında beynəlxalq poçt göndərişləri ilə 86 dövlətdən göndərilən 13602 bağlama, xarici ölkələrə göndərilən 2214 bağlama və 3504 ədəd tranzit iri həcmli bağlamalar qeydə alınmış, bu hesaba 262542 manat gömrük rüsumu yığılmışdı*

***1970-1980-ci illər:*** *Bakı gömrükxanasının əməkdaşları Azərbaycanın Plovdiv (Bolqarıstan), Leypsiq (ADR), Praqa (Çexoslovakiya), Bağdad (İraq), Qahirə (Misir), Dehli (Hindistan), Poznan (Polşa), Zaqreb (Yuqoslaviya), Cakarta (İndoneziya), Boqota (Kolumbiya), Oslo (Norveç), Saloniki (Yunanıstan), Hanoyda (Vyetnam) keçirilmiş beynəlxalq sərgi və yarmarkalarda, həmçinin xarici şirkətlərin iştirakı ilə Bakıda keçirilən 50-dən çox beynəlxalq sərgiyə gömrük nəzarətini təmin etmişdi*

***12 fevral 1986-cı il:*** *xarici Ticarət Nazirliyinin Baş Gömrük İdarəsi ləğv edilərək əvəzində Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş İdarəsi təsis edildi, sovet gömrüyü tarixində ilk dəfə olaraq müstəqil təşkilata çevrildi*

***28 sentyabr 1986-cı il:*** *Azərbaycan KP MK-nın "Xarici iqtisadi fəaliyyətin əsaslı surətdə təkmilləşdirilmək tədbirləri haqqında" tarixli qərarı*

***13 iyul 1987-ci il:*** *SSRİ Nazirlər Soveti Dövlət Gömrük Nəzarəti Baş İdarəsi haqqında Əsasnaməni təsdiq etdi*

***1987-ci il:*** *SSRİ gömrük orqanlarının şəxsi heyətinin geyim formasında və fərqləndirici nişanlarda dəyişiklik edildi*

***1 avqust 1988-ci il:*** *SSRİ Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti 107 saylı əmri ilə Bakı gömrükxanasının tərkibində əlavə 3 əməliyyat şöbəsi yaradıldı*

***27 yanvar 1989-cu il:*** *SSRİ Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş gömrük idarəsinin tarixli 17 saylı əmri ilə Bakı gömrük-*

*xanasının bazasında Azərbaycan Respublika Gömrük İdarəsi təsis edildi. Respublika Gömrük İdarəsinin fəaliyyət zonasına Azərbaycan SSR və Dağıstan MSSR ərazisi daxil edildi*

***28 fevral 1989-cu il:*** *SSRİ Nazirlər Soveti 191 saylı qərarı ilə xarici ticarətdə dövlət inhisarı prinsipindən imtina edilməsini hüquqi cəhətdən təsbit etdi. Bununla da, sonrakı dövr üçün yeni gömrük siyasəti və gömrük nəzarəti mexanizminin formalaşdırılması sahəsində vəzifələr müəyyən edildi*

***31 mart 1989-cu il:*** *Azərbaycan SSR Nairlər Soveti "Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi tədbirləri haqqında" tarixli 148 nömrəli qərarı ilə SSRİ Nazirlər Sovetinin xarici iqtisadi fəaliyyət iştirakçılarına geniş təsərrüfat səlahiyyəti verilməsini nəzərdə tutan 1989-cu il 7 mart tarixli 203 nömrəli qərarını rəsmiləşdirdi*

***1 aprel 1989-cu il:*** *sərhəddən daşınan yüklərə görə bəyannamədə Gömrük Əməkdaşlığı Şurasının tövsiyələri və beynəlxalq təcrübə nəzərə alınmışdı*

***aprel 1989-cu il:*** *Azərbaycan Gömrük İdarəsində ilk dəfə olaraq Baş Dövlət Gömrük Nəzarəti İdarəsindən alınan 2 ədəd kompüter Azərbaycan Elmlər Akademiyası Kibernetika İnstitutunun mütəxəssisləri tərəfindən quraşdırıldı*

***30 iyun 1989-cu il:*** *Azərbaycan Hökumətinin sərəncamı ilə ayrı-ayrı müəssisə, birlik və təşkilatların barter əməliyyatları aparmalarına icazə verildi*

***1-10 sentyabr 1989-cu il:*** *Bakıda "Azərbaycanın ixracı" adlı ilk Beynəlxalq kommersiya sərgisi keçirildi*

***11 dekabr 1989-cu il:*** *SSRİ Nairlər Sovetinin xarici ticarət üzərində dövlət inhisarının götürülməsini hüquqi cəhətdən əsaslandıran qərar qəbul etdi*

***1989-cu il:*** *Azərbaycan gömrük əməkdaşları yerli müəssisələrdə istehsal olunaraq 190 mln. manat həcmində ixrac mallarını xarici ölkələrə göndərilən və gömrük nəzarətindən keçirmişdi*

***1990-cı il:*** *Binə aeroportunda beynəlxalq şöbənin açılması və beynəlxalq aviareyslərin sayının artması ilə əlaqədar olaraq Hava limanı gömrük postu yaradıldı*

***16-20 oktyabr 1990-cı il:*** *Bakıda Azərbaycanla iqtisadi əlaqələr qurmaqda maraqlı olan 44 ölkənin 450 şirkətinin iştirakı ilə I Beynəlxalq Konqres keçirildi*

***1990-cı il:*** *Azərbaycan Respublika Gömrük İdarəsi ilk dəfə gömrük yığımları haqqında statistik məlumatı açıqladı (cəmi: 2.450.779 manat)*

***1991-ci il:*** *SSRİ tarixində sonuncu Gömrük Məcəlləsi və Gömrük Tarifinin qəbul edilməsi*

***15 iyun 1991-ci il:*** *SSRİ Prezidentinin fərmanı ilə DGNBİ-ni əvəz edən yeni mərkəzi orqanın - Gömrük Komitəsinin Əsasnaməsinin təsdiq edilməsi*

***6 sentyabr 1991-ci il:*** *Gömrük fəaliyyətinin bəzi növlərindən daxil olan vəsaitlərin istifadə olunması haqqında" SSRİ Nazirlər Kabinetinin 304 nömrəli qərarı*

***15 oktyabr 1991-ci il:*** *inin "Zona nəzarət inspeksiyalarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 370 nömrəli Fərmanı*

## Gömrük işi və xarici iqtisadi əlaqələrə aid sənədlər

**Sənəd 1**

### П Р А В И Л А

О вывозе товаров через таможни АССР

**I. В в о з**

*Ввоз из советских республик*

1. Вывозимые из советских республик в пределы АССР товары свободны с пошлинного обложения и таможенному досмотру не подлежат.

Примечание:

1) Заграничные почтовые посылки, если пошлина за них взыскивается таможнями соседних советских республик, досмотру и оплате пошлиною в таможнях АССР не подлежат.

2) Туркменские лодки с грузами продоволствия от пошлины не освобождаются.

*Вывоз из Персии*

2. Воз всей товаров из Персии свободен с оплатою привезенных товаров таможенною пощлиною в размере 10% их кличества натурой или денгами.

**II. В ы в о з**

*Вывоз товаров в советские республики*

1. Вывоз всех товаров из АССР в советские республики, за исключением продовольственных продуктов, упомянутых в номенклатуре Наркомпрода, валютных товаров, вины и спиртных напитков и технических материалов, на вывоз которых должны быть разрешения соответственных Наркоатов, объявляется свободным и освобождается от пошлинного обложения.

2. Продовольственные продукты по номенклатуре Наркомпрода, на вывоз коих необходимо разрешение этогокомиссариата, облагаются пошлиной. При вывозе продовольственных продуктов Центрсоюзу, Азсоюзу, военным кооперативам и внешторгам никаких льгот не представляется. Технические материалы по разрешения АСНХ выпускается без пошлины.

3. Вина и спиртные напитки выпускается лишь со взысканием акциза без таможенной пошлины.

4. Валютные товары вывозятся по разрешениям Таможенного Управления с отчислением по шкалам. Утвержденным 8 и 23/IV – 1922 года.

5. Не все вывозимые безпошлинные товары полаются отвозные заявления в таможню.

6. Каждому едущему пассажиру разрешается вывозить продовольственные продукты по установленным нормам без особого разрешения и безпошлинно.

*Вывоз товаров в Персию*

7. Вывоз всех товаров в Персию, за исключением скота, хлебных продуктов, нефтяных продуктов и технических материалов, относительно которых требуются разрешения соответствующих наркоматов, свободен, с оплатой вывозимых товаров 10% пошлиною деньгами и натурой.

Примечание: вывоз таких товаров отправителями подаются заявления в Таможню.

8. Каждому выезжающему в Персию пассажиру разрешается свободный и беспошлинный провоз: 10 ф. хлеба, 2 ф. сахара или конфеты, 1/4 ф. чая, по 1 ф. масла и сыра, 100 штук папиросы.

9. Вывоз домашних вещей, включая 1 ковер на семью, кроме мебели, больших зеркал, музыкальных инструментов и швейных машин, допускается беспрепятственно и без взыскания пошлины.

Примечание: 1) на вывоз мебели и др. предметов обстановки выдаются разрешения Начальником Таможенного Управления.

Примечание: 2) разрешения не вывоз музыкальных инструментов выдает Наркомпрос.

Примечание: 3) Мелкие духовые и струнные музыкальные инструменты пропускаются при лицах соответствующих профессий без особых разрешений и без пошлинно.

10. Каждому едущему пассажиру разрешается свободный и без пошлинный вывоз золотых изделий 18 золотников и серебряных до 1 фунта, при чем часы, кольца, портсигары, дамские украшения и пр. по одному предмету каждого именования, в эту норму не входят и пропускаются также без препрятственно.

*Примечания общие к разделам I и II*

Примечание: 1) Грузы специально воинские досмотру и оплате пошлиною не подлежат.

Примечание: 2) Государственные, кооперативные и военные организации и учреждения от уплаты пошлины за привозимые товары из Персии и вывозимые туда из пределов АССР товары не освобождаются, при чем в этом отношении не делается исключений для грузов Обвнешторга Закреспублик, Внешторга РСФСР, Каспмортранса, Центрсоюза и вообще всех российских губкоопераций.

Примечание: 3) Со всех привозимых товаров пошлина взимается натурой, разрешается взыскивать пошлину деньгами с промышленных

товаров, всяких фруктов свежих, пряностей, орехов, миндаля, фиников, калгана, меда и Мазандаранского сахара, уксуса, соли, мяса всякого, скота и птицы, яиц, масла животного, бочек деревянных порожних и ящиков, стекол ламповых, масла машинного, смолы всякой, дубильных веществ, хны, бумаги старой газетной и бумаги бывшей в употреблении, порожний и всякой тары.

Примечание: 4) С товаров привозимых и количествах менее десять единиц пошлина может взыскиваться деньгами.

**III. О таможенных обрядностях и сборах**

1. Существующий порядок досмотра товаров и занесения результатов особо установленные книги остается без изменения.

2. Порядок досмотра судов остается без изменений, при чем суда, пришедшие из портов советских республик и отбывающие в эти порты, признаются каботажными.

3. Обязательному клеймению в таможнях посредством наложения установить бандеролей подлежащие привозные табак, чай, спичек, папиросы и бумага.

